
Əbdül-Bəha
Bəzi
Suallara
Cavab

# *Bəzi Suallara Cavab*

# -  Əbdül-Bəha -

**BAKI -2005**

**Bəzi Suallara Cavab. -  Əbdül-Bəha.**
**Bakı, 2005. – 244 səh.**

**ISBN 9952-8049-3-8**

$\frac{0504000000-15}{N-098-2005}$ **Qrifli nəşr**

**© Azərbaycan Bəhailəri**
**Milli Ruhani Məhfili, 2004**

**The National Spiritual Assembly**
**of the Baha`is of Azerbaijan**

## NAŞİRİN 1981-Cİ İL NƏŞRİNƏ ÖN SÖZÜ

Biz Allahı tanıya bilərikmi? Allah varmı? Dini təlimlər elmi biliklə uyğunlaşdırıla bilərmi? İnsan olmaq nə deməkdir? Bunlar o suallardır ki, nə zamansa yalnız filosof və ilahiyyatçıların sahəsi idi. Lakin daha belə deyil. Bizim günlərimizdə onlar geniş kütlələrin maraq dairəsindədir. Bizim iztirab içində olan azmış sivilizasiyamız əsrlər boyu ona dayaq olmuş və onu qidalandırmış inam və dəyərlərdən qoparaq özünü məhvetmə uçurumunun qırağında titrətməkdədir. Bizlər, bu sivilizasiyanın nümayəndələri, ata-babalarımızın təbii hesab etdikləri həyatın məna və məqsədlərini itirmişik. Bu gün bu dəyərlər və mənalar haqqında olan suallar öz cavabını axtarır.

"*Bəzi Suallara Cavablar*" heyranedici, yığcam və məntiqi bir tərzdə təkcə Allah haqqında, elm və din arasındakı münasibətlər haqqında suallara cavab vermir, habelə dini həqiqət axtaran insanlar üçün sözsüz maraq kəsb edən geniş sualları cavablandırır. O həmçinin hər şeyi dərk etmək istəyən elmi düşüncəli insanlara ünvanlanmışdır. Sualları, hər bir ölkədə ardıcılı olan yeni və müstəqil dünya dininin – Bəhai Dininin Banisinin oğlu həzrət Əbdül-Bəha cavablandırır. Cavablar Onun 1904, 1905 və 1906-cı illərdə nahar zamanı silsilə söhbətləri əsasında tərtib edilmişdir. Beş bölmədən ibarət olan kitabın hər bölməsində həzrət Əbdül-Bəha metafiziki məsələlərdən tutmuş adi məsələlərə qədər onların suallarını izah edir. Bir tərəfdən O, fəlsəfi sferaya çıxaraq ölümsüzlük, tale, azad iradə və reinkarnasiyanın yanlış ehkamı kimi mövzuları mistik cığırlardan praktiki addımlarla keçərək müzakirə edir. Digər tərəfdən isə O, insan cəmiyyətinin təşkilatı məsələləri – tətil problemləri, cinayətkarlara yanaşma, kapitalla əmək arasında düzgün əlaqə kimi suallar haqqında adi dünyəvi məsələlərə ruhani məna verərək danışır.

*"Bəzi Suallara Cavablar"*ın giriş bölməsində həzrət Əbdül-Bəha Allahın mövcudluğunu və İlahi Mürəbbilərin və ya Allahın Zühurlarının zəruriliyini sübut etmək üçün həm məntiqi, həm də ənənəvi sübutlardan istifadə edir. O, Həzrət İbrahim, Həzrət Musa, Həzrət İsa, Həzrət Məhəmməd, Həzrət Bab və Həzrət Bəhaullah da daxil olmaqla, Onların hər birinə Allahın bəşəriyyəti tərbiyə etmək üçün həyata keçirilən planının ardıcıl həlqələri kimi baxaraq, bu İlahi Müəllimlərin bəzilərinin həyatına və nailiyyətlərinə bir neçə söhbət həsr edir. Beləcə O, din tarixinə və eləcə də dinin özünün təbiətinə yeni işıq salır. həzrət Əbdül-Bəha kitabın üçüncü bölməsində Allahın adından danışmaq üçün seçilmiş bu nadir Varlıqların xüsusiyyətlərini, məqamlarını və qüdrətini geniş təfsilatı ilə işıqlandırmaqla, Allahın Zühurları mövzusuna yenidən qayıdır.

*"Bəzi Suallara Cavab"*ın ikinci bölməsində həzrət Əbdül-Bəha bir neçə mürəkkəb Xristian mövzuları barədə Bəhai nöqteyi-nəzərini təqdim edir. O, Məsihin "qayıdışı" və ya İkinci Gəlişi kimi mürəkkəb məsələyə xüsusi diqqət ayırır. O, həmçinin, Məsihin doğulmasına, dirilməyə, vəftiz olunmağa, Priçastiyanın mənasına, Məsihin möcüzələrinə və Üçlüyə də elə bir tərzdə nəzər salır ki, bunlar ənənəvi Xristian ehkamları çərçivəsində tərbiyə almış oxucuya mütləq çox heyrətamiz dərəcədə yeni və ibrətamiz görünəcəkdir.

Kitabın dördüncü bölməsində həzrət Əbdül-Bəha insanın mənşəyi, qabiliyyətləri və məqamı haqqında danışır. Elm və din əsasında harmoniya və uyğunluğun olması haqqında Bəhai baxışı Onun insanın bir növ kimi mənşəyi və inkişafı barədə açıqlamalarında canlı bir şəkildə ortaya çıxır. Kitabın beşinci və son bölməsi bir sıra müxtəlif məsələlərə, o cümlədən, insan biliyinin əsaslarına və panteizm təliminə həsr olunmuşdur.

*"Bəzi Suallara Cavablar"* üslubuna və quruluşuna görə həzrət Əbdül-Bəhanın digər əsərlərindən fərqlənir. Onun üç bölmədən ibarət olan *"Əhd və Vəsiyyət"* kitabında Bəhai Dininin İnzibatı Nəzmi üçün səlahiyyətlər müəyyənləşdirilir və bu sistemin tamlığı və birliyi təmin edilir. *"İlahi Sivilizasiyanın Sirri"* müasir sivilizasiyanın ümumi vəziyyətindən bəhs edən bir traktatdır. *"Səyyahın hekayəti"* Babi və Bəhai Dinlərinin erkən tarixinin xronologiyasını təqdim edir. *"Sədaqətli Möminin xatirələri"* Həzrət Bəhaullaha olan məhəbbətlə bir-birinə bağlanmış ilk yetmiş doqquz bəhai haqqında Əbdül-Bəhanın xatirələrindən ibarətdir. Nahar zamanı Ona verilən suallar əsasında formalaşmış *"Bəzi Suallara Cavab"* kitabı yeganə kitabdır ki, oxucuya oçerklər şəklində müxtəlif mövzular təqdim edir. Elə mövzular ki, onların hər birini ayrıca mövzu kimi, yaxud da söhbətlərin məcmusu olan bütöv bir mövzunun bir hissəsi kimi öyrənmək və üzərində düşünmək olar. Söhbətlərin çoxu qısadır. Onların hamısında söhbətin səciyyəvi xüsusiyyətləri vardır. Hamısında çətin mövzuları aydınlaşdırmaq üçün aydın və konkret misallardan istifadə olunmuşdur. Söhbətlərin ciddiliyi yumorla yumşaldılır. Söhbət hər dəfə dəyişəndə Bəhai təliminin əsasları və incəlikləri "parlaq bir sadəliklə", "inandırıcı və qüvvətli bir şəkildə" işıqlandırılır.

Bəhai Dininin əsası Həzrət Bəhaullah, "Allahın Cəlalı" kimi tanınan Mirzə Hüseyn Əli (1817-1892) tərəfindən qoyulmuşdur. Bəhai Dininin mənşəyi Bab və ya "Qapı" kimi tanınan Seyid Əli Məhəmməd (1819-1850) tərəfindən 1844-cü ildə İranda yaradılmış Babi Dini ilə yaxından bağlıdır. Bab elan etmişdi ki, O, təkcə müstəqil bir dinin banisi deyil, həm də bütün bəşəriyyət üçün Sülh Erasını açacaq yeni və daha böyük bir Allah Elçisinin müjdəçisidir. 1863-cü ildə Həzrət Bəhaullah bəyan etdi ki, O, Həzrət Babın müjdə verdiyi Kəsdir.

Həzrət Bəhaullahın təlimləri tez bir zamanda Onu İran hökuməti və müsəlman din xadimləri ilə münaqişəyə gətirdi və nəticədə O, Osmanlı İmperiyası ərazisinə sürgün olundu. 1868-ci ildə O, məhbus kimi, Müqəddəs Torpaqdakı şəhər-qala Əkkaya sürgün edildi və həmin şəhərin ətrafında 1892-ci ildə dünyasını dəyişdi. Öz vəsiyyətində O, böyük oğlu həzrət Əbdül-Bəhanı (1844-1921) Bəhai İcmasını idarə etmək və Bəhai Yazılarını şərh etmək üçün təyin etdi. Həzrət Əbdül-Bəha da öz növbəsində Öz böyük nəvəsi Şövqi Əfəndini (1897-1957) Öz davamçısı kimi, Əmrin Vəlisi və Bəhai təlimlərinin səlahiyyətli şərhçisi təyin etdi. Bu gün dünya Bəhai İcmasının işləri Bəhai Dininin seçilən ali Şurası – Ümumdünya Ədalət Evi tərəfindən idarə olunur.

Bəhai Dininin əsas prinsipləri Allahın birliyi, dinlərin birliyi və bəşəriyyətin birliyidir. Həzrət Bəhaullahın elan etdiyi fundamental prinsiplər ondan ibarətdir ki, dini həqiqətlər mütləq deyil, nisbidir; İlahi Vəhy

kəsilməzdir və tərəqqi edən bir prosesdir; dünyanın bütün böyük dinləri öz mənşəyi etibarilə ilahidir; onların təlimləri insan cəmiyyətinin ruhani təkamülündə ardıcıl mərhələləri təşkil edir. Həzrət Bəhaullah öyrədir ki, dinin məqsədi razılıq və birlik yaratmaqdır və din cəmiyyətdə nizamlı bir tərəqqiyə və sülhə nail olunmasında əsas amildir. Ona görə də Bəhai Yazıları sülh və dünya nizamının yaradılması üçün zəruri olan təsisatların konturlarını da vermişdir. Buraya özünün icraedici, qanunverici və məhkəmə qolları ilə birgə Dünya Federasiyası və ya Dünya Dövləti; Beynəlxalq köməkçi dil; Dünya iqtisadiyyatı; Dünya interkommunikasiya mexanizmi; ümumi valyuta, çəki və ölçü vahidləri sistemi daxildir.

Bəhai Yazıları həmçinin bəhailərə (Həzrət Bəhaullahın davamçılarına) insan həyatının əsas məqsədini – Allahı tanımaq və Ona ibadət etmək və "hər zaman inkişafda olan sivilizasiyanı irəlilətmək" - məqsədini yerinə yetirmək üçün xüsusi rəhbərlik də verir və eyni zamanda onlara bəşəriyyətin birliyini, dünya sülhünü və dünya qaydalarını qurmaq üçün çalışmalarını tövsiyyə edir. Məsələn, Bəhai Yazıları gözəl xasiyyət tərbiyə etməyə, dürüstlük, etibarlılıq, mərhəmət və ədalət kimi ruhani keyfiyyətləri inkişaf etdirməyə çağırır. Bunlar hamısı dua, meditasiya və bəşəriyyətə xidmət ruhunda görülmüş işlə əldə edilir və bunların hamısı, bəhailərin nəzərində, Allaha ibadətin ifadə formalarıdır. Bəşəriyyətin üzvi birliyi prinsipini elan etməklə, Bəhai Yazıları irqi, dini, sinfi, milli və cinsi təəssübkeşlikləri aradan qaldırmağa səsləyir. Bəhai Yazıları həqiqətin azad şəkildə axtarılmasına və həqiqətin iki üzü kimi elm və dinin harmoniyası prinsiplərinin başa düşülməsinə əsaslanan həyatın maddi və ruhani cəhətləri arasındakı tarazlığın əldə edilməsinə və bəşəriyyətin tərəqqisində əngəl olan bütün təəssübkeşlik formalarının ardıcıl şəkildə aradan qaldırılmasına çağırır. Bu yazılar hər bir fərdin nadir qabiliyyət və istedadlarının bilik qazanmaqla və məharətlər əldə etməklə inkişaf etdirilməsini təşviq edir, çünki peşəkar fəaliyyətlə məşğul olmaq yalnız şəxsi məmnunluq üçün deyil, həm də bütövlükdə cəmiyyətin çiçəklənməsi üçün lazımdır. Bəhai Yazıları həm kişilərin, həm də qadınların seçki və idarəçilikdə, hər iki cinsə bərabər fürsətlər, hüquqlar və imtiyazlar verilməsi haqda Bəhai prinsipinə uyğun olan qərar qəbuletmə prosesləri də daxil olmaqla, cəmiyyətin bütün sahələrində tam iştirakına çağırır. Bəhai Yazıları ümumi icbari təhsil prinsipinin həyata keçirilməsinə çağırır.

*"Bəzi Suallara Cavab"* 1908-ci ildə ilk dəfə nəşr olunandan bəri bir neçə dəfə təkrar nəşr edilmişdir. Bu, çoxalmaqda olan Bəhai ədəbiyyatı içərisində ən populyar və ən çox axtarılan bir kitab olmaqda davam edir. Ən vacibi isə odur ki, bu kitab həzrət Əbdül-Bəhanın Özü tərəfindən təsdiq olunmuş çox az nitqlərindən biri olmaqla müqəddəs Bəhai ədəbiyyatı arasında özünün əhəmiyyətli yerini tutmuşdur. Bu yeni nəşr də Bəhai təlimlərini öyrənənlər və axtaran qəlblər üçün son dərəcə qiymətli bir mənbəni bir daha onların istifadəsinə təqdim edir.

## NAŞİRİN 1964-CÜ İL NƏŞRİNƏ ÖN SÖZÜ

*Laura Klifford Barni – Həzrət Əbdül-Bəhadan bu cavabları alan həmsöhbət "Bəzi Suallara Cavablar" kitabı və onun necə yazılması ilə əlaqədar zaman-zaman baş qaldıran suallarla bağlı naşirlərə aşağıdakı məlumatları vermişdir:*

Həzrət Əbdül-Bəha və Laura Klifford Barni arasında olan söhbətlər o çox çətin illərə (1904-1906-cı illər) təsadüf edir – o zaman ki, O, Türkiyə hökuməti tərəfindən Əkka şəhərində məhbus idi və Ona ancaq bir neçə ziyarətçi qəbul etməyə icazə verilirdi. O zaman Onu daim daha uzaq səhraya sürgün olunub həbsə alınmaq təhlükəsi gözləyirdi.

Həmsöhbət kimi, Xanım Barni Həzrət Əbdül-Bəhanın kürəkənlərindən birinin və ya o zaman Onun katibliyindən olan üç görkəmli İranlı katiblərdən birinin həmin söhbətlər zamanı hüzurda olmasını təşkil etmişdi ki, Ondan soruşulan suallara cavabların dəqiq yazılmasını təmin etsin. Həzrət Əbdül-Bəha sonralar əl yazmaları oxumuş, bəzi sözləri və ya sətirləri Özünün qırmızı qələmi ilə dəyişdirmişdir. Sonralar bu yazılar Xanım Barni tərəfindən ingilis dilinə tərcümə olunmuşdur. Orijinal Fars mətni bu gün Hayfadakı Bəhai arxivində saxlanılır. Bu əsər haqqında əlavə şərh Həzrət Şövqi Əfəndinin "Allah yaxınlıqdan keçir" kitabının 107, 260, 268, 305 və 383–cü səhifələrində (ingilis dilində) verilmişdir.

Həzrət Əbdül-Bəha yalnız 1908-ci ildə Osmanlı İmperiyasında baş verən inqilabdan və Sultanın devrilməsindən sonra birdəfəlik azad oldu. Bir neçə ildən sonra, O Misirə, Avropaya və Şimali Amerikaya səfərlər etdi və bütün din və siniflərin nümayəndələri ilə ünsiyyət etdi, görkəmli şəxsiyyətlərlə görüşdü və məbədlərdə, universitetlərdə, dini mərkəz və nümayəndəliklərdə, toplantılarda, habelə, dostyana ev yığıncaqlarında çıxış etdi.

## İLK NƏŞRƏ ÖN SÖZ

"Mən yorğun olduğum bir zaman sizə vaxt ayırdım" – bunlar həzrət Əbdül-Bəhanın mənim suallarımdan birinə cavab verdikdən sonra stol arxasından qalxarkən dediyi sözlərdir.

Başqa günlər də belə davam edirdi; ağır iş saatları arasında O, yorğunluğunu başqa bir fəaliyyətə keçməklə çıxarardı; ancaq nadir hallarda O, uzun müddət danışardı; ancaq çox vaxt, baxmayaraq ki, mövzunun izahı uzun zaman tələb edirdi, bir neçə dəqiqədən sonra O, məni tərk etməli olardı; yenə də, günlər və hətta həftələr keçərdi və bu vaxtlar ərzində Onun imkanı olmazdı ki, mənə izahatlar versin. Lakin mən həmişə səbr edirdim, çünki mənim qarşımda böyük bir nümunə vardı – Onun şəxsi həyatının nümunəsi.

Mənim Əkkaya etdiyim bir neçə ziyarətlər ərzində bu cavablar Fars dilində yazılmışdı və onlar nəşr edilmək üçün deyil, sadəcə olaraq mənim gələcəkdə öyrənməyim məqsədilə yazılırdı. Əvvəlcə həzrət Əbdül-Bəha Öz

nitqini şifahi tərcümənin imkanlarına uyğunlaşdırırdı; sonra isə, mən Fars dilini bir az öyrəndikdən sonra mənim məhdud söz ehtiyatımı nəzərə alırdı. Obraz və frazaların təkrarlanması bununla izah olunur, əslində isə həzrət Əbdül-Bəha kimi heç kəs tutarlı ifadələr işlətmək məharətinə malik ola bilməz. Öyrətdiyi bu dərslərdə O, natiq və ya şair kimi deyil, Özünü şagirdlərinə uyğunlaşdıran müəllim kimi aparırdı.

Bu kitab müraciətlərinə görə ümumbəşəri olan və hər sual soruşana onun inkişaf səviyyəsinə və ehtiyacına uyğun cavab verən Bəhai Dininin ancaq müəyyən cəhətlərini təqdim edir.

Mənimlə də, izahatlar mənim Əmr haqqında elementar biliyimə uyğun olaraq sadələşdirilirdi, ona görə də bunlar heç cür tamamlanmış və bitmiş hesab oluna bilməz, baxmayaraq ki, kitabın mündəricatı belə bir fikrə əsas verə bilər – mündəricat sadəcə olaraq baxılan mövzuları göstərmək üçün əlavə edilmişdir. Lakin inanıram ki, mənim üçün bu qədər faydalı olan başqaları üçün də faydalı olacaq, çünki bütün insanlar, onların arasındakı fərqlərə baxmayaraq, həqiqəti axtarmaqda birdirlər; və buna görə də mən Həzrət Əbdül-Bəhadan bu söhbətlərin nəşr edilməsinə icazə verməyi xahiş etdim.

Əslində bu söhbətlər mövzular üzrə xüsusi bir qaydada aparılmamışdı, lakin indi oxucunun rahatlığı üçün yüngül bir şəkildə olsa da, təsnif edilmişdir. Hətta bəzən ingilis dilinin əksinə gedərək Fars dilində olan mətnə yaxınlığa səylə riayət edilmişdir; tərcümədə ancaq bəzi dəyişikliklərə yol verilmişdir, özü də yalnız o vaxt ki, hərfi ifadəetmə çox mürəkkəb və ya anlaşılmaz görünürdü; verilən mənanı daha da aydın etmək üçün əlavə edilən sözlər xüsusi olaraq göstərilməmiş, fikri çox tez-tez dağıdan texniki və izahedici işarələrdən qaçılmışdır. Həmçinin orta səviyyəli oxucunu çaşdıra biləcək çoxlu Fars və Ərəb adları elmdə qəbul edilmiş sistemə riayət olunmadan ən sadə formada yazılmışdır.

***Laura Klifford Barni***

# BİRİNCİ HİSSƏ

# BƏŞƏRİYYƏTİN TƏKAMÜLÜNƏ PEYĞƏMBƏRLƏRİN TƏSİRİ

# 1

## TƏBİƏT ÜMUMİ QANUNLA İDARƏ OLUNUR

Təbiət elə bir hal və ya elə bir gerçəklikdir ki, zahirən bütün şeylərin həyatı və ölümündən və ya başqa sözlə, onların birləşməsi və parçalanmasından ibarətdir.

Bu Təbiət mütləq qaydalara, dəqiq müəyyən olunmuş qanunlara, mükəmməl bir nizama və yetkin plana tabedir ki, bunlardan heç vaxt kənara çıxmır. Belə ki, doğrudan da,  əgər, görünməz ən kiçik atomdan başlayaraq mövcudat dünyasına günəşə, başqa böyük ulduzlara və ya işıq saçan sferalara qədər hamısına  istənilən cəhətdən, onların quruluşuna, tərkibinə, forma və ya hərəkətlərinə diqqətlə və iti gözlə baxsanız, görəcəksiniz ki, onların hamısı ən yüksək dərəcədə bir mütəşəkkilliyə və bir qanuna tabedir ki, ondan heç vaxt kənara çıxmazlar.

Lakin siz Təbiətin özünə nəzər salsanız, görərsiniz ki, onun nə şüuru, nə də iradəsi vardır. Məsələn, alovun təbiəti yanmaqdır; o şüursuz və iradəsiz olaraq yanır. Suyun təbiəti axıcılıqdır; o iradə və şüur olmadan axır. Günəşin təbiəti parlamaqdır; o iradəsiz və şüursuz olaraq şəfəq saçır. Buxarın təbiəti buxarlanmaqdır; o iradə və şüursuz olaraq buxarlanır. Beləliklə aydın olur ki, bütün şeylərin təbii hərəkəti məcburi hərəkətlərdir; heyvanların və hər şeydən yüksək olan insanın hərəkəti istisna olmaqla, heç bir iradi hərəkət mövcud deyil. İnsan Təbiətə müqavimət göstərmək və onun əksinə getməyə qabildir, çünki o, şeylərin quruluşunu kəşf edir və bunun vasitəsilə də Təbiətin qüvvələrinə hakimlik edir; insanın etdiyi bütün ixtiralar onun şeylərin quruluşunu açmağından irəli gəlir. Məsələn, insan Şərqlə Qərb arasında əlaqə yaradan teleqrafı ixtira etmişdir. Onda bu aydındır ki, insan Təbiətin üzərində hakimdir.

İndi, siz mövcudatda belə bir nizam, mütəşəkkillik və qanunlar görəndə, deyə bilərsinizmi ki, bunların hamısı Təbiətin yaratdığıdır, halbuki, Təbiətin nə şüuru var, nə də qavrama qabiliyyəti? Əgər yox deyirsinizsə, onda aydın olur ki, şüuru və qavrama qabiliyyəti olmayan bu Təbiət, Təbiət aləminin Hakimi Olan Qüdrətli Allahın əlindədir; O nə istəyirsə, onu da Təbiətdə təzahür etdirir.

Mövcudat dünyasında meydana çıxan və Təbiətin zəruri təzahürlərindən biri də insan həyatıdır. Bu nöqteyi-nəzərdən baxdıqda, insan budaq kimidir; təbiət isə kökdür. Onda budaqda olan iradə, şüur və kamilliklərdən kök necə məhrum ola bilər?

Cavab olaraq bunu demək olar ki, Təbiət öz mahiyyətində Əbədi Vahid Qüdrətli olan Allahın qüdrət ovcundadır: O Təbiəti dəqiq qaydalar və qanunlar çərçivəsində saxlayır və onu idarə edir.[1]

[1] Allah haqqında "İlahilik ancaq İlahi Zühurlar vasitəsilə dərk oluna bilər. "İnsanın Allahı dərk etməsi" mövzularına istinad edin. Oxucu orada görəcək ki, Bəhai Dinində Allah haqqında antropomorfik anlayış yoxdur və əgər ənənəvi terminologiyadan istifadə olunursa, onda mütləq onun rəmzi mənası izah olunur.

## 2

# ALLAHIN MÖVCUDLUĞUNUN DƏLİL VƏ SÜBUTLARI

Allahın mövcudluğunun dəlil və sübutlarından biri o faktdır ki, insan özü-özünü yaratmamışdır: xeyr, onun yaradıcısı və xaliqi özü deyil, başqasıdır.

Bu yəqindir və mübahisəsizdir ki, insanı yaradan insan kimi deyil, çünki qüdrətsiz məxluq başqa bir varlıq yarada bilməz. Yaradıcı, xaliq bütün kamilliklərə malik olmalıdır ki, yarada bilsin.

Məxluq kamil, xaliq isə qeyri-kamil ola bilərmi? Şəkil sənət incisi, rəssam isə öz sənətində qeyri-kamil ola bilərmi? Zira bu onun sənəti və onun yaratdığıdır. Bundan əlavə, şəkil rəssam kimi ola bilməz. Əks halda rəsm özü-özünü yaradardı. Şəkil nə qədər kamil olsa da, rəssamla müqayisədə o, qeyri-kamildir.

Bu asılılıq dünyası qeyri-kamilliklər mənbəyidir: Allah isə kamilliklərin mənbəyidir. Asılılıqlar dünyasının qeyri-kamillikləri öz-özlüyündə Allahın kamilliyinin dəlilidir.

Məsələn, insana nəzər saldıqda, görürsən ki, o zəifdir. Məxluqun bu zəifliyi Əbədi Qüdrətli Tək Olanın qüvvətinin sübutudur, çünki əgər qüvvət olmasaydı, zəiflik təsəvvür olunmazdı. Onda məxluqun zəifliyi Allahın qüvvətinin sübutudur; çünki əgər qüvvət olmasaydı, zəiflik də ola bilməzdi. Belə ki, bu zəiflikdən aydın olur ki, dünyada qüvvət vardır. Sonra, asılılıqlar dünyasında yoxsulluq var; deməli, zəruri olaraq zənginlik vardır, çünki dünyada yoxsulluq meydana çıxmışdır. Asılılıqlar dünyasında cahillik vardır; onda zəruri olaraq bilik vardır, çünki cahillik müşahidə olunur; zira əgər bilik olmasaydı, onda cahillik də olmazdı. Cahillik biliyin olmamasıdır və əgər mövcudluq da olmasaydı, qeyri-mövcudluq da olmazdı.

Şübhəsiz ki, bu asılılıqlar dünyası bütövlükdə elə qanun və qaydalara tabedir ki, onlardan əsla kənara çıxa bilməz; hətta insan belə ölümə, yuxuya və digər şəraitlərə məhkumdur, yəni insan da bəzi hallarda idarə olunur və bu idarə olunma halı idarə edənin mövcudluğunu zəruri edir. Çünki asılı varlıqların səciyyəvi cəhəti onların asılı olmasıdır və bu asılılıq mahiyyətcə zərurətdir, ona görə də, bir müstəqil varlıq olmalıdır ki, onun müstəqilliyi onun mahiyyəti olsun.

Eynilə də xəstə olan insanın halından başa düşülür ki, bir kimsə vardır ki, sağlamdır; çünki əgər sağlamlıq olmasaydı, xəstəlik halını müəyyən etmək mümkün olmazdı.

Ona görə də aydın olur ki, Əbədi Qüdrətli Tək Olan vardır ki, bütün kamilliklərə malikdir, çünki O, bütün kamilliklərin sahibi olmasaydı, onda O da Öz yaratdıqları kimi olardı.

Bütün mövcudat dünyası boyunca bu belədir; kiçicik yaradılmış bir şey sübut edir ki, yaradan vardır. Məsələn, bu çörək tikəsi təsdiq edir ki, onu bişirən bir kəs vardır.

Həmd olsun Allaha! Kiçik bir şeydə baş verən cüzi bir dəyişiklik yaradanın mövcudluğunu sübut edir: belə olan halda, necə ola bilər ki, bu böyük və sonsuz kainat öz-özünə yaransın və materiya və elementlərin inkişafı nəticəsində meydana gəlsin? Belə bir fərziyyə necə də yanlışdır!

Bu aşkar sübutlar zəif insanlar üçün gətirilir; lakin əgər bəsirət gözü açılsa, yüz min açıq-aşkar dəlillər görünər. Beləlilklə, insan özündə ruhu hiss edəndə, onun varlığını sübut etməyə ehtiyac olmur; lakin o kəslər ki, ruhun kəramətindən məhrumdurlar, onda zahiri dəlillər gətirmək lazımdır.

## 3

## MÜRƏBBİYƏ EHTİYAC

Biz mövcudat aləminə nəzər saldıqda görürük ki, mineral, bitki, heyvan və insan aləmlərinin hamısının mürəbbiyə ehtiyacı vardır.

Əgər torpaq becərilməsə, o kolluğa çevrilir və faydasız yabanı bitkilərlə örtülür; lakin əkinçi gəlib bu torpağı əkib-becərdikdə o məhsul verir və canlı varlıqlar bununla qidalanır. Ona görə də bu aydındır ki, torpaq əkinçi tərəfindən becərilməlidir. Ağaclara nəzər salın: əgər onlar baxımsız qalsa, bəhrəsiz olacaq, meyvəsizsə onların faydası yoxdur; amma əgər onlar bağbanın qayğısını görərsə, həmin bu bəhrəsiz ağaclar meyvəli ağaclara çevrilər. Acı meyvələr verən ağaclar becərilməklə, gübrələnməklə və peyvənd edilməklə şirin meyvələr yetirməyə başlayar. Bütün bunlar ağla batan, məntiqi sübutlardır; bu dövrdə dünyanın insanlarına ağlabatan dəlillər lazımdır.

Bu məsələ heyvanlara münasibətdə də doğrudur; fikir verin, heyvan əhlilləşdirildikdə o ev heyvanı olur, insan isə, əgər o təlim-tərbiyə görməsə, vəhşiləşir və hətta, əgər o, təbiət qanunlarının ixtiyarına buraxılsa, heyvandan da aşağı səviyyəyə düşür, lakin o tərbiyə aldıqda mələyə çevrilir. Belə ki, heyvanların çoxu öz cinsindən olanları yemir, amma insanlar, Sudanda, Afrikanın mərkəzi zonalarında bir-birini öldürür və yeyirlər.

İndi düşünün ki, məhz maariflənmə bütün dünyanı  insana tabe etdirir; məhz maariflənmə xarüqələr yaradır; məhz maariflənmə möhtəşəm elm və incəsənəti yayır; məhz maariflənmə yeni kəşfləri və təsisatları üzə çıxarır. Əgər maariflənmə olmasaydı, rahatlıq, mədəniyyət və ya insanpərvərlik kimi şeylər olmazdı. Əgər insan yalqız çölə buraxılmış olsa və o başqa bir insan görməsə, o şübhəsiz, adi bir heyvana çevrilər; beləliklə aydındır ki, onun mürəbbiyə ehtiyacı vardır.

Təlim-tərbiyə isə üç cürdür: maddi, humanitar və ruhani. Maddi tərbiyə bədənin inkişaf etdirilməsi və kamilləşdirilməsidir. O, qidalanma, maddi rahatlıq və rifah vasitəsi ilə əldə edilir. Bu tərbiyə insan və heyvan üçün ümumidir.

Humanitar tərbiyə məhz insana xas olan və onu heyvandan fərqləndirən fəaliyyətləri, mədəniyyət və tərəqqini, yəni hökumət, idarəçilik, xeyriyyə işləri, ticarət, incəsənət və sənət, elmlər, böyük ixtiralar və kəşflər, ictimai təsisatları nəzərdə tutur.

Ruhani tərbiyə isə Allahın Səltənətindən qaynaqlanır: bu ilahi məziyyətlərin əldə edilməsindən ibarətdir və bu həqiqi maariflənmədir; çünki insan bu məqamda ilahi fəzilətlərin mərkəzi, “Biz insanı Öz surətimizdə və Öz oxşarımızda yaradarıq”[1] kəlamının mücəssəməsi olur. İnsan aləminin məqsədi məhz budur.

İndi bizə belə bir mürəbbi lazımdır ki, o eyni zamanda həm maddi, həm humanitar və həm də ruhani tərbiyəçi olsun və onun nüfuzu bütün hallarda təsirli olsun. Beləliklə, əgər kimsə desə ki, “mən kamil idraka və ağıla malikəm və mənim belə bir mürəbbiyə ehtiyacım yoxdur”, o açıq və aşkar olan bir şeyi inkar etmiş olardı, sanki uşaq deyir ki, “Mənə təlim-tərbiyə lazım deyil; mən öz ağlıma və dərrakəmə görə hərəkət edəcəyəm və bu cür mən varlığın kamilliyinə yetişəcəyəm”; və yaxud sanki kor deyir, “Mənim işığa ehtiyacım yoxdur, çünki çoxlu kor adamlar var ki, çətinlik çəkmədən yaşayırlar”.

Beləliklə, aydın və aşkardır ki, insana mürəbbi lazımdır və bu mürəbbi sözsüz və şübhəsiz hər cəhətdən kamil olmalıdır və bütün insanlardan ucada dayanmalıdır. Əks halda, əgər o da qalan bütün insanlar kimi olsaydı, onda o, onların mürəbbisi ola bilməzdi, xüsusən də ona görə ki, o, eyni zamanda həm onların maddi və humanitar, həm də ruhani mürəbbisi olmalıdır, bu o deməkdir ki, o, insanlara maddi məsələləri təşkil etməyi və yerinə yetirməyi öyrətməli, əməkdaşlıq və qarşılıqlı yardım yaratmaq üçün sosial qaydalar müəyyən etməlidir ki, maddi işlər istənilən şəraitdə təşkil oluna və nizamlana bilsin. Eynilə də, o insanın humanitar maariflənməsini həyata keçirməlidir - bu o deməkdir ki, o, əql və zəkanı elə tərbiyələndirməlidir ki, o, tam inkişafa çatsın. Belə ki, biliklər və elm artsın, şeylərin həqiqi gerçəkliyi, varlıqların sirləri və aləmlərin xüsusiyyətləri aşkar edilsin ki, idarəetmə üsulları, ixtiralar və ictimai təsisatlar günbəgün mükəmməlləşə bilsin; görünən və duyğularla qavranılan şeylərdən hissiyyat vasitəsi ilə əldə edilmiş məlumat ilə məntiqi nəticələr çıxarılsın.

O, habelə, elə bir ruhani təlim verməlidir ki, əql və idrak metafiziki aləmə nüfuz edə bilsin, Müqəddəs Ruhun paklandırıcı nəsimindən bəhrələnə bilsin və Ali Mələkutun Əhli ilə əlaqəyə girə bilsin. O, insanın mahiyyətinə elə təsir etməlidir ki, o, ilahi təzahürlərin mərkəzi olsun, elə bir dərəcədə ki, Allahın keyfiyyətləri və adları insanın mahiyyətinin güzgüsündə parlasın və “Biz insanı Öz surətimizdə və oxşarımızda yaradarıq”[2] müqəddəs ayəsi gerçəkləşsin.

Bu aydındır ki, insan qüvvəsi belə bir böyük vəzifəni yerinə yetirməyə qadir deyil və o da aydındır ki, yalnız ağıl belə möhtəşəm bir missiyanın məsuliyyətini öz üzərinə götürə bilməz. Tək bir insan köməksiz və yardım almadan belə bir uca və şərəfli binanın bünövrəsini necə qoya bilər? O ruhani və ilahi qüvvənin köməyinə arxalanmalıdır ki, bu missiyanı üzərinə götürə bilsin. Tək Müqəddəs Ruh insan aləminə həyat verir, yer kürəsinin simasını dəyişir, dərketməni inkişaf elətdirir, ruhları dirildir, yeni həyatın əsasını qoyur,

[1] Yaradılış 1:26
[2] Yaradılış 1:26

yeni müəssisələr qurur, dünyanı nizama salır, millətləri və dinləri vahid bir bayrağın altına gətirir, insanı qüsur və qeyri-kamillik dünyasından azad edir və onu təbii və qazanılmış kamilliklərə can atmağa ruhlandırır. Şübhəsiz, ilahi qüvvədən başqa heç nə belə böyük bir işi yerinə yetirə bilməzdi. Biz buna insafla baxmalıyıq, çünki bu bir ədalət məsələsidir.

Bütün hökumətlərin və dünyanın bütün insanlarının onların bütün qüdrəti və orduları ilə elan edə və yaya bilmədikləri Əmri Müqəddəs Ruh təkcə, kömək və yardım almadan irəli apara bilər! Bunu etməyə insanın gücü çatarmı? Xeyr, Allaha and olsun! Məsələn, Həzrət İsa, yalqız və təkbaşına, sülh və ədalət bayrağını yüksəltdi, elə bir iş ki, bütün qalibiyyətli hökumətlər onların bütün qoşunları ilə onu yerinə yetirməyə qadir deyillər. Bu qədər çoxlu və müxtəlif imperiyaların və xalqların taleyinə baxın: Roma İmperiyası, Fransa, Almaniya, Rusiya, İngiltərə və s. – onların hamısı bir çadırın altına gətirildi – yəni İsanın gəlişi bütün bu müxtəlif millətlərin arasında birlik yaratdı, onlardan bəziləri Xristianlığın təsiri altında elə birləşdilər ki, hətta öz həyatlarını və mülklərini bir-biri üçün qurban verdilər. Xristianlığın müdafiəçisi imperator Konstantinin dövründən sonra onların arasında parçalanma baş verdi. Məsələ burasındadır ki, İsa bu millətləri birləşdirdi, lakin bir müddət sonra hökumətlər onların arasında ixtilafa səbəb oldular. Mən onu demək istəyirəm ki, Həzrət İsa elə bir Əmri qurdu ki, yer üzünün bütün padşahlarının onu qurmağa gücü yetməz. O müxtəlif dinləri birləşdirdi və qədim adətləri dəyişdirdi. Baxın, Romalılar, Yunanlar, Suriyalılar, Misirlilər, Finikiyalılar, Yəhudilər və Avropanın digər xalqları arasında necə böyük fərqlər vardı. Məsih bu fərqləri aradan götürdü və bu icmalar arasında məhəbbətə səbəb oldu. Baxmayaraq ki, bir müddətdən sonra hökumətlər bu ittifaqı dağıtdılar, amma Həzrət İsa Öz vəzifəsini yerinə yetirdi.

Ona görə də, Ümumdünya Mürəbbisi eyni zamanda həm maddi, həm humanitar və həm də ruhani mürəbbi olmalıdır və O, qeyri-adi qüdrətə malik olmalıdır ki, İlahi Müəllim məqamını tuta bilsin. Əgər O, belə bir müqəddəs qüvvə nümayiş elətdirmirsə, tərbiyə edə bilməyəcək, çünki əgər Onun Özü qeyri-kamildirsə, O, necə kamil tərbiyə verə bilər? Əgər O cahildirsə, O, başqalarına necə hikmət öyrədər? Əgər O ədalətsizdirsə, başqalarını O, necə ədalətli edə bilər? Əgər O yer əhlidirsə, başqalarını O, necə səmavi edə bilər?

İndi biz ədalətlə mühakimə etməliyik: Zühur etmiş bu İlahi Zühurlar bütün bu xüsusiyyətlərə malik idilər ya yox?[1] Əgər Onlar bu xüsusiyyətlərə və kamilliklərə malik deyildilərsə, onda Onlar həqiqi Mürəbbi deyilmişlər.

Ona görə də, bizim vəsifəmiz bu olmalıdır ki, düşünən insanlara məntiqi dəlillərlə Həzrət Musanın, İsanın və digər ilahi Zühurların peyğəmbərliklərini əsaslandıraq. Və bizim gətirdiyimiz təsdiq və sübutlar ənənələrə deyil, məntiqi dəlillərə əsaslanır.

İndi məntiqi dəlillərlə sübut olundu ki, mövcudat aləminin mürəbbiyə çox böyük ehtiyacı vardır və onun tərbiyəsi ilahi qüvvə ilə həyata keçirilə

[1] İlahi Zühurlar dinlərin baniləridir. “Peyğəmbərlərin iki tipi” başlığına istinad edin.

bilər. Heç bir şübhə yoxdur ki, bu ilahi qüvvə vəhydir və dünya insan qüvvəsindən üstün olan bu qüvvə vasitəsilə tərbiyə olunmalıdır.

## 4

## HƏZRƏT İBRAHİM

Bu gücə malik olanlardan və ondan yardım alanlardan biri Həzrət İbrahim idi. Və bunun sübutu o idi ki, O, Mesapotamiyada Allahın Təkliyindən qafil olan bir ailədə doğulmuşdu. O, onların bütün allahlarını rədd edərək öz millətinə və xalqına və hətta öz ailəsinə qarşı çıxdı. O, təkbaşına və köməksiz halda qüvvətli bir tayfanın qarşısında durdu ki, bu isə sadə və ya asan bir məsələ deyildi. Bu ona bənzəyir ki, sanki bir nəfər bu gün Bibliyaya itaət edən Xristian ümmətinin içinə gedir və Həzrət İsanı inkar edir; və yaxud Papanın sarayında – Allah eləməsin – belə bir şəxs açıq-aşkar bir şəkildə Həzrət İsanın əleyhinə küfr edir və onun ümmətinə qarşı çıxır.

Bu insanlar tək bir Allaha deyil, çoxlu allahlara inanırdılar ki, onların da möcüzələr törətmək qabiliyyəti olduqlarını deyirdilər; ona görə də onların hamısı Onun əleyhinə qalxdı, qardaşı oğlu Lotdan və bir-iki nüfuzu olmayan adamdan başqa heç kim Onu dəstəkləmədi. Düşmənləri tərəfindən son dərəcə sıxışdırıldıqda O, axırda Öz doğma torpağını tərk etməyə məcbur oldu. Əslində onlar Onu sürgün etdilər ki, əzilsin və məhv olsun və Ondan heç bir iz qalmasın.

Onda İbrahim Müqəddəs Torpağa gəldi. Onun düşmənləri hesab edirdilər ki, Onun sürgünü Onun səfalətinə və məhvinə gətirəcəkdir. Çünki özünün doğma vətənindən sürgün olunmuş, bütün haqlarından məhrum edilmiş və hər tərəfdən sıxışdırılan bir kəs, hətta əgər O, padşah olsa belə, tamamilə məhv olmaqdan canını qurtara bilməzdi. Lakin Həzrət İbrahim möhkəm dayandı və mətanət nümayiş etdirdi, o vaxtadək ki, O, Allahın Təkliyini bu çoxallahlı nəslin arasında bərqərar etdi və Allah bu sürgünü Onun əbədi şərəfinə çevirdi. Bu sürgün Həzrəti İbrahimin törəmələrinin yüksəlişinə səbəb oldu və Müqəddəs Torpaq onlara verildi. Həzrət İbrahimin təlimlərinin geniş yayılmasının nəticəsi olaraq, Onun törəmələri arasından Yaqub və Misirin hakimi olan Yusif çıxdı.

Onun sürgününün nəticəsində Həzrət Musa və sonra İsa kimi bir varlıq Onun nəslindən aşkara çıxdı və Həcər dünyaya gəldi, ondan isə Həzrət İsmayıl doğuldu, onun da törəməsi Həzrət Məhəmməd oldu. Onun sürgünü nəticəsində Onun nəslindən Həzrət Bab meydana çıxdı[1] və İsrailin Peyğəmbərləri də Həzrət İbrahimin törəmələri arasında sayılırdı. Və bu beləcə əbədi olaraq davam edəcəkdir. Sonda, Onun sürgünü nəticəsində bütün Avropa və Asiyanın çox hissəsi İsrailin Allahının mühafizə kölgəsi altına gəldi. Baxın, bu nə qüvvədir ki, Öz ölkəsindən qaçqın düşən bir Şəxsi belə bir ailə yaratmağa, belə bir din bərqərar etməyə və belə təlimlər elan etməyə qadir etdi. Bir kəs

[1] Həzrət Bab Həzrət Məhəmmədin törəmələrindən idi.

deyə bilərmi ki, bütün bunlar təsadüfən baş vermişdir? Biz insaflı olmalıyıq: Bu İnsan Mürəbbi idi ya yox?

Həzrət İbrahimin Urdan Suriyadakı Hələbə sürgün olunması bu nəticəni verdisə, onda biz düşünməliyik ki, Həzrət Bəhaullahın Onun bir neçə dəfə yerdəyişməsindən ibarət olan Tehrandan Bağdada, oradan Konstantinopola, Rumeliyə və Müqəddəs Torpağa sürgününün nəticəsi nə olacaq?

Baxın, İbrahim necə kamil bir Mürəbbi idi!

## 5

## HƏZRƏT MUSA

Həzrət Musa uzun müddət səhrada çoban olmuşdu. Zahirən baxdıqda, O, zülmkar bir ailədə böyümüşdü və insanlar arasında qətl törətmiş bir şəxs kimi tanınırdı və nəhayət çoban oldu. Hökumətin və Fironun adamları Ona həqarətlə baxır və Ona nifrət edirdilər. Belə bir İnsan böyük bir milləti köləlik zəncirindən azad etdi, onları razı saldı, onları Misirdən çıxardı və Müqəddəs Torpağa apardı. Bu xalq zillət uçurumunun dibindən izzət zirvəsinə qaldırıldı. Onlar kölə idilər; azad oldular. Onlar xalqların ən cahili idilər; ən müdrik xalq oldular. Həzrət Musanın onlara verdiyi təsisatlar nəticəsində elə bir məqama yetişdilər ki, bu onlara bütün millətlər arasında şərəf gətirdi və onların şöhrəti bütün ölkələrə elə bir dərəcədə yayıldı ki, həqiqətən də, ətraf millətlərdən kimsə əgər bir kəsi tərifləmək istərdisə, deyərdi: "mütləq bu İsraillidir". Həzrət Musa qanunlar və hökmlər müəyyən etdi; bunlar İsrail xalqına həyat verdi və onları o dövrün mədəniyyətinin mümkün olan ən yüksək səviyyəsinə qaldırdı.

Onlar elə bir inkişafa çatdılar ki, Yunanıstanın filosofları gələr və İsrailin alimlərindən bilik alardılar. Belələrindən biri Sokrat idi. O, Suriyanı ziyarət etmişdi və İsrail övladlarından Allahın Birliyi və ruhun əbədiliyi haqqında təlimləri öyrənmişdi. Yunanıstana qayıtdıqdan sonra o, bu təlimləri yaymışdı. Sonra Yunanıstan xalqı onun əleyhinə qalxdı və onu kafirlikdə günahlandırdı, onu Areopaqus qarşısında mühakimə etdilər və zəhərlə ölümə məhkum etdilər.

İndi, kəkələyən bir İnsan, O Şəxs ki, Fironun evində böyümüşdü, insanlar arasında qatil kimi tanınırdı, qorxudan uzun müddət gizlənmişdi və çoban olmuşdu, necə belə bir böyük Əmri qura bilərdi, o zaman ki, dünyanın ən müdrik filosofları belə bir təsirin mindən birini göstərə bilmədilər? Bu həqiqətən möcüzədir.

Kəkələyən bir dili olan İnsan, O Kəs ki, heç düzgün danışmağı bacarmırdı, bu böyük Əmri yaşatmağa müvəffəq oldu. Əgər O, İlahi qüvvədən yardım almasaydı, O, heç vaxt belə bir böyük işi yerinə yetirmək iqtidarında olmazdı. Bu faktlar inkaredilməzdir. Materialist filosoflar, Yunan mütəfəkkirləri, Romanın görkəmli insanları dünyada məşhur oldular, onların hər biri elmin ancaq bir sahəsində ixtisaslaşdılar. Beləliklə, Qalen və Hippokrat təbabətdə, Aristotel məntiq və mühakimədə, Platon isə etika və ilahiyyatda məşhurlaşdılar. Bu necə ola bilər ki, bir çoban bütün bu bilikləri əldə etsin? Bu şübhəsizdir ki, Ona ən qüdrətli qüvvə yardım etmişdir.

Onu da həmçinin düşünün ki, insan hansı sınaq və çətinliklərlə üzləşir. Qəddarlığın qarşısını almaq üçün Musa Misirlini vurub yerə sərdi və bundan sonra insanlar arasında qatil kimi tanındı, ən çoxu da ona görə ki, Onun

öldürdüyü adam hakim millətdən idi. Sonra O qaçıb canını qurtardı və bu, Onun Peyğəmbərlik məqamına yüksəldilməsindən sonra olmuşdu.

Onun bəd şöhrətinə baxmayaraq, O, fövqəl-təbii qüvvə tərəfindən Özünün əzəmətli təsisat və hökmlərini qurmaqda necə də ecazkarlıqla hidayət olunurdu!

## 6

## HƏZRƏT İSA MƏSİH

Sonra "Mən Müqəddəs Ruhdan doğulmuşam" söyləyərək Həzrət İsa gəldi. Hərçənd ki, indi xristianlar üçün bu iddiaya inanmaq asandır, o zaman buna inanmaq çox çətin idi. İncilin mətninə görə, fariseylər dedilər: "Bu bizim tanıdığımız Nazaretli Yusifin oğlu deyilmi? Ona görə də O, necə deyə bilər ki, Mən göydən gəlmişəm".[1]

Qisası, bu İnsan, Kim ki, hamının nəzərində alçaq mövqedə dururdu, elə bir əzəmətli qüvvə ilə qalxdı ki, min beş yüz il davam edən bir dini aradan götürdü, o zaman ki, bundan cüzi bir kənaraçıxma günahkarı təhlükəyə və ya ölümə məruz qoyurdu. Bundan əlavə, Məsihin günlərində bütün dünyada, həmçinin israillilər arasında çaxnaşma və mənəviyyatın aşağı düşməsi müşahidə olunurdu, İsrail isə son dərəcə tənəzzül, səfalət və asılılıq vəziyyətinə düşmüşdü. Bir vaxtlar onlar Gildanilər və Farslar tərəfindən əsarət altına salınmış, başqa bir vaxt Assuriyalıların köləsi vəziyyətinə qədər alçaldılmış, sonra onlar Yunanların təbəəsi və vassalları olmuş və nəhayət onlara həqarətlə yanaşan Romalıların hakimiyyəti altına düşmüşdülər.

Bu cavan İnsan, Həzrət İsa Məsih, fövqəltəbii qüvvənin köməyilə Həzrət Musanın qədim Qanununu ləğv etdi, ümumi əxlaqi dəyərləri yeniləşdirdi və bir daha İsraillilərin əbədi şərəfinin bünövrəsini qoydu. Bundan əlavə, O bəşəriyyətə ümumdünya sülhünün müjdəsini gətirdi və təkcə İsraillilərə deyil, bütün insan nəslinə xoşbəxtlik gətirən təlimləri geniş yaydı.

Onu aradan götürmək üçün birinci vuruşanlar İsraillilər idilər, Onun öz doğmaları. Bütün zahiri əlamətlərə görə, onlar Ona qələbə çaldılar və ən dəhşətli iztirablara düçar etdilər. Sonda onlar Onun başına tikandan tac qoydular və Onu çarmıxa çəkdilər. Lakin Həzrət İsa, zahirən dərin həqarət və bəla içində olmaqla, bəyan etdi: "Bu Günəş parlayacaq, bu İşıq şölə saçacaq, Mənim fəzlim dünyanı saracaq və Mənim bütün düşmənlərim məğlub olacaqlar". Və O necə demişdi, elə də oldu; Zira yer üzünün bütün şahları Ona qarşı dayana bilmədilər. Xeyr, onların bütün bayraqları endirildi, lakin o Məzlumun bayrağı ən zirvəyə qaldırıldı.

Lakin bu insan əqlinin bütün qanunlarına ziddir. Onda bu aydın və aşkar olur ki, bu Şərəfli Varlıq insan aləminin həqiqi Mürəbbisi idi və Ona ilahi qüvvə kömək etmiş və təyid vermişdi.

## 7

[1] Yəhya 6:42.

## HƏZRƏT MƏHƏMMƏD

İndi Həzrət Məhəmmədə keçək. Amerikalılar və Avropalılar Peyğəmbər haqqında bir çox hekayələr eşitmişlər, hansı ki, onlar düşünürdülər ki, bunlar həqiqətdir, baxmayaraq ki, onları danışanlar ya cahil, ya da düşmən mövqeyində duranlar idi. Onların çoxu din xadimləri idilər; digərləri isə cahil müsəlmanlar idilər ki, Həzrət Məhəmməd haqqında əsası olmayan hədisləri təkrar edirdilər və inanırdılar ki, bununla Onu tərif edirlər.

Beləliklə, bəzi avam müsəlmanlar Onun çoxarvadlılığını tərifləyir və bunu son dərəcə gözəl hadisə və möcüzə kimi qələmə verirdilər; və avropalı tarixçilər də, əksər hallarda bu cahil adamların nağıllarına inanırdılar.

Misal üçün, hansısa səfeh keşişə deyib ki, böyüklüyün sübutu qorxmazlıq və qan tökməkdi və bir gün döyüş meydanında Həzrət Məhəmmədin bir ardıcılı yüz nəfərin başını kəsmişdi! Bundan da o keşiş belə nəticəyə gəlmişdi ki, adam öldürmək Həzrət Məhəmmədə inanmağın sübutunun bir yoludur, halbuki bu sadəcə bir uydurmadır. Həzrət Məhəmmədin hərbi yürüşləri, əksinə, həmişə müdafiə tədbirləri idi. Bunun sübutu odur ki, O, və Onun ardıcılları on üç il ərzində Məkkədə ən qəddar təqiblərə məruz qalmışdılar. Bu dövrdə onlar nifrət oxuna hədəf olmuşdular: Onun yoldaşlarından bəziləri öldürüldü və əmlakı müsadirə olundu, digərləri isə xarici ölkələrə qaçdılar. Həzrət Məhəmmədin Özü, sonda Onu öldürmək qərarına gəlmiş Qüreyşilərin ən kəskin təqiblərindən sonra gecə yarısı Mədinəyə qaçdı. Hətta bu zaman da düşmənlər öz təqiblərinə ara vermədilər, Onu Mədinəyə, həvvarilərini isə Həbəşistana qədər təqib etdilər.

Bu ərəb tayfaları vəhşiliyin və barbarlığın ən aşağı səviyyəsində idilər, onlarla müqayisədə Afrikanın vəhşiləri və Amerikanın vəhşi hinduları müdriklikdə Platon kimi irəli getmişdilər. Amerikanın vəhşiləri öz uşaqlarını onlar kimi diri-diri basdırmırdılar, necə ki, ərəblər qızlarını basdırır və bunu şərəfli bir iş sayırdılar.[1] Beləliklə kişilərin çoxu arvadlarını hədələyərək deyərdilər: "Əgər qız doğsan, səni öldürəcəyəm". Hətta indinin özünədək ərəblər qızları olmasından dəhşətə gəlirlər. Bundan əlavə, kişiyə icazə verilirdi ki, min qadına sahib olsun və kişilərin çoxunun evində ondan çox arvad vardı. Bu tayfalar müharibə edəndə, qalib gələn, məğlub olan tayfanın qadın və uşaqlarını əsir alar və onlarla kölə kimi rəftar edərdi.

On arvadı olan bir kişi öləndə, bu qadınların oğulları bir-birinin anasının üstünə atılardılar; və oğullardan biri öz əbasını atasının arvadlarından birinin üstünə atıb qışqırsaydı, "Bu qadın mənim qanuni malımdır", o andan bu bədbəxt qadın onun əsiri və köləsi olardı. O, həmin qadınla istədiyini edə bilərdi. O, onu öldürə bilər, quyuda zindana salar, və ya döyə, söyə və əzab verə bilərdi, o vaxtadək ki, ölüm onu xilas etsin. Ərəb adət-ənənələrinə görə, kişi qadının ağası idi. Aydındır ki, evdə olan qadınlar və uşaqlar arasında fitnə-fəsad, qısqanclıq, nifrət və düşmənçilik mütləq mövcud olmalı idi, ona

[1] Banu-Tamum - ən vəhşi ərəb tayfalarından biri, bu iyrənc adətə riayət edirdilər

görə də, bu mövzunu genişləndirməyə ehtiyac yoxdur. Yenə də, düşünün, bu zülm çəkmiş qadının vəziyyəti və həyatı nə idi! Bundan əlavə, bu ərəb tayfalarının yaşadığı vəsait soyğunçuluq və quldurluqla əldə edilirdi, ona görə də onlar bir-birini öldürərək, bir-birinin malını soyğunçuluqla ələ keçirərək və dağıdaraq, qadın və uşaqları sonradan yadlara satmaqla əsir alaraq həmişə savaş və döyüşə cəlb olunmuşdular. Bu elə tez-tez baş verirdi ki, tayfa başçısının gündüz cəh-cəlal və naz-nemət içində olan qızları və oğulları, gecə düşəndə özlərini rüsvayçılıq, yoxsulluq və əsirlikdə görə bilərdilər. Dünən onlar şahzadə idilər, bu gün isə əsirdilər; dünən onlar gözəl xanım idilər, bu gün kölədirlər.

Həzrət Məhəmməd İlahi Vəhyi bu tayfalar arasında yaşayan zaman aldı və onların təqiblərinə on üç il dözdükdən sonra axırda qaçdı.[1] Lakin bu xalq zülm etməkdən əl çəkmədi; onlar Onu və Onun bütün tərəfdarlarını məhv etmək üçün birləşdilər. Bu elə bir şəraitdə oldu ki, Həzrət Məhəmməd silah götürməyə məcbur oldu. Bu həqiqətdir: biz mütəəssib deyilik və Onu müdafiə etmək fikrində deyilik, amma biz ədalətliyik və doğru olanı deyirik. Buna ədalətlə baxın. Əgər Həzrət İsanın Özü bu şəraitdə belə zülmkar və vəhşi tayfaların arasında olsaydı, əgər on üç il ərzində Onun Öz ardıcılları ilə birlikdə doğma torpağından didərgin düşməsilə nəticələnən bu təqiblərə dözsəydi – əgər buna baxmayaraq yenə də bu alçaq tayfalar Onu izləməkdə davam etsəydilər, kişiləri doğrasaydılar, onların malını ələ keçirsəydilər, onların qadın və uşaqlarını əsir alsaydılar – onda onlara qarşı münasibətdə Həzrət İsa nə edərdi? Əgər bu zülm yalnız Ona edilsəydi, O, onları bağışlayardı və belə bir əfv hərəkəti çox tərifəlayiq olardı; amma əgər O görsəydi ki, bu qəddar və qanasusamış qatillər bütün bu məzlumları öldürmək, soymaq və onlara zərər vurmaq və qadın və kişiləri əsir götürmək istəyirlər, O, mütləq onları müdafiə edər və zülmkarlara müqavimət göstərərdi. Onda Məhəmmədin hərəkətinə qarşı hansı etiraz ola bilər? O və Onun ardıcılları, onların arvadları və uşaqları ilə birlikdə bu vəhşi tayfalara təslim olmadığı üçün günahlandırıla bilərmi? Bu tayfaları qana susamaqdan azad etmək böyük bir xeyirxahlıq idi. Onların qarşısını almaq və məhdudlaşdırmaq həqiqi mərhəmət idi. Onlar əlində bir kasa zəhər tutan bir insana bənzəyirdilər ki, içmək istəyən ərəfədə dost onu vurub sındırır və onu xilas edir. Əgər Həzrət İsa eynilə belə bir vəziyyətə düşsəydi, şübhəsizdir ki, fateh qüvvəsi ilə O, bu kişiləri, qadınları və uşaqları bu qana susamış canavarların caynağından qurtarardı.

Həzrət Məhəmməd heç vaxt Xristianlara qarşı vuruşmadı; əksinə, O, onlarala xoş davrandı və onlara tamamilə azadlıq verdi. Xristianların icması Nayranda yaşayırdı və Onun qayğı və himayəsi altında idi. Həzrət Məhəmməd deyirdi: “Əgər bir kimsə onların hüquqlarını pozsa, Mənim Özüm ona düşmən olacağam və Allahın hüzurunda Mən onu günahlandıracağam”. Onun verdiyi fərmanlarda bu aydın göstərilirdi ki, Xristianların və Yəhudilərin həyatı, əmlakı və şərəfi Allahın himayəsi altındadır və əgər müsəlman xristian bir

[1] Mədinəyə.

qadınla evlənərsə, ər nə onun kilsəyə getməsinə mane olmalı, nə də onun çadra örtməyə məcbur etməlidir; və əgər o ölərsə, ər onun dəfn mərasimini xristian dini xadiminə həvalə etməlidir. Əgər xristianlar kilsə tikmək istəsələr, müsəlmanlar onlara kömək etməlidir. İslamla onun düşmənləri arasındakı savaşda xristianlar döyüş öhdəliyindən azad olmalıdırlar, o vaxtadək ki, onların özləri könüllü bir şəkildə İslamı müdafiə etmək istəsinlər, çünki onun himayəsi altında idilər. Lakin bu cür toxunulmazlığın müqabilində onlar illik olaraq kiçik bir məbləğdə təzminat ödəməli idilər. Qısası, bu məsələlər barədə ətraflı yeddi bu cür fərman vardır ki, onların da bəzilərinin surətləri bu günədək Yerusəlimdə qalmaqdadır. Bu sübut olunmuş faktdır və mənim təsdiqimdən asılı deyil. İkinci Xəlifənin[1] fərmanı Yerusəlimin pravoslav Patriarxında bu gün də saxlanır və buna heç bir şübhə yoxdur.[2]

Buna baxmayaraq, müəyyən bir vaxtdan sonra, həm müsəlmanların, həm də xristianların günahı üzündən, onların arasında nifrət və düşmənçilik baş qaldırdı. Bu faktdır, müsəlmanların, xristianların və digərlərinin nağılları isə sadəcə uydurmadır ki, bunun da əsasında ya fanatizm, ya cəhalət durur, ya da o ədavətdən qaynaqlanır.

Məsələn, müsəlmanlar iddia edirlər ki, Həzrət Məhəmməd ayı parçalayıb və o da Məkkədə dağın başına düşüb: onlar belə düşünürlər ki, ay kiçik bir cisimdir ki, onu da Həzrət Məhəmməd iki yerə bölüb və bir parçasını bir dağın başına, digərini isə o biri dağın başına atıb.

Bu cür hekayələr tam fanatizmdir. Habelə o hədislər ki, din xadimləri ona istinad edirlər və o hadisələr ki, onlar irad tuturlar, hamısı şişirtmədir, əgər tamamilə əsassız deyilsə.

Xülasə, Həzrət Məhəmməd Ərəbistan yarımadasında, Hicaz səhrasında meydana çıxmışdı, elə bir yer ki, tərk olunmuşdu, tamamilə qeyri-münbit, qumlu və məskunlaşmamış bir səhra idi. Bəzi yerləri, Məkkə və Mədinə kimi, həddən artıq isti idi; insanları səhra sakinlərinin adət-ənənələri və davranışları ilə yaşayan köçərilərdi və təhsil və elmdən tamamilə məhrum idilər. Həzrət Məhəmməd Özü də savadsız idi və Quran əvvəlcə qoyunların kürək sümüyünün və ya palma yarpaqlarının üzərinə yazılmışdı. Bu təfsilatlar Həzrət Məhəmmədin göndərildiyi o insanların səviyyəsini göstərir. Məhəmmədin onların qarşısında qoyduğu birinci sual bu idi: "Niyə siz Beş Kitabı və İncili qəbul etmirsiniz, siz niyə İsaya və Musaya inanmırsınız?" Bu sual onları çətin vəziyyətdə qoydu və onlar höcətləşməyə başladılar, "bizim ata-babalarımız Beş Kitaba və İncilə inanmayıblar; bizə söylə, niyə belə olub?" O cavab verdi ki, onlar azdırılmışdılar, siz Beş Kitaba və İncilə inanmayanları rədd etməlisiniz, hətta onlar sizin ata-babalarınız olsa belə".

Belə bir ölkədə və bu cür barbar tayfaların arasında, savadsız bir İnsan elə bir kitab ortaya çıxardı ki, orada kamil və bəlağətli bir şəkildə O, ilahi sifətləri və keyfiyyətləri, Elçilərin peyğəmbərliklərini, ilahi qanunları və bəzi elmi faktları izah etdi.

[1] Ömərin.
[2] Yuriy Zeydan: Əməvilər və Abbasilər, D.S. Margoliotun tərcüməsində.

Beləliklə, siz bilirsiniz ki, müasir elmi müşahidələrdən əvvəl – yəni ilk əsrlərdə və Xristian erasının on beşinci əsrinə qədər olan dövrdə - dünyanın bütün riyaziyyatçıları hesab edirdilər ki, Yer Kainatın mərkəzidir və Günəş isə hərəkət edir. Lakin yeni nəzəriyyənin tərəfdarı olan məşhur astronom[1] kəşf etdi ki, Yer hərəkət edir, Günəş isə hərəkətsizdir. Bu vaxta qədər dünyanın bütün astronomları və filosofları Ptolomeyin sisteminə tərəfdar çıxırdılar, bunun əksinə çıxış edənə isə cahil kimi baxırdılar. Baxmayaraq ki, Pifaqor və həyatının sonlarında Platon o nəzəriyyəni qəbul etdilər ki, Günəşin bürc ətrafında illik fırlanması Günəşin özündən başlamır, əksinə, yerin Günəş ətrafında fırlanmasından başlanır, bu nəzəriyyə tamamilə unuduldu və bütün riyaziyyatçılar tərəfindən Ptolomeyin sistemi qəbul olundu. Lakin Quranda nazil olmuş bəzi ayələr vardır ki, Ptolomey sisteminin nəzəriyyəsinə ziddir. Onlardan biri budur: "Günəş tərpənməz bir yerdə hərəkət edir", bu ayə Günəşin hərəkətsizliyini və onun öz oxu ətrafında fırlandığını göstərir.[2] Yenə də başqa bir ayədə, "hər bir ulduz öz səmasında hərəkət edir".[3] Bu cür də Günəşin, Ayın, Yerin və başqa göy cisimlərinin hərəkəti izah olunub. Quran nazil olanda, bütün riyaziyyatçılar bu müddəaya güldülər və bunu cahillikdən doğan bir iddia kimi qəbul etdilər. Hətta İslamın din alimləri gördükdə ki, bu ayələr Ptolomeyin sisteminə ziddir, onda onlar da başqa cür bəhanələr gətirməyə məcbur olurdular.

Xristian erasının on beşinci yüzilliyində, təxminən doqquz yüz il Həzrət Məhəmməddən sonra, məşhur astronom[4] bir neçə müşahidələr apardı və özünün ixtira etdiyi teleskopun köməyilə mühüm kəşflər etdi. Yerin fırlanması, Günəşin hərəkətsizliyi və habelə onun öz oxu ətrafında fırlanması aşkar oldu. Aydın oldu ki, Quranın ayələri mövcud faktlara uyğundur və Ptolomeyin sistemi səhv imiş.

Qısası, bir çox Şərq xalqları on üç əsr ərzində Həzrət Məhəmmədin dininin kölgəsi altında böyüyüb inkişaf etmişdilər. Orta Əsrlər dövründə, o zaman ki, Avropa barbarlığın dərin bataqlığında idi, ərəb xalqları yer üzündəki xalqlardan alimlikdə, incəsənətdə, riyaziyyatda, mədəniyyətdə, idarəçilik və digər elmlərdə üstün idilər. Bu Ərəb tayfalarının Maarifçisi və Mürəbbisi, mədəniyyət və insanpərvərlik məziyyətlərinin Banisi savadsız bir İnsan, Həzrət Məhəmməd idi. Bu görkəmli İnsan tam kamil bir Mürəbbi idi, ya yox? Burada ədalətli mühakimə gərəkdir.

## 8

## HƏZRƏT BAB

Həzrət Baba gəldikdə – mənim canım Ona fəda olsun – gənc yaşlarında, yəni O, Öz mübarək həyatının iyirmi beşinci ilinə çatanda Öz Əmrini bəyan

[1] Kopernik.
[2] Quran 36:37.
[3] Quran 36:38.
[4] Qaliley.

etmək üçün ayağa qalxdı.[1] Şiyələrin hamısı hər yedə etiraf edirdilər ki, O, heç bir zaman heç bir məktəbdə oxumayıb və heç bir müəllimdən də bilik almayıb; Şirazın bütün sakinləri buna şəhadət verirlər. Bununla belə, O, gözlənilmədən ən yetkin bir biliklə camaatın qarşısına çıxdı. Baxmayaraq ki, O, sadəcə bir tacir idi, lakin İranın bütün üləmalarını[2] ifşa etdi. Tam təkbaşına, təsəvvür olunmayacaq bir şəkildə O, dini fanatizmi ilə məşhur olan iranlılar arasında Əmri qoruyub saxladı. Bu görkəmli Ruh elə bir qüdrətlə ayağa qalxdı ki, O, İranda dinin, əxlaqın, adətlərin, vərdişlərin və ənənələrin dayaqlarını sarsıtdı, yeni qaydalar, yeni qanunlar və Yeni Din təsis etdi. Baxmayaraq ki, dövlətin böyük adamları, təxminən din xadimlərinin hamısı və ictimai xadimlər Onu məhv etmək və aradan götürmək üçün qalxdılar, amma O, təkbaşına onlara qarşı durdu və bütün İranı hərəkətə gətirdi.

Çoxlu üləmalar və ictimai xadimlər, habelə digər insanlar sevinə-sevinə həyatlarını Onun Əmri yolunda fəda etdilər və şəhidlik meydanına tələsdilər.

Hökumət, xalq, ilahiyyat alimləri və görkəmli şəxsiyyətlər Onun işığını söndürmək istədilər, lakin bunu edə bilmədilər. Nəhayət, Onun ayı çıxdı, Onun ulduzu parladı, Onun prinsipləri möhkəmcəsinə bərqərar oldu və onun səhərinin şəfəqi nur saçdı. Ziyasız kütləlləri O, ilahi təlimlə maarifləndirdi, İranlıların fikrinə, əxlaqına, adət və ənənələrinə O ecazkar təsir göstərdi. O Öz davamçılarına Bəha Günəşinin doğması müjdəsini elan etdi və onları Ona iman gətirmək üçün hazırladı.

Belə heyrətamiz əlamətlərin və böyük nəticələrin aşkar olması; insanların düşüncəsinə və üstünlük təşkil edən təsəvvürlərə belə bir təsir; tərəqqi üçün əsasların qoyulması; inkişaf və çiçəklənmə üçün prinsiplərin verilməsi – bütün bunların gənc bir tacir tərəfindən zahir olması Onun kamil Mürəbbi olmasına çox böyük bir sübutdur. İnsaflı insan buna inanmaqda heç vaxt tərəddüd etməz.

## 9

## HƏZRƏT BƏHAULLAH

Həzrət Bəhaullah[3] İran İmperiyasının dərin cəhalətpərəstliyə və nadanlığa batdığı və fanatizm zülmətində itdiyi bir vaxtda otraya çıxdı.

Avropada nəşr olunmuş tarix kitablarında şübhəsiz, siz son əsrdə İranda əxlaq, adət-ənənə və təsəvvürlər barədə ətraflı təsvirlər oxumuşsunuz. Onları burada təkrar etmək faydasızdır. Qısası, onu deyək ki, İran elə bir zəlil vəziyyətə düşmüşdü ki, keçmişdə belə cah-cəlallı və yüksək mədəniyyətli bir ölkə bütün xarici səyyahlar üçün təəssüf mənbəyi olmuşdu. İndi tənəzzülə uğramış, dağılmış, hərc-mərcliyə düşmüş və əhalisi isə öz şərəfini itirmişdi.

[1] Həzrət Bab burada Özünü Həzrət Əla adı ilə adlandırılıb. Lakin oxucunun rahatlığı üçün biz Onu Avropada tanındığı adla, yəni Həzrət Bab adlandıracağıq.
[2] İslam ilahiyyatçıları.
[3] Camali-Mübarək, Mübarək Camal, Həzrət Bəhaullaha verilən addır. O həmçinin Camali - Gidəm də adlandırılıb, yəni Əzəli, Qədim Camal. Lakin biz Ona Qərbdə tanındığı adla, Həzrət Bəhaullah adı ilə müraciət edəcəyik.

Həzrət Bəhaullah məhz belə bir vaxtda meydana çıxdı. Onun atası üləma deyil, vəzir idi. Bütün İran xalqının bildiyi kimi, Həzrət Bəhaullah heç vaxt heç bir məktəbdə oxumamış, nə də bir üləma və ya elm adamı ilə ünsiyyət etmişdi. Onun həyatının erkən illəri ən böyük xoşbəxtliklə keçmişdi. Onun ətrafında olanlar İranın ən mötəbər insanları idi, lakin onlar elm adamları deyildilər.

Həzrət Bab zühur edən kimi, Həzrət Bəhaullah dedi: "Bu böyük İnsan möminlərin Mövlasıdır və Ona iman gətirmək hamının üzərinə düşən bir vəzifədir". Və O, Həzrət Baba kömək etmək üçün qalxdı və Onun haqq olduğu barədə çoxlu sübutlar və Onun həqqaniyyətinin lehinə dəlillər gətirdi, baxmayaraq ki, dövlət dininin üləmaları İran hökumətini məcbur edirdilər ki, Ona qarşı çıxsın və Ona müqavimət göstərsin və sonra da onlar qətllərə, soyğunçuluq, təqib və sürgünə rəvac verən hökm çıxardılar. Bütün əyalətlərdə onlar öldürür, yandırır, əmlakı zorla qarət edir, hətta qadın və uşaqlara hücum edirdilər. Buna baxmayaraq, Həzrət Bəhaullah Həzrət Babın kəlamını bəyan etmək üçün böyük mətanət və qətiyyətlə ayağa qalxdı. Bir an da belə olsun, O gizlənmədi; O, açıqca düşmənlərinin arasına gedirdi. O, dəlil və sübutlar gətirməklə məşğul idi və Allah Sözünün Carçısı kimi tanınırdı. O, bir çox bəlalara və sınaqlara düşdü, çoxlu talesizliklər yaşadı və hər an şəhid olmaq təhlükəsi ilə üzləşdi.

Onu zəncirlə bağladılar, yeraltı zindana saldılar. Onun geniş mülkləri və mirası qarət olundu, mənimsənildi və müsadirə olundu. O, dörd dəfə ölkədən ölkəyə sürgün edildi və ancaq "Ən Böyük Məhbəs"də rahatlıq tapdı.[1]

Bütün bunlara baxmayaraq, O, bir an da olsun, Allah Əmrinin böyüklüyünü elan etməkdən dayanmadı. O, elə məziyyət, bilik və kamilliklər zahir etdi ki, bütün İran xalqını heyrətə gətirdi. Hər bir yerdə – Tehranda, Bağdadda, İstanbulda, Rumelidə və hətta Əkkanın özündə Onun hüzuruna müşərrəf olan hər bir üləma və ya elm adamı, istər dost olsun, istər düşmən, müzakirəyə çıxarılan hər hansı bir suala həmişə kifayətedici və inandırıcı cavab alırdı. Hamı etiraf edirdi ki, bütün kamilliklərdə O yeganədir və Onun bərabəri yoxdur.

Dəfələrlə belə olmuşdu ki, Bağdadda İslam üləmaları, Yəhudi ravvinləri və Xristianlar bir neçə Avropa alimləri ilə toplaşıb mübarək Hüzura gəlmişdilər: onların hər birinin özünün soruşacağı sualı vardı. Baxmayaraq ki, onlar müxtəlif mədəniyyət səviyyələrinə malik idilər, amma hər biri qaneedici və inandırıcı cavablar aldılar və məmnun halda ayrıldılar. Hətta Kərbəla və Nəcəfdə olan İran üləmaları müdrik bir şəxsi seçdilər və onu müəyyən bir tapşırıqla Onun hüzuruna göndərdilər. Onun adı Molla Həsən Əmu idi. O, Mübarək Hüzura yetişdi və üləmaların adından bir neçə sual təqdim etdi ki, Həzrət Bəhaullah da onlara cavab verdi. Sonra Həsən Əmu dedi, "üləmalar tərəddüd etmədən Həzrət Bəhaullahın biliyini və gücünü etiraf edir və inanırlar və onların hamısı yekdilliklə təsdiq edirlər ki, alimlikdə Onun bənzəri və bərabəri yoxdur və bu da aydın və aşkardır ki, O, heç vaxt oxumayıb və bilik

[1] Əvvəlcə O, Bağdada, sonra Konstantinopola, daha sonra Adrianopola sürgün olundu və 1868-ci ildə Əkkada (Ən Böyük Zindan) zindana salındı.

də əldə etməyib; amma üləmalar yenə də deyirlər, “biz buna qane deyilik; biz onun müdrikliyinə və möminliyinə görə onun missiyasının doğruluğunu etiraf edə bilmərik. Ona görə də biz xahiş edirik, O, bir möcüzə göstərsin ki, bizi razı salsın və bizim qəlblərimizi sakitləşdirsin”.

Həzrət Bəhaullah cavab verdi, “Baxmayaraq ki, sizin buna haqqınız yoxdur, zira Allah Öz məxluqunu sınağa çəkər, amma onlar Allahı sınağa çəkə bilməzlər, ancaq yenə də Mən buna izn verir və qəbul edirəm. Lakin Allahın Əmri teatr tamaşası deyil ki, hər saat göstərəsən və hər gün ona yeni dəyişikliklər etməyi xahiş edəsən. Əgər bu belə olsaydı, Allahın Əmri sadəcə bir uşaq oyununa çevrilərdi.

Ona görə də üləmalar toplaşmalı və öz aralarında razılaşmaqla bir möcüzə seçməlidirlər və yazmalıdırlar ki, bu möcüzə göstəriləndən sonra onlar daha Mənə şübhə etməyəcək və hamısı Mənim Əmrimin həqiqiliyini etiraf edəcək və inanacaqlar. Qoy onlar bu kağızı möhürləsinlər və Mənə gətirsinlər. Şərt kimi bu qəbul olunmalıdır: əgər möcüzə icra olundu, onda onların heç bir şübhəsi qalmayacaq və əgər yox, Biz yalançı kimi mühakimə olunacağıq”. Həmin bu müdrik insan, Həsən Əmu qalxdı və dedi: “Daha deyiləsi bir söz yoxdur”; sonra o, baxmayaraq ki, iman gətirməmişdi, Mübarək Camalın dizini öpdü və çıxıb getdi. O, üləmaları topladı və müqəddəs mesajı onlara çatdırdı. Onlar məşvərət etdilər və dedilər, “Bu şəxs cadugərdir; birdən O, bir sehr göstərsə, onda bizim deməyə başqa bir sözümüz olmayacaq.” Bu fikirdən çıxış edərək onlar bu məsələni davam etməyə cürət etmədilər.[1]

Bu şəxs, Həsən Əmu, bu hadisəni bir çox görüşlərdə nəql etmişdi. Kərbəlanı tərk etdikdən sonra o, Kirmanşaha getdi və bu faktın bütün təfsilatını, üləmaların qorxusunu və geri çəkilməsini vurğulamaqla hər yerə yaydı.

Xülasə, Onun Şərqdə bütün əleyhdarları Onun əzəmətini, böyüklüyünü, biliyini və məziyyətlərini etiraf etdilər; və baxmayaraq ki, onlar Onun düşmənləri idilər, Onun haqqında həmişə “Şöhrətli Bəhaullah” deyə danışırdılar.

Bu böyük Nur İranın üfüqündə parlayandan sonra, bütün görkəmli adamlar, nazirlər, üləmalar və başqa təbəqələrdən olan insanlar Onun əleyhinə qalxdılar, ən böyük düşmənçiliklə Onu təqib etdilər və car çəkdilər ki, “bu insan dini, qanunu, milləti və imperiyanı alçaltmaq və məhv etmək istəyir.” Eynilə də bu cür İsanın haqqında demişdilər. Lakin Həzrət Bəhaullah, təkbaşına və köməksiz və cüzi də olsa zəiflik göstərmədən onların hamısına qarşı müqavimət göstərdi. Axırda onlar dedilər, “Nə qədər ki, bu şəxs İrandadır, burada dinclik və sülh olmayacaq; biz onu sürgün etməliyik ki, İran sakit vəziyyətinə qayıtsın.” Onlar Ona qarşı qəddarlıq və təzyiqdən istifadə etməyə başladılar ki, Onu məcbur etsinlər ki, İrani tərk etmək üçün icazə istəsin və belə düşünürdülər ki, bununla Onun həqiqətinin nuru sönəcək, ancaq nəticə tamamilə əksinə oldu. Əmr daha da böyüdü və onun atəşi daha da şiddətləndi. Əvvəlcə bu ancaq İran ərazisində yayıldı, lakin Həzrət

[1] Həzrət Bəhaullahın nüfuzedici bəsirəti bu halda Onun, onsuz da hansı möcüzə istəyəcəklərində şübhəsiz razılığa gələ bilməyəcək düşmənlərinin fitnəsi üzərində qələbə çaldı.

Bəhaullahın sürgünü səbəb oldu ki, Əmr başqa ölkələr boyunca da yayılsın. Bundan sonra Onun düşmənləri dedilər: "İraq-i Ərəb[1] İrandan kifayət qədər uzaq deyil; biz Onu daha uzaq bir diyara göndərməliyik". Buna görə İran hökuməti qərara gəldi ki, Bəhaullahı İraqdan İstanbula göndərsin. Yenə də hadisələr sübut etdi ki, Əmr qətiyyən zəifləməyib. Onlar yenə də dedilər: "İstanbul müxtəlif tayfa və xalqların yollarının kəsişdiyi və gəlib keçdiyi yerdir; və onların arasında da çoxlu iranlılar var". Bu səbəbdən İranlılar Onu Rumeliyə sürgün etməli oldular; amma orada atəş daha da gücləndi və Əmr daha da ucaldı. Axırda iranlılar dedilər: "Bu yerlərin heç biri Onun təsirinə tab gətirə bilmir; biz Onu elə bir yerə göndərməliyik ki, orada O məhv olsun, Onun ailəsi və ardıcılları ən dəhşətli bəlalara məruz qalsın." Beləliklə, onlar Əkka zindanını seçdilər, elə bir yer ki, orada xüsusi olaraq qatillər, oğrular, karvan qarətçiləri saxlanılırdı və doğrudan da, Onu bu cür təhlükəli insanlarla bir tuturdular. Amma Allahın qüdrəti aşkar oldu: Onun kəlamı yayıldı və Həzrət Bəhaullahın əzəməti aşkara çıxdı, çünki məhz bu zindanda və bu cür alçaldıcı şətaitdə O, İranda irəliləyiş yaratdı və onun bir səviyyədən başqa bir səviyyəyə keçməsinə səbəb oldu. O, bütün düşmənlərinə üstün gəldi və onlara sübut etdi ki, onlar Əmrə qarşı dura bilməzlər. Onun müqəddəs təlimləri bütün əyalətlərə yayıldı və Onun Əmri bərqərar oldu.

Həqiqətən də, İranın bütün əyalətlərində Onun düşmənləri Onu qəbul edənləri həbs etməklə, öldürməklə və döyməklə və minlərlə evləri yandırmaqla və yerlə yeksan etməklə böyük bir nifrətlə Onun əleyhinə qalxdılar və hər bir vasitə ilə Əmri məhv etməyə və əzməyə çalışdılar. Bütün bunlara baxmayaraq, qatillərin, quldurların və oğruların saxlandığı zindandan bu Əmr ucaldı. Onun təlimləri hər yana yayıldı və Onun nəsihətləri nifrətlə dolu olan şəxslərə təsir etdi və onları möhkəm möminlərə çevirdi. Hətta İran hökumətinin özü ayıldı və üləmaların səhvi üzündən baş verənlər üçün peşman oldu .

Həzrət Bəhaullah Müqəddəs Torpaqdakı bu zindana gələndə arif adamlar başa düşdülər ki, Allahın iki və ya üç min il əvvəl Peyğəmbərlərin dili ilə vəd etdiyi müjdə yenə də zahir oldu və Allah Öz vədinə sadiq qaldı; zira Peyğəmbərlərdən bəzilərinə O nazil etdi və müjdə verdi ki, "Səma Qoşunlarının Rəbbi Müqəddəs Torpaqda zühur etməlidir". Bütün bu vədlər yerinə yetdi; və bunu başa düşmək çox çətindir ki, əgər Onun düşmənlərinin təqibi olmasaydı, O sürgün edilməsə və qovulmasaydı, Həzrət Bəhaullah İranı tərk etməyə necə məcbur ola bilərdi və Öz çadırını Müqəddəs Torpaqda qura bilərdi. Onun düşmənləri ümid edirdilər ki, Onun məhbusluğu bu mübarək Əmrin tamamilə məhv və yox olmasına səbəb olacaq, lakin bu zindan əslində böyük bir kömək oldu və bu Əmrin inkişafı üçün vasitəyə çevrildi. Həzrət Bəhaullahın ilahi şöhrəti Şərqə və Qərbə yayıldı və Həqiqət Günəşinin şüaları bütün dünyanı nurlandırdı. Alqışlar olsun Allaha! O məhbus olsa da, Onun çadırı Karmel Dağında quruldu və O, böyük bir əzəmətlə sərhədləri aşdı.

[1] İraq; İranın o vaxtlar İraq-i Əzəm, indi isə Arak adlanan rayonu ilə qarışdırmamalı.

Onun hüzuruna müşərrəf olan hər bir kəs, dost olsun ya düşmən, deyirdi: "Bu şahzadədir, əsir yox".

Zindana[1] yetişdikdən sonra O, Fransa səfiri vasitəsilə Napoleona[2] məktub göndərdi. Onun əsas mahiyyəti bu idi: "Soruş, nədir bizim cinayətimiz və niyə Biz bu zindana və bu yeraltı həbsxanaya salınmışıq". Napoleon cavab vermədi. Sonra ikinci məktub nazil oldu ki, bu da Surey-i Heykələ[3] daxil olub. Onun qısa məzmunu belədir: "Ey Napoleon, sən ki, Mənim bəyanıma qulaq asmadın və mənə cavab vermədin, sənin hökmranlığın çox keçməz ki, səndən alınar və Sən son nəticədə məhv edilərsən." Bu namə poçtla Həzrət Bəhaullahın sürgün yoldaşlarının hamısına tanış olan Sezar Ketafakounun[4] vasitəsilə Napoleona göndərildi. Bu xəbərdarlığın mətni bütün İrana çatdı, çünki bu o zaman idi ki, Kitab-i Heykəl İranda yayılmışdı və bu namə həmin kitabın içində vardı. Bu xristian tarixi ilə 1869-cu ildə olmuşdu və bu Surey-i Heykəl İranda və Hindistanda çoxaldıldığından və möminlərin əllərində olduğundan onlar gözləyirdilər ki, görək nə olacaq. Çox da uzun bir vaxt keçməmiş, 1870-ci ildə Almaniya ilə Fransa arasında müharibə alovlandı; Hətta baxmayaraq ki, heç kəs o zaman Almaniyanın qələbəsini gözləmirdi, Napoleon uduzdu və rüsvay oldu; o düşmənlərinə təslim oldu və onun izzəti dərin bir zillətlə əvəz olundu.

Lövhlər[5] həmçinin digər sultanlara da göndərildi və onların arasında Əlahəzrət Nəsirəddin Şaha məktub da vardı. O namədə Həzrət Bəhaullah buyururdu: "Məni çağırın və üləmaları toplayın və dəlil və sübut tələb edin ki, həqiqət və yalan aşkara çıxsın". Əlahəzrət Nəsirəddin Şah bu mübarək lövhü üləmalara göndərdi və təklif etdi ki, onlar bu işi yerinə yetirsinlər, lakin onlar buna cəsarət etmədilər. Belə olduqda o, onların arasında ən görkəmli olanların yeddisindən xahiş etdi ki, bu çağırışa cavab versinlər. Bir müddətdən sonra onlar: "Bu şəxs dinin müxalifi və şahın düşmənidir" deyərək naməni qaytardılar. İranın Əlahəzrət Şahı çox pərt oldu və dedi: "Bu dəlil və sübut, doğru və yalanı ayırd etmək məsələsidir: hökumətlə düşmənçiliyin bura nə dəxli var? Təəssüf! Bu üləmalara bizim nə qədər hörmətimiz vardı, onlar isə hətta bu naməyə cavab da verə bilmirlər."

Xülasə, Sultanlara ünvanlanmış Lövhlərdə yazılanların hamısı yerinə yetdi: əgər miladi tarixi ilə 1870-ci ildən bəri baş verən hadisələri müqayisə etsək, baş verən hər şeyin məhz öncədən söyləndiyi kimi ortaya çıxdığını görərik; ancaq bir neçəsi qalıb ki, onlar da sonra aşkar olacaq.

Beləliklə, hətta əcnəbilər və Həzrət Bəhaullaha iman gətirməmiş digər dinlərin ardıcılları Həzrət Bəhaullaha çox heyrətamiz şeylər aid edirdilər. Bəziləri Onu müqəddəs[6] hesab edirdilər, digərləri isə hətta Onun haqqında traktat yazmışdılar. Onlardan biri, Seyid Davudi, Bağdaddan olan sünnü alim qısa bir traktat yazdı və orada Həzrət Bəhaullahın fövqəl-təbii möcüzələri

---

[1] Ədirnə.
[2] 3-cü Napoleon.
[3] Həzrət Bəhaullah bəyanından sonra nazil etdiyi lövhlərdən biri.
[4] Fransanın Suriyadakı Konsulunun oğlu, Həzrət Bəhaullahın onunla dostluq münasibətləri vardı.
[5] Həzrət Bəhaullahın risalələrinə (məktublarına) verilən ad.
[6] Övliya

haqında məlumat verdi. Hətta indi, Şərqin hər yerində bəzi adamlar, Onun zühuruna inanmasalar da, Onun müqəddəs olduğuna inanır və Ona aid olan möcüzələrdən danışırlar.

Yekunlaşdırsaq, istər Onun əleyhdarları, istərsə də tərəfdarları, habelə müqəddəs Hüzurda qəbul olunanlar, Həzrət Bəhaullahın əzəmətini etiraf edir və şəhadət verirdilər. Hərçənd ki, onlar Ona iman gətirmədilər, amma Onun əzəmətini etiraf edir, müqəddəs məkana daxil olan kimi Həzrət Bəhaullahın hüzuru onların çoxunda elə bir təsir qoyurdu ki, hətta bir söz belə dilə gətirə bilmirdilər. Neçə dəfə belə olmuşdu ki, Onun ən qatı düşmənlərindən biri öz-özlüyündə qəti qərar vermişdi ki, “Mən Onun hüzuruna çatan kimi, belə, belə söyləyəcəyəm, bunu, bunu deyəcəyəm və bu cür mən Onunla mübahisə edəcək və Ona qarşı duracağam,” ancaq Müqəddəs Hüzura daxil olanda o, heyrətə düşər, özünü itirər və səssiz-səmirsiz qalardı.

Həzrət Bəhaullah heç vaxt Ərəb dilini öyrənməyib; Onun mürəbbisi və ya müəllimi olmayıb, nə də məktəbə gedib. Bununla belə, Onun Ərəb dilində izahatlarının bəlağət və zərifliyi, həmçinin Onun Ərəb dilindəki Yazıları, Ərəb dili üzrə alimlərin heyrətinə və mat qalmasına səbəb olub və onların hamısı etiraf və bəyan ediblər ki, O müqayisəedilməzdir və Onun bərabəri yoxdur.

Əgər biz diqqətlə Tövratın mətninə baxsaq, görərik ki, İlahi Zühur onu inkar edənlərə heç vaxt deməyib ki, “Siz hansı möcüzəni istəyirsiniz, mən göstərməyə hazıram və sizin istədiyiniz sınağı qəbul edəcəyəm.” Lakin Şaha məktubunda Həzrət Bəhaullah açıqca söylədi: “Topla üləmaları və Məni çağır ki, dəlil və sübutlar isbat olsun.”[1]

Əlli il ərzində Həzrət Bəhaullah Öz düşmənləri qarşısında bir dağ kimi durdu: hamı Onu yox etmək istədi və Onun məhv olmasını axtardı. Min dəfə onlar Ona əzab vermək və həlak etməyi planlaşdırdılar və bütün bu əlli il müddətində O, davamlı təhlükə altında qaldı.

Bu günlərdə İran elə tənəzzül və dağıntı vəziyyətindədir ki, işlərin real vəziyyətindən baş çıxaran bütün aqil adamlar, iranlı və ya əcnəbi olsun, etiraf edirlər ki, onun tərəqqisi, onun mədəniyyəti və onun dirçəlişi o böyük Şəxsiyyətin prinsiplərinin geniş yayılmasından və təlimlərinin təbliğindən asılıdır.

Məsih Öz mübarək həyatı boyu real olaraq ancaq on iki nəfərə təlim verdi. Onlardan ən görkəmlisi Pyotr idi, baxmayaraq ki, imtahan zamanı o, Həzrət İsanı üç dəfə inkar etmişdi. Bununla belə, Həzrət İsanın Əmri son nəticədə planetə nüfuz etdi. Bu gün Həzrət Bəhaullah, minlərlə ruhlara təlim verib, o kəslər ki, qılınc təhlükəsi altında olarkən “Ya Bəha-ul-Əbha”[2] nidasını ən yüksək göylərə qaldırıblar; və sınaqların odunda onların üzləri qızıl kimi parlaq olub. O zaman düşünün, gələcəkdə nələr olacaq.

[1] Həzrət Bəhaullahın sağlam düşüncəsinə belə əhəmiyyət verməklə həzrət Əbdül-Bəha Allahın Zühurunun həqqaniyyətinə bir sübut olaraq möcüzələrin mənasızlığını vurğulamaq istəyir. “Möcüzələr” başlığına baxın.

[2] Bəhailərin öz imanlarını bəyan etmək üçün işlətdikləri dua çağırışı – Sən Ey Cəlallılar Cəlallısı.

Nəhayət, biz insaflı olmalıyıq və etiraf etməliyik ki, bu Şərəfli Varlıq necə bir Müərəbbi olub, O, necə ecazkar əlamətlər zahir edib və Onun vasitəsilə necə bir güc və qüvvə aşkar olub bu dünyada.

## 10

## DANİEL PEYĞƏMBƏRİN KİTABINDAN GÖTÜRÜLMÜŞ ƏNƏNƏVİ SÜBUTLAR

Bu gün, süfrə arxasında, gəlin bir az sübutlardan danışaq. Əgər siz bu açıq-aşkar Nurun[1] zühuru günlərində bu mübarək yerə gəlmiş olsaydınız, əgər siz Onun hüzuruna müşərrəf olsaydınız və Onun nurlu camalını görsəydiniz, onda başa düşərdiniz ki, daha bundan sonra Onun təliminin və kamilliyinin sübuta ehtiyacı yoxdur.

Bir çox insanlar ancaq Onun hüzuruna daxil olmaq şərəfi əldə etməklə möhkəm etiqadlı mömin oldular; onlara başqa sübutlar lazım deyildi. Hətta o adamlar ki, Onu inkar edir və dərin nifrət edirdilər, Onunla görüşdükdən sonra Həzrət Bəhaullahın əzəmətinə şəhadət verər və deyərdilər, "Bu çox gözəl bir insandır, amma heyf ki, belə bir iddiası var. Belə olmasaydı, onun bütün dediklərini qəbul etmək olardı."

Ancaq indi, O Həqiqət Günəşi batdığından, hamı sübut istəyir; ona görə də biz Onun iddiasının doğruluğu üçün rasional sübutlar gətirmək niyyətindəyik. Biz ayrı bir sübut gətirəcəyik, hansı ki, tək bu, ədalətli olanlar üçün kifayət olacaq və heç kim onu inkar edə bilməyəcək. Bu odur ki, bu görkəmli Varlıq Öz Əmrini "Ən böyük Zindanda"[2] ucaltdı; bu Zindandan Onun nuru hər yana yayıldı, Onun şöhrəti dünyanı fəth etdi və Onun Cəlalının bəyanı Şərqə və Qərbə çatdı. Bizim dövrümüzə qədər belə şeylər heç vaxt olmayıb.

Əgər ədalət olsa, bu etiraf ediləcək; amma elə adamlar var ki, əgər dünyanın bütün dəlil-sübutlarını onun qabağına qoysan da belə, yenə də ədalətlə mühakimə etməyəcək!

Beləliklə millətlər və dövlətlər onların bütün gücü ilə Ona müqavimət göstərə bilmədilər. Həqiqətən, yalqız və təkbaşına, məhbus ikən və zülmə məruz qalaraq O, nə istəmişdisə, ona da nail oldu.

Mən burada Həzrət Bəhaullahın möcüzələrindən danışmaq istəməzdim, çünki deyə bilərlər ki, bunlar deyimlərdir, İncildə Həzrət İsaya aid edilən möcüzələr kimi burada doğru da ola bilər, yalan da – o möcüzələr ki, bizə başqa heç kimdən yox, məhz həvvarilərdən gəlib çatıb və yəhudilər də bunları inkar ediblər. Hətta mən Həzrət Bəhaullahın fövqəl-təbii hərəkətlərindən danışası olsam, onlar çoxdur; onlar şərqdə etiraf olunub, hətta qeyri-bəhailər tərəfindən belə. Lakin bu hekayələr hamıya qəti dəlil və sübut deyil; eşidən deyə bilər ki, bu deyilənlər əslində baş verənlə uyğun olmaya bilər, çünki bu məlumdur ki, başqa təriqətlərin ardıcılları da öz banilərinə möcüzələr aid

[1] Həzrət Bəhaullah.
[2] Əkka.

edirlər. Məsələn, Brahman ardıcılları möcüzələr danışırlar. Hansı əlamətə görə biz deyə bilərik ki, bu möcüzə doğrudur, ya o birisi yalandır? Əgər bunlar nağıldırsa, onda digərləri də nağıldır; əgər bunlar ümumilikdə qəbul olunursa, onda digərləri də ümumilikdə qəbul olunmlalıdır. Bu nəticəyə gəlirik ki, bu hekayələr qaneedici dəlillər deyildir. Bəli, möcüzələr ancaq gözlə görənlər üçün isbatdır, hətta o bunları möcüzə kimi deyil, sehirbazlıq kimi də qəbul edə bilər. Qeyri-adi şücaətlər bəzi sehrbazlara da aid edilir.

Qısası, mənim demək istədiyim odur ki, Həzrət Bəhaullah tərəfindən çox təəccüblü şeylər edilmişdir, amma biz onları təfsilatı ilə danışmaq istəmirik, çünki onlar yer üzündə yaşayan insanların hamısı üçün dəlil və sübut kimi sayılmır və hətta onları görənlər üçün həlledici dəlillər deyil: onlar fikirləşə bilərlər ki, bunlar sadəcə sehrbazlıqdır.

Həm də Peyğəmbərlərin haqqında danışılan möcüzələrin çoxunun daxili mənası vardır. Məsələn, İncildə yazılmışdır ki, Məsihin şəhid olduğu vaxt qaranlıq hökm sürürdü, yer silkələnirdi və Məbəddəki pərdə aşağıdan yuxarıyadək iki yerə parçalanmışdı və ölülər öz qəbirlərindən çıxmışdılar. Əgər bu hadisələr baş versəydi, onlar həqiqətən dəhşətə gələrdilər və bunlar o zamanın tarixində yazılmış olardı. Onlar ürəklərə çox çaşqınlıqlar gətirərdi. Ya əsgərlər Həzrət İsanı çarmıxdan düşürərdilər, ya da qaçıb canlarını qurtarardılar. Bu hadisələr barədə heç bir tarixi məlumatda danışılmır; ona görə də bu aydındır ki, onlar hərfi mənada qəbul edilməməlidir, sadəcə bunların daxili mənası vardır.[1]

Bizim məqsədimiz bu deyil ki, belə möcüzələri inkar edək; bizim bunları söyləməkdə niyyətimiz odur ki, bunlar həlledici dəlil deyil və onların gizli mənası var.

Buna uyğun olaraq, bu gün, bu süfrə arxasında, biz Müqəddəs Kitablarda olan ənənəvi dəlillərə istinad edəcəyik. İndiyədək biz nə demişdiksə, hamısı ancaq məntiqi sübutlardan ibarət idi.

Bir kimsənin ciddi surətdə həqiqəti axtardığı halət dirilik suyuna susamış yanan bir qəlbin, dənizə can atan balığın, ilahi şəfa əldə etmək üçün həqiqi həkim axtaran xəstənin, doğru yol axtaran azmış karvanın, nicat sahilinə yetişmək üçün cəhd edən yolunu itirmiş və sərgərdan qalmış bir gəminin halətidir.

Ona görə də axtaran kəs müəyyən qabiliyyətlərə malik olmalıdır. Hər şeydən əvvəl, o insaflı olmalı və Allahdan başqa hər şeydən əlini üzməlidir; onun ürəyi tamamilə ali üfüqə yönəlməlidir; o, eqoizm və ehtiras asılılığından, bütün bu maneələrdən azad olmalıdır. Bundan əlavə, o, bütün çətinliklərə tab gətirməlidir. O, tamamilə pak və təmiz olmalıdır, dünya sakinlərinin məhəbbət və ya nifrətindən azad olmalıdır. Niyə? Çünki onun bir şəxsə və ya bir şeyə olan məhəbbəti başqa birisində olan həqiqəti görməyin qarşısını ala bilər və eynilə də, hər hansı bir şeyə nifrət həqiqəti başa düşməyə mane ola bilər. Axtarmağın şərti budur və axtaran kəs bu keyfiyyət və xüsusiyyətlərə malik

[1] "Möcüzələr" başlığına baxın.

olmalıdır. Bu şərtlərə çatmayınca, Həqiqət Günəşinə çatmaq onun üçün mümkün deyildir.

İndi gəlin əsas mövzumuza qayıdaq.

Dünyada bütün insanlar iki Zühur gözləyirlər, hansı ki, eyni vaxtda gəlməlidirlər; hamı bu vədin yerinə yetməsini gözləyir. Bibliyada Yəhudilərə Qoşunlar Rəbbinin və Məsihin vədi verilib; İncildə isə İsanın və İliyanın qayıtması barədə vəd var.

Həzrət Məhəmmədin dinində Mehdi və Məsih barədə vəd var və bu Zərdüştün dinində və digər dinlərdə də vardır, amma əgər biz bu məsələləri təfsilatı ilə danışsaq, bu xeyli vaxt aparar. Mühüm fakt odur ki, hamıya iki Zühur vəd verilib, hansı ki, biri digərinin ardınca gələcəkdir. Öncədən xəbər verilmişdir ki, bu iki Zühurun gəldiyi zaman yer üzü dəyişəcək, mövcudat dünyası yeniləşəcək və varlıqlar yeni bir libas geyinəcəklər. Ədalət və həqiqət yer üzünü bürüyəcək; düşmənçilik və nifrət yox olacaq; xalqlar, irqlər və millətlər arasında ixtilafların səbəbləri aradan qalxacaq və birlik, harmoniya və razılıq meydana çıxacaq. Qafil oyanacaq, kor görəcək, kar eşidəcək, lal danışacaq, xəstə şəfa tapacaq və ölülər qalxacaq. Müharibə yerini sülhə verəcək, ədavət məhəbbətlə fəth olunacaq, mübahisə və dartışmaların səbəbləri tamamilə aradan götürüləcək və həqiqi səadət əldə ediləcək. Dünya İlahi Səltənətin güzgüsünə çevriləcək; bəşər Allahlıq Taxtı olacaq; bütün millətlər bir millət olacaq; bütün dinlər birləşmiş olacaq; bütün insanlar bir ailə və bir nəsil olacaq. Yer üzünün bütün diyarları bir diyar olacaq; bütün irqi, milli, fərdi, dil və siyasi təəssübkeşliklər yox olacaq; və bütün insanlar Qoşunlar Rəbbinin kölgəsi altında əbədi həyata qovuşacaq.

İndi biz Müqəddəs Kitablara istinad edib isbat etməliyik ki, bu iki Zühur gəlib və biz Peyğəmbərlərin sözlərinin mənasını açmalıyıq, çünki biz Müqəddəs Kitablardan götürülən dəlillər istəyirik.

Bir neçə gün bundan əvvəl, süfrə arxasında, bu iki Zühurun həqqaniyyətini təsdiq edən məntiqi dəlilləri ortaya qoyduq.

Yekunlaşdırmalı olsaq: Daniel peyğəmbərin kitabında müəyyən olunmuşdu ki, Yerusəlimin yenidən tikilməsindən Həzrət İsanın şəhidliyinə qədər yetmiş həftə keçəcək; çünki Həzrət İsanın şəhidliyi ilə qurbanlıq başa çatıb və qurbangah dağıdılıb.[1] Bu Həzrət İsanın zühurunun öncədən xəbər verilməsidir. Bu yetmiş həftə Yerusəlimin bərpasından və yenidən tikilməsindən başlayır və bu barədə üç padşah tərəfindən dörd fərman verilmişdir.

Birinci fərman Kir tərəfindən İ.D.-dan əvvəl 536-cı ildə verilmişdi; Bu Ezranın Kitabında birinci fəsildə yazılmışdır. İkinci fərman ki, Yerusəlimin yenidən tikilməsinə aiddir, İran şahı Dara tərəfindən İ.D-dan əvvəl 519-cu ildə verilmişdir. Bu da Ezranın Kitabında altıncı fəsildə yazılmışdır. Üçüncü fərman Artakserkses tərəfindən onun hökmranlığının yeddinci ilində, yəni İ.D.-dan əvvəl 457-ci ildə verilmişdi ki, bu da Ezranın kitabında yeddinci fəsildə yazılmışdır. Dördüncü də Artakserksesdəndir və İ.D.-dan əvvəl 444-cü ildə verilib və Nehemiyanın Kitabının ikinci fəslində yazılmışdır.

[1] Daniyel Peyğəmbərin Kitabı 9:24.

Lakin Daniel Peyğəmbər məhz üçüncü fərmanı qeyd edir, hansı ki, İ.D.-dan əvvəl 457-ci ildə verilmişdir. Yetmiş həftə dörd yüz doxsan günə bərabərdir. Hər gün, Müqəddəs Kitabın mətninə görə, bir ildir. Zira Bibliyada deyilmişdir: "Rəbbin günü bir ildir."[1] Ona görə də, dörd yüz doxsan gün dörd yüz doxsan il deməkdir. Artakserksesin üçüncü fərmanı Həzrət İsanın doğumundan əvvəl dörd yüz əlli yeddinci ildə verilmişdir və Həzrət İsa şəhid olub süud edəndə Onun otuz üç yaşı vardı. Siz otuz üçü dörd yüz əlli yeddinin üzərinə gəlsəniz, nəticə dörd yüz doxsan olacaq, bu o vaxtdır ki, Daniel Peyğəmbər Həzrət İsanın zühuru barədə elan etmişdi. Lakin Daniel Peyğəmbərin Kitabında doqquzuncu fəslin iyirmi beşinci ayəsində bu başqa bir şəkildə, yeddi həftə və altmış iki həftə kimi ifadə olunmuşdur; və bu aydındır ki, birinci deyimdən fərqlənir. Çoxları bu iki cümləni razılaşdırmağa çalışaraq bu fərqə görə çaşıb qalıblar. Necə ola bilər ki, bir yerdə yetmiş həftə doğru olsun, digər yerdə isə altmış iki və yeddi həftə? Bu iki deyim bir-birinə uyğun gəlmir.

Amma Daniel Peyğəmbər iki tarix göstərir. Bu tarixlərdən biri Artakserksesin Ezraya Yerusəlimi yenidən tikmək əmri ilə başlayır: Bu yetmiş həftədir ki, Həzrət İsanın süudu ilə başa çatır, o zaman ki, Onun şəhidliyi ilə qurbanlıq və fəda etmə sona yetdi.

İyirmi altıncı ayədə göstərilən İkinci dövr o deməkdir ki, Yerusəlimin yenidən tikilməsindən Həzrət İsanın süuduna qədər altmış iki həftə keçəcək: yeddi həftə Yerusəlimim yenidən tikildiyi müddətdir, hansı ki, qırx doqquz ilə başa gəldi. Siz bu yeddi həftəni altmış iki həftənin üstünə gələndə bu altmış doqquz həftə edir və son (69-70) həftədə Həzrət İsanın süudu baş verib. Bu yetmiş həftə beləcə başa çatıb və burada heç bir ziddiyyət yoxdur.

İndi ki, Həzrət İsanın zühuru Daniel Peyğəmbərin peyğəmbərlikləri ilə sübut olundu, onda gəlin Həzrət Bəhaullahın və Həzrət Babın zühurlarını da isbat edək. İndiyədək biz ancaq rasional dəlilləri xatırlatdıq; indi biz ənənəvi dəlillərdən danışmalıyıq.

Daniel Peyğəmbərin Kitabında səkkizinci fəsildə, on üçüncü ayədə, buyrulur: "Sonra mən bir müqəddəs danışanda eşitdim və başqa bir müqəddəs həmin o danışan müqəddəsə dedi, gündəlik qurban və viranedici asilik, ziyarətgahın və qoşunların tapdalanması barədə olan bu öngörmə hansı vaxtı əhatə edir. Və O cavab verdi (a.14): "İki min üç yüz gün; onda ziyarətgah təmizlənəcək"; (a.17) "Və o mənə dedi... bu vaxt zamanın sonuna aiddir. Bu o deməkdir ki, bu bədbəxtliklər, bu dağıntılar, bu zəlillik və tənəzzül nə zamana qədər sürəcək? Yəni, Zühur nə vaxt baş verəcək? Onda O cavab verdi, "İki min üç yüz gün; onda ziyarətgah təmizlənəcək." Xülasə, bu parçanın mənası budur ki, O, iki min üç yüz il müəyyən edib, çünki Bibliyanın mətninə görə, hər gün bir ildir. Onda Artakserksenin Yerusəlimin bərpası barədə fərmanın tarixindən Həzrət İsanın doğum tarixinə qədər dörd yüz əlli altı ildir və Həzrət İsanın doğumundan Həzrət Babın Zühuruna qədər 1844 il keçir. Bu ədədə 456 ili əlavə edəndə bu 2300 edir. Bu o deməkdir ki, Daniel Peyğəmbərin

[1] Baxın: Nömrə 14:34.

öngörməsi 1844-cü ildə yerinə yetir ki, bu da Daniel Peyğəmbərin Kitabının gerçək mətninə uyğun olaraq Həzrət Babın zühur etdiyi ildir. Baxın, o necə də dəqiq müəyyən edir zühur ilini; bu zühur üçün bundan daha aydın peyğəmbərlik ola bilməzdi.

Mattanın Kitabında, 24-cü fəsil, 3-cü ayədə Həzrət İsa aydın buyurur ki, Daniel Peyğəmbər bu peyğəmbərlikdə demək istədiyi zühurun tarixidir və həmin ayə belədir: "Həzrət İsa Zeytun dağında oturarkən şagirdləri təklikdə Onun yanına gəlib dedilər: "Bizə söylə görək, bu dediklərin nə zaman olacaq? Sənin gəlişinə və dünyanın sonuna əlamət nə olacaq?" Onlara cavabında Onun verdiyi izahatlardan biri bu idi a.15): "Beləliklə, Daniel Peyğəmbərin bəhs etdiyi, viranəlik gətirən iyrənc şeyin müqəddəs yerdə durduğunu gördüyünüz zaman (oxuyan anlasın)." Bu cavabda O, Daniel Peyğəmbərin Kitabının səkkizinci fəslinə istinad edirdi və deyirdi ki, bunu oxuyan hər kəs başa düşəcək ki, bu həmin o haqqında danışılan vaxtdır. Görün, Həzrət Babın zühuru Əhdi-Ətiqdə və İncildə necə də aydın bir şəkildə deyilib.

Yekunlaşdırmaq üçün, gəlin Həzrət Bəhaullahın zühuru tarixini Bibliyaya əsasən izah edək. Həzrət Bəhaullahın zühuru tarixi Həzrət Məhəmmədin Hicrətindən və Missiyasını elan etməsindən sonra ay təqvimi ilə hesablanır; çünki Həzrət Məhəmmədin dinində ay təqvimindən istifadə olunur, habelə ibadətin bütün hökmlərinə aid olan hər şey də ay təqvimi əsasında aparılır.

Daniel Peyğəmbərin Kitabında, 12-ci fəsil, 6-cı ayədə deyilir: "Və bir nəfər çaydakı suların üzərində dayanmış və kətan paltar geymiş kişiyə dedi ki, bu möcüzələrin sonu nə zaman çatacaq? Və mən çaydakı suların üzərində dayanan kətan geyimli kişidən eşitdim: o sağ əlini və sol əlini göyə qaldırdı, daima Yaşayana and içərək dedi, bu zamanın, zamanların və zamanın yarısının ərzində olacaq; və o zaman ki, O, müqəddəs xalqın gücünü dağıdacaq, onda bütün bunlar sona yetəcək."[1]

Mən artıq bir günün mənasını izah etdim və bunun davamını izah etmək zərurəti yoxdur; ancaq qısaca deyək ki, Atanın hər günü bir il hesab olunur və hər ildə də on iki ay var. Beləliklə, üç il yarım - qırx iki ay edir və qırx iki ayda da min iki yüz altmış gün var. Həzrət Bab, Həzrət Bəhaullahın Müjdəçisi, İslam təgviminə əsasən, Həzrət Məhəmmədin hicrətindən 1260 il keçəndən sonra zühur etdi.

Daha sonra, 11-ci ayədə, buyurulur: "Və o vaxtdan ki, gündəlik qurban yığışdırılacaq, və viranəlik olacaq, min iki yüz doxsan gün keçəcək. Xoş o kəsin halına ki, gözləyər və min üç yüz otuz beşinci günə çatar."[2]

Bu ay təqviminin başlanğıcı Həzrət Məhəmmədin Hicaz ölkəsində Öz peyğəmbərliyini elan etdiyi gündən hesablanır; və bu Onun missiyasından üç il sonra idi, çünki Həzrət Məhəmməd Öz peyğəmbərliyini əvvəlcə gizli saxlamışdı və bunu Xədicə və Nofəldən[3] başqa heç kəs bilmirdi. Üç ildən

[1] Daniyelin Kitabı 12:6-7.
[2] 11 və 12-ci ayələrə istinad.
[3] Varaqa ibn-Nofəl, Xədicənin əmisi oğlu.

sonra bu elan olundu. Və Həzrət Bəhaullah da, Həzrət Məhəmmədin missiyasının elanından 1290 il sonra Öz Zühurunu məlum etdi.[1]

## 11

## MÜQƏDDƏS YƏHYANIN VƏHYİNİN ON BİRİNCİ FƏSLİNİN İZAHI

Müqəddəs Yəhyanın Vəhyinin on birinci fəslində deyilir: "Və mənə əsaya oxşar bir qamış verilib deyildi: Dur, Allahın Məbədini və qurbangahı və orada səcdə edənləri ölç.

Lakin məbəddən kənarda olan həyəti burax, onu ölçmə; zira o bütpərəstlərə verildi: və onlar müqəddəs şəhəri qırx iki ay tapdalayacaqlar."

Bu qamış Kamil Şəxsdir ki, əsaya bənzədilib, bu cür bənzətmənin mənası budur: nə vaxt ki, qamışın içi boşdur və bütün içindəkilərdən azaddır, ondan gözəl səs çıxacaq; və çünki səs və melodiya əsadan deyil, fleytanı çalan şəxsdən gəlir, belə ki, o mübarək Varlığın pak ürəyi azaddır və Allahdan başqa hər şeydən arınmışdır, təmizdir və bütün insani şərtlərin yükündən azaddır və İlahi Ruhun yoldaşıdır. O, nə bəyan edirsə, Onun Özündən deyil, həqiqi fleyta çalandandır və bu ilahi ilhamdır. Məhz buna görə O, qamışa bənzədilib; və bu qamış əsa kimidir – yəni hər bir gücsüzə köməkdir, insana dayaqdır. Bu İlahi Çobanın çomağıdır ki, onunla O, Öz sürüsünü qoruyur və onları Mələkut otlağında otarır.

Sonra deyilir: "Mələk durdu, dedi: Dur və Allahın Məbədini, qurbangahı və orada səcdə edənləri ölç" – yəni müqayisə et və ölç: ölçü nisbətləri tapmaq deməkdir. Beləliklə mələk dedi: Allahın Məbədini, qurbangahı və orada dua edənləri müqayisə et – yəni, araşdır onların gerçək vəziyyətlərini, gör onlar nə səviyyədə və məqamdadırlar və hansı şərtlərə, kamilliklərə, davranış və münasibətlərə malikdirlər; Və Müqəddəslərin Müqəddəsində paklıq və qüdsiyyətlə sakin olan o müqəddəs ruhların sirlərinə vaqif ol.

"Lakin məbəddən kənar olan həyəti burax, onu ölçmə; zira bu bütpərəstlərə verildi: və onlar müqəddəs şəhəri qırx iki ay tapdalayacaqlar."

Həzrət İsadan sonra yeddinci əsrin əvvəlində Yerusəlim fəth olunanda, Müqəddəslərin Müqəddəsi, yəni Süleyman Peyğəmbərin tikdiyi ev zahirən qorunmuşdu, ancaq Müqəddəslərin Müqəddəsinin ətraf həyəti alınmış və bütpərəstlərə verilmişdi. "Və müqəddəs şəhəri onlar qırx iki ay tapdalayacaqlar" – yəni bütpərəstlər Yerusəlimi qırx iki ay idarə və nəzarət edəcəklər, bu da min iki yüz altmış gündür; hər gün də ilə bərabər olduğundan, hesabladıqda, bu min iki yüz altmış il edir ki, bu da Quranın dövrüdür. Çünki Müqəddəs Kitabın mətnində hər gün bir ildir; İezekiilin Kitabında dördüncü fəsil 6-cı ayədə deyilir: "Sən qırx gün İudinin evinin zülmünə məruz qalacaqsan: Mən hər günü sənə bir il təyin etmişəm."

---

[1] Həzrət Məhəmmədin Öz missiyasını elan etməsindən hesablanan 1290-cı il Hicrətdən sonra 1280-ci il idi və ya bizim eranın 1863-64-cü illəri idi. Məhz bu zaman, (1863-cü ilin apreli) Həzrət Bəhaullah Bağdaddan İstanbula yola düşərkən, ətrafında olanlara Özünün, Həzrət Babın müjdə verdiyi Kəs olduğunu bəyan etdi). Məhz bu bəyandır ki, bəhailər Rizvan Bayramı kimi qeyd edirlər, bu ad Həzrət Bəhaullahın şəhərin girəcəyindəki on iki gün ərzində qaldığı və Öz bəyanını etdiyi bağın adıdır.

Bu İslamın Dövrünü bildirir, yəni o zaman ki, Yerusəlim ayaqlar altında tapdanıb, bu o deməkdir ki, o öz cəlalını itirib, amma Müqəddəslərin Müqəddəsi 1260-cı ilə qədər qorunub, hifz olunub və ona ehtiram göstərilib. Bu min iki yüz altmış il Həzrət Babın, Həzrət Bəhaullahın "Qapı"sının Zühurunun peyğəmbərliyidir ki, Həzrət Məhəmmədin Hicrətindən 1260 il sonra baş verdi və min iki yüz altmış il keçdikdən sonra Yerusəlim, Müqəddəs Şəhər indi çiçəklənməyə başlayır, əhalisi artır və inkişaf edir. Yerusəlimi altmış il bundan əvvəl görənlər etiraf edərlər ki, bu şəhərin əhalisi necə artıb və necə çiçəklənir və necə bu şəhər yenidən şöhrətini qaytarıb.

Budur Müqəddəs Yəhyanın Vəhyinin ayələrinin zahiri mənası; amma onların başqa bir izahı və rəmzi mənası da var ki, bu da belədir: Allahın Qanunu iki hissəyə bölünür. Biri fundamental əsasdır ki, bütünlüklə ruhani şeylərdən ibarətdir, yəni, bu ruhani məziyyətlərə və ilahi keyfiyyətlərə istinad edir; bu dəyişilmir və ya ləğv olunmur: bu Müqəddəslərin Müqəddəsidir, hansı ki, Həzrət Adəmin, Həzrət Nuhun, Həzrət İbrahimin, Həzrət Musanın, Həzrət İsanın, Həzrət Məhəmmədin, Həzrət Babın və Həzrət Bəhaullahın Qanununun əsasıdır və daimidir və bütün peyğəmbərliklər dövründə bərqərar olmuşdur. Bu heç vaxt ləğv olunmayacaq, çünki bu ruhani həqiqətdir, maddi gerçəklik deyil; bu imandır, bilikdir, yəqinlikdir, ədalətdir, dindarlıqdır, möminlikdir, etibarlılıqdır, Allah sevgisidir, xeyirxahlıqdır, paklıqdır, inqitadır, itaətkarlıqdır, təvazökarlıqdır, səbrdir və səbatdır. Bu fəqirə şəfqət göstərir, məzlumu müdafiə edir, bədbəxtlərə əl tutur, yıxılanları qaldırır.

Bu ilahi keyfiyyətlər, bu əbədi hökmlər heç zaman aradan götürülməyəcək; xeyr, onlar qalacaq və əbədiyyətə qədər bərqərar olacaq. İnsanların bu məziyyətləri hər bir yeni tsikldə yeniləşəcək; çünki Allahın ruhani Qanununun hər bir tsiklinin sonunda, yəni, insan məziyyətləri – yox olur, ancaq forma qalır.

Belə ki, Yəhudilərin arasında, Musanın tsiklinin sonunda, hansı ki, Xristianlığın meydana çıxması ilə bir vaxta düşür, Allahın Qanunu aradan qalxmışdı, ancaq ruhsuz forma qalmışdı. Müqəddəslər Müqəddəsi onlardan qoparılmış, ancaq Yerusəlimin bayır həyəti – hansı ki, dinin forması kimi ifadə olunub – bütpərəstlərin əlinə keçmişdi. Eynilə də, Həzrət İsanın dininin, bəşərin ən böyük məziyyətləri olan fundamental təlimləri aradan getmişdi; onun forması din adamları və keşişlərin əlində qalmışdı. Buna oxşar olaraq da, Məhəmmədin dininin əsası itirilib, ancaq onun forması rəsmi üləmaların əlində qalıb.

Allahın Dininin bu əsasları, hansı ki, ruhanidir və bəşəriyyətin məziyyətlərini təşkil edir, ləğv edilə bilməz; onlara dəymək olmaz və onlar əbədidir və hər bir Peyğəmbərin tsiklində yenilənir.

Allahın Dininin maddi dünyaya aid olan və oruc, namaz, ibadət formaları, nigah və boşanma, köləliyin ləğvi, məhkəmə təhqiqatı, sövdələşmələr, qətlə görə təzminat (qan pulu), təcavüz, oğurluq və cana ziyanvurma – Allahın Qanununun maddi şeylərə aid olan bu ikinci hissəsi zamanın tələbinə uyğun olaraq hər bir peyğəmbərlik tsiklində dəyişilmiş və ya islah edilmişdir.

Xülasə, Müqəddəslər Müqəddəsi dedikdə nəzərdə tutulan ruhani Qanundur, hansı ki, heç vaxt dəyişməyəcək, islah edilməyəcək və ya ləğv olunmayacaq; və Müqəddəs Şəhər Maddi Qanun deməkdir ki, Müqəddəs Şəhər kimi təsvir olunub, və min iki yüz altmış il ayaqlar altında tapdalanmalı idi.

"Və Mən iki şahidimə güc verəcəyəm, onlar çula geyinib min iki yüz altmış gün peyğəmbərlik edəcəklər."[1] Bu iki şahidin biri Həzrət Məhəmməd, Allahın Elçisi, digəri isə həzrət Əlidir, Abu Talibin oğlu.

Quranda buyrulur ki, Allah Həzrət Məhəmmədə, Allah Eşçisinə deyir: " Biz Səni Şahid, yaxşı xəbərlər Müjdəçisi, Xəbərdar Edən etdik" – yəni Biz Səni şahid kimi, yaxşı müjdələr verən, Allahın qəzəbini çatdıran bir Kəs qərar verdik.[2] "Şahidliyin" mənası odur ki, yəni şahid o kəsdir ki, onun şəhadəti ilə şeylər yoxlanır. Bu iki şahidin hökmləri hər gün bir il olmaqla min iki yüz altmış il icra olunmalı idi. İndi, Həzrət Məhəmməd kök idi, həzrət Əli isə budaq, Həzrət Musa və Həzrət İsa Navvin kimi. Buyurulur ki, onlar "çula geyiniblər", zahirən onlar köhnə geyim geyiniblər, təzə geyim yox; başqa sözlə, əvvəlcə onlar insanların gözündə heç bir cah-cəlala malik olmayacaqdılar, nə də onların Dini yeni bir şəkildə meydana çıxacaqdı; zira Həzrət Məhəmmədin ruhani Qanunu İsanın İncildəki qanunlarına uyğundur və Onun maddi şeylərə aid olan qanunlarının çoxu Beş Kitabın qanunlarına uyğundur. Köhnə libasın mənası budur.

Sonra deyilir: "Yer üzünün Allahı qarşısında duran iki zeytun ağacı və iki şamdan bunlardır."[3] Bu iki ruh zeytun ağaclarına bənzədiliblər, çünki o zaman bütün çıraqları zeytun yağı ilə yandırırdılar. Məna o iki şəxsdir ki, onlardan Allahın dünyanın nurlanmasının səbəbi olan hikmətinin ruhu zahir olacaq. Allahın bu işıqları parlamalı və nur saçmalı idi; ona görə də onlar iki şamdana bənzədiliblər: şamdan işığın sakin olduğu yerdir ki, bundan da nur saçılır. Bu cür də hidayət işığı bu iki nurlu ruhdan parlamalı və yayılmalı idi.

Sonra deyilir: "Onlar Allahın qarşısında dayanıblar," bunun mənası odur ki, onlar Allahın xidmətindədirlər və Allahın Ərəbistan Yarımadasının köçəri ərəb tayfaları kimi yaratdıqlarını tərbiyə edirlər, o kəsləri ki, elə tərbiyə edilmişdilər ki, o zamanlar sivilizasiyanın ən yüksək dərəcəsinə çatdılar və onların şan-şöhrəti bütün dünyaya yayıldı.

"Və bir kim onlara zərər vurmaq istərsə, onların ağzından od püskürər və onların düşmənlərini məhv edər."[4] Bu o deməkdir ki, heç kəs onların qarşısında durmağa gadir deyildir, yəni bir kəs onların təlimlərini və qanununu alçaltmaq istəsə, onların ağzının söylədiyi elə həmin bu qanunla da onlar tutular və məhv edilərlər; onlara ziyan vurmağa, əks getməyə və onlara nifrət etməyə cəhd edən hər kəs onların ağzından qopan əmrlə məhv edilərlər. Və bu belə də oldu: onların düşmənlərinin hamısı məğlub oldu, pərən-pərən salındı və məhv edildi. Bunda Allah ən aşkar bir şəkildə onlara kömək oldu.

---

[1] Vəhy 11:13.
[2] Bu cümlə Quranın ərəb mətninin fars dilində olan tərcüməsindən sitat gətirilmişdir.
[3] Vəhy 11:4.
[4] Vəhydə 11:5

Daha sonra deyilir: “Onların göyü bağlamaq qüdrəti vardır ki, onların peyğəmbərlik etdikləri günlərdə yağış yağmasın,”[1] bunun mənası budur ki, öz dövrlərində onlar padşah kimidirlər. Həzrət Məhəmmədin hökm və təlimləri, həzrət Əlinin izah və şərhləri səmavi nemətlərdir; əgər onlar istəsələr bu neməti versinlər, bunu etməyə qadirdirlər. Əgər onlar bunu istəməsələr, yağış yağmaz: bu mənada yağış nemət və kəramət anlamındadır.

Sonra deyilir: “Onlar suyu qana döndərmək qüdrətinə malikdirlər”,[2] o deməkdir ki, Həzrət Məhəmmədin peyğəmbərliyi Həzrət Musanın peyğəmbərliyi ilə eynidir və həzrət Əlinin qüdrəti Həzrət İsa Navvinin qüdrəti kimidir: əgər onlar arzu etsəydilər, Nilin suyunu qana döndərərdilər, çünki bu halda söhbət Misirlilərdən və onları inkar edənlərdən gedir – yəni o şey ki, onların həyat mənbəyi idi, onların təkəbbürü və cahilliyi üzündən, onların ölüm səbəbinə çevrildi. Beləliklə, Fironun səltənəti, var-dövləti və qüdrəti və onun qövmü - o şeylər ki, millətin həyat mənbəyi idi, onların asiliyi, inkarçılığı və təkəbbürü üzündən ölüm, dağıntı, viranlıq, tənəzzül və yoxsulluq səbəbinə çevrildi. Buna görə də bu iki şahid millətləri məhv etmək qüdrətinə malikdirlər.

Sonra deyilir: “... nə zaman istəsələr yerə hər cür bəla ilə zərbə vurmaq qüdrətinə malikdirlər,” o deməkdir ki, onların həm də zəruri olan qüdrəti və maddi gücləri vardır ki, imansızları, zülmkar və zalımları tərbiyə etsinlər, çünki Allah bu iki şahidə həm daxili, həm də zahiri güc əta etmişdir ki, onlar çöl vəhşilərinə bənzər qəddar, qaniçən və zalım köçəri ərəbləri tərbiyə və islah etsinlər.

“Və onlar öz şahidliklərini bitirdikdən sonra”[3] o deməkdir ki, onlara hökm olunanı yerinə yetirdikdən sonra və Allahın Qanununu təsdiq edən və səmavi təlimləri təbliğ edən ilahi müraciəti çatdırandan sonra ruhani həyatın nişanələri qəlblərdə zahir olacaq və insan aləminin məziyyətlərinin nurları parıldayacaq və nəhayət ki, köçəri tayfalar arasında hərtərəfli inkişaf əmələ gələcək.

“Dibsiz quyudan çıxan yırtıcı onlarla vuruşacaq və onları məğlub edəcək və öldürəcək”:[4] bu yırtıcı Əməvilərdir ki, azğınlığın quyusundan qalxıb onlara hücum etdilər, Həzrət Məhəmmədin dini əleyhinə və həzrət Əlinin həqqaniyyəti əleyhinə qalxdılar – başqa sözlə, Allahın məhəbbətinə qarşı çıxdılar.

Deyilir, “Yırtıcı bu iki şahidə qarşı vuruşacaq”[5] – yəni, ruhani vuruşma olacaq, bu o deməkdir ki, yırtıcı bütün gücü ilə bu iki şahidin təlimlərinə, adətlərinə və təsisatlarına müxalif hərəkət edəcək, elə bir dərəcədə ki, bu iki şahidin gücündən xalqlar və tayfalar arasında yayılan məziyyətlər və kamilliklər tamamilə dağıdılacaq və heyvani xasiyyətlər və cismani ehtiraslar qalib çıxacaq. Ona görə də, onlarla vuruşan bu yırtıcı qalib gələcək – o deməkdir ki, bu yırtıcıdan gələn azğınlıq zülməti dünyanın üfüqündə qalxacaq

[1] Vəhy 11:6.
[2] Vəhy 11:6.
[3] Vəhy 11:7.
[4] Vəhy 11:7.
[5] Vəhy 11:7.

və bu iki şahidi öldürəcək – başqa sözlə, millətin arasında onların yaymış olduğu ruhani həyatı məhv ediləcək və Allahın Dinini ayaqlar altında tapdalamaqla ilahi qanunları və təlimləri tamamilə aradan götürəcəklər. Bundan sonra cansız bədəndən başqa heç nə qalmayacaq.

"Və onların cəsədləri məcazi dildə Sodom və Misir adlanan böyük şəhərin küçələrində səriləcəkdir, harada ki, bizim Rəbbimiz də çarmıxa çəkilib."[1] "Onların cəsədi" Allahın Dini deməkdir və "küçə" ictimai baxış anlamındadır. "Sodom və Misir"in, o yer, "harada ki, bizim Rəbbimiz çarmıxa çəkilmişdi", bu yer Suriyadır, daha doğrusu, Yerusəlimdir, harada ki, Əməvilər öz səltənətlərini qurmuşdular; Və məhz burada bu baş vermişdi ki, Allahın Dini və ilahi təlimlər ilk olaraq yox olmuşdu və bədən ruhsuz qalmışdı. "Onların cəsədi" Allahın Dinini ifadə edir, hansı ki, cansız ölü bədən kimi düşüb qalmışdı.

"Və bütün xalqlardan, qəbilələrdən, dillərdən və millətlərdən olan adamlar üç gün yarım onların cəsədinə baxacaq və cəsədlərin qəbirə qoyulmasına icazə verməyəcəklər."[2]

Əvvəlcə izah edildiyi kimi, Müqəddəs Kitabların terminologiyasına əsasən, üç gün yarım qırx iki aydır və qırx iki ay isə min iki yüz altmış gündür; və hər gün Müqəddəs Kitabın mətninə görə bir ili göstərir və bunun mənası min iki yüz altmış ildir ki, bu da Quranın dövrüdür, millətlər, tayfalar və xalqlar bu müddət ərzində onların bədənlərinə baxacaqlar – yəni onlar Allahın Dinini tamaşaya çevirəcəklər: onlar hətta onun ruhuna uyğun hərəkət etməsələr də, icazə verməyəcəklər ki, onların bədənləri - yəni Allahın Dini – qəbrə qoyulsun. Bu o deməkdir ki, zahirən onlar Allahın Dinindən yapışacaqlar və icazə verməyəcəklər ki, bu onların arasından tamamilə yox olub getsin, nə də onun bədəni bütünlüklə dağıdılsın və məhv edilsin. Xeyr, həqiqətdə, onlar onu atacaqlar, lakin zahirən onun adını və formasını qoruyacaqlar.

O "tayfalar, xalqlar və millətlər" Quranın kölgəsi altına toplaşanları göstərir, o kəslər ki, Əmrin və Allahın Qanunlarının zahirən tamamilə dağıdılmasına və məhv edilməsinə icazə vermirlər – çünki onlar namaz və oruca itaət edirlər – lakin Allahın Dininin təməl prinsiplərini, hansı ki, ilahi sirlərin bilgisindən doğan əxlaq və davranışdır - itirmişlər; irfan və Allah sevgisinin nəticəsi olan insanlıq aləminin məziyyətlərinin nuru sönüb; və zülm, əsarət, şeytani ehtiraslar və arzular qalib çıxıb; Allahın Qanununun bədəni cəsəd kimi min iki yüz altmış gün tamaşaya çıxarılıb, əgər hər günü bir il saysaq, elə bu dövr məhz Həzrət Məhəmmədin dövrüdür.

İnsanlar bu iki şəxsin qurduqları və Allahın Qanununun təməli olan hər şeyi əldən verdilər və insan aləminin bu dinin ruhu və ilahi nemət olan məziyyətlərini elə bir dərəcədə məhv etdilər ki, etibarlılıq, ədalət, məhəbbət, birlik, paklıq, müqəddəslik, inqita, və bütün digər ilahi keyfiyyətlər onlar üçün yox oldu. Dində ancaq namaz və oruc qaldı; bu şərait min iki yüz altmış il

[1] Vəhy 11:8.
[2] Vəhy 11:9.

davam etdi ki, bu da Furqanın müddətidir.[1] Sanki bu iki şəxs ölmüşdü və onların bədənləri ruhsuz qalmışdı.

"Və yer üzündə yaşayan insanlar onlar üçün sevinib şadlanacaq və bir-birlərinə hədiyyələr göndərəcəklər. Çünki bu iki peyğəmbər yer üzündə yaşayanlara işgəncə vermişdilər."[2] "yer üzündə yaşayan insanlar"ın mənası dünyanın başqa millət və irqləri, məsələn Avropa və uzaq Asiya xalqlarıdır, o kəslər ki, İslamın xüsusiyyətlərinin tamamilə dəyişdiyini, Allahın Qanununun unudulduğunu – məziyyətlərin, səy və şərəfin insanların arasından yox olduğunu, onların xasiyyətlərinin dəyişdiyini – gördükdə şad oldular və ona sevindilər ki, mənəviyyatın korlanması İslam ümmətini bürüyüb və nəticədə onlar başqa millətlərə məğlub olacaqlar. Belə də baş verdi. Baxın ki, qüdrətin zirvəsinə yetişən bu ümmət necə tənəzzül edib və indi necə əzilməkdədir.

Başqa millətlər "bir-birinə hədiyyələr göndərəcəklər," bu o deməkdir ki, onlar bir-birinə kömək edəcəklər, zira "bu iki peyğəmbər yer üzündə yaşayanlara işgəncə vermişdilər" – yəni, onlar başqa millətlərə və xalqlara üstün gəlmiş və onları fəth etmişdilər.

"Və üç gün yarımdan sonra Allahdan həyat ruhu onlara daxil oldu və onlar ayağa durdular və onları görənlərin üzərinə böyük bir qorxu düşdü."[3] Üç gün yarım, bizim əvvəllər izah etdiyimiz kimi, min iki yüz altmış ildir. O iki şəxs ki, onların bədənləri ruhsuz düşüb qalmışdı, Həzrət Məhəmmədin gətirdiyi və Əlinin yaydığı təlim və qanun idi ki, onların həqiqəti aradan getmişdi və yalnız forması qalmışdı. Onların bədəninə yenidən ruh gəldi – o deməkdir ki, o təməllər və təlimlər yenidən bərqərar oldu. Başqa sözlə, Allahın Dininin ruhaniyyəti maddiyyatla, məziyyətlər qüsurlarla əvəz olunmuşdu; Allah məhəbbəti nifrətlə, nur zülmətlə, ilahi keyfiyyətlər şeytani keyfiyyətlərlə, ədalət zülmlə, səmimiyyət riyakarlıqla, hidayət yol azmaqla, paklıq şəhvaniyyətlə əvəz olunmuşdu. Beləliklə, üç gün yarımdan sonra, yəni Müqəddəs Kitabların terminologiyasına görə, min iki yüz altmış ildən sonra, bu ilahi təlimlər, səmavi məziyyətlər, kamilliklər və ruhani kəramətlər Həzrət Babın zühur etməsi və Cənabi Quddusun sədaqəti ilə yeniləndi.[4]

Müqəddəs nəsimlər yayıldı, həqiqətin nuru parladı, həyatverici bahar fəsli gəldi və hidayət səhəri açıldı. Bu iki ölü bədən yenidən canlandı və bu iki böyük Şəxs – biri Bani, digəri yayan – iki şamdan kimi qalxdılar, çünki həqiqət işığı ilə dünyanı nurlandırdılar.

"Və o vaxt onlar göydən onlara: "Bura qalxın", deyən yüksək bir səs eşitdilər. Onlar da göyə bulud içində qalxdılar,"[5] bunun mənası odur ki, onlar qeyb aləmindən Allahın səsini eşitdilər: təlimlərin və müjdələrin çatdırılmasında etdiklərinizin hamısı kamil idi; siz Mənim Müraciətimi insanlara çatdırmısınız və Allahın nidasını ucaltmısınız və öz borcunuzu yerinə yetirmisiniz. İndi, Məsih kimi, siz öz həyatınızı Məhbub üçün fəda

---

[1] Quranın başqa adı, mənası Fərq deməkdir.
[1]Vəhy 11:10.
[3] Yəhyanın Vəhyi 11:11.
[4] Hacı Molla Məhəmməd Barfuruşi, Həzrət Babın ən əsas həvvarilərindən və Canlının Hərflərindən biri.
[5] Vəhy 11:12.

etməlisiniz və şəhid olmalısınız. Və o Həqiqət Günəşi[1] və o Hidayət Ayı,[2] hər ikisi, Məsih kimi, əzəmətli şəhidlik üfüqünə qalxdılar və Allahın Mələkutuna yüksəldilər.

"Və onların düşmənləri də onları gördülər,"[3] bunun mənası budur ki, onların düşmənlərinin çoxu, şəhidliyini gördükdən sonra onların məqamının yüksəkliyini və məziyyətlərinin ucalığını başa düşdülər və onların böyüklüyünə və kamilliyinə şəhadət verdilər.

"Və həmin o saatda böyük bir zəlzələ baş verdi və şəhərin onda biri çökdü. Bu zəlzələ zamanı yeddi min adam məhv oldu."[4]

Bu zəlzələ Həzrət Babın şəhid olmasından sonra Şirazda baş verdi. Şəhər dağıldı və çoxlu insanlar məhv oldular. Əvvəllər görünməmiş xəstəliklər, vəba, təchizatsızlıq, qida çatışmazlığı, aclıq və digər bəlalar da böyük təlaşa səbəb olmuşdu.

"Və qalanları isə qorxu içində olub, Göyün Allahına həmd etdilər."[5]

Fars əyalətində zəlzələ olanda sağ qalanların hamısı ağlayıb gecə-gündüz fəryad edirdilər və Allaha alqış söyləmək və dua etməklə məşğul idilər. Onlar elə narahat olmuş və qorxuya düşmüşdülər ki, gecələr nə yatır, nə də dincələ bilirdilər.

"İkinci bəla keçdi; və budur üçüncü bəla tezliklə gəlir."[6] Birinci bəla Məhəmməd Peyğəmbərin, Abdullanın oğlunun gəlişidir – Salam olsun Ona! İkinci bəla Həzrət Babdır - alqış və tərif olsun Ona! Üçüncü bəla Səma Qoşunları Rəbbinin və Vəd Olunmuşun Camalının nurunun zühuru günüdür. Bu məsələnin izahı, İeziikil peyğəmbərin kitabında on üçüncü fəsildə izah olunmuşdur, harada ki, deyilir: "Rəbbin sözü yenidən mənə nazil oldu və dedi: insan oğlu, peyğəmbərlik et və de, Rəbb Allah belə deyir; inildəyin, Bəlalıdır gün! Zira gün yaxındır, hətta Rəbbin günü belə yaxındadır."[7]

Ona görə də, bu dəqiqdir ki, bəla günü Rəbbin günüdür; zira o gün qafillər üçün vay günüdür, gunahkarlar üçün vay günüdür, cahillər üçün vaydır. Məhz buna görə deyilib: "ikinci bəla keçdi; və budur üçüncü bəla tezliklə gəlir!" Bu üçüncü bəla Həzrət Bəhaullahın Zühur günüdür, Allahın günüdür; və bu Həzrət Babın zühur etməsi gününə yaxındır.

"Və yeddinci mələk suru çaldı; və göydə əzəmətli səslər ucaldı: Dünyanın padşahlığı Rəbbimizin və Onun Məsihinin Padşahlığı oldu; və O, əbədi olaraq şahlıq edəcəkdir."[8]

Yeddinci mələk ilahi keyfiyyətlərə malik insandır ki, səmavi keyfiyyətlər və xasiyyətlə ayağa qalxacaqdır. Səslər elə ucalacaqdır ki, İlahi Zühurun aşkar olması izhar ediləcək və yayılacaq. Səma Qoşunları Rəbbinin zühuru günündə və Qüdrətlinin ilahi tsiklinin dövrü zamanı, hansı ki, bütün kitablarda və Peyğəmbərlərin yazılarında xatırlanıb – Allahın o günündə Ruhani və Səmavi Səltənət qurulacaq və dünya yeniləşəcək; xilqətin bədəninə yeni ruh

[1] Həzrət Bab.
[2] Cənab Quddus.
[3] Vəhy 11:12.
[4] Vəhy 11:13.
[5] Vəhy 11:13.
[6] Vəhy 11:4.
[7] İzaikil Peyğəmbərin Kitabı 30:1-3.
[8] Vəhy 11:15.

üfürüləcəkdir; ilahi bahar fəsli gələcək; mərhəmət buludları yağış yağdıracaq; həqiqət günəşi işıq saçacaq; həyatverici nəsim əsəcək; insanlıq aləmi yeni libas geyəcək; yer üzü uca cənnətə çevriləcək; bəşər təlim-tərbiyə alacaq; müharibələr, mübahisələr, ədavətlər, ziyankarlıqlar yox olacaq; dürüstlük, insaflılıq, sülh və Allaha ibadət meydana çıxacaq; birlik, sevgi və qardaşlıq dünyanı bürüyəcək; Və Allah əbədi olaraq hakimlik edəcək – bunun mənası budur ki, Ruhani və Əbədi Səltənət qurulacaq. Belədir Allahın Günü. Zira gəlib keçən bütün günlər Həzrət İbrahimin, Həzrət Musanın, Məsihin və ya digər Peyğəmbərlərin günləri idi; amma bu gün Allahın günüdür, çünki Həqiqət Günəşi özünün ən qızmarlığı və parlaqlığı ilə qalxacaq.

"Və Allahın qarşısında öz taxtında oturan iyirmi dörd ağsaqqal üzü üstə qapanıb, Allaha səcdə edərək dedilər: Ey Külli-ixtiyar, Var olan, Var olmuş və Var olacaq Rəbb Allah! Sənə şükr edirik ki, Sən Öz əzəmətli qüdrətini alıb padşahlıq etməyə başladın"[1]

Hər bir dövrdə mühafizlərin və müqəddəs ruhların sayı on iki olub. Belə ki, Yaqubun on iki oğlu olub; Musanın vaxtında tayfaların on iki başçısı vardı; Məsihin vaxtında on iki nəfər Həvvari vardı; Və Məhəmmədin dövründə on iki İmam vardı. Amma bu ən cəlallı zühurda onlar iyirmi dörddür, bütün başqalarının sayından iki dəfə çoxdur, çünki bu zühurun böyüklüyü bunu tələb edir. Bu müqəddəs ruhlar Allahın qarşısında özlərinin taxtında əyləşmişlər, yəni bu o deməkdir ki, onlar əbədi olaraq şahlıq edəcəklər.

Bu iyirmi dörd böyük şəxs, onlar əbədi şahlıq taxtında otursalar da, yenə də hər şeyi əhatə edən Zühura ibadət edirlər və onlar itaətkar və müti olmaqla belə söyləyirlər: "Sənə şükr edirik ki, Sən Öz əzəmətli qüdrətini alıb padşahlıq etməyə başladın." – yəni, Sən Özünün bütün təlimlərini izhar edəcəksən, Sən yer üzünün bütün xalqlarını Onun kölgəsinə toplayacaqsan və Sən bütün insanları bir çadırın altına gətirəcəksən. Baxmayaraq ki, bu Allahın Əbədi Səltənətidir və O, həmişə Səltənətə malik olmuş və malikdir, Səltənət burada Zühurun Özünü bildirir;[2] və O, bəşər dünyasının ruhu və əbədi həyatı olan bütün qanunları və təlimləri verəcək. Və o hər şeyi əhatə edən Zühur dünyanı müharibə və döyüşlə deyil, ruhani qüdrətlə fəth edəcək. O, bunu qılınc və ordu ilə deyil, sülh və sakitliklə edəcək; O, Səmavi Səltənəti müharibə gücü ilə deyil, həqiqi məhəbbət vasitəsilə bərqərar edəcək. O, bu ilahi təlimləri silah və qəddarlıqla deyil, mehribanlıq və möminliklə yayacaq. O, millətləri və xalqları elə tərbiyə edəcək ki, onların müxtəlif şəraitlərinə, fərqli adətlərinə və xüsusiyyətlərinə, din və irqlərinin müxtəlifliyinə baxmayaraq, onlar, Bibliyada deyildiyi kimi, qurd və quzu kimi, bəbir və çəpiş, südəmər körpə və ilan kimi yoldaş, dost və müttəfiq olacaqlar. İrqlərin ədavəti, dinlərin müxtəlifliyi və millətlər arasındakı maneələr tamamilə aradan qalxacaq və hamı Mübarək Ağacın altında kamil bir birliyə və barışa yetişəcək.

"Və millətlər qəzəbli idilər," çünki Sənin təlimlərin başqa xalqların arzularına zidd idi; "və Sənin qəzəbin gəldi"[3] - yəni, hamı aşkar bir itkiyə məruz qalacaq; çünki onlar Sənin hökmlərinə, nəsihətlərinə və təlimlərinə əməl etmirlər, onlar Sənin əbədi nemətindən məhrum qalacaqlar və Həqiqət Günəşinin nurundan pərdələnəcəklər.

---

[1] Vəhy 11:16-17.
[2] yəni, Onun ən tam zühuru.
[3] Vəhy 11:18.

"Və ölülərin mühakimə olunma vaxtı" o deməkdir ki, o vaxt yetişib ki, ölülər[1] – yəni o kəslər ki, Allahın məhəbbəti ruhundan məhrum qalıblar və müqəddəs əbədi həyatdan payları yoxdur - ədalətlə mühakimə olunacaqlar, yəni qalxıb haqq etdiklərini alacaqlar. O, onların necə aşağı bir mövcudluq səviyyəsində olmalarını və həqiqətdə onların ölümün əlində olmalarını nümayiş etdirməklə onların sirlərinin mahiyyətini aşkar edəcək.

"Sənin bəndələrinə, peyğəmbərlərinə, övliyalarına və Sənin ismindən qorxanlara, kiçiklərə və böyüklərə mükafatlarını verəcək"[2] – yəni, O, mömini sonsuz kəramətlə fərqləndirəcək, səma ulduzları kimi, əbədi şərəf üfüqündə onları parıldadacaq. O, onlara, insan aləminə işıq olan, hidayətə səbəb olan və İlahi Mələkutda əbədi həyat vasitəsi olan davranış və əxlaq əta etməklə yardım edəcək.

"Və yeri məhv edənləri məhv edəcək"[3]- yəni, O, biganəni tamamilə məhrum edəcək; zira korun korluğu üzə çıxacaq və görənlərin baxışı aşkar olacaq; günah əhlinin nadanlığı və biliksizliyi bilinəcək və hidayət olunan insanların bilik və hikməti aşkar olacaq; və nəticədə məhv edənlər məhv ediləcək.

"Və Allahın göydə olan Məbədi açıldı"[4], yəni səmavi Yerusəlim aşkar olunub və Müqəddəslərin Müqəddəsi gözə görünüb. Müqəddəslərin Müqəddəsi, hikmət sahiblərinin şərhinə görə, İlahi Qanunun və öncə izah edildiyi kimi, Rəbbin heç bir peyğəmbərinin tsiklində dəyişilməyən səmavi və həqiqi təlimlərinin cövhəridir. Yerusəlimin müqəddəsliyi Müqəddəslərin Müqəddəsi olan Allah Qanununun mahiyyətinə bənzədilib; və hökmlər, şərtlər, mərasimlər və maddi qaydalar Yerusəlim şəhəridir – məhz buna görə bu səmavi Yerusəlim adlandırılıb. Xülasə, necə ki, bu tsikldə Həqiqət Günəşi Allahın nurunu ən parlaq bir şəkildə parladacaq, ona gərə də, Allahın təlimlərinin mahiyyəti mövcudat dünyasında aşkar olacaq və cəhalət zülməti və bilik çatışmazlığı aradan qalxacaq. Bu dünya yeni bir dünyaya çevriləcək və nur hakim olacaq. Beləliklə, Müqəddəslərin Müqəddəsi meydana çıxacaq.

"Və Allahın göydə olan məbədi açıldı"[5], bunun mənası həm də odur ki, ilahi təlimlərin yayılması, bu səmavi sirlərin açılması və Həqiqət Günəşinin qalxması ilə uğur və çiçəklənmə qapıları bütün istiqamətlərdə açılacaq və xeyirxahlıq və səmavi xeyir-dua əlamətləri zahir olacaq.

"Və Onun məbədində Onun Əhdinin gəmisi peyda oldu"[6] - yəni Onun Misaq Kitabı Onun Yerusəlimində aşkar olacaq, Əhd Məktubu[7] tərtib olunacaq və Əhd və Misaqın mənası aydın olacaq. Allahın şöhrəti Şərqə və Qərbə yayılacaq və Allah Əmrinin bəyanı bütün dünyanı dolduracaq. Əhdi sındıranlar tənəzzül edəcək və pərən-pərən düşəcəklər, möminlər isə bəslənəcək və alqışlanacaqlar, çünki onlar Misaqın Kitabından tutublar və Əhddə möhkəm və dəyanətlidirlər.

[1] Vəhy 11:18.
[2] Vəhy 11:18.
[3] Vəhy 11:18.
[4] Vəhy 11:19.
[5] Vəhy 11:19.
[6] Vəhy 11:19.
[7] Həzrət Bəhaullahın əsərlərindən biri, burada O, açıq şəkildə Öz süudundan sonra hamının üz tutmalı olduqları həzrət Əbdül-Bəhanı göstərir.

“Və şimşəklər, səslər, göy gurultuları, zəlzələ və böyük dolu fırtınası oldu”, yəni Misaq Kitabının meydana çıxmasından sonra böyük tufan qopacaq və Allahın hirs və qəzəbinin şimşəyi çaxacaq və Əhdin sınmasının gurultusu qopacaq, şübhələr zəlzələsi olacaq, Əhdi pozanları əzab dolusu döyəcək və hətta o kəslər ki, imanlarını etiraf etmişlər, onlar da sınağa və imtahana düşəcəklər.

## 12

## İSAYA PEYĞƏMBƏRDƏN ON BİRİNCİ FƏSLİN ŞƏRHİ

İsaya peyğəmbərin kitabında 11-ci fəsildə, 1-dən 10-dək olan ayələrdə deyilir: “İeseyin nəslindən bir budaq meydana çıxacaq və bu Budaq öz kökü üstündə bitəcək: Və Rəbbin ruhu Onun üzərində olacaq, hikmət və anlayış ruhu, nəsihət və qüdrət ruhu, bilik və Allahdan qorxu ruhu; Və Allah xofunda O huşyar olacaq: və O, Öz gözlərinin görməsi ilə mühakimə etməyəcək, nə də öz qulaqlarının eşitməsi ilə məzəmmət edəcək: O, məhz ədalətlə fəqirləri mühakimə edəcək, dünyanın əzab çəkənləri haqda doğruluqla qərar verəcək: O, öz ağzının əsası ilə dünyanı sarsıdacaq və dodaqlarının nəfəsi ilə kafiri öldürəcək. Və ədalət onun belinin qurşağı olacaq və vəfa belini sarıyan kəmər olacaq. Qurd quzu ilə birlikdə yaşayacaq, bəbir çəpişlə bir yatacaq; və buzov və cavan aslan və öküz bir yerdə olacaq və balaca uşaq onları otaracaq. Və inək və ayı otarılacaq; onların balaları bir yerdə yatacaq və aslan öküz kimi saman yeyəcək. Və südəmər uşaq gürzənin yuvası üstündə oynayacaq və süddən kəsilmiş uşaq öz əlini gürzənin yuvasına uzadacaq. Mənim müqəddəs Dağımın heç yerinə ziyan vurmayacaq və onu məhv etməyəcəklər: zira yer Rəbbin biliyi ilə dolacaq, sular dənizi dolduran kimi.”

İesseyin nəslindən olan bu budaq doğru olaraq Məsihə aid edilə bilərdi, zira Yusif İesseyin, Davudun atasının törəmələrindən idi; amma Məsih Allahın Ruhundan dünyaya gəldiyi üçün O, Özünü Allahın Oğlu adlandırdı. Əgər O, belə etməsəydi, bu təsvir Ona aid edilərdi. Bundan əlavə, həmin o Budağın günlərində onun göstərdiyi baş verəcək hadisələr, əgər rəmzi olaraq şərh olunsa, Məsihin vaxtında yalnız bir hissəsi yerinə yetdi, hamısı yox; və əgər şərh hərfi mənada qəbul olunsa, onda bu əlamətlərin heç biri yerinə yetmədi. Misal üçün, bəbir və çəpiş, şir və buzov, uşaq və gürzə bir-biri ilə qurd və quzu kimi düşmən və ziddiyətli olan müxtəlif millətləri, xalqları, ədavətli və düşmən irqləri ifadə edən metafora və rəmzlərdir. Biz deyirik ki, onlar Həzrət İsanın ruhunun nəfəsi ilə razılıq və uyğunluq tapdılar, onlar canlandılar və birləşdilər.

Amma “Onlar Mənim müqəddəs Dağımın heç yerinə ziyan vurmayacaq və onu məhv etməyəcəklər, zira yer Rəbbin biliyi ilə dolacaq, sular dənizi dolduran kimi.” Bu şərtlər Həzrət İsanın zühuru dövründə həyata keçmədi, çünki bu günədək müxtəlif və ədavət aparan millətlər dünyada mövcuddur: Çox azı İsrailin Allahını qəbul edirlər, böyük əksəriyyəti isə Allahı tanımırlar. Eynilə də, Məsihin dövründə ümumdünya sülhü bərqərar olmadı, yəni düşmən və ədavətli millətlər arasında nə sülh, nə də barış vardı, çəkişmə və narazılıqlar ara vermirdi, razılıq və səmimiyyət meydana çıxmadı. Beləliklə, hətta bu gün,

xristian təriqət və millətlərinin özlərinin arasında düşmənçiliyə, nifrətə və ən qızğın ədavətə rast gəlinir.

Lakin bu ayələr sözbəsöz Həzrət Bəhaullaha aiddir. Eynilə də bu ecazkar tsikildə bu dünya dəyişəcək və insan dünyası sakitlik və gözəlliklə meydana çıxacaq. Dartışmalar, mübahisə və qətllər sülh, doğruluq və barışla əvəz olunacaq; sevgi və dostluq yaranacaq. Əməkdaşlıq və birlik bərqərar olacaq və sonda müharibənin tamamilə qarşısı alınacaq. Ən Müqəddəs Kitabın qanunları qüvvəyə minəndə, ixtilaf və mübahisələr millətlərin və ölkələrin ümumi tribunalı qarşısında mütləq ədalətlə son həllini tapacaq və baş qaldıran çətinliklər həll olunacaq. Dünyanın beş qitəsi bir qitə kimi olacaq, çoxsaylı millətlər bir millətə çevriləcək, yer üzü bir ölkə olacaq və bəşəriyyət tək icmaya çevriləcək. Ölkələr arasında münasibətlər – xalqların və icmaların qarışması, birləşməsi və dostluğu – elə bir səviyyəyə çatacaq ki, insan nəsli bir ailə və qohum kimi olacaq. Səmavi məhəbbətin işığı nur saçacaq, düşmənçilik və nifrətin zülməti yer üzündən qovulacaq. Ümumdünya sülhü öz çadırını yer kürəsinin tən ortasında quracaq və mübarək Həyat Ağacı böyüyəcək və elə qol-budaq atacaq ki, bütün Şərqin və Qərbin üzərinə kölgə salacaq. Güclü və zəif, varlı və yoxsul, qarşı-qarşıya duran təriqət və ədavət aparan millətlər – hansı ki, qurd və quzuya, bəbir və çəpişə, aslana və buzova bənzəyirlər – bir-birinə qarşı tam məhəbbətlə, dostluqla, ədalət və bərabərliklə rəftar edəcəklər, dünya elmlərlə, varlıqların sirlərinin gerçəkliyi haqda biliklə və Allahın biliyi ilə dolacaq.

İndi fikir verin, Həzrət Bəhaullahın tsikli olan bu böyük əsrdə elm və bilik necə tərəqqi edib, mövcudatın nə qədər sirləri açılıb, nə qədər böyük ixtiralar işıq üzü görüb və günbəgün sayı artmaqdadır. Tezliklə maddi elmlər və alimlik, habelə Allahı dərk etmək, elə tərəqqi edəcək və elə möcüzələr ortaya çıxaracaq ki, baxanlar heyrətə gələcəklər. O zaman İsayadakı “Yer Allahın biliyilə dolacaq” ayəsinin sirri tamamilə aşkar olacaq.

Onun da üzərində düşünün ki, Həzrət Bəhaullahın gəlişindən sonrakı qısa müddət ərzində, bütün ölkələrdən, millətlərdən və irqlərdən olan insanlar bu Əmrin kölgəsi altına girmişlər. Xristianlar, yəhudilər, zərdüştilər, buddistlər, hindlilər və müsəlmanlar-hamısı böyük dostluq və məhəbbətlə bir yerdə elə ünsiyyət edirlər ki, sanki bu insanlar, həqiqətən də, bir-birilə min illər ərzində qohumluq bağları ilə birləşiblərmiş; çünki onlar ata və oğul, ana və qız, bacı və qardaş kimidirlər. Bu, qurd və quzunun, bəbir və çəpişin, aslan və buzovun yoldaşlığının bir mənasıdır.

O Bənzərsiz Budağın (Həzrət Bəhaullahın) zühuru Günündə baş verməli olan böyük hadisələrdən biri də Allahın Bayrağının bütün millətlər arasında ucalmasıdır. Bununla o nəzərdə tutulur ki, bütün millətlər və tayfalar birlikdə bu İlahi Bayrağın altına yığışacaqlar, o Bayraq ki, Rəbbin Budağının Özündən başqa kimsə deyil və tək millətə çevriləcəklər. Din və təriqət ziddiyətləri, irqlərin və xalqların ədavəti, millətlər arasındakı fərqlər aradan qalxacaq. Bütün bəşər bir dinə mənsub olacaq, vahid etiqada malik olacaq, qarışıb bir irq olacaq və tək xalqa çevriləcək. Hamı bir ümumi vətəndə sakin olacaq ki, bu da planetin özüdür. Ümumdünya sülhü və barış bütün millətlər arasında reallaşacaq və O Bənzərsiz Budaq bütün İsraillliləri bir yerə toplayacaq, yəni bu tsikildə yəhudilər Müqəddəs Torpaqda toplanacaq və Şərqə və Qərbə, Cənuba və Şimala yayılmış yəhudilər bir yerə toplaşacaqlar.

İndi baxın: bu hadisələr Məsihin dövründə baş vermədi, çünki millətlər İlahi Budaq olan Bir Bayrağın altına gəlmədilər. Amma Səma Qoşunlarının Rəbbinin bu dövründə bütün millətlər və xalqlar bu Bayrağın altına daxil olacaqlar. Eynilə də, bütün dünyaya səpələnmiş İsrail övladları, Xristianlıq dövründə Müqəddəs Torpağa yenidən qayıdıb toplaşmadılar; lakin Həzrət Bəhaullahın dövrünün əvvəlində bu ilahi vəd, Peyğəmbərlərin bütün Kitablarında göstərildiyi kimi, yerinə yetməyə başladı. Siz görə bilərsiniz ki, dünyanın hər yerindən yəhudi icmaları Müqəddəs Torpağa gəlirlər; onlar kəndlərdə və mülklərdə yaşayır və onlara sahib çıxırlar və günbəgün onların sayı o dərəcədə artır ki, tezliklə bütün Fələstin onların evi olacaq.

## 13

## MÜQƏDDƏS YƏHYANIN KİTABININ ON İKİNCİ FƏSLİNİN ŞƏRHİ

Müqəddəs Şəhərin tez-tez hansı mənalarda işləndiyini Öncə biz izah etmişdik. Müqəddəs Kitabda xatırlanan Allahın Yerusəlimi Allahın Qanunudur. Bu bəzən gəlinə, bəzən Yerusəlimə və bəzən də yeni səmaya və yeni yerə bənzədilib. Beləliklə, Müqəddəs Yəhyanın Kitabının 21-ci fəslində 1, 2 və 3-cü ayələrdə deyilir: “Sonra mən, yeni bir səma və yeni bir yer gördüm. Zira əvvəlki səma və əvvəlki yer keçdi; dəniz də artıq yoxdur. Və mən müqəddəs şəhəri, yeni Yerusəlimi gördüm. O, öz əri üçün hazırlaşmış bəzəkli bir gəlin kimi göydən, Allahın yanınan enirdi.Taxtdan yüksək bir səs eşitdim. Deyirdi: “Budur, Allahın çadırı insanlarla bərabərdir və O, onlarla bərabər yaşayacaqdır. Onlar Onun xalqı olacaq və Allahın Özü onlarla olacaqdır.”

Baxın, necə aydın və aşkardır ki, əvvəlki səma və yer əvvəlki Qanun mənasındadır. Çünki deyilmişdir ki, əvvəlki səma və yer gəlib keçib və orada daha dəniz yoxdur – bunun mənası odur ki, Yer mühakimə yeridir və bu mühakimə yerində dəniz yoxdur, yəni Allahın təlimi və Qanunu bütünlüklə yer üzünə yayılacaq və bütün insanlar Allahın əmrinə daxil olacaqlar və yer üzü tamamilə möminlərin məskəni olacaq; ona görə də, orada daha dəniz olmayacaq, çünki insanların sakin olduğu və məskən saldığı yer ancaq quru torpaqdır. Başqa sözlə, bu dövrdə həmin bu Qanun insanların səadət yeri olacaq. Belə yer möhkəmdir; onun üzərində ayaq sürüşməz.

Allahın Qanunu həm də Müqəddəs Şəhər, Yeni Yerusəlim kimi təsvir olunub. Bu aşkardır ki, səmadan gələn bu Yeni Yerusəlim daşdan, palçıqdan, kərpicdən, torpaq və taxtadan tikilmiş bir şəhər deyildir. Bu Allahın Qanunudur ki, səmadan gəlir və yeni adlandırılıb, çünki bu aydındır ki, daşdan və torpaqdan olan Yerusəlim səmadan gəlmir və bu təzələnmir; amma təzələnən Allahın Qanunudur.

Allahın Qanunu həmçinin Müqəddəs Yəhyanın kitabının 21-ci fəslində ən gözəl zinətlə bəzənib meydana çıxan gəlinlə müqayisə edilib: “Və mən, Yəhya, müqəddəs şəhəri, yeni Yerusəlimi gördüm. O, öz əri üçün hazırlanmış bəzəkli bir gəlin kimi göydən, Allahın yanından enirdi.”[1] Və on ikinci fəsildə,

[1] Vəhy 21:2.

1-ci ayədə, deyilir: “Və göydə böyük bir əlamət, günəşə bürünmüş ayaqları altında ay və başı üstündə on iki ulduzdan ibarət olan bir qadın peyda oldu.” Bu qadın həmin o gəlindir, Allahın Qanunudur ki, Həzrət Məhəmmədə nazil olmuşdu. Onun büründüyü günəş, onun ayaqları altında olan ay iki millətdir ki, Qanunun kölgəsi altındadırlar, bunlar İran və Osmanlı hökmdarlıqlarıdır; çünki İranın emblemi günəş, Osmanlı imperiyasınınkı isə ayparadır. Beləliklə günəş və ay bu iki səltənətin emblemləridir ki, Allahın Qanunu altındadırlar. Sonra deyilir: “onun başı üstündə on iki ulduzdan ibarət tac vardı.” Bu on iki ulduz on iki İmamdır, o kəslər ki, Həzrət Məhəmmədin Qanununun yayıcıları və xalqların tərbiyəçiləri idilər və hidayət səmasında ulduz kimi parlayırdılar.

Sonra ikinci ayədə deyilir: “və O, hamilə idi, ağrı və əziyyət çəkib bağırırdı ki, doğsun”, yəni bu Qanun çox böyük çətinliklərə düçar oldu və kamil bir pöhrə törəyənə qədər böyük iztirab və bəlalara məruz qaldı – bu o deməkdir ki, gələn Zühur, Vəd olunmuş Kəs, O Kəs ki, Kamil Pöhrədir, O Kəs ki, anasının ağuşunda olduğu kimi bu Qanunun ağuşunda bəslənmişdi. Burada haqqında danışılan uşaq Həzrət Babdır, İlkin Nöqtə, O Kəs ki, doğrudan da Həzrət Məhəmmədin Qanunundan doğulmuşdu, yəni bu Müqəddəs Mahiyyət, O Kəs ki, uşaqdır və Onun Anası olan Allahın Qanununun törəməsidir və O Kəs ki, həmin dində Vəd verilmişdir, o Qanunun səltənətində həyata gəlmişdi; lakin əjdahanın zülmündən bu uşaq Allaha yüksəlmişdi. Min iki yüz altmış ildən sonra əjdaha məhv edildi və Allahın Qanununun uşağı, Vəd Olunmuş Kəs zühur etdi.

3 və 4-cü ayələrdə “Və göydə başqa bir əlamət peyda oldu; budur yeddi başı və on buynuzu və başları üzərində yeddi tacı olan böyük qırmızı bir əjdaha; Onun quyruğu göy ulduzlarının üçdə birini sürüyürdü. Onları yer üzərinə atdı.”[1] Bu əlamətlər Həzrət Məhəmmədin dinində hökmdarlıq edən Əməvilər sülaləsinə işarədir. Yeddi baş və yeddi tac Əməvilərin hakim olduğu yeddi ölkə və səltənət deməkdir: bunlar Dəməşq ətrafında olan Rum əyalətləri; Afrika əyalətləri, yəni Tunis, Mərakeş və Əlcəzair, İran, Ərəb və Misir hökmdarlıqları; Andalus, yəni indiki İspaniya; və Türklərin Transoksaniyadakı vilayətləri. Əməvilər bu ölkələr üzərində hakim idilər. On buynuz isə Əməvilərin on hökmdarının adlarıdır – yəni, təkrarlanan adlar nəzərə alınmazsa, on sərkərdə və hakimin adlarını bildirən on hökmdarın adı vardır – birincisi Əbu Süfyan, sonuncusu isə Mərvandır, lakin onlardan bir neçəsi eyni adı daşıyırlar. Beləliklə iki Müaviyə, üç Yəzid, iki Vəlid və iki Mərvan olubdur; lakin təkrarlananlar sayılmasa, on ad alınar. Əməvilərin birincisi olan Əbu Süfyan Məkkənin əmiri və Əməvilər sülaləsinin başçısı idi, sonuncusu olan Mərvan Həzrət Məhəmmədin nəslindən olan səma ulduzlarına bənzər müqəddəs insanların üçdə bir hissəsini məhv etdi.

Ayə 4-də “Və əjdaha doğmaq üzrə olan qadının önündə durdu ki, o, doğan kimi onun uşağını udsun.”[2] Öncə izah etdiyimiz kimi, bu qadın Allahın Qanunudur. Əjdaha qadının qarşısında durmuşdu ki, uşağı udsun və bu uşaq da vəd olunmuş Zühur idi, Həzrət Məhəmmədin Qanununun törəməsi. Əməvilər həmişə gözləyirdilər ki, Həzrət Məhəmmədin nəslindən gələn Vəd Olunmuş Kəsi tutsunlar və onu həlak və məhv etsinlər; çünki onlar vəd

[1] Vəhy 12:3-4.
[2] Vəhy 12:4.

olunmuş Zühurun meydana çıxmasından qorxurdular və ona görə də Həzrət Məhəmmədin nəslindən hörmətə malik ola biləcək hər kəsi öldürmək fürsəti axtarırdılar.

Beşinci ayədə: “Və o bütün millətləri dəmir çomaqla otaracaq bir oğlan uşağı doğdu.” Bu əzəmətli oğul vəd olunmuş Zühurdur, O Kəs ki, Allahın Qanunundan doğulmuşdu və ilahi təlimlərin qoynunda bəslənmişdi. Dəmir çomaq hakimiyyət və qüdrət rəmzidir – bu qılınc deyil – və o deməkdir ki, O, ilahi hakimiyyət və qüdrətlə bütün yer üzü millətlərini otaracaqdır. Bu oğul Həzrət Babdır.

5-cı ayədə: “Və onun oğlu Allahın yanına, Onun taxtının qarşısına götürüldü.” Bu Həzrət Babın haqqında olan peyğəmbərlikdir, O Kəs ki, səmavi səltənətə, Allahın Taxtına və Onun Səltənətinin mərkəzinə yüksəldi. Baxın, bütün bunlar baş verənlərlə necə də uyğun gəlir.

6-cı ayədə, “Və qadın səhraya qaçdı” – yəni, Allahın Qanunu səhraya qaçdı – bu Hicaz səhrası, Ərəbistan Yarımadası deməkdir.

6-cı ayədə, “Onun orada Allah tərəfindən hazırlanmış yeri vardır.”[1] Ərəbistan Yarımadası Allahın Qanunun məskəni, sakin olduğu yer və mərkəzi oldu.

6-cı ayədə: “onu orada min iki yüz altmış gün bəsləsinlər.” Müqəddəs Kitabın terminologiyasına görə, min iki yüz altmış gün min iki yüz altmış ildir ki, Allahı Qanunu Ərəbistan çölündə, böyük səhrada bərqərar olmuşdu və buradan Vəd Olunmuş gəldi. Min iki yüz altmış ildən sonra, o zaman ki, Qanun daha təsirə malik olmayacaq, çünki həmin ağac artıq meyvə verəcək və nəticə əldə olunacaq.

Baxın, bu peyəmbərliklər necə də bir-birinə uyğun gəlir. Apokalipsisdə Vəd olunmuşun aşkara çıxması qırx iki aydan sonraya təyin olunub, Daniel Peyğəmbər isə bunu üç və yarım zamanla ifadə edir, hansı ki, bu da qırx iki aydır və bu da öz növbəsində min iki yüz altmış gündür. Yəhya Peyğəmbərin Kitabının başqa bir parçasında aydın şəkildə bildirilir ki, bu min iki yüz altmış gündür və Müqəddəs Kitabda deyilir ki, hər gün bir il deməkdir. Peyğəmbərliklərin bu cür uyğunluğundan başqa heç nə bu qədər aydın ola bilməz. Həzrət Bab, İslam təqviminin başlanğıcı olan Həzrət Məhəmmədin hicrətindən min iki yüz altmış il sonra zühur etdi. Müqəddəs Kitablarda heç bir başqa Zühur haqqında bu qədər aydın dəlillər yoxdur. İnsaflı olan kəs üçün, bu Böyük Peyğəmbərlərin göstərdiyi bu zamanların uyğunluğu ən inandırıcı dəlildir.

Bu peyğəmbərliklərin başqa cür şərhi mümkün deyildir. Həqiqəti axtaran ədalətli ruhlar nə bəxtiyardır. Amma ədalət olmayanda insanlar sübutları nəzərə almaq istəmirlər, mübahisə edir və açıqcasına onları rədd edirlər, necə ki, fariseylər Məsihin zühuru zamanı inadla Məsihin və Onun həvvarilərinin izahlarını rədd edirdilər. Onlar: “Bu peyğəmbərliklər İsanı nəzərdə tutmur, Bibliyada xatırlanan şərtlərə görə, bunlar sonra gələcək Vəd Olunmuş üçündür.”- deyərək Məsihin əmrini cahil xalq qarşısında bədnam etdilər. Bu şərtlərdən bəziləri bu idi ki, O, səltənətə malik olmalıdır, Davudun taxtında oturmalıdır, Tövratın Qanununu həyata keçirməlidir və elə bir ədalət nümayiş etdirməlidir ki, qurd və quzu bir çeşmədən su içməlidirlər.

---

[1] Vəhy 12:6.

Beləliklə onlar Həzrət İsanı  tanımaqda insanlara  mane oldular.

***Qeyd:*** *Bu son söhbətdə həzrət Əbdül-Bəha yəhudilərin, xristianların və müsəlmanların apokaliptik peyğəmbərliklərinin fövqəl-təbii xarakterini nümayiş etdirmək deyil, onların uyğunluğunu yeni şərhdə göstərmək istəyirdi. Peyğəmbərlərin qüdrətilə bağlı "İlahi Zühurların biliyi"nə (səh.157) və "Ruhlarla əlaqə və ünsiyyət"-ə (səh.251) istinad edin (ingilis dilində).*

## 14

## RUHANİ  DƏLİLLƏR

Bu maddi dünyada zaman tsikillərə bölünür; yer öz görünüşünü fəsillərin dövr etməsi ilə dəyişir və ruhlar da tərəqqi və ya tənəzzül edir və ya tərbiyə olunurlar. Bir vaxt yaz gəlir; başqa bir vaxt payız fəsli olur və öz növbəsində yenə görürsən yay fəslidir, ya da qış fəsli.

Yaz fəslində buludlar bərəkətli yağışlar yağdırır, müşk ətirli nəsimlər və canlandırıcı yellər əsir; havanın istiliyi mülayim olur və yağmurlar yağır, Günəş şəfəq saçır, nemətverici küləklər buludları qovur, həyat təzələnir, bitkilərdə, heyvanlarda və insanlarda həyat ruhu oyanır. Yerdə olan məxluqat yeni bir vəziyyətə keçir. Hər şey yeni libasa bürünür və qara torpaq bitkilərlə örtülür; dağlar və düzlər yaşıllıqlarla bəzənir; ağaclar yarpaqlayır və çiçək açır. Bağçalarda güllər və ətirli bitkilər xoş rayihələr yayır. Dünya başqa bir dünyaya çevrilir və həyatverici ruh əldə edir. Yer cansız bir bədən kimi idisə, indi o yeni həyat əldə edir və sonsuz gözəllik, cazibədarlıq və təravətlə üzə çıxır. Bahar beləcə yeni həyat gətirir və yeni ruh oyadır.

Sonra yay gəlir, bu zaman havanın hərarəti yüksəlir, böyümə və inkişaf özünün ən yüksək səviyyəsinə çatır. Bitkilər aləmində həyat enerjisi zirvəyə çatır, meyvələr yetişir və məhsul yığımı vaxtı gəlir; sünbüllərdən dərz bağlanır və qışa tədarük görülür. Bundan sonra qızğın payız gəlir, o zaman ki, həlakedici və bəhrəsiz yellər əsir; bu xəstəliklər fəslidir, bu zaman hər şey saralıb-solur və ətir qoxan havadan əsər-əlamət qalmır. Bahar nəsimləri payız yelləri ilə əvəz olunur; Bəhrəli yaşıl ağaclar saralır və çılpaqlaşır. Çiçəklər və ətirli güllər solub gedir; gözəl bağça torpaq yığınağına çevrilir. Bunun ardınca öz soyuğu və çovğunu ilə qış gəlir. Bu zaman qar, yağış, dolu yağır, çovğun olur, vıyıldayan küləklər əsir və boran olur, hər şey üşüyür, büzüşür və donur; bütün bitkilər ölür, heyvanlar zəifləyir və arıqlayır.

Bu fəsil başa çatandan sonra yenə həyatverici bahar qayıdır və tsikl yenidən başlanır. Bahar təravət və gözəlliyi ilə düzlərdə və dağlarda böyük cah-cəlal və büsatla öz səltənətini qurur. Və yenə də bütün canlılar canlanır və xilqət aləmi yenilənir; varlıqların bədəni böyüyür və inkişaf edir, düzlər və çöllər bol yaşıllıqlarla örtülür, ağaclar çiçək açır və keçən ilin baharı tamamilə eyni cəlalla qayıdır. Belədir və belə də olmalıdır mövcudatın tsikli və ardıcıllığı. Maddi dünyanın tsikli və dövranı belədir.

Peyğəmbərlərlə bağlı ruhani dövran da buna bənzəyir – yəni Müqəddəs Zühurların gəlişi ruhani bahar fəslidir; bu ilahi cəlaldır; bu səmavi bir nemətdir, həyat nəfəsidir, Həqiqət Günəşinin çıxmasıdır. Ruhlar canlanır; könüllər təravətlənir və ruhlanır; qəlblər daha xeyirxah olurlar; mövcudat

hərəkətə gəlir; insanın ruhu şadlanır, kamil keyfiyyət və kamilliklərlə böyüyüb inkişaf edir. Ümumi tərəqqi əldə olunur və yenidən canlanma baş verir, çünki bu gün dirilmə günüdür, oyanış və qalxma vaxtıdır, zövq, səfa və şadyanalıq zamanıdır.

Bundan sonra həyatverici bahar bəhrəli yayın başlaması ilə sona yetir. Allahın kəlamı ucalmışdır, Allahın Qanunu bəyan edilmişdir; bütün şeylər kamilliyə çatmışdır. Səma süfrəsi sərilmişdir, müqəddəs nəsimlər Şərqə və Qərbə ətirlər yayır, Allahın təlimləri dünyanı fəth edir, insanlar maarifləniblər, tərifəlayiq nəticələr meydana çıxıb, bəşər aləmində ümumi tərəqqi görünür və ilahi kəramət hər şeyi əhatə edib. Həqiqət Günəşi Səltənət üfüqündən ən böyük qüdrət və hərarətlə qalxıb. Ən yüksək zirvəyə çatanda o artıq meyl edir və enməyə başlayır və bu zaman ruhani yay payızla əvəz olunur, o zaman ki, böyümə və inkişaf dayanır. Nəsimlər viranedici yellərlə əvəz olunur və bu solğun fəsil bağların, düzənliklərin və bağçaların təravət və gözəlliyini dağıdır – yəni cazibə və xeyirxahlıq qalmır, ilahi keyfiyyətlər dəyişir, ürəklərin nuru tutqunlaşır, qəlblərin ruhaniyyəti təhrif olunur, məziyyətlər qüsurlarla əvəz olunur, müqəddəslik və paklıq yox olur. Ancaq Allahın Dininin adı və ilahi təlimlərin zahiri forması qalır. Allahın Dininin əsasları məhv edilmiş və aradan qaldırılmışdır, qalan ancaq forma və adətlərdir. Təfriqələr meydana gəlmiş, möhkəmlik qeyri-sabitliyə çevrilmiş, ruhlar ölmüşdür; ürəklər solur, qəlbləri ətalət basır və qış gəlir - yəni, cahilliyin soyuğu dünyanı bürüyür və insanların günahlarının zülməti hakim olur. Bundan sonra laqeydlik, itaətsizlik, vecsizlik, avaralıq, alçaqlıq, heyvani instinktlər, soyuqqanlılıq, daşürəklilik başlayır. Bu qış fəslinə bənzəyir, o zaman ki, yer kürəsi günəşin istisindən məhrum qalır, cansız və tutqun olur. O zaman ki, əql və fikir dünyası belə bir vəziyyətə çatır, onda yalnız davamlı ölüm və sonsuz yoxluq qalır.

Qış fəsli öz təsirini göstərəndən sonra ruhani bahar yenidən qayıdır və yeni tsikl başlayır. Ruhani nəsimlər əsir, nurlu səhər şəfəq saçır, ilahi buludlar yağış yağdırır, Həqiqət Günəşinin şüaları parlayır, fani dünya yeni həyata daxil olur və gözəl libasa bürünür. Keçən baharın nişanələri və bəxşişləri yenidən, bəlkə də daha böyük bir cəlalla meydana çıxır.

Həqiqət Günəşinin ruhani tsiklləri maddi günəşin tsikllərinə bənzəyir: onlar daim dövran edir və yenilənir. Həqiqət günəşinin də, maddi günəş kimi, bir neçə doğma və çıxma nöqtəsi vardır: bir gün o Xərçəng bürcündən çıxır, başqa bir gün isə Tərəzi və ya Dolça bürcündə çıxır. Digər bir gün də Qoç bürcündən öz şəfəqlərini yayır. Lakin günəş həmin günəşdir və həmin həqiqətdir; arif adamlar günəşin özünün aşiqləridir, daha onun haradan çıxmasının və üfüqə qalxmasının əsiri deyillər; ona görə də onlar Günəşə onun hansı bürcdən çıxmasından asılı olmayaraq heyrandırlar və onlar Həqiqəti Onun zühur etdiyi hər bir Müqəddəs Qəlbdə axtarırlar. Belə insanlar həmişə həqiqətə çatırlar və İlahi Dünyanın Günəşindən pərdələnmirlər. O halda günəşin aşiqi və nur axtaran həmişə günəşə üz tutacaq, fərqi yoxdur, bu günəş Qoç bürcündən parlayır, yoxsa Xərçəng bürcündən öz səxavətini bəxş edir, ya da ki, Əkizlər bürcündən şəfəq saçır; cahillər və geri qalmışlardır ki, bürclərin əlamətlərinə aşiq olurlar və günəşin özünə deyil, onun doğduğu yerə bağlanırlar. Günəş bu Xərçəng bürcündən çıxanda ona tərəf döndülər, ancaq sonra günəş Tərəzi bürcünə tərəf döndü; çünki onlar əlamətə aşiq olmuşdular,

o üzdən də ona tərəf döndülər və ona bağlandılar və günəşin təsirindən məhrum qaldılar, sadəcə ona görə ki, o yerini dəyişmişdi. Məsələn, bir dəfə Həqiqət Günəşi öz şüalarını Həzrət İbrahimin nişanəsi altında saçdı, sonra Həzrət Musanın əlaməti ilə yüksəyə qalxdı və üfüqü nurlandırdı. Daha sonra böyük bir qüdrət və parlaqlıqla Məsihin əlaməti altında doğdu. O kəslər ki, Həqiqəti axtarırdılar, harda görsələr ona ibadət edirdilər, lakin o kəslər ki, Həzrət İbrahimə bağlanmışdılar, o Sinada parlayanda və Musanı nurlandıranda onun təsirindən məhrum qaldıalr. O kəslər ki, Həzrət Musadan möhkəm yapışmışdılar, Həqiqət Günəşi ən güclü parlaqlıqla və cəlal ilə Həzrət İsadan parlayanda pərdələndilər və s.

Ona görə də insan Həqiqəti axtarmalıdır və o bu Həqiqəti hər bir Müqəddəs Ruhda tapacaqdır. O, ilahi səxavətə heyran və valeh olmalı, ona cəzb olunmalıdır; o, pərvanə kimi, onun hansı çıraqdan parlamasından asılı olmayaraq işığın aşiqi olmalıdır və hansı bağda bitməsindən asılı olnayaraq qızılgülün aşiqi olan bülbül kimi olmalıdır.

Əgər Günəş Qərbdə doğsaydı, o yenə də günəş olardı; onun haradan çıxmasına görə bir kimsə ondan üz çevirməməli və ya Qərbi həmişə günəşin batdığı yer kimi qəbul etməməlidir. Eynilə də, insan səmavi nemətlər axtarmalı və İlahi sübh şəfəqini gəzməlidir. Onun zahir olduğu hər bir yerdə insan onun divanə aşiqi olmalıdır. Fikir verin ki, əgər yəhudilər Həzrət Musanın üfüqünə inadkarcasına yapışıb qalmasaydılar və ancaq Həqiqət Günəşinə fikir versəydilər, onlar heç şübhəsiz Günəşi Məsihin gerçəkliyinin məşriqində böyük bir ilahi cəlalla görəcəkdilər. Lakin əfsus! Min dəfə əfsus! Həzrət Musanın sözlərinin zahiri mənasına bağlanaraq onlar səmavi səxavət və ilahi cəlaldan məhrum qaldılar.

## 15

## HƏQİQİ ZƏNGİNLİK

Mövcud olan hər bir varlığın şərəfi və ucalması səbəb və şəraitdən asılıdır. Torpağın cəlalı, zinəti və kamilliyi bahar fəslinin səxavət buludları ilə onun yaşıl və məhsuldar olmasındadır. Bitkilər böyüyür; çiçəklər və ətirli otlar açılır; meyvə verən ağaclar çiçəkləyir və təzə və təravətli meyvələr gətirir; bağlar gözəlləşir, çəmənlər bəzənir; dağlar və düzlər yaşıl örpəyə bürünür; və bağlar, düzənlər, kəndlər və şəhərlər gözəlləşir. Bu mineral aləminin rifahıdır.

Bitkilər aləminin ən yüksək zirvəsi və kamilliyi ondadır ki, ağac saf su arxı kənarında bitməlidir, xəfif nəsimlər onu əsdirməlidir, günəşin hərarəti onun üzərinə düşməlidir, bağban onun becərilməsinə fikir verməlidir və günbəgün bu ağac böyüməli və bəhrə verməlidir. Lakin bunun həqiqi rifahı onun inkişaf edib heyvan və insan aləminə girməsi və heyvan və insanların bədənində tükənən şeylərə əlavə olunmaqdır.

Heyvan aləminin ucalması kamil orqanlara, əzalara və gücə malik olmaqda və bütün ehtiyaclarını ödəməkdədir. Bu onun ən əsas büsatı, şərəfi və yüksəkliyidir. Belə ki, heyvanların ən ali xoşbəxtliyi onun yaşıl və bol çəmənə, saf gur axan suya və gözəl və yaşıl meşəyə malik olmasındadır. Əgər o, bunlarla təmin olunubsa, onun üçün daha böyük bir rifah təsəvvür edilə bilməz. Məsələn, əgər bir quş öz yuvasını yaşıl və meyvəli bir meşədə, uca və

gözəl bir yerdə, möhkəm gövdəli bir ağacın başında və ən uca budağın üzərində qurursa və əgər o, ehtiyacı olan dəni və suyu tapırsa, bu onun üçün ən kamil rifahdır.

Lakin heyvan üçün həqiqi rifah və xöşbəxtlik heyvan aləmindən insan aləminə keçməkdir, mikroskopik varlıqlar üçün, hansı ki, su və hava vasitəsilə insan bədəninə daxil olur və  assimilyasiya olunurlar və onun bədənində sərf olunmuş maddələri əvəz edirlər. Bu heyvan aləmi üçün ən böyük şərəf və rifahdır; bundan böyük rifah onlar üçün düşünülə bilməz.

Ona görə də, bu aydın və aşkardır ki, bu zənginlik, bu rahatlıq və bu maddi bolluq mineralların, bitki və heyvanların tam rifahını yaradır. Maddi dünyanın heç bir zənginliyi, sərvəti, rahatlıq və ya firavanlığı quşun zənginliyinə tay ola bilməz; bütün bu düzlər və dağlar onun məskənidir, bütün toxumlar və dənlər onun qidası və sərvətidir və bütün torpaqlar, kəndlər, çəmənlər, otlaqlar, meşələr və çöllər onun ixtiyarındadır. İndi, hansı daha zəngindir, bu quş, yoxsa ən varlı insan? Çünki fərqi yoxdur ki, o, nə qədər dən götürə və ya yeyə bilər, onsuz da onun sərvəti azalmır.

Beləliklə, bu aydındır ki, insanın şərəfi və yüksəkliyi nəsə daha qiymətli bir şey olmalıdır, nəinki onun maddi zənginliyi. Maddi rahatlıq ancaq bir budaqdır, amma insanın yüksəkliyinin kökü gözəl keyfiyyətlər və məziyyətlərdir ki, onun gerçəkliyini bəzəyir. Bunlar ilahi keyfiyyətlər, səmavi nemətlər, ali hisslər, Allah sevgisi və Onu tanımaqdır. Hərtərəfli hikmət, əqli idrak, elmi kəşflər, ədalət, insaf, doğruluq, xeyirxahlıq, təbii cəsarət və məxsusi mətinlik; haqqlara hörmət, əhd və öhdəliklərə sadiqlik, bütün hallarda dürüstlük; hər bir şəraitdə həqiqətə xidmət; öz həyatını bütün insanların rifahı naminə fəda etmək; bütün millərtlərə lütfkar olmaq və ehtiram göstərmək; Allahın təlimlərinə itaət etmək; İlahi Səltənətə xidmət; insanları hidayət etmək; millət və irqləri maarifləndirmək. Budur insan aləminin rifahı! Budur əbədi həyat və ilahi şərəf!

Bu məziyyətlər insanın mahiyyətindən irəli gəlmir, ancaq Allahın qüdrəti və ilahi təlimlərin qüvvəsi ilə ortaya çıxır, çünki onların aşkara çıxması üçün fövqəltəbii bir qüvvəyə ehtiyacları vardır. Bu ola bilər ki, təbiətdə də bu kamilliklərin müəyyən bir izləri meydana çıxsın, lakin onlar sabit deyil, müvəqqətidirlər, onlar divara düşən günəş şüaları kimidirlər.

Bir halda ki, şəfqətli Allah insanın başına belə bir gözəl tac qoyub, onda insan gərək var qüvvəsi ilə çalışsın ki, bu tacın gövhərlərinin parlaqlığı bütün dünyaya yayılsın.

# İKİNCİ HİSSƏ

# XRİSTİANLIĞIN
# BƏZİ MƏSƏLƏLƏRİ

## 16

# ZAHİRİ FORMA VƏ RƏMZLƏR ƏQLİ TƏSƏVVÜRLƏRİ ÇATDIRMAQ ÜÇÜN İSTİFADƏ OLUNMALIDIR

Bizim xatırlatdığımız və problemlərin mahiyyətini aydınlaşdırmaq üçün danışacağımız digər məsələlərin başa düşülməsi üçün vacib[1] olan mövzu budur ki, insan biliyi iki cürdür: birincisi insan hissləri vasitəsilə qəbul olunan bilik, yəni o şeylər ki, biz görür, eşidir, qoxulayır, dadır, toxunmaqla hiss edirik, o şeylər ki, obyektiv və ya hiss ediləndir. Belə ki, günəş, çünki onu görmək olur, obyektiv olandır; eynilə də səs də hiss ediləndir, çünki qulaq onu eşidə bilir; iy də hiss olunur, çünki onu qoxulamaq olur və iy reseptorları onu qəbul edir; yemək də hiss olunandır, çünki damaq onun şirinliyini, acılığını və ya duzluluğunu qəbul edir; isti və soyuq da hiss olunandır, çünki biz bunu hiss edirik. Bütün bu deyilənlər hissi gerçəkliklərə aiddir.

İnsanın başqa bir növ biliyi əqli bilikdir – yəni bu əqlin gerçəkliyidir; onun zahiri forması və yeri yoxdur və hisslərlə də qəbul olunmur. Məsələn, əqlin gücü hiss olunan bir şey deyil; insanın daxili keyfiyyətlərindən heç biri hissiyyatla qavranılan deyil; əksinə, onlar əqli gerçəkliklərdir; Belə ki, məhəbbət mental bir gerçəklikdir, hissi deyil; çünki bu gerçəkliyi qulaq eşitmir, göz görmür, qoxu orqanı qəbul etmir, dad hissiyatı anlaya bilmir, lamisə də hiss etmir. Hətta efir materiyası da, necə ki, onun effektləri fizikada istilik, elektrik və maqnetizmdir – əqli bir gerçəklikdir, hissi deyil; Eynilə də təbiət də özünün mahiyyətilə, əqli bir gerçəklikdir, hissi deyil, insan ruhu da əqli gerçəklikdir, hissi deyil. Bütün bu əqli gerçəklikləri izah və təsvir edərkən onları hiss olunan obrazlarla ifadə etmək zərurəti vardır, çünki xarici mövcudatda elə bir şey yoxdur ki, maddi olmasın. Ona görə də ruhun gerçəkliyini, onun vəziyyətini, məqamını izah etmək üçün hiss olunan obrazlarla izah etmək lazım gəlir, çünki mövcud olan bütün zahiri dünya hiss olunandır. Məsələn, kədər və şadlıq əqli şeylərdir; o vaxt ki, insan o ruhi şeyləri ifadə etmək istəyir, deyir: mənim ürəyim sıxılır; mənim ürəyim genişlənir, əslində isə insanın ürəyi nə sıxılır, nə də genişlənir. Bu əqli və ya ruhi bir vəziyyətdir ki, bunu da izah etmək üçün hiss olunan şeylərə üz tutmaq lazım gəlir. Başqa bir misal, məsələn, sən deyirsən: “filankəs böyük tərəqqi edib”, baxmayaraq ki, o, öz yerində qalıb; və ya “filankəsin məqamı ucadır”, baxmayaraq ki, başqaları kimi o da yerdə gəzir. Bu ucalma və tərəqqi ruhani məqamlardır və əqli gerçəkliklərdir, lakin onları izah etmək üçün hiss edilən obrazlara üz tutursan, çünki zahiri aləmdə maddi olmayan heç nə yoxdur.

Beləliklə, biliyin rəmzi işıqdır, cahilliyin rəmzi isə qaranlıqdır; amma düşünün, bilik görünən işıqdır, yoxsa cahillik görünən qaranlıq? Xeyr, onlar sadəcə rəmzlərdir. Bunlar ancaq əqli vəziyyətlərdir, lakin onları zahiri yöndən ifadə etmək istədikdə, biliyi işıq, cahilliyi qaranlıq adlandırırsan. Məsələn, siz deyirsiniz: “Mənim ürəyim kədərlənmişdi, indi açıldı”. Beləliklə, o bilik işığı,

[1] Ədəbi: özək, sütun.

o cahillik qaranlığı əqli gerçəkliklərdir, hissiyatla qavranılan şeylər deyil; lakin biz zahiri aləmdə izah axtardıqda, onlara zahiri obraz verməyə məcbur oluruq.

Bununla aydın olur ki, o göyərçin ki, Məsihin üzərinə qonmuşdu, maddi göyərçin deyildi, bu ruhi bir vəziyyəti ifadə edir, hisslərlə qavranılan obrazlarla ifadə olunub ki, bu vəziyyət anlaşıla bilsin. Beləliklə, Əhdi-Ətiqdə deyilib ki, Allah od sütunu kimi zahir oldu: bu maddi forma demək deyildir; bu əqli bir gerçəklikdir ki, hissi obrazla ifadə olunub.

Məsih buyurur, "Ata Oğuldadır, Oğul isə Atada". Məsih Allahdamı idi, yoxsa Allah Məsihin içində? Xeyr, Allaha and olsun! Əksinə, bu əqli bir vəziyyətdir ki, hissi anlayışla ifadə olunub.

Biz indi Həzrət Bəhaullahın bu sözlərinin izahina keçək: "Ey Sultan! Mən başqaları kimi bir insan idim, yatağımda yatmışdım, o zaman Ən Şərəflinin nəfəsi Mənim üstümə əsdi və bütün olanların biliyini Mənə öyrətdi. Bu şeylər Məndən deyil, Qüdrətli və Hər Şeyi Bilən Kəsdəndir".[1] Bu, Zühurun halıdır: bu hissi deyildir; bu əqli bir gerçəklikdir, zamandan, keçmişdən, indidən və gələcəkdən asılı olmayan və azaddır; bu izahatdır, bənzətmədir, metaforadır və hərfi mənada başa düşülməli deyil; bu o hal deyil ki, insan tərəfindən dərk edilə bilsin. Yuxu və oyanmaq bir vəziyyətdən digərinə keçməkdir. Yuxu dinclik vəziyyətidir, oyaqlıq isə hərəkətdir. Yuxu sükut vəziyyətidir; oyaqlıq isə danışmaq halıdır. Yatmaq gizli bir haldır, oyaqlıq isə aşkarlıq vəziyyətidir.

Məsələn, Farslarda və ya Ərəblərdə belə bir deyim var ki, yer yatmışdı, yaz gəldi və o oyandı; və ya yer ölü idi, yaz gəldi və o canlandı. Bu ifadələr metaforadır, alleqoriyadır, mənalar aləmində mistik izahatlardır.

Qısası, Müqəddəs Zühurlar hər zaman olmuş və həmişə də Nurlu Gerçəklik olacaqlar; Onların mahiyyətində heç bir dəyişkənlik və ya kənara çıxma olmur. Öz zühurlarını elan etməzdən əvvəl Onlar sükut edir və yuxudakı kimi sakit olurlar və Zühur etdikdən sonra Onlar danışırlar və yuxudan oyanmış şəxs kimi işıq saçmağa başlayırlar.

## 17

## MƏSİHİN DOĞULMASI

*Sual*.-Məsih Müqəddəs Ruhdan necə doğulmuşdur?

*Cavab*.-Bu sualla bağlı, ilahiyyatçılar və materialistlər bir-birləri ilə razı deyillər. İlahiyyatçılar inanırlar ki, Məsih Müqəddəs Ruhdan doğulmuşdur, lakin materialistlər isə belə hesab edirlər ki, bu mümkün deyil və qəbul ediləsi bir şey deyil və şübhəsiz Onun atası bəşər övladıdır.

Quranda buyurulub: "Və Biz Öz Ruhumuzu ona (Məryəmə) göndərdik və O ona kamil bir insan qiyafəsində göründü".[2] Mənası budur ki, Müqəddəs Ruh insan qiyafəsinə girdi, necə ki, surət güzgüdə əks olunur və Məryəmə müraciət etdi.

---

[1] Nəsrəddin Şaha ünvanlanmış məktubdan çıxarış.
[2] Quran 19-17.

Materialistlər inanırlar ki, burada evlənmə olmalı idi və deyirlər ki, canlı bədən cansız bədəndən yarana bilməz və kişisiz və qadınsız mayalanma ola bilməz. Və düşünürlər ki, bu nəinki insanla, hətta bitki və ya heyvanla da mümkün deyil. Çünki erkək və dişi birliyi, mövcud olan bütün heyvanlarda və bitkilərdə var. Şeylərin belə cütlüyü hətta Quranda da göstərilmişdir: "Yerin yetişdirdiklərindən, onların özlərindən və onların bilmədikləri şeylərdən cütlər (erkək və dişi olmaqla) yaradan Allah pak və müqəddəsdir."[1] - yəni insanlar, heyvanlar və bitkilər hamısı cütdür – "Və hər şeydən Biz cüt yaratdıq" – mənası budur ki, biz hər şeyi cütləşmə ilə yaratdıq.

Xülasə, onlar iddia edirlər ki, insan atasız təsəvvür oluna bilməz. Buna cavab olaraq ilahiyyatçılar deyirlər: "Bu mümkün və əldə olunası deyil, amma bu sadəcə görünməyib; və mümkün olmayan şeylə məlum olmayan şey arasında böyük fərq vardır. Məsələn, Qərbi və Şərqi birləşdirən teleqraf keçmiş zamanlarda məlum deyildi, lakin mümkünsüz deyildi; fotoqrafiya və fonoqrafiya da məlum deyildi, lakin mümkünsüz də deyildi."

Materialistlər öz inandıqlarında təkid edirlər, ilahiyyatçılar isə öz növbəsində soruşurlar: "bu yer kürəsi əbədidir, yoxsa müvəqqətidir?" Materialistlər cavab verirlər ki, elmə və mühüm kəşflərə əsasən müəyyən olunub ki, bu dəyişən bir şeydir, əvvəlcə bu yanan bir kürə idi və tədricən o soyumağa başlayıb. Sonra onun üzərində qabıq əmələ gəlib və bu qabığın da üstündə bitkilər meydana çıxıb, sonra heyvanlar və sonda da insan peyda olub.

İlahiyyatçılar deyirlər: "Onda sizin təsdiqinizdən belə aydın olur ki, bəşəriyyət də yer üzündə müvəqqətidir, o əbədi deyil. Onda belə çıxır ki, ilk adamın nə atası, nə də anası olub, çünki insanın mövcudluğu əbədi deyil. İnsanın atasız və anasız yaranması, hətta bu tədrici də olsa, onun yalnız atası olmadan yaranmasından daha çətin bir şey deyilmi? Necə ki siz ilk insanın atası və anası olmadan yaranmasını qəbul edirsiniz – bu tədricən olsun və ya birdən – onda heç bir şübhə qalmır ki, atasız da insan yaranması mümkündür və ağlabatandır; siz buna mümkün olmayan bir şey kimi baxa bilməzsiniz; əks halda siz məntiqsizsiniz. Məsələn, əgər siz desəniz ki, bu lampa fitilsiz və yağsız birdən yanıb, və sonra da deyirsiniz ki, fitilsiz bunu yandırmaq mümkün deyil, bu məntiqsizdir." Məsihin anası vardı; ilk insanın, materialistlərin inandığı kimi, nə atası, nə də anası vardı.[2]

## 18

## MƏSİHİN BÖYÜKLÜYÜ ONUN KAMİLLİKLƏRİNDƏNDİR

Böyük insan elə böyükdür, o, istər bəşər övladı olan atadan doğulsun, istərsə də yox. Əgər atasız doğulmaq bir məziyyətdirsə, onda Adəm bütün peyğəmbərlərin və elçilərin ən böyüyü və alisidir, çünki onun nə atası, nə də anası vardı. Şərəf və əzəmətə səbəb olan şey ilahi kamilliklərin təcəllisi və

---

[1] Quran 36-36.

[2] Bu söhbət belə suallar üzərində müzakirələrin faydasızlığını göstərir; Məsihin doğulması haqqında həzrət Əbdül-Bəhanın təlimi ilə növbəti fəsildə tanış olmaq olar.

kəramətidir. Günəş ata və anaya bənzədilə bilən materiya və formadan əmələ gəlib və mütləq kamilliyə malikdir; lakin qaranlığın nə materiyası, nə də forması var və bu mütləq qeyri-kamillikdir. Adəmin fiziki həyatının substansiyası torpaq, Həzrət İbrahimin materiyası isə təmiz nütfə idi; bu da yəqindir ki, təmiz və nəcib nütfə torpaqdan üstündür.

Daha sonra, Yəhyadandan olan İncilin birinci fəslində 12-ci və 13-cü ayələrdə deyilir: "Fəqət Onu qəbul edənlərin hamısına, Onun isminə iman edənlərə Allahın oğulları olmaq səlahiyyətini verdi. Onlar nə qandan, nə bəşər iradəsindən, nə də kişi istəyindən, ancaq Allahdan doğuldular".[1]

Bu ayələrdən açıq-aydın görünür ki, həvvarinin varlığı da fiziki qüvvədən deyil, ruhani gerçəklikdən yaradılıb. Məsihin şərəfi və əzəməti onun insan övladı olan atasının olmaması faktına əsaslanmır, Onun kamilliklərinə, kəramətinə və ilahi cəlalına əsaslanır. Əgər Məsihin böyüklüyü Onun atasız olmasındandırsa, onda Həzrət Adəm Həzrət İsadan daha böyükdür, çünki Onun nə atası, nə də anası vardı. Əhdi-Ətiqdə buyrulub, "Və Rəbb Allah insanı yerin torpağından yaratdı və onun burnuna həyat nəfəsi üfürdü; və insan qəlbi ilə canlı oldu".[2] Fikir verin, buyrulur ki, Həzrət Adəm həyat ruhundan xəlq olub. Bundan əlavə, həzrət Yəhyanın həvvarilər haqqında söylədiyi ifadə sübut edir ki, onlar da Səmavi Atadandırlar. Buradan da aydındır ki, müqəddəs gerçəklik, yəni böyük insanın həqiqi mövcudluğu Allahdandır və öz varlığı üçün Müqəddəs Ruhun nəfəsinə borcludur.

Məna budur ki, əgər atasız olmaq ən böyük şərəfdirsə, onda Həzrət Adəm hamıdan böyükdür, çünki onun nə atası, nə də anası olub. İnsan üçün hansı yaxşıdır – canlı substansiyadan yaranmaq, yoxsa torpaqdan? Əlbəttə ki, canlı materiyadan yaranmaq daha yaxşıdır. Lakin Məsih Müqəddəs Ruhdan doğulmuş və həyata gəlmişdir.

Yekun olaraq deyək ki, müqəddəs ruhların və İlahi Zühurların əzəməti və cəlalı Onların səmavi kamilliklərindən, kəramətlərindən və şərəfindən gəlir, daha başqa heç nədən.

## 19

## MƏSİHİN VƏFTİZ EDİLMƏSİ

*Sual.* – Mattadan olan İncildə, üçüncü fəsil, 13,14,15-ci ayələrdə deyilir ki: "O zaman İsa Yəhya tərəfindən vəftiz olmaq üçün Qalileyadan İordana, Yəhyanın yanına gəldi. Fəqət Yəhya: Mən Sənin tərəfindən vəftiz olunmağa möhtacam, Sən isə mənim yanıma gəlirsən, deyərək Ona mane olmaq istədi. Fəqət Həzrət İsa ona cavab verib dedi: İndilik razı ol, çünki beləcə saleh olan hər şeyi icra etmək bizə yaraşar. Onda Yəhya Onun istəyinə razı oldu."

Bunun hikməti nədir: Məsih bütün kamilliklərin cövhərinə malik idisə, niyə onda O, vəftiz olunmalı idi?

---

[1] Yəhya1:12:13.
[2] Yaradılış 2:7.

*Cavab.* – Vəftiz olunmağın mahiyyəti tövbə ilə paklaşmaqdır. Yəhya insanları dəvət edir və nəsihət edirdi ki, tövbə etsinlər, sonra O, onları vəftiz edirdi. Ona görə də, bu aydındır ki, vəftiz olunmaq bütün günahlardan tövbə edib təmizlənməyin rəmzidir, bunun mənası bu sözlərdə ifadə olunub: "Ey Allah! Mənim bədənim maddi çirklərdən təmizlənib pak olduğu kimi, eynilə də mənim ruhumu da aləmin Sənin Birliyinin Astanasına layiq olmayan çirklərindən təmizlə və arıt!"

Tövbə itaətsizlikdən itaətə dönməkdir. İnsan Allahdan uzaqlıqdan və ayrılmadan sonra tövbə edir və paklaşır, bu rəmzi olub, "Ey Allah, mənim ürəyimi xeyirxah və təmiz, Sənin məhəbbətindən başqa hər şeydən azad və pak eylə." – mənasını bildirir.

Məsihin arzu etdiyi kimi, Yəhyanın bu təsisatı o zaman hamı tərəfindən icra olunmalı idi və O Özü də insanları ayıltmaq və əvvəlki dinin qanununu tamamlamaq üçün buna əməl etdi. Baxmayaraq ki, tövbə etməklə yuyunmaq Yəhyanın təsisatı idi, həqiqətdə isə buna keçmişdə də Allahın dinində əməl olunurdu. Məsihin vəftiz olunmağa ehtiyacı yox idi; amma o zaman bu qəbul olunan və tərifəlayiq bir əməl və Məlakutun müjdəsinin əlaməti idi, ona görə də O, bunu icra etdi. Lakin sonralar O buyurdu ki, həqiqi vəftiz maddi su ilə olunan vəftiz deyil, bu həm ruh, həm də su ilə olmalıdır. Bu halda su maddi su mənasında deyil, çünki başqa bir yerdə də buyrulub ki, vəftiz ruh və odladır və buradan da aydın olur ki, burada istinad olunan maddi od və maddi su deyildir, çünki odla vəftiz mümkün deyildir.

Ona görə də, ruh Allahın kəramətidir, su isə bilik və həyatdır, atəş isə Allahın məhəbbətidir. Çünki maddi su insanın ürəyini təmizləmir; o, insanın bədənini təmizləyir; amma səmavi su və ruh, hansı ki, bilik və həyatdır, insan ürəyini xeyirxah və pak edir. Ruhun kəramətindən pay alan qəlb arınmış, xeyirxah və pak olur – yəni insanın mahiyyəti aləmin çirklərindən təmizlənir və paklaşır. Aləmin çirkləri bu kimi şeytani keyfiyyətlərdir: qəzəb, şəhvət, maddilik, qürur, yalan, riyakarlıq, aldatmaq, özünü sevmək və s.

İnsan özünü bədənin şəhvətinin hücumundan Müqəddəs Ruhdan başqa heç nəyin köməyi ilə qurtara bilməz. Məhz buna görə O buyurur ki, ruh, su və atəşlə vəftiz vacibdir və bu çox mühümdür – yəni ilahi kəramət ruhu, həyat və bilik suyu və Allahın məhəbbəti vacibdir. İnsan ruh, su və odla belə vəftiz olunmalıdır ki, əbədi kəramət ruhu ilə dolmuş olsun. Əks təqdirdə, maddi su ilə vəftiz olunmağın faydası nədir? Xeyr, su ilə bu vəftiz olunma tövbə etməyin və günahların bağışlanmasını axtarmağın bir rəmzidir.

Lakin Həzrət Bəhaullahın tsiklində bu rəmzə daha ehtiyac yoxdur, zira bunun mahiyyəti, yəni ruhla və Allahın məhəbbəti ilə vəftiz olmaq başa düşülüb və bərqərar olub.

## **20**

## VƏFTİZ OLUNMAĞIN VACİBLİYİ

*Sual.* – Vəftiz olmaq üçün yuyunma faydalı və zəruridir, yoxsa faydasız və qeyri-vacibdir? Birinci halda, əgər bu faydalıdırsa, onda bu niyə aradan qaldırılıb? İkinci halda, yəni əgər xeyri yoxdursa, onda Yəhya niyə bunu icra edirdi?

*Cavab.* – Şəraitin dəyişməsi, çevrilmələr və transformasiyalar şeylərin mahiyyətinin ayrılmaz xassəsidir. Beləliklə bu mütləq olaraq mümkün deyil ki, istiliyi oddan, nəmliliyi sudan, və ya işığı günəşdən ayırmaq mümkün olsun, çünki onlar bu şeylərin zatına xas olan zərurətlərdir. Necə ki, vəziyyətin dəyişməsi və çevrilmələri varlıqların zəruri tələbatıdır, bu cür də qanunlar zamanın dəyişməsi və çevrilmələrinə uyğun olaraq dəyişir; məsələn, Həzrət Musanın zamanında, Onun Qanunu icra olunurdu və dövrün şəraitinə uyğun idi; amma Məsihin günlərində bu şərait dəyişdi və elə bir səviyyədə dəyişdi ki, Həzrət Musanın Qanunu daha uyğun gəlmədi və bəşəriyyətin ehtiyaclarını ödəyə bilmədi; ona görə də bu aradan qaldırıldı. Bu belə oldu ki, Məsih Şənbəni sındırdı və boşanmanı qadağan etdi. Məsihdən sonra dörd həvvari, onların arasında Pyotr və Pavel vardı, Bibliyanın qadağan etdiyi heyvan ətinin istifadə olunmasına icazə verdilər, lakin o heyvanlar istisna idi ki, boğmaqla öldürülür və ya bütlərə qurban edilirdi və qandan istifadə qadağan idi.[1] Onlar həmçinin zinanı qadağan etdilər. Onlar bu dörd hökmü saxladılar. Sonralar Pavel hətta boğulmuş, qurban kəsilmiş heyvanın da ətinin və qanın yeyilməsinə icazə verdi və yalnız zina qadağasını saxladı.

Beləliklə, 14-cü fəsildə 14-cü ayədə Romalılara məktubunda Pavel yazır: "Mən bilirəm və Rəbb İsa tərəfindən əmin olunmuşam ki, heç nə öz-özlüyündə murdar deyildir; ancaq bir şeyi murdar sayan üçün o murdardır."

Həmçinin Pavelin Titusa məktubunda, birinci fəsil 15-ci ayədə: "Paklar üçün hər şey pakdır: murdarlar və imansızlar üçün isə pak bir şey yoxdur; fəqət onların həm ağlı, həm də vicdanları ləkələnmişdir."

İndi bu dəyişikliklər, bu çevrilmələr və ləğv olma ondan irəli gəlir ki, Məsihlə Həzrət Musanın dövrünün müqayisə edilməsi mümkün deyil. Sonrakı dövrdə vəziyyət və tələbatlar tamamilə dəyişmişdi. Ona görə də əvvəlki qanunlar ləğv olunmuşdu.

Mövcudat aləmi insanla müqayisə oluna bilər, Peyğəmbərlər və Allahın Elçiləri isə mahir həkimlərlə. İnsan varlığı bir vəziyyətdə qala bilməz: o, müxtəlif xəstəliklərə düçar olur ki, onların da hər birinin məxsusi dərmanı var. Mahir həkim hər bir xəstəlik və mərəzə eyni bir dərmanı vermir, xəstəliklərin xüsusiyyətinə və xəstənin vəziyyətinə və tələbatlarına uyğun olaraq o, müalicəni və dərmanları dəyişir. Əgər insanın şiddətli xəstəlikdən hərarəti varsa, onda mahir həkim onun istiliyni salan dərman verəcək; və başqa bir vaxtda bu xəstənin vəziyyəti dəyişərsə, onda şübhəsiz ki, məharətli həkim bu dəfə istilik salan dərmanı atacaq və hərarət gətirici dərmanın qəbuluna icazə verəcək. Bu dəyişik yanaşma xəstənin vəziyyətindən asılıdır və həkimin mahir olmasının aşkar sübutudur.

---

[1] Əməllər 15:20.

Baxın, Əhdi-Ətiqin Qanunu bu dövrdə və bu zamanda gücə malik ola bilərmi? Xeyr, Allaha and olsun! Bu mümkün olmaz və tətbiq oluna bilməz; ona görə də tam müəyyən bir məqsədlə Məsihin zamanında Allah Əhdi-Ətiqin qanunlarını ləğv etmişdir. Düşünün, vəftiz Yəhyanın vaxtında insanları ayıltmaq və bütün günahlarından tövbə etmək və Məsihin səltənətinin meydana çıxmasını gözləmək üçün istifadə olunurdu. Lakin indi Asiyada Katolik və Pravoslav Kilsələr yeni doğulmuş uşaqları zeytun yağı qarışdırılmış suya salırlar və onların da çoxu bu şokdan sonra xəstə olurlar; vəftiz vaxtı onlar çapalayır və təşvişə düşürlər. Başqa yerlərdə, keşiş suyu alına sıçradır. Lakin nə birincidən, nə də ikincidən uşaq heç bir ruhani fayda əldə etmir. Onda bu ayindən nə nəticə əldə olunur? Başqa insanlar da heyrətə gəlir və təəccüblənirlər ki, bu uşağı suya niyə salırlar, bir halda ki, bu nə uşağın ruhani cəhətdən oyanmasına, nə də onun imanına və ya Allaha dönməsinə səbəb olur, bu ancaq bir adətdir ki, icra olunur. Vəftizçi Yəhyanın zamanında bu belə deyildi; xeyr, Yəhya əvvəlcə insanlara nəsihət verərdi, onları günahları üçün tövbə etməyə yönəldər və onları Məsihin zühurunu gözləmək arzusu ilə doldurardı. Bir kəs vəftiz yuyunmasını icra etdikdən və tam mütilik və itaətlə günahlarından tövbə etdikdən sonra həmçinin öz bədənini də zahiri çirklənmələrdən pak edər və təmizləyərdi, əmin bir istəklə gecə və gündüz davamlı olaraq o, Məsihin zühurunu və Allahın Ruhunun[1] səltənətinə daxil olmağı gözləyərdi.

Yekunlaşdırsaq, biz onu nəzərdə tuturuq ki, şəraitin başqa şəraitlə əvəz olunması və ya dəyişməsi, müxtəlif əsr və zamanların tələbatının dəyişməsi qanunların ləğv edilməsinin səbəbidir. Çünki bir vaxt gəlir ki, bu qanunlar şəraitə uyğun gəlmir və tətbiq oluna bilmir. Baxın, ilk əsrlərin, sonra Orta Əsrlərin və müasir dövrün tələbatları nə qədər fərqlənir. Bu mümkündürmü ki, ilk dövrlərin qanunları müasir zamanda tətbiq olunsun? Aydındır ki, bu mümkün deyil və tətbiq də oluna bilməz. Eynilə də, bir neçə əsr keçdikdən sonra indiki dövrün tələbləri də gələcək dövrün tələbatları ilə eyni olmayacaq, mütləq dəyişikliklər və yeniliklər olacaqdır. Avropada qanunlar durmadan dəyişir və yenilənir; keçmiş qərinələrdə Avropanın təşkilat və sistemlərində nə qədər qanunlar mövcud idi ki, indi ləğv edilib! Bu dəyişmələr düşüncənin, şəraitin və ənənələrin müxtəlifliyinə və dəyişməsinə görədir. Əgər belə olmasaydı, bəşər dünyasının rifahına son qoyulardı.

Məsələn, Beş Kitabda bir qanun var ki, əgər bir kəs Şənbəni sındırsa, o, ölümə məhkum edilməlidir. Bundan başqa, Beş Kitabda on ölüm hökmü vardır. Bizim dövrümüzdə bu qanunları saxlamaq mümkün olardımı? Aydındır ki, bu qətiyyən mümkün olmazdı. Ona görə də, qanunlarda dəyişmələr və düzəlişlər vardır və bu da Allahın ali hikmətinin kifayətedici bir sübutudur.

Bu mövzular dərin düşüncə tələb edir. Onda bu dəyişikliklərin səbəbi aydın və aşkar olacaqdır.

Xoş o kəsin halına ki, düşünür.

---

[1] Yəni Məsihin, müsəlmanlar çox vaxt Məsihi Ruhullah, Allahın Ruhu adlandırırdılar.

## 21

## ÇÖRƏK VƏ ŞƏRAB RƏMZLƏRİ

*Sual.* – Məsih buyurub: “Göydən enmiş olan canlı çörək Mənəm; əgər bir adam bu Çörəkdən yeyərsə əbədi yaşayacaqdır.”[1] Bu bəyanın mənası nədir?

*Cavab.* – Bu çörəyin mənası səmavi yemək və ilahi kamilliklərdir. Belə ki, “əgər bir adam bu çörəkdən yeyərsə” o deməkdir ki, əgər bir kimsə səmavi nemət əldə edirsə, ilahi işıq alırsa və ya Məsihin kamilliklərini bölüşürsə, bununla o, əbədi həyat qazanır. Qan da həyat ruhu və ilahi kamilliklər, rəbbani təcəlli və əbədi kəramət mənasındadır. Zira bədənin bütün əzaları həyati maddələri qan dövranı vasitəsilə alır.

İncildə Yəhyadan 6-cı fəsil, 26-cı ayədə yazılıb: “Əlamətləri gördüyünüzə görə deyil, çörəkləri yeyib doyduğunuza görə Məni axtarırsınız”.

Bu aşkardır ki, həvvarilərin yeyib doyduqları çörək səmavi nemət idi; çünki eyni fəslin 33-cü ayəsində də buyrulub: “Çünki Allahın çörəyi göydən enən və dünyaya həyat verəndir”. Bu aydındır ki, Məsihin bədəni səmadan gəlməmişdi, Məryəmin bətnindən doğulmuşdu; Və Allahın səmasından enən şey Məsihin ruhu idi; necə ki, yəhudilər düşünürdülər ki, Məsih öz bədənindən danışır, onlar etiraz etdilər, çünki həmin fəslin 42-ci ayəsində deyilir: “Atasını və anasını tanıdığımız Yusifin oğlu İsa bu deyilmi? İndi necə olur ki, “Göydən endim” - deyir”?

Düşünün, bu necə də aydındır ki, Məsihin dediyi səmavi çörək Onun ruhu, Onun nemətləri, Onun kamillikləri və Onun təlimləri idi; zira 63-cü ayədə deyilib: “Həyat verən ruhdur; cismani təbiət heç bir şeyə yaramaz ”.

Ona görə də bu aydındır ki, Məsihin ruhu səmavi fəzldir ki, səmadan enir; “o kəs ki, bu ruhdan bol nur alır” – yəni səmavi təlimləri – əbədi həyat tapır. Elə buna görə 35-ci ayədə deyilir: “Və İsa onlara dedi: Həyat çörəyi Mənəm; Mənim yanıma gələn əsla acmaz və Mənə iman gətirən əsla susamaz”.

Fikir verin ki, “Onun yanına gəlməyi” O, yemək kimi və “Ona iman gətirməyi” isə su içmək kimi ifadə edir. Onda bu aydındır və sübut olunur ki, səmavi yemək ilahi nemətlərdir, ruhani şəfəqlər, səmavi təlimlərdir, Məsihin ümumkainat mənasıdır. Yemək Onun yaxınlığına cəlb olunmaqdır, su içmək isə Ona iman gətirməkdir. Zira Həzrət İsanın cismani, maddələrdən təşkil olunmuş bədəni və səmavi mahiyyəti vardı. Cismani bədən çarmıxa çəkildi, lakin səmavi mahiyyət isə yaşayır və əbədidir və əbədi həyat mənbəyidir; birincisi insan təbiəti idi, ikincisi isə ilahi təbiət idi. Bəziləri elə düşünür ki, Priçastiye Məsihin gerçəkliyidir və İlahi Təcəlli və Müqəddəs Ruh ona enir və onda mövcud olur. Ancaq Priçastiyedən sonra, ayinin icra olunduğu şey bir neçə dəqiqədə dağılır və tamamilə dəyişikliyə məruz qalır. Ona görə də, necə belə bir şey düşünmək olar? Allah eləməsin! Əlbəttə ki, bu təmiz fantaziyadır.

---

[1] Yəhya 6:51, 50.

Xülasə, Məsihin zühuru ilə əbədi nemətlər olan ilahi təlimlər hər yana yayıldı, hidayət işığı parladı və insana həyat ruhu əta edildi. Hidayət olunan kəs dirildi; etinasız qalan isə əbədi ölümə məhkum oldu. Səmadan gələn bu səmavi çörək Məsihin ilahi mahiyyəti, onun ruhani gerçəklikləri idi ki, onları da həvvarilər yedi və onunla əbədi həyat qazandılar.

Həvvarilər Məsihin əlindən bir çox yeməklər almışdılar; niyə onda bu son nahar başqalarından fərqləndi? Bu aydındır ki, səmavi çörək maddi çörək mənasında deyildi, əksinə, Məsihin ruhani bədəninin ilahi qidası, ilahi fəzl və səmavi kamilliklər idi ki, Onun həvvariləri bölüşdülər və onunla doydular.

Eynilə də, düşünün ki, Məsih çörəyə xeyir-dua verib "Bu Mənim bədənimdir"[1] deyərək şagirdlərinə paylayanda və Öz fəzlini onlara inayət edəndə O, onlarla şəxsən, fiziki olaraq, Öz simasında bir yerdə idi. O, çörək və şəraba çevrilməmişdi; əgər O, çörək və şəraba çevrilsəydi, Öz həvvariləri ilə fiziki olaraq Öz simasında bir yerdə ola bilməzdi.

Onda bu aydındır ki, çörək və şərab rəmzlər idi və mənası da belə idi: Mən Öz nemət və kamilliklərimi sizə vermişəm və siz bu nemətləri aldığınız zaman əbədi həyat əldə edir, səmavi ruziyə şərik olur və öz payınızı və qismətinizi almış olursunuz.

## 22

## MÖCÜZƏLƏR

*Sual.* – Yazılarda var ki, Məsih möcüzələr göstərmişdir. Bu möcüzələrin təsvirini hərfi mənada başa düşmək lazımdırmı, yoxsa onların başqa mənası vardır? Dəqiq elmlər sübut edir ki, şeylərin mahiyyəti dəyişmir və bütün varlıqlar vahid universal qanuna tabedir və quruluşa malikdir ki, ondan kənara çıxa bilməz və ona görə də universal qanuna zidd olan şey də mümkün ola bilməz.

*Cavab.* – Müqəddəs Zühurlar möcüzələrin mənbəyi və heyrətamiz əlamətlərin törədiciləridirlər. Onlar üçün hər hansı çətin və yerinə yetirilməsi mümkün olmayan şey asandır və mümkündür. Zira fövqəltəbii qüvvənin gücü ilə onlardan möcüzələr çıxır; və təbiətin fövqündə olan bu qüvvənin təsiri ilə Onlar təbiət dünyasına təsir edirlər. Bütün Zühurlar tərəfindən heyrətamiz şeylər baş vermişdir.

Amma Müqəddəs Kitablarda xüsusi terminologiya işlədilir və Zühurlar üçün bu möcüzə və qəribə nişanələrin heç bir əhəmiyyəti yoxdur. Onlar bu barədə xatırlatmaq belə istəmirlər. Çünki əgər biz möcüzələri böyük bir dəlil kimi qəbul etsək, onda onlar icra olunan zaman bu ancaq iştirakçılar üçün dəlil və sübut olacaqdır, iştirak etməyənlər üçün yox.

Məsələn, əgər biz axtarana, Həzrət Musaya və Məsihə inanmayan kəsə heyrətli şeylər danışsaq, o, onları inkar edib deyəcək: "Heyrətamiz şeylər həmişə yalançı allahlar haqqında da çoxlu insanların şəhadəti ilə danışılıb və onlar Kitablarda da təsdiq olunur. Brahmanilər Brahmanın qəribə möcüzələri haqqında kitab yazıblar". O, həm də deyəcək: "Biz necə bilə bilərik ki, yəhudilər və xristianlar doğru, brahmanilər isə yalan deyirlər? Çünki hər ikisi

[1] Matta 26:26.

ümumiyyətlə qəbul olunmuş ənənələrdir ki, kitablarda toplanmışdır və doğru və ya yalan da fərz edilə bilər”. Bunu başqa dinlərə də aid etmək olar: əgər biri düzdürsə, onda hamısı düzdür; əgər biri qəbul olunursa, onda hamısı qəbul olunmalıdır. Odur ki, möcüzələr dəlil deyil. Çünki əgər onlar şahidlər üçün dəlildirsə, onda şahid olmayanlar üçün dəlil olmaq qüvvəsini itirir.

Lakin Zühurun günündə bəsirət sahibi insanlar görürlər ki, Zühurun bütün vəziyyətləri möcüzədir, çünki onlar başqalarından üstündürlər və yalnız bunun özü mütləq bir möcüzədir. Yadınıza salın ki, Məsih təkbaşına və yalnız, köməksiz və himayəsiz, qoşunsuz və ordusuz, ağır zülm altında Allahın bayrağını dünyanın bütün xalqları qarşısında qaldırdı və onların qarşısında durdu və hamıya qalib gəldi, baxmayaraq ki, zahirən onu çarmıxa çəkdilər. İndi bu həqiqi bir möcüzədir ki, əsla danıla bilməz. Məsihin həqiqəti üçün başqa heç bir dəlilə ehtiyac yoxdur.

Həqiqət insanları üçün zahiri möcüzələrin heç bir əhəmiyyəti yoxdur. Əgər kor bir insan görsə, məsələn, sonda o, yenə də görmə qabiliyyətini itirəcək, çünki o, öləcək və bütün hissiyat və qabiliyyətlərini itirəcək. Ona görə də kor insanın gözünə işıq gəlməsi nisbətən az əhəmiyyətə malikdir, çünki bu görmə qabiliyyəti sonda itəcək. Ölü bir insanın bədəni dirilsə, bunun mənası nədir, əgər o yenidən öləcəksə? Lakin mühüm olan ona anlayış və əbədi həyat bəxş etməkdir – yəni ruhani və ilahi bir həyat. Zira bu fiziki həyat ölümsüz deyildir və onun mövcudluğu qeyri-mövcudluğa bərabərdir. Məhz buna görə də Məsih Öz həvvarilərindən birinə belə deyib: “Qoy ölüləri ölülər basdırsın”; çünki “Bədəndən doğulan bədəndir, ruhdan doğulan ruhdur”.[1]

Müşahidə edin: o kəslər ki, zahirən fiziki olaraq sağ idilər, Məsih onlara ölü kimi baxırdı; çünki həyat əbədi həyatdır və mövcud olmaq həqiqi mövcudluqdur. Müqəddəs Kitablarda harada ki, ölülərin qalxmasından danışılır, mənası budur ki, ölü əbədi həyatla xeyir-dua almışdır; harada deyilir ki, kor görmə əldə etdi, mənası odur ki, o, həqiqi anlayış əldə etdi; harada ki, deyilir-kar insan eşitmə qabiliyyəti əldə etdi - o deməkdir ki, ruhani və səmavi bir eşitmə əldə etdi. Bu İncilin mətni ilə də təsdiq olunur, harada ki, Məsih buyurur: “Bunlar Yeşayanın dedikləri kimidirlər, onların gözləri var, görmürlər, qulaqları var, amma eşitmirlər; və Mən onlara şəfa verdim”.[2]

Bu o demək deyil ki, Zühurlar möcüzə törədə bilməzlər, zira Onlar hər şeyə qadirdirlər. Ancaq Onlar üçün batini göz, ruhani şəfa və əbədi həyat daha qiymətli və mühüm şeylərdir. Ona görə də, Müqəddəs Kitablarda harada ki yazılıb - filankəs kor idi və görməsi bərpa oldu, mənası budur ki, daxilən o kor idi, ruhani baxış əldə etdi və ya o cahil idi, hikmətli oldu və ya o qafil idi, huşyar oldu və ya o dünyəvi idi, səmavi oldu.

Bu daxili görmə, eşitmə, həyat və şəfa əbədi olduğundan, bunlar çox mühümdür. Müqayisədə, öz qabiliyyətləri ilə bu heyvani həyatın nə əhəmiyyəti, qiyməti və ya dəyəri var? Bir neçə günün içində müvəqqəti fikirlər kimi bu da dayanacaq. Məsələn, əgər bir kəs sönmüş çırağı yenidən yandırırsa, o, yenə də sönəcək; amma günəşin işığı həmişə parlayır. Mühüm olan budur.

**<u>23</u>**

[1] Matta 8:22; Yəhya 3:6.
[2] Matta 13:14, Yəhya 12:40-41.

## MƏSİHİN DİRİLMƏSİ

*Sual.* – Üç gündən sonra Məsihin dirilməsinin mənası nədir?

*Cavab.* – İlahi Zühurların dirilməsi cismani deyil. Onların bütün məqamları, Onların halı, Onların hərəkəti, Onların bərqərar etdiyi şeylər, Onların təlimləri, Onların ifadələri, Onların hekayələri və Onların göstərişləri ruhani və ilahi mənalara malikdir və maddi şeylərlə heç bir əlaqəsi yoxdur. Məsələn, Məsihin səmadan enməsi məsələsi var: İncildə çox yerdə bu göstərilib ki, insan Oğlu göydən gəldi, O göydədir və O, göyə gedəcək. Belə ki, Yəhyanın İncilində 6-cı fəsil, 38-ci ayədə yazılıb: "Çünki Mən göydən endim"; və həmçinin 42-ci ayədə biz görürük: "Atasını və anasını tanıdığımız Yusifin oğlu İsa bu deyilmi? İndi necə olur ki, "Göydən endim" - deyir"? Habelə Yəhyadan, 3-cü fəsil, 13-cü ayədə deyilir: "Göydən enmiş İnsan Oğlundan başqa heç kim göyə qalxmamışdır, göylərdə olan da Odur".

Fikir verin ki, deyilir: "Göydə olan İnsan Oğlu", halbuki o zaman Məsih yerdə idi. Ona da diqqət edin ki, buyurulur - Məsih göydən gəldi, baxmayaraq ki, O, Məryəmin bətnindən gəlmişdi, Onun bədəni Məryəmdən doğulmuşdu. Onda bu aydındır ki, nə zaman deyilir ki, İnsan Oğlu göydən gəldi, bunun zahiri deyil, batini mənası vardır; bu ruhani faktdır, maddi deyil. Məna budur – hərçənd ki, zahirən Məsih Məryəmin bətnindən doğulmuşdu, həqiqətdə isə O, göydən gəlmişdi, Həqiqət Günəşinin mərkəzindən, İlahi Aləmdən, Ruh Səltənətindən gəlmişdi. Və aydın oldu ki, Məsih İlahi Səltənətin ruhani səmasından gəlmişdir, ona görə də Onun torpağın altında üç günlük qalması batini mənaya malikdir, bu zahiri bir hadisə deyildir. Eynilə də, Onun torpağın altından dirilib çıxması da rəmzidir; Bu ruhani və ilahi bir hadisədir, maddi deyil; və bu cür də Onun səmaya yüksəlməsi ruhanidir, maddi yüksəliş deyildir.

Bu izahatlardan əlavə, elm bunu da təsdiq və sübut edir ki, görünən səma hüdudsuz bir fəzadır, sonsuzluq və boşluqdur, harada ki, saysız-hesabsız ulduzlar və planetlər fırlanır.

Ona görə də biz Məsihin dirilməsini belə şərh edirik: həvvarilər Məsihin şəhidliyindən sonra çox narahat oldular və təşvişə düşdülər. Məsihin Həqiqəti, yəni Onun təlimləri, Onun kəraməti, Onun kamillikləri və ruhani məziyyətləri Onun şəhid olmasından sonra iki və ya üç gün ərzində gizli və örtülü qaldı, parlamadı və aşkar olmadı. Xeyr, bəlkə o yox oldu, çünki inananlar bir neçə nəfər idi ki, onlar da narahat olmuş və təşvişə düşmüşdülər. Məsihin Əmri cansız bir bədən kimi idi; Və üç gündən sonra ki, həvvarilər əminlik və möhkəmlik əldə etdilər və Məsihin Əmrinə xidmət etməyə başladılar, qərara gəldilər ki, ilahi təlimləri yaysınlar, Onun nəsihətlərini həyata keçirsinlər, Ona xidmətə qalxsınlar - İsanın Mahiyyəti parladı və Onun kəraməti üzə çıxdı; Onun dini həyat tapdı; Onun təlimləri və nəsihətləri aşkar oldu və göründü. Başqa sözlə, Məsihin Əmri Müqəddəs Ruhun həyatı və kəraməti onu sarana qədər cansız bir bədən kimi idi.

Məsihin dirilməsinin mənası belədir və bu həqiqi bir dirilmə idi. Lakin din xadimləri İncillərin mənasını başa düşmədiklərindən və rəmzləri dərk etmədiklərindən, belə deyilib ki, din elmə ziddir və elm dinə müxalifdir, necə ki, məsələn, Məsihin cismani bədəninin görünən səmaya yüksəlməsi məsələsi

riyaziyyat elminə ziddir. Ancaq bu məsələnin həqiqəti aydın olanda və rəmzlər izah olunanda, elm heç cür buna zidd gəlmir; əksinə, elm və idrak bunu təsdiq edir.

## 24

## MÜQƏDDƏS RUHUN HƏVVARİLƏRİN ÜZƏRİNƏ ENMƏSİ

*Sual.* – İncildə təsvir olunduğu kimi, Müqəddəs Ruhun həvvarilərin üzərinə enməsinin şəkli və mənası nədir?

*Cavab.* – Müqəddəs Ruhun enməsi havanın insana daxil olması kimi deyil; bu bir ifadədir və bənzətmədir, nəinki dəqiq və hərfi təsəvvür. Xeyr, bu bəlkə daha çox günəşin əksinin güzgüyə düşməsinə bənzəyir – yəni onun şəfəqləri güzgüdə zahir olur.

Məsihin ölümündən sonra həvvarilər narahat idilər və onların ideya və fikirləri bir-birinə tərs və ziddiyyətli idi; sonra onlar möhkəm oldular və birləşdilər və Üçlük Ziyafətində onlar bir yerə toplaşdılar və özlərini bu dünyanın şeylərindən ayırdılar. Özlərini unudaraq, öz bədən və ruhlarını Məhbuba fəda edərək, Öz evlərini tərk edərək, sərgərdan və evsiz-eşiksiz qalmaqla və hətta öz mövcudluqlarını unudaraq onlar öz rahatlıqlarından və dünyəvi xoşbəxtliklərindən imtina etdilər. Onda onlar Allahın köməyini aldılar və Müqəddəs Ruhun gücü aşkar oldu; Məsihin ruhaniyyəti zəfər çaldı və Allahın məhəbbəti hakim oldu. Onlar o zaman kömək aldılar və Allahın Əmrini təbliğ edərək və dəlil və sübutlar gətirərək müxtəlif istiqamətlərə yayıldılar.

Beləliklə, Müqəddəs Ruhun Həvvarilərın üzərinə enməsinin mənası onların Məsihin Ruhu vasitəsilə cəzb olunmalarıdır ki, onunla onlar səbat və möhkəmlik əldə etdilər. Allahın məhəbbət ruhu ilə onlar yeni həyat qazandılar və Məsihi yaşayan, onlara kömək edən və onları hifz edən gördülər. Onlar damla kimi idilər, dəniz kimi oldular; onlar kiçicik bir həşərat kimi idilər, qüvvətli bir qartala çevrildilər; onlar aciz idilər, qüdrətli oldular. Onlar günəşə döndərilmiş güzgü idilər və həqiqətən, işığın bir hissəsi onlarda əks olunurdu.

## 25

## MÜQƏDDƏS RUH

*Sual.* – Müqəddəs Ruh nədir?

*Cavab.* – Müqəddəs Ruh Allahın Kəraməti və Zühurlardan yayılan nur şüalarıdır; zira Həqiqət Günəşinin şüalarının mərkəzi Məsih idi, Allahın Kəraməti başqa güzgülərdə də əks olunurdu ki, bunlar da Həvvarilər idi. Müqəddəs Ruhun Həvvarilərın üzərinə enməsinin mənası budur ki, şərəfli ilahi nemətlər və səxavətlər onların mahiyyətində əks və aşkar olmuşdur. Bundan əlavə, giriş və çıxış, enmə və yüksəlmə ruha deyil, cismə aid olan xüsusiyyətlərdir, yəni duyulan gerçəkliklər daxil olur və çıxır, ruhi vəziyyətlər və əqli gerçəkliklər, belə ki, idrak, məhəbbət, bilik, təsəvvür və fikir nə girir, nə çıxır, nə də enir, bəlkə onlar arasında birbaşa əlaqə var.

Məsələn, bilik hansı ki, idrak vasitəsilə əldə olunan bir vəziyyətdir, bu əqlə xas bir xüsusiyyətdir; və yaddaşın gəlməsi və ya yox olması xəyali bir vəziyyətdir; amma əql bilik əldə edilməsi ilə bağlıdır, necə ki, surət güzgüdə əks olunur.

Ona görə necə ki, aydın və aşkardır ki, əqli gerçəkliklər daxil olmur və enmir, onda bu tamamilə mümkünsüzdür ki, Müqəddəs Ruh qalxa və enə bilər, daxil ola, çıxa və ya nüfuz edə bilər, bu ancaq belə ola bilər ki, Müqəddəs Ruh təcəlli edir, necə ki, günəş güzgüdə əks olunur.

Müqəddəs Kitabların bəzi hissələrində Ruh haqqında müəyyən bir şəxs nəzərdə tutmaqla danışılır, necə ki, bəzən nitq və danışıqlarda deyilir ki, filan şəxs ruhun təcəssümüdür və ya o, mərhəmət və səxavətin mücəssəməsidir. Bu halda biz sanki güzgüyə deyil, işığa baxırıq.

Yəhyadan olan İncildə Vəd Olunmuş haqqında danışarkən, O Kəs ki, Məsihdən sonra gəlməli idi, 16-cı fəsil, 12-13-cü ayələrdə deyilir: "Sizə söyləyəcək daha çox sözlərim var; fəqət indi bunlar sizdə sığmaz. Fəqət O, yəni Həqiqət Ruhu gəldikdə, sizə hər həqiqətə yol göstərəcək; ona görə ki, Özündən söyləməyəcəkdir; fəqət hər nə eşidirsə, onu söyləyəcək; və gələcək şeyləri sizə bildirəcəkdir".

İndi diqqətlə fikir verin bu sözlərə ki, "ona görə ki, O, Özündən söyləməyəcəkdir, fəqət nə eşidərsə, onu söyləyəcək", bu aydındır ki, həqiqət Ruhu İnsanda təcəssüm etmişdir, O Kəs ki, fərdiyyəti var, eşitmək üçün qulaqları, danışmaq üçün dili var. Eynilə də, "Allahın Ruhu" adı Məsihə aid işlədilmişdir, necə ki, siz işıqdan danışırsınız, amma bu zaman həm işığı, həm də lampanı nəzərdə tutursunuz.

## 26

## MƏSİHİN İKİNCİ GƏLİŞİ VƏ QİYAMƏT GÜNÜ

Müqəddəs kitablarda deyilir ki, Məsih yenidən gələcək, və Onun gəlişi müəyyən əlamətlərin baş verməsindən asılı olacaq: O gələndə bu əlamətlər müşahidə olunacaq. Məsələn, "Günəş qaralacaq, ay öz işığını verməyəcək və ulduzlar göydən töküləcək...

Və sonra İnsan Oğlunun əlamətləri göydə görünəcək: və onda yer üzünün bütün tayfaları fəryad edəcəklər və onlar İnsan Oğlunun buludların üzərində qüdrət və cəlal ilə göydən gəldiyini görəcəklər."[1] Həzrət Bəhaullah bu ayələri Kitabi-İqanda izah etmişdir.[2]

Təkrar etməyə ehtiyac yoxdur. Bu kitaba istinad edin və siz bu deyimləri başa düşəcəksiniz.

Lakin Mən bu barədə daha bir neçə şey əlavə demək istərdim. Özünün birinci gəlişində də Məsih göydən gəlmişdi, İncildə bu haqda tamamilə aşkar şəkildə bildirilmişdir. Məsih demişdir: "Göydən enmiş İnsan Oğlundan başqa heç kim göyə qalxmamışdır, göylərdə olan da Odur".[3]

Baxmayaraq ki, zahirən O, Məryəmin bətnindən doğulmuşdu; eynilə də, həmçinin, Özünün ikinci gəlişində də O, göydən gələcək, yenə də baxmayaraq ki, bətndən doğulacaq. Məsihin ikinci gəlişi üçün İncildə göstərilən şərtlər, bizim öncə dediyimiz kimi, Onun birinci gəlişi üçün deyilən şərtlərlə eyni idi.

İsayanın Kitabı bəyan edir ki, Messiya Şərqi və Qərbi fəth edəcək və dünyanın bütün millətləri Onun kölgəsinə toplaşacaq və Onun səltənəti bərqərar olacaq, O, naməlum bir yerdən gələcək, günahkarlar mühakimə olunacaq və ədalət o dərəcədə hakim olacaq ki, qurd və quzu, bəbir və çəpiş, südəmər körpə və gürzə hamısı bir bulaq başına və bir çəmənliyə və bir məskənə toplaşacaq.[4] Birinci gəliş həmçinin bu şərtlər altında idi, baxmayaraq ki, zahirən onların heç biri baş vermədi. Ona görə də yəhudilər Məsihi inkar etdilər və Əstəğfrullah, Məsihi Məsix[5] adlandırdılar və Ona Allahın Binasını dağıdan, Şənbəni və Qanunu sındıran kimi baxdılar və ölümünə fitva verdilər. Buna baxmayaraq, bu şərtlərdən hər birinin mənası vardı ki, yəhudilər də bunları başa düşmədilər; ona görə də onlar Məsihin həqiqətini görməkdən məhrum qaldılar.

Məsihin ikinci gəlişi də bu cür həyata keçəcək: deyilən əlamət və şərtlərin hamısının mənası vardır və hərfi mənada işlədilməmişdir. Başqa şeylər arasında bu da deyilmişdir ki, ulduzlar yerə töküləcək. Ulduzlar sonsuzdur və onları saymaq mümkün deyil və müasir riyaziyyatçılar müəyyən ediblər və elmi cəhətdən sübut ediblər ki, günəşin kürəsi yerdən milyon yarım dəfə böyükdür və görünən ulduzlar isə Günəşdən minlərlə dəfə iridir, onda onlar düşsəydilər, yer üzü necə olmalı idi? Bu belə olardı ki, sanki

[1] Matta, 24:29-30.
[2] Kitabi-İqan Həzrət Bəhaullahın ilk əsərlərindən biri olub, Öz Zühurunu elan etməzdən öncə Bağdadda yazılmışdır.
[3] Yəhya 3:13.
[4] Bu söhbətlərdə oxucu artıq müşahidə edəcək ki, həzrət Əbdül-Bəha istəyir ki, Yazıların müəyyən parçalarının mənasını göstərsin, nəinki dəqiq mətnə istinad etsin
[5] Yəni, div Ərəb dilində Məsih, Messiya və Məsih - div sözləri üzərində söz oyunu var.

milyonlarla Himalay dağları xardal dənəsinin üstünə düşür. Sağlam əqlə və elmə görə bu şeylər əsla mümkün deyil. Hətta daha qəribə bu deyilmi ki, Məsih buyurur: "Bəlkə Mən o zaman gələcəyəm ki, siz hələ yatmış olacaqsınız, zira insan oğlunun gəlişi oğrunun gecə gəlişi kimidir".[1] Ola bilər ki, oğru evdə olsun, amma sahibin bundan xəbəri olmasın.

Bu aydın və aşkardır ki, bu əlamətlər hərfi mənalar deyil, rəmzi mənalar daşıyır. Və onlar bütünlüklə Kitabi-İqanda izah edilib. Bi kitaba istinad edin.

## 27

## ÜÇLÜK

*Sual.* – Üçlüyün, Üç Şəxsin Birində mövcud olmasının mənası nədir?

*Cavab.* – İnsan anlayışından pak və müqəddəs olan və əql və hikmət sahiblərinin təsəvvürünün əsla yetişə bilməyəcəyi İlahi Mahiyyət hər cür dərketmədən ucadır. Bu İlahi Mahiyyət hər cür bölünməni istisna edir; çünki bölünmə və çoxalma fani mövcudat olan məxluqatın xüsusiyyətidir və Öz-özünə Var Olana aid edilə bilməz.

İlahi Mahiyyət təklikdən müqəddəsdirsə, onda çoxluq anlayışından nə qədər müqəddəs olar. Bu İlahi Mahiyyətin dərəcə və hallara görə bölünməsi qeyri-kamilliyə bərabər olardı və kamilliyə zidd olardı və buna görə də qətiyyən mümkün deyil. O, həmişə müqəddəslik və paklığın zirvəsində olmuş və olmaqdadır. Zühurlar və Məzhərlər haqqında deyilənlərin hamısı ilahi olanın təcəllisidir, onun varlıq dərəcələrinə görə enməsi deyil.[2]

Allah pak kamillikdir, yaradılmışlar isə qeyri-kamillikdir. Əgər Allah mövcudluq dərəcələrinə görə ensəydi, bu ən böyük qeyri-kamillik olardı; əksinə, Onun Zühuru, Onun zahir olması, Onun qalxması günəşin təmiz, aydın və cilalanmış güzgüdə əks olunmasına bənzəyir. Bütün varlıqlar Allahın aşkar əlamətləridir, necə ki, günəşin şüaları yer üzündəki bütün varlıqlara düşür. Amma düzlərin, dağların, ağacların və meyvələrin üzərinə yalnız işığın bir hissəsi düşür ki, bunun vasitəsilə, onlar görünür, böyüyür və öz varlıqlarının məqsədinə yetişirlər. Kamil İnsan[3] isə təmiz güzgü anlamındadır ki, onda Həqiqət Günəşi özünün bütün keyfiyyət və kamillikləri ilə görünür və zahir olur. Beləliklə Məsihin Gerçəkliyi ən yüksək paklıq və xalisliyin təmiz və cilalanmış güzgüsü idi. Həqiqət Günəşi, İlahi Mahiyyətin özünü bu güzgüdə əks etdirmiş və öz işıq və istisini onda zahir etmişdir. Lakin Günəş özünün müqəddəslik yüksəkliyindən və paklıq səmasından enib bu güzgüdə var olmur. Xeyr, o, gözəllik və kamillik güzgüsündə görünüb zahir olsa da, öz ucalığında və aliliyində var olmaqda davam edir.

İndi əgər biz desək ki, Günəşi iki güzgüdə görmüşük – biri Məsih, digəri isə Müqəddəs Ruh - bu o deməkdir ki, biz üç Günəş görmüşük, biri göydə, digər ikisi isə yerdə, doğru demiş olarıq. Və əgər biz desək ki, ancaq bir Günəş var və bu yeganədir, onun şəriki və bərabəri yoxdur, yenə də doğru demiş oluruq.

---

[1] Müqəddəs Pavel fessalonikiyalılara məktub 5:2, Pyotrun ikinci məktubu 3:10
[2] Sual 82-Panteizm.
[3] İlahi Zühur.

Bu mühakimənin mahiyyəti budur ki, Məsihin Gerçəkliyi təmiz bir ayna idi və həqiqət günəşi, yəni Vahidlik Cövhəri özünün nəhayətsiz kamilliyi və sifətləri ilə güzgüdə görünüb. Bunun mənası o deмək deyil ki, Allahlığın Mahiyyəti olan Günəş bölündü və çoxaldı, çünki Günəş birdir, lakin bu güzgüdə əks olunmuşdur. Məhz buna görə Məsih demişdir: “Ata Oğuldadır”, yəni Günəş görünür və güzgüdə zahir olur.

Müqəddəs Ruh Allahın, Məsihin Gerçəkliyində görünən və zahir olan kəramətidir. Oğulluq məqamı Həzrət İsanın ürəyidir, Müqəddəs Ruh isə Məsihin ruhunun məqamıdır. Buradan da müəyyən və sübut olunur ki, İlahi Mahiyyət mütləq misilsizlikdir və bərabəri, oxşarı və tayı yoxdur.

Budur Üçlüyün Üç Şəxsdə olmasının mənası. Əgər bu başqa cür olsaydı, Allahın Dininin bünövrəsi məntiqsiz fərziyyələr üzərində olar və ağılla heç vaxt dərk oluna bilməzdi, və onda insan ağlı necə məcbur edilə bilərdi ki, dərk edə bilmədiyi bir şeyə inansın? Hər hansı şey, əgər o ağılabatan bir formada verilmirsə, idrakla qavrana bilməz; əks halda bu təxəyyülün cəhdindən başqa bir şey deyil.

İndi bu izahatdan aydın olur ki, Üçlüyün Üç Şəxsi nə deməkdir. Allahın təkliyi də isbat olunmuş olur.

## 28

## YƏHYANIN İNCİLİNİN ON YEDDİNCİ FƏSİL BEŞİNCİ AYƏSİNİN İZAHI

“Və ey Ata, dünya yaranmadan əvvəl, Mən Səninlə bərabər ikən Məndə olan həmin izzəti indi Mənə Öz nəzdində ver”.[1]

İki cür ilkinlik var: biri öz-özünə mövcuddur və səbəbə bağlı deyil, amma onun mövcudiyyəti özündədir, necə ki, məsələn, günəşin işığı özündədir, zira onun işıq saçması başqa ulduzların işığından asılı deyil. Bu xas olan, məxsusi işıqdır. Ay isə işığı günəşdən alır, çünki ay işığına görə günəşdan asılıdır. Ona görə də günəş, işığa münasibətdə, səbəbdir, ay isə nəticə anlamındadır. Birinci (günəş) əzəlidir, öncə gələndir, əvvəl olandır, ikinci (ay) isə sonra gələndir, sonuncudur.

Əzəliyyətin ikinci tipi zamanın əzəliyyətidir ki, əvvəli yoxdur. Allahın Sözü zamandan arınmışdır.[2] Keçmış, indi, gələcək Allaha münasibətdə eynidir. Günəş üçün dünən, bu gün və sabah yoxdur.

Eynilə də, izzətə münasibətdə ilkinlik var, yəni ən izzətli, izzətlidən əvvəl gəlir. Ona görə də, Allahın Sözü olan Məsihin Gerçəkliyi zata, sifət və izzətə münasibətdə bütün varlıqlardan əvvəl gəlir. İnsan formasında zahir olmazdan əvvəl, Allahın Sözü özünün ən müqəddəsliyində və izzətində, öz cəlalının kamil gözəlliyində və ən yüksək parlaqlığında mövcud idi. Ən Uca Allahın hikmətindən Allahın Sözü cismani aləmdə cəlal yüksəkliyindən parladı, bu bədən vasitəsilə Allahın Sözü zülmə məruz qaldı, belə ki, yəhudilərin əlinə düşdü, zalım və cahillərin əlində əsir oldu və sonda da çarmıxa çəkildi. Məhz buna görə O, Allaha üz tutaraq deyib: “Azad et Məni

[1] Yəhya 17:5.
[2] yəni Məsihin Zatı

cismani aləmin bağlarından və Məni bu qəfəsdən qurtar ki, Mən Şərəf və Cəlal zirvələrinə yüksəlim və cismani aləmdən əvvəl mövcud olan əvvəlki əzəmət və qürətə yetişim, ta ki, Mən əbədiyyət aləmində sevinim və əvvəlki məskənə yüksəlim, məkansız aləmə, görünməz səltənətə (qeybə).”

Beləliklə, hətta bu aləmdə, yəni insanların və ölkələrin olduğu dünyada Məsihin cəlal və əzəməti yer üzündə ancaq Onun süudundan sonra üzə çıxdı. Nə zaman ki, O, cismani aləmdə dünyanın ən zəif xalqının, yəhudilərin təhqir və isteh-zalarına məruz qaldı, onlar Onun müqəddəs başına tikanlardan hörülmüş çələng qoymağı rəva bildilər. Amma Onun süudundan sonra bütün sultanların mirvariyə tutulmuş tacları tikan tacının qarşısında baş əydi və təzim etdi.

Allahın Sözünün hətta bu dünyada yetişdiyi izzətə baxın!

## 29

## MÜQƏDDƏS PAVELİN KORİNFLİLƏRƏ BİRİNCİ MƏKTUBUNUN ON BEŞİNCİ FƏSLİNİN İYİRMİ İKİNCİ AYƏSİNİN İZAHI

*Sual.* – Korinflilərə birinci məktubun on beşinci fəslində iyirmi ikinci ayədə yazılıb: “Necə ki, hamı Adəmdə ölür, elə də hamı Məsihdə dirilir.” Bu sözlərin mənası nədir?

*Cavab.* – Bilin ki, insanın iki təbiəti vardır: fiziki təbiət və ruhani təbiət. Fiziki təbiət Adəmdən keçib, ruhani təbiət isə Allahın Sözünün Gerçəkliyindən, yəni Məsihin ruhaniyyətindən. Fiziki təbiət Adəmdən doğulub, ruhani təbiət isə Müqəddəs Ruhun kəramətindən doğulub. Birincisi bütün qeyri-kamilliklərin mənbəyidir; ikincisi isə bütün kamiliklərin qaynağıdır.

Məsih Özünü fəda etdi ki, insanlar fiziki təbiətin qeyri-kamilliklərindən azad olsunlar və ruhani təbiətin məziyyətlərinə malik olsunlar. İlahi Mahiyyətin kəramətindən var olan bu ruhani təbiət bütün kamilliklərin birləşməsidir və Müqəddəs Ruhun nəfəsindən var olur. Bu ilahi kamilliklərdir; Bu nurdur, ruhaniyyətdir, hidayətdir, ucalıqdır, yüksək ilhamdır, ədalətdir, sevgidir, fəzldir, hamıya lütfkarlıqdır, insansevərlikdir, həyatın cövhəridir. Bu Həqiqət Günəşinin cəlalının əks olunmasıdır.

Məsih Müqəddəs Ruhun mərkəzi nöqtəsidir: O, Müqəddəs Ruhdan doğulmuşdur; Onu Müqəddəs Ruh böyütmüşdür; O, Müqəddəs Ruhun törəməsidir – yəni Məsihin Gerçəkliyi Adəmdən gəlmir; xeyr, bu müqəddəs Ruhdan doğulmuşdur. Ona görə də Korinflilərə ünvanlanan bu ayədə: “Necə ki, hamı Adəmdə ölür, elə də hamı Məsihdə dirilir” yazılıb, yəni, bu ifadəyə uyğun olaraq ki, Adəm[1] bəşərin atasıdır, bu o deməkdir ki, o bəşəriyyətin fiziki həyatının mənbəyidir. Onun ata olması fiziki atalıqdır. O yaşayan bir ruhdur, lakin O ruhani həyat bəxş edən deyil, amma Məsih insanın ruhani həyatının mənbəyidir və ruha gəldikdə isə, Onun ata olması ruhani atalıqdır. Adəm yaşayan bir ruhdur; Məsih isə həyatverən ruhdur.

Bu fiziki dünya nəfsin gücünə tabedir və günah da nəfsin gücündən törəyən bir nəticədir, çünki bu ədalət və müqəddəslik qanununa tabe deyil. İnsan bədəni təbiətin əsiridir; o, təbiətin hökm etdiyi şəkildə davranacaqdır. Ona görə də bu yəqindir ki, hirs, qısqanclıq, mübahisə, xəsislik, tamahkarlıq, nadanlıq, təəssübkeşlik, nifrət, qürur və zülm fiziki dünyada mövcuddur. Bütün bu qəddar keyfiyyətlər insanın təbiətində var. Ruhani tərbiyə almamış insan vəhşidir – Afrikanın vəhşiləri kimi – onların hərəkətləri, vərdişləri və əxlaqı tamamilə hissi xarakterlidir, onlar o dərəcədə təbiətin tələbatına görə hərəkət edirlər ki, bir-birlərini parçalayır və yeyirlər. Beləliklə aydındır ki, insanın fiziki dünyası günahlar dünyasıdır. Bu fiziki dünyada insan heyvandan fərqlənmir.

Bütün günahlar təbiətin tələblərindən törəyir və fiziki keyfiyyətlərdən doğan bu tələbatlar heyvanlar üçün günah hesab olunmur, insanlar üçün isə günahdır. Heyvanlar hirs, hissiyat, qısqanclıq, tamahkarlıq, qəddarlıq, qürur

[1] Əbu-bəşər, yəni bəşərin atası, Həzrət Adəmə müsəlmanlar tərəfindən verilən adlardan biridir.

kimi qeyri-kamilliklərin qaynağıdır – bütün bu qüsurlar heyvanlarda vardır və günah deyil. Amma insanda bunlar günahdır.

Həzrət Adəm insanın fiziki həyatının mənbəyidir; lakin Məsihin Gerçəkliyi isə, yəni Allahın Sözü – ruhani həyatın mənbəyidir. Bu "həyatverici ruh"dur, bunun mənası odur ki, insanın fiziki həyatının tələbatlarından törəyən bütün qeyri-kamilliklər ruhun təlim və tərbiyəsi ilə insan kamilliklərinə çevrilir. Ona görə də Məsih həyatverici ruh idi, bəşəriyyətin həyatının qaynağı idi.

Həzrət Adəm fiziki həyatın mənbəyi olmuşdur və insanın fiziki aləmi qeyri-kamilliklər dünyası olduğundan, qeyri-kamilliklər ölümə bərabərdir, Pavel fiziki qeyri-kamillikləri ölüm adlandırmışdır. Lakin xristianların əksər hissəsi inanırlar ki, Həzrət Adəm qadağan olunmuş ağacın meyvəsini yeməklə bu itaətsizlik günahını işlətmiş və bunun da fəlakətli nəticəsi nəsillər boyu irs kimi keçmiş və Onun törəmələri arasında qalmışdır. Buradan ortaya çıxır ki, Həzrət Adəm bəşəriyyətin ölümünə səbəb olmuşdur. Bu izah ağıla uyğun deyil və açıqca səhvdir, çünki buradan belə çıxır ki, bütün insanlar, hətta Allahın Peyğəmbərləri və Elçiləri belə heç bir günah və ya səhv işlətməsələr də, sadəcə ona görə ki, Onlar da Həzrət Adəmin nəslindəndirlər - heç bir əsas olmadan günahkardırlar, Məsihin günahların bağışlanması üçün fəda olduğu günə qədər də cəhənnəmdə ağrılı işgəncələrə məruz qalmışdılar. Bu Allahın ədalətindən çox uzaqdır. Əgər Həzrət Adəm günahkar idisə, onda Həzrət İbrahimin günahı nə idi? Həzrət İsaakın, ya həzrət Yusifin təqsiri nə idi? Bəs Həzrət Musa nə günah etmişdi?

Lakin Allahın Sözü olan Məsih Özünü fəda etdi. Bunun iki mənası vardır, zahiri məna və gizli məna. Zahiri məna budur: Məsihin niyyəti bu idi ki, Əmri təqdim etsin və yaysın, yəni insan aləmini tərbiyə etsin, Adəm övladlarını diriltsin və bütün bəşəri ziyalandırsın; Və belə böyük bir Əmri təqdim etmək - elə bir Əmr ki, dünyanın bütün insanları, bütün millətlər və sultanlıqlar ona zidd idi – o demək idi ki, O qətlə yetirilməli və çarmıxa çəkilməli idi, beləliklə Məsih Öz missiyasını elan etdikdə Öz həyatını qurban verdi. O çarmıxı taxt kimi qəbul etdi, yaraları məlhəm, zəhəri isə bal və şəkər kimi qəbul etdi. O insanlara təlim vermək və tərbiyə etmək üçün qalxdı və beləcə Özünü fəda etdi ki, həyat ruhu bəxş etsin. O cismən fəda oldu ki, başqalarını ruhən diriltsin.

Fəda olmağın ikinci mənası budur: Məsih bir toxum kimi idi və bu toxum özünü qurban verdi ki, ağac böyüsün və inkişaf etsin. Baxmayaraq ki, toxum forma olaraq məhv oldu, əslində isə kamil bir əzəmət və gözəlliklə ağac formasında zahir oldu.

Məsihin məqamı mütləq kamillik məqamı idi; O Öz ilahi kamilliklərini günəş kimi bütün mömin ruhların üzərinə saçdı və işığın kəramətləri parladı və insanların zatını nurlandırdı. Məhz buna görə O deyir: "Göydən enmiş olan diri çörək Mənəm; əgər bir adam bu çörəkdən yeyərsə əbədi yaşayacaqdır".[1] – Bu o deməkdir ki, kimsə bu ilahi yeməkdən pay alsa, əbədi həyata yetişəcək: yəni, bu kəramətdən pay alan və bu kamillikləri götürən əbədi həyat tapacaq, əzəli nemətlər əldə edəcək, azğınlıq zülmətindən qurtulacaq və Onun hidayətinin nuru ilə işıqlanacaq.

---

[1] Yəhya, 6:41, 50, 58.

Toxum özünü ağac üçün fəda etdi, lakin onun kamillikləri, bu fədakarlığa görə, aşkar və zahir oldu – ağac, onun budaqları, yarpaqları və çiçəkləri toxumda gizlənmişdi. O zaman ki, toxum öz formasını qurban verdi, onun kamillikləri yarpaqların, çiçəklərin və meyvələrin kamil formasında zahir oldu.

## 30

## HƏZRƏT ADƏM VƏ HƏVVA

*Sual.* – Həzrət Adəmin rəvayətində və Onun tanıma ağacının meyvəsindən yeməsində nə kimi həqiqət var?

*Cavab.* – Bibliyada yazılıb ki, Allah Həzrət Adəmi Cənnət bağında onu becərmək və qayğısına qalmaq üçün qoydu və Ona dedi: "Bağdakı hər bir ağacın meyvəsindən yeyə bilərsən, lakin xeyir və şəri tanıma ağacından başqa, çünki əgər Sən ondan yesən, ölərsən."[1] Sonra deyilir ki, Allah Həzrət Adəmi yatızdırdı və sonra Onun qabırğalarından birini çıxardı və qadını yaratdı ki, Ona yoldaş olsun. Bundan sonra deyilir ki, ilan: "Allah sizə bu ağacdan yeməyi ona görə qadağan edib ki, sizin gözləriniz açılmasın və siz xeyiri şərdən ayıra bilməyəsiniz".[2] - deyərək qadını yoldan çıxardı ki, ağacın meyvəsindən yesin. Onda Həvva ağacın meyvəsindən yedi və Həzrət Adəmə də verdi və O da yedi; onların gözləri açıldı və özlərini çılpaq gördülər və onda onlar bədənlərini yarpaqlarla örtdülər. Bu hərəkətlə onlar Allahı qəzəbləndirdilər. Allah Həzrət Adəmə dedi: "Sən qadağan olunmuş ağacdan yedinmi"? Həzrət Adəm cavab verdi: "Həvva məni tamahlandırdı və Mən yedim". Onda Allah Həvvanı məzəmmətlədi. Həvva da dedi: "İlan məni tamahlandırdı, mən də yedim". Buna görə də ilan lənətləndi və ilanla Həvva və onların törəmələri arasında düşmənçiliyin binası qoyuldu. Və Allah dedi: "İnsan xeyir və şəri bilməklə Bizlərdən biri kimi oldu və birdən O həyat ağacından yeyər və əbədi yaşayar". Və ona görə də, Allah həyat ağacını qorudu.[3]

Əgər biz bu rəvayətə onun zahiri anlamında baxsaq, necə ki, çoxlu insanlar məhz belə də edirlər, bu həqiqətən qeyri-adidir. Ağıl bunu qəbul edə, inana və təsəvvür edə bilmir; çünki bu cür hadisələr, onların təfsilatı və buradakı danışıq və tənələr heç ağıllı insanın təsəvvürünə sığmır, o ki qaldı İlahiliyə aid olan bir şeyə yaraşsın – O İlahilik ki, bu sonsuz kainatı özünün ən kamil formasında onun saysız-hesabsız sakinləri ilə qüsursuz bir sistemdə, güc və kamillikdə yaradıb.

Biz bir az düşünməliyik: əgər bu rəvayət hərfi mənası ilə müdrik bir adama aid edilsəydi, hamı hadisələrin bu cür qoyulmasını və şərhini mütləq inkar edər və hətta bunun ağlı olan bir insandan gəldiyinə şübhə edərdilər. Ona görə də ağacın meyvəsindən dadmış Həzrət Adəm və Həvvanın bu hekayəsi sadəcə bir rəmz kimi qəbul olunmalıdır. Bunda ilahi sirlər və hərtərəfli dərin

---

[1] Yaradılış 2:16-17.
[2] Yaradılış 3:5.
[3] Yaradılış 3:11-15, 22.

mənalar gizlənmişdir və buna heyranedici şərhlər vermək olar. Ancaq gizli sirlərə vaqif olanlar və Qüdrətlinin Sarayına yaxın olanlar bu sirlərdən agahdırlar. Beləliklə Bibliyanın bu ayələrini bir neçə cür şərh etmək olar.

İndi biz onlardan birini izah edək və belə deyək: Həzrət Adəm insanın səmavi ruhudur, Həvva isə Onun insan qəlbidir. Zira Müqəddəs Kitabların bəzi hissələrində qadından danışılanda onlar insanın qəlbini nəzərdə tuturlar. Xeyir və şər ağacı bəşər dünyası deməkdir; çünki ruhani və ilahi dünya tamamilə xeyirdir və mütləq nurdur, lakin insan aləmində işıq və qaranlıq, xeyir və şər əks hallar kimi mövcuddur.

İlanın mənası insan aləminə bağlılıqdır. Ruhun insan aləminə bu bağlılığı Həzrət Adəmin ruhunu və qəlbini azadlıq aləmindən asılılıq dünyasına gətirdi və Onu Birlik Səltənətindən insan aləminə döndərdi. O zaman ki, Həzrət Adəmin qəlbi və ruhu insan aləminə daxil oldu, O, azadlığın cənnətindən xaric oldu və asılılıq dünyasına düşdü. Paklq və mütləq xeyir zirvəsindən O, xeyir və şər dünyasına endi.

Həyat ağacı mövcudluq aləminin ən yüksək dərəcəsidir: Allahın Sözünün açıqlandığı məqamdır, ali Zühurdur. Ona görə də bu məqam qorundu; və ən ali Zühurun zahir olması ilə bu, aydın və aşkar oldu. Çünki Həzrət Adəmin məqamı ilahi kamilliklərin üzə çıxması və zahir olması baxımından rüşeym halında idi; Məsihin məqamı yetkinlik halı və kamala çatmaq yaşı idi; və Ən Böyük Ulduzun[1] çıxması mahiyyət və keyfiyyətlərin kamillik halı idi. Məhz buna görə uca Cənnətdə həyat ağacı mütləq pak müqəddəslik mərkəzinin ifadəsidir – yəni ali ilahi Zühurdur. Həzrət Adəmin dövründən Məsihin dövrünə qədər Onlar əbədi həyat və ilahi kamilliklər haqqında az danışırdılar. Bu həyat ağacı Məsihin Gerçəkliyinin məqamı idi; Onun zühuru ilə bu ağac əkildi və əbədi meyvələrlə bəzəndi.

İndi baxın ki, bu məna həqiqətə nə qədər də uyğun gəlir. Çünki Həzrət Adəmin ruhu və qəlbi insan aləminə bağlananda onlar azadlıq dünyasından asılılıq dünyasına endilər və Onun nəsilləri də asılılıq dünyasında qalmaqda davam etdilər. Qəlbin və ruhun İnsan dünyasına olan və günah sayılan bu bağlılılığı Həzrət Adəmin nəslinə də keçmişdir və ilan timsalındadır ki, o da həmişə ruhlar və Həzrət Adəmin övladları arasında mövcud olur və onlarla düşmənçilikdədir. Bu düşmənçilik davam edir və dəyişmir. Zira dünyaya bağlılıq ruhların asılılığına səbəb olub və bu bağlılıq həmin günahdır ki, Həzrət Adəmdən Onun nəslinə ötürülmüşdür. Məhz elə bu bağlılığa görə də bəşər ruhani mahiyyətdən və uca məqamdan məhrum qalıb.

Məsihin pak nəsimləri və Ən Böyük Ulduzun[2] müqəddəs nuru ətrafa yayılanda insanların mahiyyəti – yəni o kəslər ki, Allahın Sözünə tərəf döndülər və Onun kəramətindən bolluca aldılar – bu bağlılıqdan və günahdan xilas oldular və əbədi həyat əldə etdilər, asılılıq zəncirindən qurtuldular və hürr dünyasına yetişdilər. Onlar İnsan aləminin qüsurlarından azad oldular və Səltənətin məziyyətləri ilə mübarək oldular. Məsihin sözlərinin mənası budur,

[1] Həzrət Bəhaullah.
[2] Bəhaullah.

"Mən Öz qanımı dünyanın həyatı üçün verdim."[1] – yəni bu o deməkdir ki, Mən bütün bu əziyyətləri, bu əzabları, bəlaları və hətta uca şəhidliyi ona görə seçmişəm ki, bu məqsədə çatım - günahların bağışlanmasına (yəni, ruhların insan dünyasından inqita etməsinə və onların ilahi aləmə bağlanmasına), ta ki, bəşər üçün hidayətin cövhəri və Uca Mələkutun kamilliklərinin məzhəri olacaq ruhlar yaransın.

Fikir verin ki, Kitab Əhlinin[2] fərz etdiyi kimi, əgər burada məna onun zahiri anlamında götürülsəydi, bu xalis ədalətsizlik və tam bir qədər işi olardı. Əgər Həzrət Adəm qadağan olunmuş ağaca toxunmaqla günah işlətmişdisə, onda şöhrətli Həzrət İbrahimin günahı nə idi və Allahın Həmsöhbəti Həzrət Musanın nə təqsiri vardı? Allahın Peyğəmbərləri nə insafsızlıq törətmişdilər ki? Və ya Ədalətli Yusifin xətası nə idi? Allahın ədaləti icazə verərdimi ki, bu nurlu Zühurlar Həzrət Adəmin günahı üzündən Məsih gələnə və Özünü fəda etməklə onları dəhşətli əzabdan qurtarana qədər cəhənnəmdə əzaba düçar olalar? Belə bir fikir hər cür qanun və qaydadan uzaqdır və heç cür sağlam düşüncə ilə qəbul oluna bilməz.

Xeyr! Bu artıq barəsində danışdığımız mənadadır: Adəm Adəmin Öz ruhudur, Həvva isə Onun qəlbidir; ağac insan aləmidir, ilan isə bu aləmə bağlılıqdır ki, günah sayılır və Adəmin övladları da bu günaha batmışdır. Məsih Özünün müqəddəs nəfəsi ilə insanları bu bağlılıqdan qorudu və onları bu günahdan azad etdi. Həzrət Adəmin günahı Onun məqamına münasibdir. Baxmayaraq ki, bu bağlılıqdan xeyirli nəticələr də oldu, ancaq bununla belə, bu yer dünyasına bağlılıq ruhani dünyaya bağlılığa münasibətdə günah hesab olunur. Möminlər üçün xeyir sayılan əməllər Yaxınlar üçün günahdır. Bu müəyyən olunubdur. Beləliklə cismani qüvvə ruhani qüvvəyə nisbətən yalnız qüsurlu deyil; onunla müqayisədə bu zəiflikdir. Eynilə də, fiziki həyat Mələkutdakı əbədi həyatla müqayisədə ölüm kimidir. Buna görə Məsih fiziki həyatı ölüm adlandırıb və deyib: "Qoy ölüləri ölülər basdırsın."[3] Baxmayaraq ki, o kəslər fiziki həyata malik idilər, amma Onun nəzərində o həyat ölü idi.

Həzrət Adəmin Bibliyadakı hekayətinin mənalarından biri budur. Fikirləşin, başqa mənalar da açarsınız.

Salam olsun sizə.

## 31

## MÜQƏDDƏS RUHA QARŞI KÜFRÜN İZAHI

*Sual.* – "Ona görə mən sizə deyirəm, hər cür günah və küfr insana bağışlanar: amma Müqəddəs Ruha qarşı edilən küfr bağışlanmaz. Əgər kimsə insan oğluna qarşı bir söz desə, bu ona bağışlanar: amma kimsə Müqəddəs ruha qarşı danışarsa, bu ona bağışlanmayacaq, nə bu dünyada, nə də axirətdə". (Matta 12:31-32)

---

[1] Yəhya 6:51.
[2] Yəhudilər və xristianlar.
[3] Matta 8:22.

*Cavab.* – Allahın Zühurlarının müqəddəs zatları iki ruhani məqama malikdirlər. Biri zühur məqamıdır ki, günəşin kürəsi ilə müqayisə oluna bilər, digəri isə zühurun parıltısıdır, yəni günəşin işığı və şüaları kimi. Bunlar Allahın kamillikləridir – başqa sözlə, Müqəddəs Ruhdur. Çünki Müqəddəs Ruh ilahi Kəramətdir və rəbbani kamilliklərdir və bu ilahi kamilliklər günəşin şüaları və istisi kimidir. Günəşin parlaq şüaları onun varlığını təşkil edir və onlarsız günəş, günəş olmazdı. Əgər ilahi kamilliklər Məsihin simasında zahir olmasa və əks olunmasaydı, onda O, Mesaya olmazdı. O Zühurdur, çünki O, Özündə İlahi kamillikləri əks etdirir. Allahın peyğəmbərləri Rəbbani kamilliklərin zühurudurlar, yəni Müqəddəs Ruh Onlarda zahir olur.

Əgər ruh Zühurdan kənar qalırsa, o hələ ayıla bilər; çünki o ilahi Zühurun kamilliklərini hələ tanımayıb. Lakin əgər o, ilahi kamilliklərin özünə - başqa sözlə, Müqəddəs Ruha nifrət edirsə, onda bu aydındır ki, o, yarasa kimi işığa nifrət edir.

İşığa nifrət etməyin əlacı yoxdur və bağışlana bilməz – yəni onun Allaha yaxınlaşması mümkün deyil. Bu lampa ona görədir ki, o, işıq verir; işıqsız isə bu lampa ola bilməzdi. İndi əgər insanın lampanın işığına qarşı nifrəti varsa, deməк, o, yəqin ki, elə kordur və işığı anlaya bilmir; korluq isə Allahdan həmişə uzaq qalmağa səbəb olur.

Bu aydındır ki, insanlar Allahın Zühurunda üzə çıxan Müqəddəs ruhun kəramətindən feyz alırlar, Zühurun şəxsiyyətindən deyil. Ona görə də əgər insan Müqəddəs Ruhun kəramətindən feyz almırsa, o, ilahi bəxşişdən məhrum qalır və bu, uzaqlığın özü insanı əfvə yetişməkdən məhrum qoyur.

Məhz buna görə də, Zühurların düşmənləri olan və Onları tanımayan çoxlu insanlar tanıyan kimi Onların dostu olurdular. Zühura qarşı belə düşmənçilik daimi məhrumiyyətə səbəb olmur, çünki düşmənçiliyə rəvac verənlər işıq sahiblərinə qarşı düşmənçilik edirdilər, onlar bilmirdilər ki, Onlar Allahın parlayan işıqlarıdır. Onlar işığın düşmənləri deyildilər, amma başa düşən kimi ki, işığın sahibi işığın zahir olduğu yerdir, onda onlar Bunun səmimi dostlarına çevrilirdilər.

Məna budur: işıqverəndən uzaq qalmaq əbədi məhrumiyyətə səbəb olmur, zira ayıla və huşyar ola bilər; amma nura qarşı düşmənçilik daimi məhrumiyyətə səbəb olur və bunun əlacı yoxdur.

## 32

## "ZİRA DƏVƏT OLUNANLAR ÇOXDUR, AMMA SEÇİLMİŞLƏR AZDIR" AYƏSİNİN İZAHI

*Sual.* - İncildə Həzrət İsa buyurub: "Zira dəvət olunanlar çoxdur, seçilmişlər isə azdır"[1] və Quranda yazılıb: "O kimə istəsə, xüsusi mərhəmət əta edər". Bunun mənası nədir?

[1] Matta 22:14.

*Cavab*: - Bil ki, kainatın nizamı və kamilliyi tələb edir ki, mövcudat saysız-hesabsız formada olsun. Çünki mövcud varlıqlar yalnız bir dərəcədə, bir məqamda, bir cinsdə, bir növdə və bir sinifdə ola bilməzdi; şübhəsiz, dərəcələrin müxtəlifliyi və formaların fərqliliyi, cins və növlərin çoxluğu zəruridir – yəni materiyanın mineral, bitki, heyvan dərəcəsi və insan formasında olması qaçılmazdır; çünki dünya təkcə insanla nizamlana, bəzənə, təşkil oluna və kamilləşə bilməzdi. Eynilə də, yalnız heyvanlarla, yalnız bitkilərlə və ya yalnız minerallarla bu aləm belə gözəl mənzərə, dəqiq nizam və tam zinətlə meydana çıxmazdı. Şübhəsizdir ki, bu, dərəcələrin, məqamların, növlərin və siniflərin müxtəlifliyindəndir ki, mövcudat ən yüksək kamilliklə bu cür parlayır.

Məsələn, əgər bu ağac bütünlüklə ağacdan ibarət olsaydı, bitki aləminin kamillikləri əldə oluna bilməzdi; çünki yarpaqlar, çiçəklər və meyvələr, bunların hamısı zəruridir ki, bu ağac ən yüksək gözəllik və kamilliklə meydana çıxsın.

Bu cür də insan bədəninə nəzər salın. O, müxtəlif orqanlardan, hissələrdən və əzalardan təşkil olunmalıdır. İnsanın gözəlliyi və kamilliyi qulağın, beynin və hətta dırnaq və tüklərin mövcud olmasını tələb edir; Əgər insan ancaq beyindən, gözlərdən və ya qulaqlardan ibarət olsaydı, bu qeyri-kamilliyə bərabər olardı. Beləliklə, tüklərin, kirpiklərin, dişlərin və dırnaqların olmaması tamamilə qüsur olardı, hərçənd gözlə müqayisədə onlar hissiyatsızdırlar və bununla mineral və bitkiləri xatırladırlar; lakin onların insan bədənində olmaması qaçılmaz qüsurdur və xoşa gəlməzdir.

Mövcudatın dərəcələri fərqli və müxtəlif olduğu kimi, varlıqlar da pillələr üzrə biri digərindən ucadadır. Ona görə də, Allahın iradəsi və istəyi ilə həmin bu varlıqlardan bəziləri yüksək pillə üçün seçilib, məsələn, insan, bəziləri isə orta pillədə yerləşdirilib, bitkilər kimi və bəziləri isə ən aşağı pillədə qalıb, mineral kimi.

Bu Allahın mərhəmətindəndir ki, insan ən yüksək pillə üçün seçilib; və insanlar arasında ruhani tərəqqi və ilahi keyfiyyətlərlə bağlı mövcud olan fərqlər də Şəfqətlinin seçiminə görədir. Zira əbədi həyat olan iman, mərhəmətin bir əlamətidir, ədalətin nəticəsi deyil. Məhəbbət atəşinin alovu, bu torpaq və su dünyasında cəzbetmə qüvvəsi ilə alışır, səy və mübarizə nəticəsində deyil. Bununla belə, səy və inadla bilik, elm və digər kamilliklər qazanıla bilər; amma yalnız İlahi Gözəlliyin işığı ruhları cəzbetmə qüvvəsi ilə ilhamlandıra və riqqətə gətirə bilər. Ona görə də deyilib: "Dəvət olunanlar çoxdur, amma seçilmişlər azdır"[1]

Lakin maddi varlıqlara həqarətlə baxılmamalı, onlar qınanmamalı və öz dərəcə və məqamlarına görə məsuliyyət daşımamalıdırlar. Məsələn, mineral, bitki və heyvan hər biri öz müxtəlif dərəcələrində qəbul olunandır; lakin əgər onlar öz səviyyələrində qeyri-kamil qalırlarsa, onda onlar töhmətə layiqdir, ancaq bu səviyyə özü kamildir.

İnsanlar arasındakı fərq iki cürdür: bir fərq məqam fərqliliyidir ki, bu da qınana bilməz. Digər fərq iman və inamda olan fərqdir; bunun azlığı töhmətə

[1] Matta 22:14.

layiqdir, çünki bu zaman ruh özünün onu bu nemətlərdən məhrum qoyan və Allahın məhəbbətinin cazibə qüvvəsinin hiss etməyə qoymayan həvəs və ehtirasların təsiri altına düşür. Hərçənd ki, insan öz səviyyəsində tərifəlayiq və qəbul olunandır, amma o, həmin bu səviyyənin kamilliklərindən məhrum qalsa, onda o, geyri-kamillik mənbəyi olacaq ki, bunun üçün də onun üzərinə məsuliyyət qoyulub.[1]

## 33

## PEYĞƏMBƏRLƏRİN DEDİYİ "QAYIDIŞ"

*Sual.* – Qayıdış mövzusunu izah edərdinizmi?

*Cavab.* – Həzrət Bəhaullah bu sualı İqanda[2] tam və aydın bir şəkildə izah edib. Bunu oxuyun və bu mövzunun həqiqəti sizə aşkar olacaq. Lakin siz bu barədə soruşduğunuzdan, mən bu məsələni qısaca şərh edəcəyəm. Biz bunu İncildən izah etməyə başlayacağıq, çünki orada açıqca deyilib ki, Yəhya - Zəkəriyyənin oğlu meydana çıxdı və Allahın Səltənəti barədə müjdəni insanlara çatdırdı, ondan soruşdular: "Sən kimsən?" Vəd olunmuş Messiyasanmı?" O cavab verdi, "Mən Messiya deyiləm." Onda ondan soruşdular: "Sən İlyassanmı?", O dedi: "Mən deyiləm".[3] Bu sözlər göstərir və sübut edir ki, Zəkəriyyənin oğlu Yəhya vəd olunmuş İlyas deyildi. Lakin Preobrajenie günü Tabor dağında Məsih açıqca dedi ki, Zəkəriyyənin oğlu Yəhya vəd olunmuş İlyas idi.

Markın İncilindən doqquzuncu fəsil 11-13-cü ayələrdə deyilir: "Və Ondan soruşdular: "Nə üçün qanunşünaslar deyirlər ki, "Əvvəlcə İlyas gəlməlidir", O da onlara dedi: "Doğrudan da, İlyas əvvəlcə gəlib hər şeyi yerbəyer etməlidir. Və necə olur ki, İnsan oğlu, kitablarda yazıldığı kimi, çox əzab çəkib, təhqir olunacaqdır. Fəqət, Mən, sizə deyirəm: İlyas gəlmişdir və yazıldığı kimi, istədikləri hər şeyi ona etmişdilər".

Mattadan 17-ci fəsildə, 13 ayədə deyilir: "Şagirdlər o zaman anladılar ki, İsa Vəftizçi Yəhya haqqında bu sözləri söyləyirdi".

Onlar Vəftizçi Yəhyadan soruşdular, "Sən İlyassanmı?", O cavab verdi: "Xeyr, Mən deyiləm!", amma buna baxmayaraq İncildə deyilib ki, Yəhya vəd olunmuş İlyasdır və Məsih də bunu açıqca deyib.[4] Əgər Yəhya İlyas idisə, onda niyə deyirdi ki, "Mən deyiləm"? Və əgər O, İlyas deyildisə, niyə Məsih deyir ki, O İlyasdır?

İzahı belədir: şəxsiyyətin özü deyil, kamilliklərin mahiyyəti nəzərdə tutulurdu – yəni İlyasda olan kamilliklər eynilə də Vəftizçi Yəhyada da vardı və onda da dəqiqliyi ilə aşkar olurdu. Ona görə də Vəftizçi Yəhya vəd olunmuş İlyas idi. Bu halda şəxsiyyət[5] deyil, keyfiyyətlər nəzərdə tutulurdu. Məsələn, keçən il bir çiçək vardı və bu il də çiçək var; Mən deyirəm ki, keçən

---

[1] "İnsanların xarakterindəki fərqlərin səbəbləri" sualına baxın.
[2] Həzrət Bəhaullahın Bağdadda Öz missiyasını bəyan etməzdən öncə nazil etdiyi kitab.
[3] Yəhya 1:19-21.
[4] Yəhya 1:21.
[5] yəni fərdiyyət.

ilin çiçəyi qayıdıb. İndi, Mən onu nəzərdə tutmuram ki, keçən ilki çiçək özünün bütün dəqiq fərdiyyəti ilə geriyə dönüb; ancaq bu çiçək də keçən ilki çiçəklə eyni keyfiyyətlərə malik olduğundan – eyni ətirə, lətafətə, rəngə və formaya malikdir – Mən deyirəm ki, keçən ilki çiçək qayıdıb və bu çiçək elə əvvəlki çiçəkdir. Bahar gələndə biz deyirik ki, keçən ilin yazı geri gəlib, çünki keçən ilin baharında olan bütün şeylər bu yazda da mövcuddur. Məhz elə buna görə Məsih buyurub: "Siz əvvəlki Peyğəmbərlərin günlərində baş verənləri görəcəksiniz."

Daha bir misal gətirək. Keçən ilin toxumu əkilib, budaqlar və yarpaqlar böyüyür, çiçəklər və meyvələr əmələ gəlir və hər şey yenidən toxuma dönür. Bu ikinci toxum əkiləndə, bundan ağac cücərəcək və böyüyəcək və həmin budaqlar, yarpaqlar, çiçəklər və meyvələr qayıdacaq və o ağac kamilliklə meydana çıxacaq. Necə ki, əvvəli toxum idi, elə də axırı toxumdur, ona görə də biz deyirik ki, toxum qayıdıb. Biz ağacın materiyasına baxdıqda, bu ayrı, yeni bir materiyadır, amma biz çiçəklərə, yarpaqlara və meyvələrə baxanda eyni ətir, lətafət və dadı verir. Beləliklə də ağacın kamilliyi ikinci dəfə qayıdır.

Eynilə də, əgər biz fərdin qayıdışını nəzərdə tuturuqsa, bu ayrı bir fərddir; amma əgər biz keyfiyyət və kamillikləri nəzərdə tuturuqsa, onda həmin əvvəlki qayıtmışdır. Ona görə də, Məsih deyəndə ki: "Bu İlyasdır", O nəzərdə tuturdu ki: bu şəxs İlyasın kəraməti, kamilliyi, xasiyyəti, keyfiyyət və məziyyətləridir. Vəftizçi Yəhya deyib: "Mən İlyas deyiləm". Məsih keyfiyyətləri, kamillikləri, xasiyyət və məziyyətləri nəzərdə tuturdu, Yəhya isə onun materiya və fərdiyyətini. Bu elə bu lampaya bənzəyir: Bu keçən gecə burada idi, bu gecə də yanır və sabah da işıq verəcək. Biz deyirik ki, bu lampa bu gecə də elə dünənki işığı verir və o işıq qayıtmışdır. Bu işığa aiddir, neftə, ya fitilə və ya şamdana yox.

Bu məsələ Kitabi-İqanda tam və aydın bir şəkildə izah olunub.

## 34

## PYOTRUN İMANININ RƏMZİ

*Sual.* – Mattadan İncildə deyilib: "Sən Pyotrsan və Mən Öz kilsəmi bu daşın üzərində tikəcəyəm."[1] Bu ayənin mənası nədir?

*Cavab.* – Məsihin bu sözü Pyotrun bəyanının təsdiqidir ki, Məsih ondan soruşanda: "Sən Məni Kim hesab edib inanırsan?"- Pyotr cavab verdi: Mən inanıram ki, "Sən Canlı Allahın Oğlusan." Onda Məsih ona dedi: "Sən Pyotrsan"[2] – çünki Arami dilində Kifa daş deməkdir – "və Mən Öz kilsəmi bu daşın üzərində tikəcəyəm." Çünki başqaları Məsihə cavab verəndə dedilər ki, O İlyasdır, bəziləri dedilər ki, O, Vəftizçi Yəhyadır və digərləri isə Yeremiya və ya Peyğəmbərlərdən biri olduğunu dedilər.[3]

---

[1] Matta. 16:14-18.

[2] Bu yaxşı məlumdur ki, Pyotrun həqiqi adı Simon idi, lakin Məsih Onu Kifa adlandırdı ki, bu da Yunanca qaya (daş) mənasını verən petras sözünə uyğundur.

[3] Matta. 16:14-18.

Məsih bu deyimin vasitəsilə istəyirdi ki, Pyotrun sözlərini təsdiq etsin və beləliklə, onun Pyotr adını istifadə edərək O: “Və Mən Öz kilsəmi bu daşın üzərində tikəcəyəm” deməklə onu nəzərdə tuturdu ki, Məsihin Yaşayan Allahın Oğlu olmasına inanc(etiqad) Allahın Dininin əsası olacaq və Allahın kilsəsinin – hansı ki, Allahın Qanunudur - bünövrəsi bu inam üzərində bərqərar olacaq.

Pyotrun məzarının Romada olması şübhəlidir; bunun dəqiqliyi müəyyən olunmayıb. Bəziləri deyirlər ki, onun məzarı Antioxiyadadır.

Bundan əlavə, gəlin Papalardan bəzilərinin həyatını Məsihin dini ilə müqayisə edək. Məsih, ac, evsiz-eşiksiz, çöllərdə otla qidalanırdı və heç kəsin hisslərinə belə toxunmaq istəmirdi. Papa isə qızıla tutulmuş karetada gəzir və öz vaxtını belə ləzzət və dəbdəbə, belə zənginlik və zinətdə ən cah-cəlallı bir şəkildə keçirir ki, heç sultanlar buna malik olmayıblar.

Məsih heç kəsi incitməyib, Papalardan bəzisi isə günahsız insanları öldürüblər. Papalar sadəcə müvəqqəti hakimiyyəti saxlamaq üçün nə qədər qan töküblər! Sadəcə fərqli fikrə malik olan və insanlığa xidmət edən minlərlə insanları və təbiətin sirlərini açan alimləri həbs ediblər, məhbəsə salıblar və öldürüblər. Onlar həqiqətə nə dərəcədə zidd gediblər!

Məsihin nəsihətləri üzərində düşünün və Papaların adət və vərdişlərini araşdırın. Fikir verin: Məsihin nəsihətləri ilə Papaların idarəçilik manerasında bir oxşarlıq varmı? Biz tənqid etməyi xoşlamırıq, amma Vatikanın tarixi çox qeyri-adidir. Bizim dəlilimizin məqsədi budur ki, Məsihin nəsihətləri bir şey idi, Papanın idarəçilk forması isə tamamilə başqa bir şeydir; onlar bir-birinə uyğun gəlmir. Baxın, nə qədər protestantlar Papaların əmri ilə qətlə yetirilib, nə qədər zülm və təzyiqlərə rəvac verilib və nə qədər cəzalar verilib və əzab-əziyyətlər törədilib! Bu hərəkətlərdən Məsihin hər hansı bir xoş ətrinin iyi gəlirmi? Xeyr! Allaha and olsun. Bu insanlar Məsihə itaət etməyiblər, şəkli qarşımızda asılmış olan Müqəddəs Barbara isə Məsihə itaət etdi, Onun addımları arxasınca getdi və Onun hökmlərini yerinə yetirdi. Papalar arasında da elə mübarək ruhlar var ki, onlar Məsihin ardınca gediblər, xüsusən də Xristian erasının ilk əsrlərində, o zaman ki, fani şeylərə fikir verilmirdi və sınaqlar çox şiddətli idi. Amma onlar hakimiyyətə gələndə və dünyəvi şərəf və rifah əldə olunanda, Papalıq hökuməti Məsihi tamamilə unutdu və müvəqqəti hakimiyyət, əzəmət, rahatlıq və cah-cəlalla məşğul oldu. O, insanları qırdı, alimliyin yayılmasına qarşı çıxdı, elm adamlarına işgəncə verdi, bilik işığının qarşısını kəsdi, qətl və qarətlərə fərman verdi. Minlərlə insanlar, elm və maarif adamları, günahsız şəxslər Roma zindanlarında çürüdülər. Bütün bu hərəkət və əməllərə baxanda onların Məsihin Canişini olmasına necə inanmaq olar?

Papanın Taxtı davamlı olaraq elmə müqavimət göstərirdi; hətta Avropada hesab edirdilər ki, din elmin əleyhinədir və elm dinin əsaslarının dağıdıcısıdır. O zaman ki, Allahın Dini həqiqətin üzə çıxmasına yardım edir, elmin və biliyin əsasıdır, ziyalı insanlar üçün o, xeyirxahlıq mənbəyidir; o, bəşəri sivilizasiyaya qovuşduran, təbiətin sirlərini açan, dünyanın üfüqlərinin işıqlanması səbəbidir. Belə olduqda, necə demək olar ki, o, elmə müxalifdir? Allah eləməsin! Xeyr, Allah üçün bilik, insana verilən ən böyük bəxşiş və

insani kamilliklərin ən şərəflisidir. Ancaq cahillik biliyə qarşı çıxar və elmə və biliyə nifrət edən kəs isə insan deyil, şüursuz heyvandır. Zira bilik nurdur, həyatdır, xoşbəxtlikdir, kamillikdir, gözəllikdir və Birlik Astanasına yaxınlaşmaq üçün vasitədir. O, insanlıq aləminin ləyaqəti və şərəfidir, Allahın ən böyük kəramətidir. Bilik hidayətlə birdir, cahillik isə həqiqətən azmaqdır.

Xoşbəxt o kəslərdir ki, öz günlərini bilik qazanmağa, təbiətin sirlərini açmağa, pak həqiqətin incəliklərinə vaqif olmağa sərf edirlər! Vay o kəslərin halına ki, cahilliyə qane olublar, ürəkləri mənasız saxta şeylərlə sevinir, o kəslər ki, cahilliyin və axmaqlığın dibinə yuvarlanıblar və həyatlarını yelə veriblər.

## 35

## QƏDƏR

*Sual.* – Əgər Allah bir insanın törədəcəyi əməl barədə bilirsə və əgər bu Tale Kitabında yazılıbsa, onda buna qarşı çıxmaq olarmı?

*Cavab.* – Bir şey barədə öncədən bilmək onun baş verməsi üçün səbəb deyildir; çünki Allahın Özünəxas biliyi bütün şeylərin mahiyyətini əhatə edir, həm onun mövcudluğundan qabaq, həm də sonra və bu, onların mövcudluğuna səbəb olmur. Bu, Allahın kamilliyidir. Allahın ilhamından Peyğəmbərlərin dili ilə Bibliyada deyilən Vəd Olunmuş Kəsin zahir olmasına dair söylənən peyğəmbərliklər Məsihin zühuretmə səbəbi deyildi.

Gələcəyin gizli sirləri Peyğəmbərlərə açılırdı və beləliklə Onlar öncədən elan etdikləri gələcək hadisələrlə tanış olurdular. Bu bilik və bu peyğəmbərliklər hadisələrin baş vermə səbəbi deyildi. Məsələn, bu gecə hər kəs bilir ki, yeddi saatdan sonra günəş doğacaq, lakin öncədən məlum olan bu ümumi bilik günəşin çıxma səbəbi deyil.

Ona görə də Allahın biliyi asılılıqlar dünyasında hadisələrin necə baş verməsinə səbəb olmur. Əksinə, bu, keçmişdən, indidən və gələcəkdən azaddır. Bu, şeylərin mahiyyəti ilə eynidir; bu hadisələrin baş vermə səbəbi deyil.

Eynilə də, hər hansı hadisənin Kitabda yazılması və ya xatırlanması onun meydana gəlməsinə səbəb olmur. Peyğəmbərlər, ilahi ilham vasitəsilə, nə olacağını bilirdilər. Məsələn, İlahi ilhamla Onlar bilirdilər ki, Məsih şəhid olacaq və bu barədə onlar öncədən xəbər verirdilər. İndi, Onların bilgisi və məlumatı Məsihin şəhidliyinin səbəbi idimi? Xeyr; bu bilik Peyğəmbərlərin kamilliyidir, şəhidliyə səbəb deyildi.

Riyaziyyatçılar astronomik müşahidə və hesablamalarla bilirlər ki, hansısa vaxtda ayın və ya günəşin tutulması baş verəcək. Təbii ki, bu barədə bilmə tutulmanın baş verməsinə səbəb olmur. Bu, əlbəttə, sadəcə analogiyadır, dəqiq təsvir deyildir.

## ÜÇÜNCÜ HİSSƏ

# ALLAHIN ZÜHURLARININ QÜDRƏT VƏ MƏQAMLARI

## 36

## RUHUN BEŞ NÖVÜ

Bil ki, ümumiyyətlə, ruhun beş növü vardır. Birincisi bitki ruhudur: bu bir qüvvədir ki, elementlərin birləşməsindən və Uca Allahın hökmü ilə maddələrin qarışmasından və başqa varlıqların təsirindən, effektindən və əlaqəsindən törəyir. Nə zaman ki, bu maddələr bir-birindən ayrılır, onda böyümə qüvvəsi bitmiş olur. Belə ki, başqa bir misal gətirsək, məsələn, elektrik cərəyanı elementlərin birləşməsindən yaranır, lakin bu elementlər ayrılanda elektrik qüvvəsi dağılır və itir. Bitki ruhu belədir.

Bundan sonra həmçinin elementlərin qarışmasından və birləşməsindən törəyən heyvan ruhu gəlir. Lakin bu birləşmə daha mürəkkəbdir və Qüdrətli Rəbbin hökmü ilə burada kamil bir birləşmə meydana çıxmışdır və heyvan ruhu - başqa sözlə, hissiyyat qüvvəsi törəmişdir. Bu, şeylərin gerçəkliyini gördüklərindən və görünən, eşidilən, yeyilən, lamisə və qoxu üzvlərilə qavranan şeylərdən qəbul edir. Birləşmiş elementlərin dağılmasından və parçalanmasından sonra bu ruh da təbii olaraq yox olur. Bu, gördüyünüz bu lampaya bənzəyir: yağ, fitil və od bir araya gətiriləndə işıq meydana çıxır; amma yağ qurtaranda və fitil yanıb bitəndə işıq da sönür və yox olur.

İnsan ruhu isə güzgüdə parlayan günəşin kəramətinə bənzədilə bilər. İnsanın bədəni, hansı ki, elementlərdən təşkil olunub, mükəmməl bir formada birləşib və uzlaşıb; bu ən möhkəm bir quruluşdur, ən ali birləşmədir, ən kamil mövcudluqdur. Bu, heyvan ruhu vasitəsilə böyüyür və inkişaf edir. Bu kamil bədən güzgüyə, insan ruhu isə günəşə bənzədilə bilər. Bununla belə, əgər güzgü qırılarsa, günəşin kəraməti davam edir; və əgər güzgü məhv olarsa və mövcudluğu dayanarsa, günəşin əbədi olan kəramətinə heç bir ziyan dəyməyəcək. Bu ruh aşkara çıxarmaq qüdrətinə malikdir; o hər şeyi əhatə edir. Sizə məlum olan bütün bu ecazkar nailiyyətlər, bu elmi kəşflər, böyük müəssisələr və mühüm tarixi hadisələr məhz bu ruhun üzə çıxan qüdrətidir. Gizli və görünməz aləmdən ruhani qüvvə vasitəsilə bu, onları görünən aləmə gətirmişdir. Belə ki, insan yerdə olarkən, göylərdə kəşflər edir. Məlum şeylərdən – yəni o şeylər ki, məlumdur və gözəgörünəndir – o qeyri-məlum şeylər aşkara çıxarır. Məsələn, insan bu yarımkürədədir; amma Kolumb kimi, o öz ağlının gücü ilə başqa bir yarımkürəni kəşf edir, yəni Amerikanı, hansı ki, o vaxta qədər kəşf olunmamışdı. Onun bədəni ağırdır, lakin o ixtira etdiyi vasitələrlə uça bilir. Onun hərəkəti yavaşdır, lakin icad etdiyi vasitələrlə o Şərqə və Qərbə son dərəcə yüksək sürətlə hərəkət edir. Xülasə, bu qüvvə hər şeyi əhatə edir.

Amma insan ruhunun iki cəhəti vardır: bunlardan biri ilahi, digəri isə şeytani cəhətlərdir – yəni o, ən yüksək kamilliyə və ya ən yüksək qeyri-kamilliyə qadirdir. Əgər insan məziyyətlər əldə edirsə, o, mövcud olan bütün varlıqların ən alisidir; və əgər o qüsurlar əldə edirsə, onda insan ən alçaq varlığa çevrilir.

Ruhun dördüncü dərəcəsi İlahi ruhdur; Bu iman ruhu və Allahın kəramətidir; bu Müqəddəs Ruhun nəfəsindən gəlir və ilahi qüvvənin köməyilə bu, əbədi həyat mənbəyi olur. Bu bir qüvvədir ki, yer əhli olan insanı səma əhli edir, qeyri-kamil insanı isə kamil insana çevirir. O, pak olmayan insanı pak bir varlığa, dilsiz-ağızsızı bəlağət sahibinə çevirir; cismani arzular əsiri olanları o, pak və müqəddəs edir; o, nadanı hikmət sahibi edir.

Beşinci ruh Müqəddəs Ruhdur. Bu Müqəddəs Ruh Allahla Onun yaratdıqları arasında vasitəçidir. Bu günəşə yönəlmiş güzgü kimidir. Necə ki, təmiz güzgü günəşdən işığı alır və kəraməti başqalarına ötürür, beləcə də Müqəddəs Ruh Həqiqət Günəşinin Müqəddəs İşığını vasitəçi kimi arınmış varlıqlara verir. Bu, bütün ilahi kamilliklərlə zinətlənmişdir. Hər dəfə o meydana çıxanda dünya yenilənir və yeni tsikl başlayır. İnsanlıq aləmi yeni libas geyinir. Bu yazla müqayisə edilə bilər; nə zaman ki, bahar gəlir, dünya bir haldan digər hala keçir. Yaz fəslinin gəlməsi ilə qara torpaq, tarla və çöllər yaşıllaşır və çiçəkləyir, bütün növ çiçəklər və xoş ətirli otlar böyüyür; ağaclar yeni həyat əldə edir, təzə meyvələr yetişir və yeni tsikl başlayır. Müqəddəs Ruhun zahir olması da buna bənzəyir. O zahir olanda insan aləmini yeniləyir və insan varlığına yeni bir ruh əta edir: o, mövcudluq aləmini gözəl geyimlə bəzəyir, cəhalətin zülmətini qovur və kamilliklərin işığının parlamasına səbəb olur. Məsih bu qüvvə ilə dövrü təzələdi; ilahi bahar fəsli özünün ən yüksək təravət və gözəlliyi ilə insanlıq aləmində taxtını qurdu və həyatverici nəsimlərin yaydığı ətirlər ziyalanmış insanları bürüdü.

Eynilə də, Həzrət Bəhaullahın gəlişi yeni bahar fəslinə bənzəyirdi ki, bu gəliş müqəddəs nəsimlərlə, əbədi həyat qoşunları və səmavi qüvvə ilə üzə çıxdı. O, İlahi Səltənətin Taxtını dünyanın mərkəzində qurdu və Müqəddəs Ruhun vasitəsilə ruhları diriltdi və yeni tsikl başladı.

## 37

## İLAHİLİK ANCAQ İLAHİ ZÜHURLAR VASİTƏSİLƏ DƏRK OLUNA BİLƏR

*Sual.* – İlahiliyin Zatı ilə Rəbbani Dan Yeri və İlahi Məşriq arasında nə kimi əlaqə var?

*Cavab.* – Bil ki, İlahiliyin Həqiqəti və ya Vahidliyin Zatının cövhəri pak müqəddəslik və mütləq qüsursuzluqdur – yəni bu bütün təriflərdən arınmışdır və pakdır. Mövcudatın dərəcələrinin ən ali sifətləri tamamilə, bu müstəviyə münasibətdə yalnız xəyaldır. Bu görünməz, dərkedilməz, əlyetməz, xalis bir cövhərdir ki, təsvir olunmaz, zira İlahi Mahiyyət hər şeyi əhatə edir. Həqiqətən, əhatə edən əhatə olunandan çox böyükdür və əhatə olunan əhatə edəni sığışdırmaz, nə də onun gerçəkliyini dərk edə bilər. Bununla belə, ağıl nə qədər inkişaf etsə də, hətta idrakın son dərəcəsinə, anlayışın hüduduna çatsa da o, ilahi əlamət və sifətləri yaradılış dünyasında görür, Allahın aləmində deyil. Zira Birlik Rəbbinin cövhəri və sifətləri müqəddəslik zirvəsindədir,

dərrakə və anlayışlar üçün bu məqama yaxınlaşmaq yolu yoxdur. “Yol bağlıdır, onun axtarışı isə qadağandır”.

Bu aşkardır ki, insan idrakı insanın varlığının keyfiyyətidir və həmin bu insan Allahın nişanəsidir: əlamətin keyfiyyəti əlamətin yaradanını necə əhatə edə bilər – yəni idrak, hansı ki, özü də insan varlığının keyfiyyətidir, Allahı dərk edə bilərmi? Ona görə də Allahlığın Mahiyyəti bütün dərkdən gizlidir və insan dərrakəsi üçün bağlıdır. O səviyyəyə yüksəlmək əsla mümkün deyil. Biz görürük ki, aşağı olan hər bir şey yüksək olanın mahiyyətini anlamaqda gücsüzdür. Belə ki, daş, torpaq, ağac, onlar öz inkişafında nə qədər təkamül etsə də, insanın mahiyyətini anlaya bilməz və görmə, eşitmə və digər hisslərin gücünü təsəvvür edə bilməzlər, baxmayaraq ki, onların hamısı (Allah tərəfindən) eyni cür yaradılmışdır. Ona görə də insan, yaradılmış bir varlıq, Yaradıcı olan bir pak Zatın mahiyyətini necə anlasın? Bu səviyyə idrak üçün əlçatmazdır; bunun dərki üçün heç bir izahat kifayət deyil, heç bir qüvvə mövcud deyil ki, bunu təsvir etsin. Toz zərrəsinin pak dünya ilə nə işi var və məhdud ağılla qeyri-məhdud dünya arasında nə əlaqə ola bilər? Ağıllar Allahı dərk etməkdə acizdir və qəlblər Onu izah etmək istərkən çaşırlar. “Gözlər Onu görməz, amma O, gözləri görər.” “O hər şeyi Bilən, hər şeydən Xəbərdardır.”[1]

Nəticə etibarilə, mövcudatın bu səviyyəsinə istinad edərkən hər bir fikir və izahat qüsurludur, bütün təriflər və vəsflər dəyərsizdir, hər bir ideya əbəsdir, hər bir düşüncə boşunadır. Lakin bu mahiyyətlərin Mahiyyətinin, həqiqətlər Həqiqətinin, Sirlərin Sirrinin əksi, şəfəqi, zühuru və parıltısı mövcudat aləmində vardır. Bu təcəllilərin dan yeri, bu şüaların daşıyıcıları, bu zühurların üzə çıxma yeri Müqəddəs Məşriqlər, Cahanşümul Zatlar və İlahi Varlıqlardır, O Kəslər ki, Allahın pak Zatının həqiqi güzgüləridir. Allahdan gələn bütün kamilliklər, kəramətlər, cəlal, günəşin təmiz cilalanmış güzgüdə özünün bütün kamillikləri və kəraməti ilə təcəlli etməsinə oxşar olaraq, gözəgörünəndir və Müqəddəs Zühurların Zatında aşkardır. Əgər deyilirsə ki, güzgülər günəşin zühurudur və çıxan ulduzun doğan yeridir, bu o demək deyil ki, günəş öz paklıq zirvəsindən enib və güzgü ilə birləşib, ya da Qeyri-Məhdud Zat bu zahirolma məkanına sığıb. Allah eləməsin! Bu antropomor-fizm tərəfdarlarının inamıdır. Xeyr; bütün təriflər, təsvirlər və alqışlar Müqəddəs Zühurlara aiddir, yəni adı çəkilən bütün təsvirlər, keyfiyyətlər, adlar və sifətlər İlahi Zühurlara aid olur, beləliklə heç kəs Bunu təsvir, izah, tərif edə və ya alqışlaya bilməz. Ona görə də, insanın bildiyi, kəşf etdiyi, bütün adlar, sifətlər və kamilliklər bu Müqəddəs Ruhlara aiddir. Başqa heç şeyə giriş yoxdur: “yol bağlıdır, onu axtarmaq isə qadağandır.”

Bununla belə, biz İlahi Həqiqətin adlarından və sifətlərindən danışırıq və Ona görmə, eşitmə, qüdrət, həyat və bilik kimi sifətlər aid etməklə Onu tərif edirik. Biz bu adları və sifətləri təsdiq etməklə Allahın kamilliklərini sübut etmirik, bununla biz Onun qeyri-kamilliklərə malik olmasını rədd edirik. Biz mövcud dünyaya nəzər salanda görürük ki, cəhalət qeyri-kamillikdir, bilik isə

[1] Quran 6:104.

kamillikdir; ona görə də biz deyirik ki, Allahın müqəddəs Zatı bir hikmətdir. Zəiflik qeyri-kamillikdir, qüdrət isə kamillikdir; buna görə də biz deyirik ki, Allahın pak Zatı Qüdrətin zirvəsidir. Bu o demək deyil ki, biz Onun biliyini, Onun baxışını, Onun qüdrətini və həyatını anlaya bilərik, zira bu bizim anlayışımızdan kənardır; Allahın batini adları və sifətləri Onun Zatı ilə eynidir və Onun Zatı bütün anlayışlardan yüksəkdir. Əgər sifətlər Zatla eyni deyilsə, onda saysız-hesabsız əzəli mövcudluqlar olmalıdır və sifətlərlə Zat arasında fərqlər də mövcud olmalıdır; və Əzəli Mövcudluq zəruri olduğundan, onda sonsuz əzəli mövcudluqlar ardıcıllığı yaranar ki, bu da aşkar səhvdir.

Buradan belə çıxır ki, bütün bu sifətlər, adlar, tərif və vəsflər Zühur Mücəssəmələrinə aiddir; və onlardan kənar biz nə təsəvvür etsək və ya fərz etsək, sadəcə xəyaldır, zira bizim görünməz və əlçatmaz olanı dərk etmək üçün vasitəmiz yoxdur. Məhz buna görə deyilib ki: “Sizin fikirlərinizin incə surətlərində təsəvvür xəyalınızla ayırd edə bildiyiniz hər şey ancaq sizin özünüzə bənzər bir yaradılışdır və sizin özünüzə dönür”.[1] Bu aydındır ki, əgər biz Allahın Mahiyyətini təsəvvür etmək istəyiriksə, bu təsəvvür əhatə olunandır və biz də əhatə edənik; bu da yəqindir ki, əhatə edən əhatə olunandan böyükdür. Bundan da aydın və qətidir ki, əgər biz Allahın mahiyyətini Müqəddəs Zühurdan kənar təsəvvür ediriksə, bu təmiz xəyaldır, çünki Allahlığın bizim ölçülərimizlə biçilməyən Gerçəkliyinə yaxınlaşmağa yol yoxdur və biz nə təsəvvür ediriksə, yalnız fərziyyədir.

Ona görə də fikir verin ki, dünyanın müxtəlif xalqları obrazların ətrafına dolanır və fikir və fərziyyə bütlərinə sitayiş edirlər. Onların bundan xəbəri yoxdur; onlar yaratdıqları bu surətlərə bütün idraklardan kənar və bütün vəsflərdən pak olan Zat kimi baxırlar. Onlar özlərini tovhid əhli hesab edir və baş-qalarını isə bütpərəst sayırlar; heç olmasa bütlər mineral səviyyədə də olsa mövcuddur, lakin insanların bu fikir və təsəvvür bütləri isə uydurmadan başqa bir şey deyil; onlar heç mineral səviyyəsində də mövcud deyillər. “İbrət alın, ey bəsirət sahibləri.”[2]

Bil ki, kamillik sifətləri, ilahi kəramət təcəlliləri və ilham nuru bütün Müqəddəs Zühurlarda görünür və aşkardır; lakin Allahın cəlallı Sözü - Məsih və İsmi-Əzəm (Ən Böyük Ad) – Bəhaullah, təsəvvür oluna bilməyən zühur və dəlillərdir, zira Onlar bütün əvvəlki Zühurların kamilliklərinə malikdirlər; hələ bundan əlavə, Onların müəyyən kamillikləri var ki, başqa Zühurları Onlardan asılı edir. Belə ki, İsrailin bütün Peyğəmbərləri ilham mərkəzi idilər; Məsih də ilham alırdı, amma Allahın Sözünün ilhamı ilə həzrət İsayanın, həzrət Yeremiyanın və həzrət İlyasın vəhylərində nə qədər fərq vardır!

Düşünün ki, işıq efir maddəsinin tərəddüd etməsinin təzahürüdür; göz sinirləri bu titrəmənin təsirinə məruz qalır və görmə yaranır. Lampadakı işıq efir maddəsinin tərəddüdü nəticəsində mövcud olur; günəş də beləcə işıq saçır, amma günəşin işığı ilə ulduzların və ya lampanın işığı arasında nə qədər fərq var!

---

[1] Hədis
[2] Quran 59:2

İnsan ruhu insan rüşeym halında olanda yaranır və üzə çıxır və həmçinin uşaqlıq və yetkinlik dövründə də o mövcud olur, lakin insan kamillik halında olanda o artıq parlayır və üzə çıxır. Ruh həmin ruhdur, lakin rüşeym halında olanda görmə və eşitmə qabiliyyətləri olmur. Kamillik və yetkinlik dövründə bu ən parlaq və cəlallı bir şəkildə üzə çıxır. Eynilə də, əvvəldə toxum yarpaqlara çevrilir və onda bitki aləminin ruhu meydana çıxır; meyvə olanda da bu həmin o ruhu zahir edir, yəni böyümə qabiliyyəti ən kamillik həddinə çatır; amma yarpaqlarla meyvə arasında nə qədər fərq var! Çünki meyvədən yüz minlərlə yarpaqlar əmələ gəlir, amma yenə də onlar həmin bitki ruhu ilə böyüyür və inkişaf edirlər. Məsihin kamillik və məziyyətləri, Həzrət Bəhaullahın cəlalı və parlaqlığı və İsrailin İezekiil və ya Samvel kimi Peyğəmbərlərinin məziyyətləri arasındakı fərqə fikir verin. Onların hamısı ilham alan zühurlar idilər, amma onların arasında çox böyük fərqlər vardır. Salam olsun sizlərə!

## 38

## İLAHİ ZÜHURLARIN ÜÇ MƏQAMI

Bilin ki, Müqəddəs Zühurlar, baxmayaraq ki, onlar sonsuz kamillik dərəcəsinə malikdirlər, yenə də, ümumi götürdükdə, onlar üç məqama malikdirlər. Birinci məqam fiziki məqamdır; ikinci məqam insanlıq məqamıdır, yəni rasional əqlə malik ruhdur; üçüncüsü isə ilahi zühur və səmavi cəlal məqamıdır.

Fiziki məqam hiss olunandır – zamana tabedir; bu elemetlərdən təşkil olunmuşdur və təşkil olunan şey isə dağılmağa məhkumdur. Mümkün deyil ki, təşkil olunmuş şey dağılmasın.

İkincisi rasional əqlə malik ruh məqamıdır, yəni insan gerçəkliyi. Bu da zamana tabedir və Müqəddəs Zühurların bu taleyi bütün bəşərlə eynidir.

Bilin ki, baxmayaraq ki, insan ruhu uzun əsrlər və dövrlər ərzində yer üzündə mövcud olmuşdur, amma o yenə də fenomenaldır.[1] Bu, ilahi nişanə olduğundan, bir dəfə ki mövcudat aləminə gəldi, əbədi olur. İnsan ruhunun əvvəli var, amma sonu yoxdur; o əbədiyyətə qədər davam edir. Eynilə də yer üzündə mövcud olan növlər fenomenaldır, çünki müəyyən olunub ki, bir vaxtlar olub ki, bu növlər yer üzündə mövcud olmayıb. Hələ bundan əlavə, yer özü heç də həmişə mövcud olmayıb, amma mövcudat aləmi həmişə olub, zira kainat ancaq bu yer kürəsindən ibarət deyil. Bunun mənası odur ki, baxmayaraq ki, insan ruhu fenomenaldır, amma bununla belə o ölməzdir, əbədidir, daimidir; axı şeylər aləmi insan aləmi ilə müqayisədə qeyri-kamilliklər aləmidir və insan aləmi də o, şeylər aləmi ilə müqayisədə kamilliklər aləmidir. Qeyri-kamilliklər kamillik həddinə çatanda o əbədi olur.[2] Bu bir misaldır ki, siz onun mənasını anlamalısınız.

---

[1] Yəni doğularkən.

[2] Yəni insan aləmində ancaq ruh ölməzdir. "Ruhun beş növü" və "İnsanın halı və onun ölümdən sonra tərəqqisi" suallarına istinad et.

Üçüncü məqam ilahi zühur və səmavi cəlal məqamıdır: bu Allahın Sözüdür, Əbədi Kəramətdir, Müqəddəs Ruhdur. Bunun nə əvvəli var, nə sonu, zira bu anlayışlar ilahi dünyaya deyil, asılılıqlar dünyasına mənsubdur. Allah üçün əvvəl son kimi bir şeydir. Beləliklə, günlərin, həftələrin, aylar və illərin sayılması, dünən və bu gün – bunlar yer kürəsinə bağlı şeylərdir; amma günəşdə belə şeylər – nə dünən, nə bu gün, nə də sabah, nə aylar, nə də illər var – hamısı birdir. Eynilə də Allahın Sözü bütün bu şərtiliklərdən arınmışdır və bu məhdudiyyətlərdən, asılılqlar dünyasının hədd və qanunlarından üstündür. Ona görə də Allahın Sözü və zühurların kamil məqamı olan peyğəmbərliyin mahiyyətinin nə əvvəli olub, nə də sonu olacaq; onun çıxması başqa şeylərin çıxmasından fərqlidir, bu, günəşin çıxmasına bənzəyir. Məsələn, bunun dan yeri Məsihin misalında açılanda o ən yüksək cəlal və parlaqlıqla əhatə olunmuşdu və bu əbədi və daimidir. Baxın, nə qədər fateh sultanlar olub, nə qədər dövlət xadimi, şahzadələr, qüdrətli rəhbərlər olub, onların hamısı yox olub getdi, amma Məsihin nəsimləri hələ də əsməkdədir; Onun nuru hələ də parlayır; Onun nəğməsi hələ də səslənir; Onun bayrağı hələ də dalğalanır; Onun qoşunları hələ də vuruşmaqdadır; Onun səmavi səsi hələ də şirin avazlıdır; Onun buludları hələ də gövhərlər yağdırır; Onun ildırımı hələ də çaxır; Onun əksi hələ də aydın və parlaqdır; Onun cəlalı hələ də parlayır və işıq saçır; və bu o insanlar üçün də eynidir ki, ruhları Onun hifzi altındadır və onun nuru ilə işıq saçırlar.

Onda bu aydındır ki, Zühurların üç halı var: fiziki hal, rasional əqlə malik ruh halı və ilahi zühur və səmavi cəlal halı. Fiziki hal mütləq məhv olub gedir, amma rasional əqlə malik ruh, baxmayaraq ki, onun əvvəli var, ancaq sonu yoxdur: xeyr, ona əbədi həyat əta olunub. Lakin Məsihin: "Ata Oğuldadır"[1] kimi danışdığı Müqəddəs Mahiyyətin nə əvvəli, nə də sonu var. Əvvəl haqqında danışanda bu, İlahi zühur halına aiddir; və obrazlı şəkildə rəmzi olaraq desək, sükut halı yatmağa bənzədilə bilər. Məsələn, yatmış insanı götürün, - o danışmağa başlayanda bu o deməkdir ki, o oyaqdır və bu elə həmin insandır, istər yatsın, istərsə də oyaq vəziyyətdə olsun; onun halına, yüksəlməsinə, şərəfinə, mahiyyətinə və təbiətinə heç bir dəyişiklik baş vermir. Bu sükut halı yatmağa bənzədilir, zühur isə oyaqlıqdır. İnsan yatsa da, oyaq da olsa, həmin insandır; yatmaq bir haldır, oyaqlıq başqa bir hal; Sükut zamanı yatmağa, zühur və hidayət isə oyaqlığa bənzədilə bilər.

İncildə deyilib: "Əvvəldə Söz vardı və Söz Allahın yanında idi".[2] Onda bu aydın və aşkardır ki, Məsih Messiya məqamına və Öz kamilliklərinə vəftiz olunduğu zaman deyil, Müqəddəs Ruh Ona göyərçin surətində enəndə çatdı. Xeyr, Allahın Sözü əzəldən hər zaman olub və ən yüksək ucalıq və paklıqda da olacaq.

---

[1] Yəhya 14:11, 17:21
[2] Yəhya 1:1

# 39

## İLAHİ ZÜHURLARIN İNSANİ VƏ RUHANİ HALLARI

Biz dedik ki, Zühurların üç səviyyəsi var. Birincisi, fiziki gerçəklik, hansı ki, bədəndən asılıdır; ikincisi fərdi gerçəklikdir, yəni, rasional əqlə malik ruh; üçüncüsü isə ilahi zühurdur, hansı ki, ilahi kamillikdir, mövcudluğun, ruhların tərbiyəsi, insanların hidayəti və asılılıqlar dünyasının nurlanmasının səbəbidir.

Fiziki vəziyyət insanlıq vəziyyətidir ki, məhv olub gedir, çünki bu elementlərdən təşkil olunmuşdur və elementlərdən təşkil olunan hər şey mütləq parçalanır və dağılır.

Lakin Allahın Zühurunun fərdi gerçəkliyi müqəddəs gerçəklikdir və bu səbəbdən də o arınmışdır və Onun təbiəti və xasiyyətlərinə aid olan bu halda o, bütün başqa şeylərdən fərqlidir. Bu günəş kimidir, hansı ki, özünə xas olan cəhətinə görə işıq verir və ayla müqayisə oluna bilməz, necə ki, günəşin kürəsini təşkil edən hissəciklər ayı təşkil edən hissəciklərlə müqayisə oluna bilməz. Birincinin hissəcikləri və quruluşu elədir ki, o şüa verir, amma ikincinin təşkil olunduğu hissəciklər işıq şüası vermir, ancaq bunu alıb əks etdirir. Beləliklə, başqa insanlar o ruhlardır ki, ay kimi, işığı günəşdən alırlar; amma o Müqəddəs Mahiyyət Özü-Özlüyündə nur saçır.

Varlığın[1] üçüncü məqamı İlahi Kəramətdir, Əzəli Gözəlliyin təcəllisidir, Qüdrətlinin nurunun parıltısıdır. İlahi Zühurların fərdi mahiyyətləri Allahın Kəramətindən və Rəbbani Təcəllidən ayrı deyillər. Eynilə günəşin kürəsi işıqdan ayrı deyil. Ona görə də demək olar ki, Müqəddəs Zühurun süudu sadəcə bu elementar şəkli tərk etməkdir. Məsələn, əgər lampa bu taxçanı işıqlandırırsa və əgər taxça dağıldığı üçün artıq lampa onu daha işıqlandırmırsa, lampanın ki nuru kəsilməyib. Xülasə, Müqəddəs Zühurlardakı Əzəli Kəramət işığa bənzəyir, fərdiyyəti lampanın şüşəsi timsalındadır, insan bədəni isə yuvaya bənzəyir: əgər yuva dağılsa, lampa yanmaqda davam edir. İlahi Zühurlar çöx müxtəlif güzgülərdir, çünki onlar xüsusi fərdiyyətə malikdirlər, lakin güzgüdə əks olunan günəş eyni bir günəşdir. Bu aydındır ki, Məsihin gerçəkliyi Musanın gerçəkliyindən fərqlidir.

Həqiqətən, əvvəldən Müqəddəs Gerçəklik mövcudatın sirrindən agah olur və uşaq yaşlarından Onda əzəmət üzə çıxır və görünür. Ona görə də necə ola bilər ki, bütün bu kəramət və kamilliklərə malik ikən bu anlayış onlarda olmasın?

Biz qeyd etdik ki, Müqəddəs Zühurlar üç səviyyəyə malikdirlər. Fiziki hal, fərdi gerçəklik və kamilliklərin zahirolma mərkəzi: bu günəşə, onun istisinə və işığına bənzəyir. Başqa fərdlər də fiziki varlığa, rasional qəlbə - yəni ruha və əqlə[2] malikdirlər. Belə ki, bu deyim: "Mən yatmışdım, ilahi nəsimlər Mənim üzərimdən əsdi və Mən ayıldım," Məsihin: "Bədən üzgündür, ruh isə şaddır", deyimi kimidir və ya yenə, "Mən xəstəyəm," və ya "Mən yaxşıyam" və ya "Mən narahatam" – bütün bunlar fiziki vəziyyətə aiddir və bunun nə fərdi gerçəkliyə, nə də İlahi Gerçəkliyin zühuruna heç bir aidiyyatı yoxdur. Beləliklə fikir verin ki, insan bədəni nə qədər bəlalara düçar ola bilər, amma ruh onların təsirinə məruz qalmır; hətta elə ola bilər ki,

---

[1] Zühurun
[2] Qəlb, Ruh və Əql səh. 171

bədənin bəzi üzvləri bütünlüklə şikəst olsun, amma əqlin mahiyyəti qalır və o əbədidir. Libasa min cür hadisə baş verə bilər, lakin onu geyən üçün bunun heç bir təhlükəsi yoxdur. Həzrət Bəhaullahın bu sözləri ki, "Mən yatmışdım və nəsimlər Mənim üzərimdən əsdi və Mən ayıldım", – deyə buyurur, o, bədənə aiddir.

Allahın aləmində keçmiş, gələcək və ya indi yoxdur; hamısı birdir. Beləliklə Məsih deyəndə ki, "Əvvəldə Söz vardı",[1] – o deməkdir ki, bu vardı, var və olacaq, zira Allahın aləmində zaman yoxdur. Məsələn, duada O deyir, "Müqəddəs tutulsun Sənin adın"; mənası budur ki, Sənin adın müqəddəs olub, müqəddəsdir və müqəddəs də olacaq.[2] Səhər, günorta və axşam bu dünyaya aiddir, ancaq günəşdə nə səhər, nə günorta, nə də axşam var.

---

[1] Yəhya 1:1
[2] Matta. 6:9, Luka. 11:2

## 40

## İLAHİ ZÜHURLARIN BİLİYİ

*Sual.* – İlahi Zühurların malik olduğu güclərdən biri bilikdir. Bu bilik nə dərəcədə məhduddur?

*Cavab.* – Biliyin iki növü var. Biri subyektiv, digəri isə obyektiv bilikdir – yəni intiutiv bilik və qavrayışla əldə olunan bilik.

İnsanın şeylər haqqında malik olduğu hərtərəfli bilik fikirləşməklə və ya müşahidə yolu ilə əldə olunur - yəni obyekt haqqında anlayış ya əqlin gücü ilə formalaşır, ya da obyektə baxmaqla onun surəti qəlbin güzgüsündə əks olunur. Bu biliyin dairəsi çox məhduddur, çünki bu səydən və qazanılan nailiyyətdən asılıdır.

Amma varlıq haqqında olan biliyin ikinci növü intuitivdir; bu insanın özünü tanımasına və özünü dərk etməsinə bənzəyir.

Məsələn, insanın ağlı və ruhu bədənin üzvlərinin və tərkib hissələrinin vəziyyət və halını bilir və bütün fiziki hissiyatlardan xəbərdardır; eynilə də onlar özlərinin gücündən, hissiyatların-dan, ruhani vəziyyətlərindən halidirlər. Bu öz varlığı haqqında bilikdir ki, insan tapır və anlayır, çünki ruh bədəni sarır və onun hissiyat və gücündən agahdır. Bu bilik səyin və ya öyrənməyin nəticəsi deyil. Bu sadəcə mövcud olan bir şeydir; bu mütləq bir bəxşişdir.

Müqəddəs Varlıqlar, Allahın ali Zühurları məxluqların mahiyyət və keyfiyyətlərini əhatə etdiklərindən, mövcud olan gerçəkliklərin üzərində olduqlarından və onları əhatə etdiklə-rindən və hər şeyi başa düşdüklərindən, Onların biliyi ilahi bilikdir, qazanılmış deyil, bu o deməkdir ki, bu müqəddəs kəramətdir; bu ilahi vəhydir.

Biz məhz məsələni başa düşmək məqsədilə bir misal gətirəcəyik. Yer üzündə ən nəcib varlıq insandır. O, heyvan, bitki və mineral aləmlərini ehtiva edir, yəni bu göstərilən səviyyələrə elə bir dərəcədə malikdir ki, o, bütün bu səviyyə və məqamlara sahibdir; o, onların sirlərindən və mövcudluqlarının mübhəmliyindən agahdır. Bu sadəcə bir misaldır, analogiya deyil. Qısaca desək, İlahi Zühurlar varlıqların sirlərindən agahdırlar. Ona görə də, Onlar insan aləminin vəziyyətinə uyğun olan və qəbul edilən qanunlar müəyyən edirlər, çünki din şeylərin mahiyyətindən doğan batini əlaqədir. Zühur, yəni Müqəddəs Qanunverən, varlıqların gerçəkliyindən agah olmayınca, şeylərin mahiyyətindən doğan batini əlaqəni dərk edə bilməz və O şübhəsiz, şəraitə uyğun gələn və reallığa cavab verən din qura bilməz. Allahın Peyğəmbərləri, Ali Zühurlar mahir həkimə bənzəyirlər, asılılıqlar dünyası isə insan bədəni kimidir: ilahi qanunlar isə ilac və müalicədir. Aydındır ki, həkim xəstənin bədənində olan bütün üzvlər haqda biliyə malik olmalı, habelə onun halından və tipik xüsusiyyətlərindən baş çıxarmalıdır ki, xəstəliyin zəhərləyici təsirinə qarşı dərman yaza bilsin. Əslində, həkim xəstəliyin özündən nəticə çıxararaq xəstəyə uyğun gələn müalicəni seçir, çünki o, xəstəliyin diaqnozunu qoyur, sonra isə ona qarşı dərman təyin edir. Xəstəlik müəyyən olunmayınca, dərman və müalicə necə təyin oluna bilər? Ona görə də həkim xəstənin konstitusiyası,

onun halı, bədən üzvləri və orqanları haqqında hərtərəfli biliyə malik olmalı, bütün xəstəlik və dərmanlarla tanış olmalıdır ki, lazımi dərmanı yaza bilsin.

Deməl, onda din, şeylərin gerçəkliyindən doğan zəruri əlaqədir; və ali Zühurlar da varlıqların sirlərindən xəbərdar olduqlarından bu batini əlaqəni başa düşür və bu biliklə də Allahın Qanununu təyin edirlər.

## 41

## KAİNATDA OLAN TSİKLLƏR

*Sual.* – Mövcudluq aləmində baş verən tsikllərin həqiqi izahı necədir?

*Cavab.* – Bu ucsuz-bucaqsız fəzada olan parlaq göy cisimlərinin hər birinin müxtəlif müddətdə baş verən fırlanma tsikli var və onların hər biri öz orbitində fırlanır və bu tsikl bitdikdə yeni tsikl başlayır. Belə ki, Yer hər üç yüz altmış beş gün, beş saat, qırx səkkiz dəqiqə və saniyənin müəyyən bir hissəsi ərzində tsikli başa vurur; və sonra yeni tsikl başlayır, yəni birinci tsikl təzədən başlayır. Eynilə də, bütün kainat üçün, istər göy cisimləri, istərsə də insan üçün böyük hadisələr, mühüm faktlar və dəyişikliklər tsikli vardır. Bir tsikl başa çatdıqda yenisi başlayır; əvvəlki tsikl yeni baş vermiş böyük hadisələrin hesabına tamamilə unudulur və ondan nə bir iz, nə də bir xatirə qalır. Gördüyünüz kimi, bizdə iyirmi min il əvvəlin tarixi yoxdur, baxmayaraq biz öncə sübut etmişdik ki, həyatın yer üzündə tarixi çox qədimdir. Bu yüz min və ya iki yüz min, ya bir və ya iki milyon il deyil; bu çox qədimdir, qədim tarixlər və izlər isə tamamilə yox olmuşdur.

İlahi Zühurların da hər birinin eynilə bu cür tsiklləri vardır və bu tsikl ərzində Onun qanun və hökmləri üstünlük təşkil edir və icra olunur. Onun dövriyyəsi yeni bir Zühurun gəlişi ilə sona yetdikdə, yeni tsikl başlayır. Bu yolla tsikl başlayır, bitir və yenilənir, o vaxtadək ki, dünyada kainat tsikli başa çatır və bu zaman mühüm hadisələr və böyük dəyişikliklər baş verir ki, bunlar da keçmişin hər bir izini və onun tarixini silir, sonra dünyada yeni kainat tsikli başlayır, çünki bu kainatın əvvəli yoxdur. Öncə biz bu məsələ barədə sübut və dəlillər gətirmişdik, ona görə də təkrarlamağa ehtiyac yoxdur.

Qısası, biz deyirik ki, mövcudluq aləmində kainat tsikli uzun müddətli zamanı, saysız-hesabsız dövr və epoxaları əhatə edir. Bu tsikl ərzində nurlu Zühurlar görünən aləmə gəlirlər, o vaxtadək ki, ən ali Zühur dünyanı Özünün nurunun mərkəzinə çevirməsin. Onun zühuru dünyanın yetkinləşməsinə səbəb olur və Onun tsiklinin müddəti çox uzun olur. Nəticədə başqa Zühurlar Onun kölgəsinə daxil olur. Onlar zamanın tələbinə uyğun olaraq maddi məsələlərə və suallara aid müəyyən hökmləri yeniləyirlər və eyni zamanda da Onun kölgəsi altında qalırlar. Biz indi Həzrət Adəmdən başlayan tsiklin içindəyik və bu dövriyyənin ali Zühuru Həzrət Bəhaullahdır.

## 42

## İLAHİ ZÜHURLARIN QÜDRƏTİ VƏ TƏSİRİ

*Sual.* – Həqiqət Taxtlarının, Allahın Zühurlarının qüdrətinin və kamilliklərinin dərəcəsi və Onların təsirinin hüdudu nə qədərdir?

*Cavab.* – Mövcudluq aləminə nəzər salın – yəni maddi şeylər dünyasına. Günəş sistemi qaranlıq və tutqundur və bu sistemdə işığın mərkəzi günəşdir və bütün planetlər onun ətrafında fırlanır və onun gücündən və kəramətindən pay alırlar. Günəş həyat və işıq mənbəyidir, günəş sistemindəki bütün varlıqların böyüməsi və inkişafı üçün vasitələri o verir; çünki günəşin kəraməti olmadan heç bir canlı varlıq mövcud ola bilməz: hər şey zülmətə bürünər və yox olardı. Ona görə də bu aydın və aşkardır ki, günəş işığın qaynağı və günəş sistemindəki varlıqların həyat mənbəyidir.

Buna oxşar olaraq, Allahın Müqəddəs Zühurları gerçəklik işığının mərkəzləridir, sirlər və məhəbbət kəramətinin qaynağıdırlar. Onlar qəlb və fikir dünyasında parlayır və ruhlar aləminə əbədi fəzilət yağışı yağdırırlar; Onlar ruhani həyat bəxş edir və həqiqətlər və mənalar işığı ilə nur saçırlar. Fikirlər dünyasının ziyalanması bu işıq mərkəzlərindən və sirlər mənbəyindən qaynaqlanır. Bu Müqəddəs Varlıqların nurunun kəraməti və nəsihətləri olmasaydı, qəlb və fikir dünyası qatı zülmət olardı. Bu sirlər qaynaqlarının inkaredilməz təlimləri olmasaydı, insanlıq aləmi heyvani tələbat və keyfiyyətlər üçün qida olar, hər şeyin mövcudluğu qeyri-real olar və həqiqi həyat əsla olmazdı. Məhz buna görə İncildə deyilib: “Əvvəlcə Söz vardı,”[1] bunun mənası odur ki, o (Söz), bütün həyatın mənbəyi oldu.

İndi günəşin yer üzündəki varlıqlara təsirinə baxın, onun yaxınlığından və ya uzaqlığından, doğması və ya batmasından hansı əlamət və nəticələr aşkara çıxır. Bir zaman payız olur, başqa bir vaxt bahar; və ya yenə yay və ya qış gəlir. Günəş ekvator xəttini keçəndə həyatverici bahar parlaqlığı ilə üzə çıxır və o, yay mövsümü zirvəsində duranda isə meyvələr yetkinliyin son həddinə çatır, taxıl və bitkilər məhsul verir və yer üzündəki varlıqlar özlərinin ən kamil inkişaf və böyümə həddinə çatırlar.

Eynilə də, Allahın Müqəddəs Zühuru, O Kəs ki, Allahın xilqət aləminin günəşidir, ruhlar, fikir və könüllər aləminə nur saçanda, ruhani bahar, yeni həyat başlayır, gözəl baharın qüdrəti aşkar olur və ecazkar faydalar üzə çıxır. Sizin də müşahidə etdiyiniz kimi, Allahın hər Zühuru meydana çıxanda, əql, fikir və ruh aləmində qeyri-adi tərəqqi baş verir. Məsələn, bu ilahi əsrdə ağıl və fikir dünyasında necə bir inkişafa nail olunmuşdur, və bu ancaq onun dan yerinin doğmasının əvvəlidir. Çox keçmədən siz görəcəksiniz ki, yeni kəramət və ilahi təlimlər bu zülmət dünyasını işıqlandıracaq və bu bədbəxt diyarları Ədəm cənnətinə çevirəcəklər. Əgər biz hər bir müqəddəs Zühurun əlamət və nişanələrini izah etsəydik, bu çox vaxt tutardı. Fikirləşin və bunun üzərində özünüz düşünün, onda özünüz bu məsələnin həqiqətinə vaqif olacaqsınız.

[1] (Yəhya 1:1)

## 43

## PEYĞƏMBƏRLƏRİN İKİ TİPİ

*Sual.* – Neçə cür Peyğəmbər vardır?

*Cavab.* – Ümumiyyətlə, Peyğəmbərlər iki cürdür. Biri müstəqil Peyğəmbərlərdir ki, Onların ardınca gedirlər; digər cür Peyğəmbərlər isə müstəqil deyillər və özləri ardıcıldırlar.

Müstəqil Peyğəmbərlər qanunverən və yeni tsikllərin baniləridirlər. Onların zühur etməsilə dünya yeni libasa bürünür, dinin bünövrəsi qoyulur və yeni kitab nazil olur. Arada vasitəçi olmadan Onlar İlahi Mahiyyətdən kəramət alırlar və Onların vəhyi Özlərinə xas olan bir nurlanmadır. Onlar günəşə bənzəyirlər ki, öz-özlüyündə işıq saçır: işıq onun təbiətinə xas olan zəruri bir keyfiyyətdir; o, işığı başqa bir ulduzdan almır. Bu Birlik səhərinin Məşriqləri kəramət mənbəyi və Həqiqət Cövhərinin güzgüləridir.

Başqa Peyğəmbərlər ardıcıllardır, çünki onlar budaqdırlar və müstəqil deyillər; onlar müstəqil Peyğəmbərlərin kəramətini alır və Kainat Peyğəmbərlərinin Hidayət işığından faydalanırlar. Onlar aya bənzəyirlər ki, özü işıq vermir və öz-özlüyündə parlaq deyildir, o öz işığını günəşdən alır.

Müstəqil zühur edən ümumkainat Peyğəmbərliyinin Zühurları, məsələn, Həzrət İbrahim, Həzrət Musa, Həzrət Məsih, Həzrət Məhəmməd, Həzrət Bab və Həzrət Bəhaullahdır. Digərləri isə həzrət Süleyman, həzrət Davud, həzrət İsaya, həzrət Yeremiya və həzrət İezekiil kimi özləri ardıcıl və davametdiricidirlər. Çünki müstəqil Peyğəmbərlər banilərdir; Onlar yeni din bərqərar edir və yeni tipli insanlar yaradırlar; Onlar ümumi əxlaqı dəyişir, yeni adət və qaydalar irəli sürür, tsikli və Qanunu təzələyirlər. Onların meydana çıxması bütün yer üzündə olan varlıqları yeni libasla bəzəyən və onlara yeni həyat verən yaz fəslinə bənzəyir.

Özləri ardıcıl olan ikinci tip Peyğəmbərlərə gəldikdə isə, onlar da Allahın Qanununu yayır, Allahın Dininə yönəldir və Onun sözünü ucaldırlar. Onlar müstəqil Peyğəmbərlərdən aldıqlarından başqa özlərindən heç bir qüvvə və gücə malik deyillər.

*Sual.* – Budda və Konfusi hansı kateqoriyaya aiddirlər?

*Cavab.* – Budda da yeni din qurub, Konfusi isə mənəviyyat və qədim məziyyətləri yeniləyib, ancaq onların qoyduğu qaydalar tamamilə məhv edilmişdi. Buddist və Konfusistlərin inam və ayinləri onların fundamental təlimlərinə uyğun davam etdirilməmişdir. Budduzmin Banisi gözəl bir ruh idi. O, Allahın Təkliyi təlimini qurdu, lakin sonralar Onun hökmlərinin əsil prinsipləri tədricən yox oldu və mövhumat olan adət və mərasimlər baş qaldırdı və sonda bunlar heykəl və təsvirlərə sitayiş etməklə nəticələndi.

İndi fikir verin: Məsih tez-tez təkrar edirdi ki, Beş Kitabın On Hökmü icra olunmalıdır və O təkid edirdi ki, onlar saxlanmalıdır. Bu On Hökmdən

birində deyilir: “Heç bir şəklə və ya təsvirə sitayiş etməyin.”[1] İndinin özündə belə bəzi Xristian kilsələrində çoxlu şəkil və təsvirlər var. Ona görə də bu aydın və aşkardır ki, Allahın Dini insanlar arsında özünün əsil prinsiplərini saxlamır və tamamilə yox olub aradan qalxana kimi tədricən dəyişmişdir. Buna görə də zühur yenilənir və yeni din bərqərar olur. Əgər din dəyişməsə və əvəzlənməsəydi, onda yenilənməyə ehtiyac olmazdı.

Başlanğıcda ağac çox gözəl, çox çiçəkli və bol meyvəli olur. Sonra o, qocalır və sonda tamamilə bəhrəsiz olur, daha sonra quruyur və çürüyür. Elə buna görə Həqiqi Bağban eyni cins və növdən olan müqayisəyəgəlməz təzə ting əkir, o, günbəgün böyüyür və inkişaf edir, ilahi bağda iri kölgə salır və gözəl meyvələr gətirir. Dinlər də belədir; zaman keçdikcə onlar ilkin əsaslarından uzaqlaşır, Allahın Dininin həqiqəti itir və daha onun ruhundan bir şey qalmır; küfr meydana gəlir və din ruhsuz bədənə çevrilir. Məhz bu səbəbdən də o yenilənir.

Buddistlər və Konfusiyanlar indi təsvir və heykəllərə sitayiş edirlər. Onlar Allahın Birliyindən tamamilə qafildirlər və qədim yunanlar kimi uydurma allahlara inanırlar. Amma əvvəldə bu belə deyildi; o zaman başqa prinsip və hökmlər vardı.

Yenə də baxın, Məsihin də dininin nə qədər prinsipləri unudulub, nə qədər küfr meydana çıxıb. Məsələn, Məsih qisası və təcavüzü qadağan etmişdi; üstəlik, O, şər və ziyan müqabilində bağışlama və xeyirxahlıq göstərməyi nəsihət etmişdi. İndi düşünün: elə Xristian millətlərinin arasında nə qədər qanlı savaşlar olub, nə qədər zülm, qəddarlıq, tamahkarlıq baş verib və qanlar tökülüb. Bu müharibələrin çoxu Papanın hökmü ilə aparılıb. Onda bu aydın və aşkardır ki, müəyyən zaman keçdikdən sonra din tamamilə dəyişir və əvəz olunur. Ona görə də onlar yenilənir.

[1] Çıxış 20:4-5 (İkinci qanun 5:8-9).

## 44

# ALLAHIN PEYĞƏMBƏRLƏRƏ ÜNVANLADIĞI MƏZƏMMƏTLƏRİN İZAHI

*Sual.* – Müqəddəs Kitablarda Peyğəmbərlərə ünvanlanan qınaq və məzəmmətlər vardır. Onlar kimə ünvanlanıb və bu qınaq kimə aiddir?

*Cavab.* – İradlar olan bütün danışıqlar, zahirən onlar Peyğəmbərlərə ünvanlansa da, insanlara yönəlib, bu bir hikmətdir ki, insanlar ruhdan düşməsinlər və ümidsizliyə qapılmasınlar. Ona görə də onlar sanki Peyğəmbərlərə ünvanlanıb; amma zahirən bu Peyğəmbərlərə deyilsə də, əslində onlar insanlara yönəlib.

Bundan əlavə, qüdrətli və müstəqil sultan öz ölkəsini təmsil edir: onun dediyi söz hamının sözüdür və onun gəldiyi bütün razılaşmalar hamının razılaşmasıdır, çünki onun təbəələrinin arzu və istəkləri onun arzu və istəkləridir. Eynilə də, Peyğəmbər bütün insanların təmsilçisidir. Belə ki, Allahın Ona ünvanlanan vədi və nitqi hamıya ünvanlanıb. Ümumiyyətlə isə, töhmət və məzəmmət kimi deyimlər insanlar üçün həddən artıq kəskindir və onlar üçün çox ürəkağrıdıcı olardı. Ona görə də Kamil Hikmət belə ünvanlamağı seçib və Bibliyanın özündə açıqca göstərildiyi kimi və necə ki, məsələn, İsrail övladları asi oldular və Həzrət Musaya dedilər: "Biz Amalekitlərlə vuruşa bimərik, çünki onlar qüvvətli, əzəmətli və cəsarətlidirlər." Onda Allah Həzrət Musanı və Harunu məzəmmət elədi, hərçənd Həzrət Musa tam itaətkar idi və asi deyildi. Əlbəttə ki, belə bir böyük Şəxs, İlahi Kəramət Vasitəçisi və Qanun çıxardan, mütləq Allahın hökmlərinə itaət etməlidir. Bu Müqəddəs Şəxslər Öz arzuları ilə deyil, küləyin əsməsindən hərəkətə gələn ağac yarpaqlarına bənzəyirlər; zira onlar Allahın məhəbbət nəsimləri ilə cəzb olunublar və Onların iradəsi mütləq mənada təslimiyyətdədir. Onların sözü Allahın sözüdür. Onlar lampanın şüşəsinə bənzəyirlər ki, işığı lampadan alırlar. Baxmayaraq ki, işıq sanki şüşədən gəlir, amma əslində bu işıq lampadan gəlir. Eynilə də Allahın Peyğəmbərləri, zühur mərkəzləri – Onların hərəkəti və sakitliyi ilahi ilhamdan qaynaqlanır, insani ehtirasdan deyil. Əgər belə olmasaydı, onda Peyğəmbər necə etibara layiq ola bilərdi, O, necə Allahın hökmlərini və qadağalarını çatdıran Allah Elçisi ola bilərdi? Müqəddəs Kitablarda Zühura istinadən xatırlanan qüsurlar bu cür suallara aiddir.

Allaha şükrlər olsun ki, siz buraya gəlmisiniz və Allahın Bəndələri ilə görüşmüsünüz. Siz onlarda Allahın razılıq ətirlərindən başqa bir şey görmüsünüzmü? Doğrudan da yox. Siz öz gözlərinizlə görmüsünüz ki, onlar gecə-gündüz səy qoyur və çalışırlar və onların Allahın sözünü ucaltmaqdan, insanların tərbiyələnməsindən, kütlələrin kamilləşməsindən, ruhani tərəqqidən, ümumdünyəvi sülhün carçısı olmaqdan, bütün bəşərə xeyirxah və bütün millətlərə mehriban olmaqdan başqa bir məqsədləri yoxdur. Özlərini bəşəriyyətə fayda vermək üçün fəda etməklə onlar maddi fürsətlərdən əl üzüblər və bəşəriyyətə məziyyətlər aşılamaq üçün əmək sərf edirlər.

Ancaq indi gəlin öz mövzumuza qayıdaq. Məsələn Əhdi-Ətiqdə İsaya peyğəmbərin kitabında 48-ci fəsil, 12-ci ayədə deyilir: “Mənə qulaq as, ey Yaqub və İsrail, Mənim çağırdığım; Mən Oyam; Mən birinciyəm, həm də sonuncuyam.” Bu aydındır ki, bu İsrail adı almış Yaqub deyildi, İsrail xalqı idi. Həmçinin İsaya peyğəmbərin kitabında 43-cü fəsil, 1-ci ayədə deyilir: İndi səni yaradan Rəbb belə deyir, Ey Yaqub və səni yaradan, Ey İsrail, qorxma: zira Mən səni xilas etmişəm, Mən səni sənin adınla çağırmışam; sən Mənimsən.”

Daha sonra, Saylar Kitabında, 20-ci fəsil, 23-cü ayədə: “Və Rəbb Ur dağında Musa və Harunla danışdı, Ədəm torpağının sərhəddində dedi – qoy Harun öz xalqı ilə olsun, zira o Mənim İsrail övladlarına verdiyim torpağa daxil olmamalıdır, çünki siz Meriva sularında Mənim Sözümə asi oldunuz;[1] və 13-cü ayədə: “Bu Meriva sularıdır; hara ki, İsrail övladları Rəbblə mübahisə etdilər və O, onlara Öz müqəddəsliyini aşkar etdi.”

Müşahidə edin: üsyan edən İsrail övladları idi, amma zahirən məzəmmət Həzrət Musa və Haruna yönəlmişdi. İkinci Qanun Kitabında 3-cü fəsil, 26-cı ayədə deyilir: “Amma Rəbb sizə görə mənə qəzəbləndi və məni eşitmək istəmədi: Və Rəbb Mənə dedi, Bu sənə kifayətdir, bu barədə daha Mənə danışma.”

İndi bu söhbət və məzəmmət həqiqətən də İsrail övladlarına aiddir, O kəslər ki, Allahın hökmünə asi olmuşdular və ona görə də uzun müddət quru səhrada əsir olmuşdular, İordan çayının o biri sahilində, o vaxtadək ki, Jeyşua onları oradan çıxardı – salamlar olsun ona. Bu müraciət və məzəmmət zahirən Musa və Harun üçün olsa da, əslində onlar İsrail övladlarına aid idi.

Eynilə də Quranda Həzrət Məhəmmədə deyilir: “Biz Sənə aşkar qələbə verdik ki, Allah Sənin əvvəlki və sonrakı günahlarını bağışlasın.”[2] Bu müraciət, baxmayaraq ki, zahirən Həzrət Məhəmmədə ünvanlanıb, əslində isə bütün xalqa aid idi. Bu tərzdə müraciətlər, bizim öncə dediyimiz kimi, Allahın kamil hikməti ilə seçilmişdir ki, insanların ürəyi narahat olmasın, iztiraba düşməsin və əzab çəkməsin.

Allahın Peyğəmbərləri və Onun ali Zühurları neçə dəfələrlə Öz dualarında Öz səhv və günahlarını etiraf edirlər. Bu ancaq başqa insanları öyrətmək, onları təşviq etmək və onlarda itaətkarlıq və mülayimlik oyatmaq və onları öz günahlarını və səhvlərini etiraf etməyə təşviq etmək üçündür. Zira bu Müqəddəs Ruhlar hər günahdan arınmış və hər cür səhvdən azaddırlar. İncildə deyilir ki, bir kişi Məsihin yanına gəldi və Onu “Yaxşı Ağa” deyə çağırdı. Məsih ona cavabında: “Məni niyə Yaxşı Ağa deyə çağırdın? Bir yaxşı var, o da Allahdır.”[3] Bu o demək deyildi ki, Allah eləməsin, Həzrət İsa günahkar idi; burada məqsəd Onun danışdığı adama təslimiyyət, itaətkarlıq, mülayimlik və təvazökarlıq öyrətmək idi. Bu Müqəddəs Varlıqlar işıqdırlar, işıq isə qaranlıqla bir araya sığmaz. Onlar həyatdırlar, həyatla ölüm bir yerdə ola bilməz. Onlar hidayət üçündürlər, hidayətlə yolunu azmaq birlikdə ola bilməz. Onlar itaətkarlıq cövhərləridir, itaətkarlıqla asilik bir yerdə mövcud ola bilməz.

[1] Saylar 20:23-24
[2] Quran, 48:1-2
[3] Matta, 19:16, 17

Yekunlaşdırsaq, Müqəddəs Kitablarda məzəmmət şəklində deyilən ünvanlar, baxmayaraq ki, zahirən Peyğəmbərlərə yönəlib - yəni Allahın Zühurlarına - əslində isə burada insanlar nəzərdə tutulub. Siz Müqəddəs Kitabları səylə tədqiq etmiş olsanız, onda bu sizə aşkar və aydın olacaq.

## 45

## KİTAB-İ ƏQDƏSDƏN "VƏHYİN MƏŞRİQİ OLANIN ONUN ƏN YÜKSƏK QÜSURSUZLUĞUNDA ŞƏRİKİ YOXDUR" AYƏSİNİN İZAHI

Müqəddəs ayədə deyilir: "Vəhyin Məşriqi Olanın Onun[1] Ən Yüksək Qüsursuzluğunda Şəriki yoxdur." O, həqiqətən, xilqət aləmində "Allah nə istəyir, onu da edir"in nümunəsidir. Doğrudan da, Qüdrətli istisna olaraq bu məqamı Özü üçün saxlamışdır və bu yüksək və uca fərqdə heç kəsə pay verilməmişdir."[2]

Bil ki, qüsursuzluq iki cürdür: fitri qüsursuzluq və qazanılmış qüsursuzluq. Eynilə də fitri bilik və qazanılmış bilik vardır; başqa adlar və sifətlərlə də belədir. Fitri qüsursuzluq xüsusi olaraq ali Zühurlara məxsusdur, zira bu zati bir tələbatdır, zati tələbat isə şeydən ayrı ola bilməz. Şüalar günəşin zati zərurətləridir və ondan yarılmazdır. Bilik Allahın zati zərurətidir və Ondan ayrılmazdır. Qüdrət Allahın zati zərurətidir və Ondan ayrılmazdır. Əgər bunu Ondan ayırmaq mümkün olsaydı, onda O Allah olmazdı. Əgər şüalar günəşdən ayrılsaydı, O günəş olmazdı. Ona görə də, əgər kimsə Ən Böyük Qüsursuzluğu ali Zühurdan ayrı təsəvvür edirsə, O, ali Zühur olmaz və zati kamillikdən məhrum olardı.

Lakin qazanılmış qüsursuzluq zata xas zərurət deyil; əksinə, bu, Həqiqət Günəşindən saçan qüsursuzluq kəramətinin qəlblərə düşən şüalarıdır və özündən ruhlara pay və qismət verir. Baxmayaraq ki, bu ruhlar fitri qüsursuzluğa malik deyillər, amma onlar Allahın hifzi altındadırlar – yəni Allah onları səhvlərdən qoruyur. Beləliklə, müqəddəs şəxslərin çoxu, o kəslər ki, Ali Qüsursuzluğun dan yeri deyildilər, amma yenə də Allahın hifzi və himayəsi altında səhvlərdən saxlanmış və hifz olunmuşdular, çünki onlar Allahla insanlar arasında fəzl vasitəçisidirlər. Əgər Allah onları səhvlərdən qorumasaydı, onların səhvləri mömin ruhların səhv etməsinə səbəb olardı və beləliklə də Allahın Dininin bünövrəsi yıxılardı ki, bu da Allaha yaraşan və layiq olan deyil.

Yekunlaşdırsaq, fitri qüsursuzluq xüsusi olaraq ali Zühurlara məxsusdur, qazanılmış qüsursuzluq isə hər bir müqəddəs qəlbə bəxş edilmişdir. Məsələn, Ümumdünya Ədalət Evi,[3] əgər o, zəruri şərtlər altında qurulmuşdursa – üzvlər

---

[1] Allahın Zühuru

[2] Kitab`i–Əqdəs, yəni Ən Müqəddəs Kitab, Həzrət Bəhaullahın əksər hökmlərinin yazıldığı ən əsas Yazısı. Bu Kitab Bəhai Dininin prinsiplərinin əsasıdır.

[3] Ümumdünya Ədalət Evi (Beytül-Ədl) Həzrət Bəhaullah tərəfindən yaradılmış təsisatdır. O, bu təsisatın iki səviyyəsini qeyd edir: hər bir şəhərə və ya kəndə məsul olan Yerli Ədalət Evləri və Ümumdünya Ədalət Evi. Həzrət Əbdül-Bəha Özünün Əhd və Vəsiyyətində orta bir səviyyədə, ikincili Ədalət Evləri

bütün insanların arasından seçilmişsə - o Ədalət Evi Allahın hifzi və qüsursuz hidayəti altında olacaq. Əgər həmin Ədalət Evi yekdilliklə və ya səs çoxluğu ilə Kitabda qeyd olunmayan hər hansı məsələ barədə qərar verərsə, həmin qərar və hökm səhvdən qorunacaqdır. İndi Ədalət Evinin üzvləri fərdi olaraq, fitri qüsursuzluğa malik deyillər; ancaq Ədalət Evi bir orqan kimi, Allahın hifzi və qüsursuz hidayəti altındadır: bu əta edilmiş qüsursuzluq adlanır.

Qısaca söyləmiş olsaq, "Vəhy Məşriqi" bu sözlərin təzahürüdür - "O istədiyini edir"; bu şərt istisna olaraq O Müqəddəs Varlığa aiddir, başqalarına bu zati kamillikdən pay əta edilməmişdir. Yəni, necə ki, ali Zühur mütləq fitri qüsursuzluğa malikdir, ona görə də Onlardan çıxan bütün şeylər həqiqətlə eynidir və reallığı əks etdirir. Onlar əvvəlki qanunların kölgəsi altında deyillər. Onlar nə deyirsə, o, Allahın sözüdür, Onlar nə edirlərsə, ən düzgün hərəkətdir. Heç bir möminin əsla tənqid etmək haqqı yoxdur; onun vəziyyəti tam təslimiyyət olmalıdır, zira Zühur kamil bir hikmətlə üzə çıxır – belə ki, ali Zühur nə deyirsə və nə edirsə, mütləq hikmətdir və reallıqla uyğundur.

Əgər bəzi adamlar Onun hökmlərinin və hərəkətlərinin gizli sirlərini başa düşmürlərsə, onlar buna qarşı çıxmamalıdırlar, çünki ali Zühur istədiyini edir. Belə şeylər nə qədər baş verib ki, müdrik, kamil və ağıllı bir insan bir hərəkət edib və bunun hikmətini anlamağa qabil olmayan başqaları buna etiraz ediblər və heyrətə gəliblər ki, belə müdrik insan belə bir şey söyləyib və ya belə bir hərəkət edib. Bu müxaliflik onların cahilliyindən doğur, müdrikin hikməti isə səhvdən pak və azaddır. Eynilə də, mahir həkim xəstəni müalicə edərkən, öz istədiyini edir, xəstənin isə etiraz etməyə haqqı yoxdur; həkim nə deyirsə və nə edirsə, düzdür; hamı ona "O, istədiyini edir və arzu etdiyinə hökm verir" sözlərinin təzahürü kimi baxmalıdır. Bu yəqindir ki, həkim elə dərmanlar istifadə edəcək ki, başqalarının fikrinə ziddir; indi elmdən və həkimlik sənətindən xəbəri olmayan kəslərə etiraz etməyə icazə verilmir. Xeyr! Allahın adı ilə! Əksinə, hamı tabe olmalı və mahir həkimin dediyini icra etməlidir. Ona görə də mahir həkim istədiyini edir və xəstənin isə bu barədə heç bir haqqı yoxdur. Həkimin məharəti ilk öncə aydınlaşdırılmalıdır; ancaq o zaman ki, həkimin məharəti təsdiq olundu, o istədiyini edər.

O cür də, ordu başçısının döyüş sənətində bərabəri yoxdursa, onda o istədiyini deyir və əmr edir. Gəmi kapitanı naviqasiya sənətində qabiliyyətli bir mütəxəssisdirsə, dediklərində və əmr etdiklərində o, istədiyini edir. Və həqiqi tərbiyəçi Kamil İnsandırsa, O nə deyirsə və hökm edirsə, O istədiyini edir.

Qısaca, "O istədiyini edir"-in mənası budur ki, əgər Zühur bir şey buyurursa və ya hökm verirsə və ya bir hərəkət edirsə və möminlər bunun hikmətini anlamırlarsa, onlar buna hətta tək bir fikirlə də olsun, etiraz etməməli, Onun niyə belə danışmasının və ya Onun nə üçün belə bir şey etməsinin hikmətini anlamağa çalışmalıdırlar. Ali Zühurun kölgəsində olan başqa insanlar Allahın Qanununun hökmlərinə tabe olmalı və bir tük qədər də

---

əlavə etmişdir. Ancaq Ümumdünya Ədalət Evinə qüsursuzluq əta edilmişdir. İndiki zamanda, onların istisna dərəcədə ruhani funksiyalarını vurğulamaq üçün, Yerli və İkincili Ədalət Evləri Yerli və Milli Ruhani Məhfillər adlandırılmışdır.

ondan tapmamalıdırlar. Əgər onlar bundan çıxsalar, Allahın hüzurunda məsuliyyət daşıyacaq və məzəmmətlənəcəklər. Bu yəqindir ki, onların "O istədiyini edir" izinndə heç bir payı yoxdur, çünki bu şərt ancaq istisna ilə Ali Zühura aiddir.

Beləliklə Məsih – mənim ruhum Ona fəda olsun – "O istədiyini edir", bu sözlərin məzhəri idi, amma həvvarilərə bu məqamdan pay əta edilməmişdir; çünki onlar Məsihin kölgəsi altında idilər, Onlar Onun hökm və iradəsindən kənara çıxa bilməzdilər.

## DÖRDÜNCÜ HİSSƏ

# İNSANIN MƏNŞƏYİ, İMKANI VƏ MƏQAMI BARƏDƏ

## 46

## NÖVLƏRİN DƏYİŞMƏSİ

İndi biz növlərin dəyişməsi və üzvi aləmin inkişafı sualına gəlib çıxdıq - yəni o araşdırma nöqtəsinə ki, insan heyvandanmı törəyib.

Bu nəzəriyyə bəzi Avropa filosofları tərəfindən qəbul edilib və indi bu çox çətindir ki, bunun səhv olmasını anladasan, amma gələcəkdə bu aşkar və aydın olacaq və Avropa filosoflarının özləri bunun doğru olmadığını açacaqlar. Zira, bu həqiqətən də aşkar səhvdir. İnsan varlıqlara nüfuzedici nəzərlə baxdıqda və bütün həyat formalarının vəziyyətini diqqətlə nəzərdən keçirdikdə və o, bu aləmin halını, mütəşəkkilliyini və kamilliyini gördükdə o əmin olacaq ki, bu mümkünat aləmində artıq mövcud olandan daha da heyrətamiz bir şey yoxdur. Çünki bütün bu mövcud varlıqlar, yerdə və göydə olanlar, habelə bu hüdudsuz fəza və onda olan bütün şeylər, hansı şəkildə olmalıdırlarsa, o cür də yaradılmış, təşkil olunmuş, yığılmış, nizama salınmış və kamilləşdirilmişdir; kainatda qeyri-kamilliyə yer yoxdur, belə ki, əgər bütün varlıqlar tam bir düşünən beyinə çevrilsəydilər və sonsuzluğa qədər düşünsəydilər, mümkün deyil ki, mövcud olandan yaxşı bir şey təsəvvür edə bilsinlər.

Ancaq bununla belə, əgər xilqət keçmişdə ən yüksək kamilliklə yaradılmamış olsaydı, onda mövcudat qeyri-kamil və mənasız olardı və bu halda xilqət natamam olardı. Bu məsələ böyük diqqət və düşüncə ilə yaxınlaşmağı tələb edir. Məsələn, təsəvvür edin ki, bu mümkünat dünyası, geniş mənada insan bədənini xatırladır. Əgər indi insan bədənində mövcud olan bu quruluş, nizam, kamillik, gözəllik və tamamlıq fərqli olsaydı, bu mütləq bir qeyri-kamillik olardı. İndi, əgər biz o zamanı təsəvvür etsək ki, insan heyvan aləminə mənsub idi və ya o, sadəcə heyvan idi, biz görərik ki, mövcudat qeyri-kamil olardı – yəni, onda, dünyanın bədənində olan və insan bədənindəki beyin və ağıla bənzəyən bu əsas orqan - insan olmazdı. Dünya tamamilə qeyri-kamil olardı. Beləliklə də sübut olundu ki, əgər bir zaman vardı ki, onda insan heyvan aləminə mənsub idi, onda mövcudatın kamilliyi dağılardı; çünki insan bu dünyanın ən əzəmətli orqanıdır və əgər bədən bu əsas orqansız olsaydı, bu mütləq qeyri-kamil olardı. Biz insanı ən mühüm element sayırıq, çünki məxluqat arasında o, mövcud olan bütün kamillikləri özündə birləşdirir. Biz insan haqqında danışanda, kamil insanı nəzərdə tuturuq, dünyadakı ən görkəmli adamı, o kəs ki, ruhani və zahiri kamillikləri özündə toplamışdır, o kəs ki, bütün varlıqlar arasında günəş kimidir. Onda təsəvvür edin ki, bir zaman vardı ki, günəş mövcud deyildi, ancaq o, sadəcə planet idi; belə bir zamanda mövcudat əlaqələri pozulmuş olardı. Belə bir şeyi necə təsəvvür etmək olar? Mövcudat dünyasını öyrənən insana bizim dediklərimiz kifayətdir.

Başqa bir incə sübut var: dünyada sakin olan bütün bu varlıqlar, istər insan, heyvan, bitki və ya mineral, nə olur-olsun, hər biri elementlərdən təşkil olunub. Şübhə yoxdur ki, bütün varlıqlarda olan bu kamillik Allahın yaradılışı

ilə elementlərdən onların müvafiq qaydada və proporsional miqdarda, onların müəyyən formada birləşməsindən və başqa varlıqların təsiri olmaqla yaranmışdır. Zira bütün varlıqlar zəncir kimi bir-birinə bağlıdır və şeylərə məxsus olan qarşılıqlı əlaqə, yardım və qarşılıqlı təsir yaradılmış şeylərin mövcudluğunun, inkişafının və böyüməsinin səbəbidir. Dəlil və sübutlarla isbat olundu ki, hər bir varlıq hər bir yerdə və ümumilikdə başqa bir varlığa təsir edir, ya birbaşa, ya da dolayısı ilə. Nəhayət, hər bir fərdi varlığın kamilliyi – yəni, sizin indi insanda və ya ondan ayrı gördüyünüz kamillik, onları təşkil edən atomlara, orqanlara və ya qüvvələrə münasibətdə, elementlərin birləşməsinə, onların ölçülərinə, balansına, birləşmə şəklinə və qarşılıqlı təsirinə borcludur. Bütün bunlar bir araya toplaşıb reallaşanda insan meydana çıxır.

İnsanın kamilliyi bütövlükdə elementlərin atomlarının birləşməsindən, onların ölçülərindən, onların birləşmə vasitələrindən və müxtəlif həyat formalarının qarşılıqlı təsir və hərəkətindən asılı olduğundan, insan on və yüz min il əvvəl bu yer elmentlərindən eyni ölçü və balansda birləşməsindən, eyni bir qarışma və birləşmə metodu ilə, başqa varlıq formalarının eyni təsirinə məruz qalması ilə yarandığından, o vaxt da eynilə bu cür insan idi. Bu aşkardır və mübahisəyə dəyməz. Min, milyon illər bundan sonra da, əgər bu elementlər birləşsələr və bu cür məxsusi nisbətdə tarazlansalar və əgər bu elementlər eyni metodla birləşsələr, əgər başqa varlıqların eynilə həmin cür təsirə məruz qalsalar, dəqiq həmin insan mövcud olacaq. Məsələn, əgər yüz min il sonra da neft, od, fitil, çıraq və alışqan olsa, qısası, əgər indi mövcud olan bütün zəruri şeylər olsa, yenə də dəqiq həmin lampa əldə olunacaqdır.

Bunlar həlledici və aşkar faktlardır. Ancaq bu Avropa filosoflarının istifadə etdikləri arqumentlər şübhəli sübutlara əsaslanır və mükəmməl deyildir.

## 47

## KAİNATIN ƏVVƏLİ YOXDUR

## İNSANIN MƏNŞƏYİ

Bilin ki, ən çətin dərk olunan ruhani həqiqətlərdən biri budur ki, bu mövcudat aləminin, yəni bu sonsuz kainatın əvvəli yoxdur.

Biz artıq izah etdik ki, İlahi adlar və sifətlərin özü varlıqların mövcud olmasını tələb edir. Baxmayaraq ki, bu mövzu müfəssəl şəkildə izah olunmuşdur, amma biz yenə də bu barədə qısaca danışacağıq. Bilin ki, şagirdsiz müəllim təsəvvür edilə bilməz; padşahsız da təbəə olmaz; tələbəsiz ustad təyin oluna bilməz; Xaliq də xilqətsiz mümkün deyil; təchizatçı təchiz edilən olmadan təsəvvür edilə bilməz; zira bütün ilahi adlar və sifətlər varlıqların mövcud olmasını tələb edir. Əgər biz heç bir varlığın mövcud olmadığı zamanı təsəvvür etsək, onda bu təsəvvürlə Allahın İlahiliyini inkar etmək olardı. Bundan başqa, mütləq qeyri-mövcudluq mövcudluğa çevrilə

bilməz. Əgər varlıqlar mütləq yox idilərsə, onda mövcudluq üzə çıxa bilməzdi. Ona görə də, Birlik Cövhəri (yəni Allahın mövcudluğu) daimi və əbədidir, yəni bunun nə əvvəli var, nə də sonu. Bu yəqindir ki, bu varlıq aləminin, bu sonsuz kainatın nə əvvəli var, nə də sonu. Bəli, bu mümkündür ki, kainatın bir hissəsi, məsələn, planetlərdən biri, yarana bilər və ya dağıla bilər, ancaq başqa sonsuz sayda planetlər mövcuddur ki, kainat nizamdan çıxa və ya dağıla bilməz. Əksinə, mövcudluq əbədi və daimidir. Necə ki, hər bir planetin başlanğıcı var, təbii olaraq onun sonu da vardır, çünki hər bir təşkil olunmuş şey, qrup şəklində və ya tək olsun, parçalanmağa məhkumdur. Yeganə fərq ondadır ki, bəzisi tez dağılır, digəri daha yavaş, ancaq bu mümkün deyil ki, təşkil olunmuş şey nəhayətdə dağılmasın.

Ona görə də bu zəruridir biz biləк ki, vacib mövcudluq formalarından hər biri lap əvvəldə nə idi, çünki şübhə yoxdur ki, başlanğıcda mənşə bir idi: bütün ədədlərin başlanğıcı birdir, iki deyil. Onda bu aydındır ki, başlanğıcda materiya bir idi və bu materiya hər bir elementdə fərqli aspektlərlə üzə çıxdı. Beləliklə, müxtəlif formalar törədi və bu materiyanın müxtəlif üzəçıxma formaları yaranan kimi daimi oldular və hər bir element öz təyinatını aldı. Lakin bu daimilik çox uzun zaman keçdikdən sonra qəti oldu və reallaşdı və kamil mövcudluq formasına çatdı. Sonra bu elementlər birləşdi, təşkil olundu və sonsuz formada birləşmələr əmələ gətirdi və bəlkə də daha doğrusu, bu elementlərin birləşməsindən və kombinasiyasından saysız varlıqlar üzə çıxdı.

Bu tərkib və nizam Allahın hikməti və Onun əzəli qüdrəti ilə, böyük bir güclə qurulmuş və birləşmiş, hikmətə və ümumi qanuna uyğun bir təbii materiyadan törəmişdir. Bundan aydın olur ki, bütün bunlar Allahın yaratmış olduğu xilqətdir, təsadüfi bir birləşmə və nizam deyildir. Məhz buna görə hər bir təbii birləşmədən varlıq meydana gələ bilər, lakin təsadüfi birləşmədən heç bir varlıq yarana bilməz. Məsələn, insan öz ağlına və dərrakəsinə uyğun müəyyən elementləri toplayır və onları birləşdirirsə, canlı varlıq yarada bilməz, çünki bu sistem təbii deyil. Bu həmin o nəzərdə tutulan suala cavabdır ki, bir halda ki, varlıqlar elementlərin birləşməsindən və kombinasiyasından əmələ gəlmişdir, onda bizim üçün bu niyə mümkün olmasın ki, elementləri toplayaq və qarışdıraq və bundan canlı varlıq alaq. Bu yalançı bir fərziyyədir, çünki o quruluşun əvvəli Allahdandır. Ancaq Allah kombinasiya yaradır və bu təbii sistemə uyğun edildiyindən, hər tərkibdən bir varlıq meydana gəlmiş və mövcudat ortaya çıxmışdır. İnsanın yığdığı tərkibdən heç nə törəmir, çünki insan xəlq edə bilmir.

Xülasə, biz söylədik ki, elementlərin kombinasiya və birləşməsindən, onların parçalanmasından onların ölçülərindən, başqa varlıqların onlara göstərdiyi təsirdən həyat formaları, sonsuz məxluqlar və saysız varlıqlar meydan çıxmışdır. Amma bu da aydındır ki, bu yer kürəsi özünün indiki formasında birdən-birə əmələ gəlməmişdir, bu kainatın mövcudluğu yavaş-yavaş müxtəlif mərhələlərdən keçmiş və indiki kamilliyinə çatmışdır. Kainat səviyyəsində varlıqlar konkret mövcudluq formalarını xatırladır və onlarla müqayisə edilə bilər, çünki hər ikisi vahid təbii sistemə, vahid ümumkainat qanununa, ilahi quruluşa tabedir. Belə ki, siz kainat sistemində kiçicik bir

atomun kainatın ən iri obyektləri ilə oxşar olduğunu görə bilərsiniz. Bu aydındır ki, onlar vahid bir qüdrət laboratoriyasından bir təbii sistem və bir ümumkaniat qanunu altında ortalığa çıxmışdır, ona görə də onlar bir-birilə müqayisə oluna bilər. Beləliklə, insan rüşeymi ana bətnində kamil bir gözəllik dərəcəsində yetkinliyə çatanadək tədricən böyüyür və inkişaf edir və müxtəlif forma və vəziyyətlərdə olur və bütün gözəlliyi ilə ən kamil bir formada ortaya çıxır. Eynilə də, sizin gördüyünüz bu gülün toxumu başlanğıcda əhəmiyyətsiz və çox kiçik bir şey idi, sonra bu torpağın qoynunda böyüdü və inkişaf etdi və müxtəlif formalada üzə çıxdıqdan sonra kamil təravət və gözəlliklə bu vəziyyətinə yetişdi. Bu cür də, bu aydındır ki, yer kürəsi nə vaxtsa bir dəfə yaranandan sonra, kainatın qoynunda böyüdü və inkişaf etdi, müxtəlif forma və vəziyyətlərə düşdü, ta o vaxta qədər ki, o, tədricən indiki kamilliyinə yetdi və saysız-hesabsız varlıqlarla bəzəndi və yetişmiş bir orqanizm kimi meydana çıxdı.

Onda bu aydındır ki, həm özünün rüşeym halında olan ilkin materiya, həm də onun erkən formasını təşkil edən qarışmış və birləşmiş elementlər tədricən çoxlu əsrlər və dövrlər ərzində böyüdülər və inkişaf etdilər, bir forma və şəkildən başqasına keçdilər və sonda Allahın ali hikməti ilə bu kamillikdə, bu sistemdə, bu quruluşda və bu nizamda meydana çıxdılar.

Gəlin öz mövzumuza qayıdaq ki, insan özünün mövcudluğunun əvvəlində və yer kürəsinin qoynunda, ana bətnində olan rüşeym kimi tədricən böyüdü və inkişaf etdi, bir formadan başqa bir formaya keçdi, bir şəkildən başqa bir şəklə düşdü, o vaxtadək ki, bu gözəllik və bu kamilliklə, bu güc və bu qüvvə ilə ortaya çıxdı. Bu yəqindir ki, başlanğıcda o bu xoş görünüşə, gözəlliyə və incəliyə malik deyildi, ancaq mərhələ-mərhələ bu şəklə, bu formaya, bu gözəllik və zərifliyə yetib. Şübhə yoxdur ki, insan rüşeymi birdən-birə bu formaya yetməyib, nə də ki: "Mübarəkdir, ona görə də Allah, Yaradanların ən yaxşısı!" kəlamının təzahürü olub.[1] Tədricən o, müxtəlif hallar və şəkillərdən keçdi, o vaxtadək ki, bu forma və gözəlliyə, bu incəlik və bu görkəmə yetişdi. Beləliklə bu aşkardır və təsdiq də olundu ki, insanın yer üzündə indiki kamilliyinə çatana qədər olan böyüməsi və inkişafı ana bətnində rüşeymin böyüməsi və inkişafını xatırladırdı: mərhələ-mərhələ o haldan-hala, formadan-formaya, şəkildən-şəklə düşdü, çünki bu, ümumkainat sistemin və İlahi Qanunun tələbinə uyğundur.

Yəni rüşeym müxtəlif vəziyyətlərdən keçir və çoxlu inkişaf dərəcələrini aşır, o vaxtadək ki, o, "Təriflər olsun Allaha, Yaradanların ən Yaxşısına" sözlərini və ağıl və yetkinlik əlamətlərini təzahür etdirir. Və eynilə də, insanın bu yer üzündə mövcudluğu, lap əvvəldən bu vəziyyətə, bu forma və məqama çatana qədər zəruri olaraq çox vaxt çəkmiş və bu məqama çatana qədər də çoxlu mərhələlərdən keçmişdir. Ancaq öz mövcudluğunun əvvəlindən insan fərqli bir növ idi. O cür də, insanın rüşeymi ana bətnində əvvəlcə əcayib formada idi, sonra bədən şəkildən-şəklə düşür, bir vəziyyətdən digərinə, bir formadan o biri formaya keçir, o vaxtadək ki, özünün tam gözəllik və

[1] Quran 23:14

kamilliyində ortaya çıxır. Amma hətta ana bətnində bu əcayib formada, özünün indiki formasından və zahiri görünüşündən tamamilə fərqli ikən belə, o, çox yüksək bir növün rüşeymidir, heyvanın deyil; onun növü və mahiyyəti dəyişikliyə uğramır. İndi, onu fərz etsək ki, yox olmuş orqanların izləri qalıb, bu növün daimi olmamasının və onun mənşəyinin özünəməxsus ilkinliyinin olmamasına sübut deyil. Bu ancaq onu sübut edir ki, insanın forması, şəkli və orqanları təkamülə uğramışdır. İnsan həmişə fərqli bir növ, insan növü olmuşdur, heyvan növü deyil. Beləliklə, əgər insan ana bətnində bir formadan başqa formaya keçirsə və sonrakı forma heç cür birinciyə oxşamırsa, bu ona dəlalət edirmi ki, növ dəyişmişdir? Əlbəttə ki, xeyr! Necə də kal və əsassızdır bu ideya və bu fikir! Zira insan növünün xüsusiliyi və onun təbiətinin daimiliyinin sübutu aydın və aşkardır.

## 48

## İNSAN VƏ HEYVAN ARASINDA OLAN FƏRQ

Biz artıq bir ya iki dəfə ruh mövzusu haqda danışmışdıq, lakin bizim sözlərimiz yazılmamışdı

Bilin ki, insanlar iki kateqoriyaya bölünürlər – yəni, onlar iki qrup təşkil edirlər. Bir qrup ruhu inkar edir və deyir ki, insan da heyvan növündəndir; onlar deyirlər: biz görmürükmü ki, heyvan və insan eyni qabiliyyət və hisslərə malikdir? Kainatı dolduran bu sadə, tək elementlər sonsuz kombinasiyalarda birləşib və bu kombinasiyaların hər birindən bir varlıq törəyib. Bu varlıqların arasında ruha sahib[1] olanı, qabiliyyət və hisslərə malik olanı da vardır. Kombinasiya nə qədər kamildirsə, varlıq da o qədər alidir. Elementlərin insan bədənində kombinasiyası başqa varlıqların quruluşundan daha çox mürəkkəbdir; burada elementlərin qarışması mütləq bir tarazlıqdadır; ona görə də bu daha ali və daha kamildir. Onlar təsdiq edirlər: "Bu heç də o demək deyil ki, o nəsə xüsusi bir qabiliyyət və ruha malikdir ki, heyvanlarda bu çatışmır, amma heyvanların həssas bədəni vardır, insan isə daha çox qabiliyyətlərə malik olsa da, heyvanlar xarici hissiyata gəldikdə, məsələn, eşitmə, görmə, dad, iybilmə, lamisə və hətta bəzi daxili qabiliyyətlərdə, məsələn, yaddaş qabiliyyətində onlar daha çox gücə malikdir. Bu insanlar təsdiq edirlər ki, "Heyvanlar da ağıl və idraka malikdir." Onlar ancaq onu etiraf edirlər ki, insanın ağlı daha böyükdür.

Bu günün filosoflarının təsdiq etdikləri bunlardır; budur onların fikri, onların fərziyyəsi və belədir onların təsəvvürlərinin gəldiyi nəticə. Beləliklə, onlar belə dəlil və sübutlarla insanın mənşəyini heyvanlara aparıb çıxarır və deyirlər ki, elə bir zaman olub ki, insan heyvan olub və onda növlər dəyişib və yavaş-yavaş tərəqqi edərək indiki insan vəziyyətinə gəlib çıxıb.

Lakin teoloqlar deyirlər: Xeyr, bu belə deyil. Baxmayaraq ki, insan heyvanlarla ümumi olan qabiliyyət və xarici hissiyatlara malikdir, lakin onda

---

[1] insan

qeyri-adi bir qüvvə vardır ki, heyvanlar bundan məhrumdurlar. Elmlər, incəsənət, ixtiralar, sənətlər və gerçəkliklərin kəşfi bu ruhani qüvvənin təsirinin nəticəsidir. Bu bir qüvvədir ki, hər şeyi əhatə edir, onların gerçəkliyinə nüfuz edir, varlıqların gizli sirlərini açır və bu biliklə də onları idarə edir. Bu qüvvə hətta zahirən mövcud olan şeyləri də qavrayır – yəni hiss orqanları ilə qavranılmayan və görünmədiyi üçün də zahiri bir mövcudluq formasına malik olmayan qeyri-maddi gerçəklikləri də dərk edir. Belə ki, o, insanın qeyri-maddi gerçəklik olan ağlını, qəlbini, keyfiyyətlərini, xasiyyətlərini, məhəbbət və kədərini ehtiva edir. Bundan əlavə, bu elmlər, incəsənət, qanunlar və çoxlu ixtiralar nə vaxtsa qeybdə idi, mübhəm və gizli sirlər idi; bu anacaq hər şeyi əhatə edən insan qüvvəsidir ki, onları kəşf edib və görünməyən aləmdən görünən müstəviyə çıxarıb. Hətta bir zaman da olub ki, sizin gördüyünüz bu dəmirin, əlbəttə ki, bütün mineralların – keyfiyyətləri gizli idi; insan bu mineralı kəşf etdi və onu emal edib sənaye üçün yararlı hala saldı. Saysız-hesabsız digər insan kəşfləri ilə də məsələ bu cürdür.

Biz bunu inkar edə bilmərik. Əgər biz desək ki, bu heyvanların da malik olduğu qüvvənin və bədən hissiyatlarını yaradan qüvvənin təsirindəndir, biz açıq-aydın müşahidə edərik ki, heyvanlar bu qüvvələr nöqteyi-nəzərindən, insandan üstündürlər. Məsələn, heyvanların görməsi insanın görməsindən çox-çox itidir; onların iybilmə və dadbilmə qabiliyyətləri də eynilə insandan güclüdür. Xülasə, insan və heyvan üçün ümumi olan qüvvələrdə heyvan çox vaxt daha üstündür. Məsələn, elə yaddaş qabiliyyətini götürək. Əgər siz göyərçini uzaq bir ölkəyə aparsanız və orada azad buraxsanız, o qayıdacaqdır, çünki yolu xatırlayır. İti buradan götürüb Asiyanın mərkəzinə aparsanız və orada azad buraxsanız, o geriyə gələcək və heç vaxt yolu itirməz. Başqa qabiliyyətlər də, eşitmə, görmə, iybilmə, dadbilmə və lamisə ilə də vəziyyət belədir.

Beləliklə aydındır ki, əgər insanda heyvanlarda olan qüvvədən fərqli bir qüvvə olmasaydı, sonuncu (heyvan) ixtira və şeylərin həqiqətinin dərkində insandan üstün olardı. Ona görə də, görünür ki, insana elə bir bəxşiş verilmişdir ki, heyvan bundan məhrumdur. İndi, heyvan hiss olunan şeyləri qavrayır, lakin qeyri-maddi şeyləri qavraya bilmir. Məsələn, o şey ki, onun görmə hüdudundadır, heyvan görür, amma o şey ki, görmə sahəsindən kənardır, onu qavraya bilmir və onu təsəvvür edə bilmir. Beləliklə mümkün deyil ki, heyvan başa düşsün ki, yer kürə şəklindədir. Amma insan məlum şeylərdən məchul şeyləri dərk edir və məlum olmayan həqiqətləri kəşf edir. Məsələn, insan üfüqün qövsünü görür və bundan o nəticə çıxarır ki, yer dairəvidir. Qütb Ulduzu Əkkada, məsələn, $33^o$ bucaq altındadır, yəni, bu $33^o$ üfüqün üzərindədir. İnsan Şimal Qütbünə gedəndə, Qütb Ulduzu üfüqün üzərində insanın yolunda hər dərəcədə bir dərəcə qalxmış olur, yəni, Qütb Ulduzunun yüksəkliyi $34^o$, sonra $40^o$, $50^o$, $60^o$, sonra $70^o$ olacaq. Əgər o, Şimal Qütbünə çatsa, Qütb ulduzunun yüksəkliyi onun üçün $90^o$ olacaq və ya zenitə çatacaq – yəni düz onun başının üstündə olacaq. Qütb Ulduzu və onun yüksəlişi hissiyatla qavranan şeylərdir. Biri Qütbə doğru getməkdə davam etdikcə, Qütb Ulduzu daha da yüksəlir; bu iki məlum şeydən bir məchul şey

kəşf olundu,  yəni, üfüq qöfsvaridir, o mənada ki, yerin hər bir dərəcəsinin üfüqü başqa bir dərəcənin üfüqündən fərqlidir. İnsan bunu anlayır və bundan da görünməyən bir şeyi, yerin kürə şəklində olmasını isbat edir. Bu mümkün deyil ki, heyvan bunu dərk etsin. Eynilə də, heyvan anlaya bilməz ki, günəş mərkəzdir və yer də onun ətrafında fırlanır. Heyvan hissiyatların əsiridir və onlarla məhdudlaşdırılıb; Hissiyatdan kənar olan bütün şeylər, o şeylər ki, onlar idarə edə bilmirlər, bunu heyvanlar heç vaxt başa düşə bilməz, baxmayaraq ki, xarici hissiyat qabiliyyətlərində onlar insandan üstündürlər. Buradan da sübut olunur və dəqiqləşdirilir ki, insanda açmaq, kəşf etmək qabiliyyəti vardır ki, bununla o heyvandan ayrılmışdır və bu, insan ruhudur.

Həmd olsun Allaha! İnsan həmişə yüksəklərə yönəlib və onun cəhdi ucadır, o, həmişə istəyir ki, indi olduğu aləmdən daha uca bir aləmə çatsın, indi olduğu təbəqədən daha yüksək bir təbəqəyə ucalsın. Uca olana məhəbbət insanın xasiyyətlərindən biridir. Mən təəccüb edirəm ki, Amerika və Avropanın bəzi filosofları tədricən heyvan aləminə yaxınlaşmağa meyl edirlər və beləliklə geri gedirlər; çünki mövcudluq yüksəlişə tərəf meyl etməlidir. Bununla belə, əgər onlardan birinə desən ki, “Sən heyvansan”, o, son dərəcə inciyər və qəzəblənərdi.

İnsan aləmi ilə heyvan aləmi arasında, insanın yüksəkliyi və heyvanın aşağılığı, insanın kamilliyi ilə heyvanın cahilliyi, insanın ziyası ilə heyvanın zülməti, insanın cəlalı ilə heyvanın aşağı dərəcədə olması arasında nə qədər fərq vardır! On yaşlı Ərəb uşağı səhrada iki ya üç yüz dəvəni otarır, öz səsi ilə onları irəli aparır ya da geri çağırır. Zəif bir hindli nəhəng fili elə idarə edər ki, fil ən itaətkat bir xidmətçi olur. Bütün bu şeylər insanın əlindədir; o, təbiətə müqavimət göstərə bilər, o halda ki, bütün başqa varlıqlar təbiətin əsiridir, heç nə onun tələbatından ayrıla bilməz. Yalnız insan təbiətə qarşı dura bilər. Təbiətin qanununa görə cisimlər yerin mərkəzinə doğru cəzb olunurlar; insan mexaniki vasitələrlə bundan uzaqlaşır və havada uçur. Təbiət insanın dənizdən keçməsinin qarşısını alır; insan gəmi düzəldir və böyük okeandan keçərək üzür və səyahət edir və s. Bu mövzu bitən deyil. Məsələn, insan maşınla dağları və çölləri aşaraq Şərqdə və Qərbdə baş verən hadisələr haqda xəbərləri bir yerə yığır. Bütün bunlar təbiətə ziddir. Bu dəniz öz böyüklüyünə baxmayaraq bir zərrə qədər də təbiətin qanunundan kənara çıxa bilməz; Günəş özünün bütün parlaqlığı ilə iynənin ucu qədər də təbiətin qanunundan qaça bilməz və heç vaxt da insanın təbiətini, onun hərəkətini, keyfiyyətlərini, məqamını və vəziyyətini dərk edə bilməz.

Onda, insanın bu balaca bədənində olan bu qüvvə nədir ki, hər şeyi əhatə edir? Bu hansı idarəedici qüvvədir ki, hər şeyi tabe edir?

Hələ bir məsələ də baxılmamış qalır. Müasir filosoflar deyirlər: “Biz heç vaxt insanın ruhunu görməmişik, insan bədəninin öyrənməyimizə və onun sirlərini tədqiq etməyimizə baxmayaraq, biz ruhi qüvvəni tapa bilməmişik. Hiss olunmayan bir qüvvəni biz necə təsəvvür edə bilərik?” Din alimləri cavab verirlər: “Heyvan ruhu da hissiyat orqanları ilə qavranmır və onu da cismani yolla tanımaq olmaz. Onda heyvan ruhunun olduğunu siz necə sübut edərsiniz? Heç şübhə yoxdur ki, onun üzə çıxan təsirindən siz müəyyən

edirsiniz ki, heyvanda bir qabiliyyət vardır ki, bitkidə yoxdur – və bu da hiss etmə qabiliyyətidir, yəni görmə, eşitmə digər qabiliyyətlər; bütün bunlardan bu nəticəyə gəlirsiniz ki, heyvanın ruhu vardır. Eynilə də, bizim xatırlatdığımız sübut və əlamətlərdən biz sübut edirik ki, insan ruhu da vardır. Bir halda ki, heyvanda elə qabiliyyət var ki, bitkidə yoxdur, o zaman deyirsiniz ki, bu hissetmə qabiliyyəti heyvan ruhunun keyfiyyətidir; siz insanda da elə əlamətlər, qabiliyyətlər və kamilliklər görürsünüz ki, onlar heyvanlarda yoxdur; ona görə də, belə nəticəyə gəlirik ki, insanda elə bir qüvvə vardır ki, heyvanlar ondan məhrumdurlar."

Əgər hiss olunmayan hər şeyi biz inkar etsək, onda biz sözsüz mövcud olan gerçəklikləri də inkar etməliyik. Məsələn, efir maddəsi hiss olunan deyil, baxmayaraq ki, o, sözsüz vardır. Cəzbetmə qüvəsi hiss olunmur, amma o mütləq vardır. Biz nəyə əsasən bu şeylərin mövcud olmasını təsdiq edirik? Onların əlamətlərinə görə. Belə ki, bu işıq o efir maddəsinin vibrasiyasıdır və bu vibrasiyadan da biz efirin mövcudluğu nəticəsinə gəlirik.

## 49

## İNSAN NƏSLİNİN BÖYÜMƏSİ VƏ İNKİŞAFI

*Sual.* – Varlıqların böyüməsi və inkişafı barədə bəzi Avropa filosoflarının nəzəriyyələri barədə nə deyə bilərsiniz?

*Cavab.* – Biz bu mövzu barədə bu günlərdə danışmışdıq, amma bu barədə gəlin yenə də danışaq. Qısaca bu sualı növlərin orijinallığını müəyyən etməklə cavablandıracağıq, yəni insan növü lap əvvəldən insan növü idi, yoxsa o, sonradan heyvandan törəmişdir?

Bəzi Avropa filosofları razıdırlar ki, növlər böyüyür və inkişaf edir və hətta dəyişiklik və çevrilmələr da mümkündür. Onların bu nəzəriyyəni isbat etmək üçün gətirdikləri sübutlardan biri geologiya elminin məlumatlarının araşdırılmasından və yoxlamalarından sonra aydın olmuşdur ki, bitkilər heyvandan əvvəl olmuşdur və heyvan da insandan öncə meydana çıxmışdır. Onlar fərz edirlər ki, bitki və heyvan növləri dəyişikliyə uğramışdır, çünki yerin təbəqələrinin birində onlar elə bitki tapmışlar ki, keçmişdə onlar yaşamış, lakin onlar indi məhv olub getmişlər. Onlar inkişaf etmiş, güclənmiş, onların forma və şəkli dəyişmiş və beləliklə növ də dəyişmişdir. Eynilə də, yerin təbəqələrində elə heyvan növləri aşkar olunmuşdur ki, onlar da dəyişmiş və transformasiyaya uğramışdır. Belə heyvanlardan biri ilandır. Belə əlamətlər vardır ki, ilanın nə vaxtsa ayaqları olmuşdur, lakin zaman keçdikcə o orqanlar yox olmuşdur. O cür də, insanın onurğa sütununda elə bir əlamət vardır ki, başqa heyvanlar kimi, onun da quyruğu olmuşdur. Nə vaxtsa bu orqan faydalı olmuş, lakin insan inkişaf etdikdən sonra buna ehtiyac olmamışdır və ona görə də, bu tədricən yox olmuşdur. İlan sürünən heyvan kimi yerin altında sığınacaq tapdığı üçün daha ayağa ehtiyac olmamış və ona görə də ayaqlar yox olmuşdur, lakin onun izləri qalır. Əsas sübut budur: orqanın əlamətlərinin qalması onların nə vaxtsa olduğunu göstərir və indi onlar daha lazım olmadığı

üçün tədricən yox olmuşdur. Ona görə də, kamil və zəruri orqanlar qalarkən, lazımsız orqanlar növlərin modifikasiyası nəticəsində yavaş-yavaş sıradan çıxmış, lakin onların izləri qalmışdır.

Bu dəlilə ilk cavab bu faktdır ki, heyvanın insandan əvvəl olması növlərin təkamülünün, onların dəyişmə və çevrilmələrinin sübutu deyil, nə də o demək deyil ki, insan heyvan aləmindən çıxmış və insan aləminə yüksəlmişdir. Bir halda ki, dəqiq müəyyən olunmuşdur ki, müxtəlif varlıqlar müxtəlif zamanlarda meydana çıxmışdır, bü mümkündür ki, insan heyvandan sonra meydana çıxmışdır. Belə ki, biz bitkilər aləminə nəzər salanda görürük ki, müxtəlif ağacların meyvələri eyni bir vaxtda yetişmir, əksinə, bəziləri tez yetişir, bəziləri də gec. Bu ardıcıllıq onu isbat etmir ki, sonradan yetişən ağacın meyvəsi digər ağacın meyvəsindən törəmişdir.

İkincisi, bu zəif əlamətlər və orqanların izləri yəqin ki, böyük əhəmiyyətə malikdir ki, ağıl hələ bunu dərk etmir. Nə qədər çoxlu şeylər var ki, onların səbəbini biz hələ bilmirik. Belə ki, orqanların quruluşunu öyrənən fiziologiya elmində qeyd olunur ki, heyvanların müxtəlif rənglərdə olmasının səbəbləri və mənası, insanın saçının rəngindəki fərqlər, dodaqların qırmızılığı, quşların müxtəlif rənglərə malik olması hələ də məlum deyil, bu sirdir və gizlidir. Lakin bu məlumdur ki, göz bəbəyi ona görə tünd rəngdədir ki, günəş şüalarını udsun, çünki əgər bu başqa rəngdə olsaydı, yəni bütünlüklə ağ, bu günəş şüalarını cəzb etməzdi. Ona görə də, şeylərin səbəbi dediyimiz kimi, məlum olmadığından, bü mümkündür ki, orqanların izlərinin səbəbi və hikməti, bu istər heyvanda, istərsə də insanda olsun, hələ məlum deyil. Mütləq bunun bir mənası vardır, baxmayaraq ki, məlum deyil.

Üçüncüsü, gəlin fərz edək ki, nə vaxtsa bəzi heyvanlar, ya da hətta insan bəzi orqanlara malik idilər ki, indi onlar yox olublar; bu növlərin dəyişməsi və təkamülü üçün qaneedici bir dəlil deyildir. Çünki insan, rüşeym dövrünün lap başlanğıcından tam yetkinlik dərəcəsinə qədər müxtəlif forma və şəkildəyişmələrdən keçir. Onun görünüşü, forması, zahiri şəkli və rəngi dəyişir; o, bir formadan digərinə, bir şəkildən başqa bir şəklə keçir. Bununla belə, rüşeym formasının lap başlanğıcından o, insan növündən idi, yəni insan rüşeymi idi, heyvan deyil, lakin başlanğıcda bu nəzərə çarpmır, sonra artıq bu aşkar olur və görünür. Məsələn, gəlin təsəvvür edək ki, insan bir vaxt heyvanı xatırladırdı və indi o tərəqqi edib və dəyişib. Bunun da doğru olduğunu fərz etsək, bu yenə də növün dəyişməsi demək deyildir. Xeyr, əvvəlcədə deyildiyi kimi, bu sadəcə insanın rüşeyminin dəyişiklik və çevrilmələrə uğramasına bənzəyir, bu da o qədər davam edir ki, o, kamala və kamilliyə çatır. Biz bunu daha açıq bir şəkildə izah edək. Gəlin təsəvvür edək ki, bir vaxt vardı ki, insan əlləri və ayaqları üzərində gəzirdi və ya quyruğu vardı; bu cür dəyişmə və çevrilmə ana bətnində dölün dəyişməsinə bənzəyir. Baxmayaraq ki, o, kamil bir formaya çatanadək hər cür dəyişikliyə uğrayır, lakin başlanğıcdan o xüsusi bir növdür. Biz həmçinin bitkilər aləmində də bunun şahidiyik ki, sortun ilkin növü dəyişmir və çevrilməyə uğramır, lakin forma, rəng və ölçülər dəyişir və hətta təkamül edir.

Beləliklə, yekunlaşdıraq: necə ki, insan ana bətnində bir formadan digərinə, bir şəkildən başqa şəklə keçir, dəyişib və inkişaf edir və rüşeym dövrünün başlanğıcından yenə də insan növü kimi qalır, o cür də, insan, bu dünyanın bətninə düşəndən, ayrıca bir növ, yəni insan növü olmuşdur və tədricən bir formadan başqa bir formaya təkamül etmişdir. Ona görə də, bu görkəm dəyişikliyi, orqanların belə təkamülü, bu inkişaf və böyümə, hətta böyümə və inkişafın reallığını qəbul etsək də belə, yəni, əgər biz qəbul etsək ki, məsələn, insan əvvəllər dordayaqlı idi və ya quyruğu vardı, növün ayrıca bir növ olmasını inkar etmir. İnsan lap əvvəldən bu kamil forma və quruluşda olub, maddi və ruhani kamilliklər əldə etmək üçün qabiliyyətə malik olub və "Biz insanı Öz surətimizdə və bənzərimizdə yaradarıq"[1] kəlməsinin təzahürü olub. O, daha çox xoşagələn, daha gözəl və daha incə olub. Sivilizasiya onu vəhşi halından çıxarıb, necə ki, yabanı meyvələr bağban tərəfindən becərildikdə daha gözəl, daha şirin olur və daha çox təravət və dad əldə edir.

İnsan aləminin bağbanları da Allahın Peyğəmbərləridir.

## 50

## İNSANIN MƏNŞƏYİNİN RUHANİ DƏLİLLƏRİ

İnsan növünün mənşəyinə dair bizim gətirdiyimiz dəlillər məntiqi dəlillər idi. İndi isə biz mühüm olan ruhani dəlillər gətirəcəyik. Bir halda ki, Biz İlahiliyi məntiqi sübutlarla isbat etmişik, habelə sübut etdik ki, insan özünün lap mənşəyindən və yaranışından elə insan olmuşdur və onun növü əzəldən mövcud olmuşdur, indi biz ruhani dəlillər müəyyən edəcəyik ki, insanın mövcudluğu, yəni insanın növü zəruri bir mövcudluqdur və insansız İlahiliyin kamillikləri üzə çıxmazdı. Lakin bunlar ruhani dəlillərdir, məntiqi sübutlar deyil.

Biz dəfələrlə nümayiş etdirmişik və müəyyən etmişik ki, insan bütün varlıqların ən alisidir, bütün kamilliklərin məcmusudur və bütün varlıqlar və mövcudluqlar Allahın cəlalını əks etdirən mərkəzlərdir, yəni Allahın İlahilik əlamətləri şeylərin və varlıqların mahiyyətində üzə çıxmışdır. Necə ki, yer kürəsi günəşin şüalarının əks olunduğu yerdir, necə ki, onun işığı, onun istisi və onun təsiri yerin bütün zərrələrində ortaya çıxır və görünür, belə də, varlıqların zərrələri də bu sonsuz kainatda ilahi kamilliklərdən birini bəyan edir və göstərir. Heç nə bu nemətdən məhrum qalmamışdır; bu ya Allahın mərhəmətinin əlamətidir, ya da Onun qüdrətinin, Onun əzəmətinin, Onun ədalətinin, Onun yol göstərən inayətinin nişanəsidir; ya da bu, Allahın səxavətinin, Onun baxışının, Onun eşitməsinin, Onun biliyinin, Onun fəzlinin və s. nişanəsidir.

Şübhəsiz, hər bir varlıq Allahın cəlalının parlayan mərkəzidir, bu o deməkdir ki, Allahın kamillikləri onda üzə çıxır və onda parlayır. Bu səhrada, dənizdə, ağacda, meyvə və çiçəklərdə və yerə məxsus bütün şeylərdə parlayan

[1] Yaradılış 1:26

günəşə bənzəyir. Dünya, mövcud olan hər bir varlıq Allahın isimlərindən birini bizə bəyan edir, ancaq insanın mahiyyəti toplum mahiyyətdir, ümumi gerçəklikdir, bir mərkəzdir ki, Allahın bütün kamillikləri onda parlayır, yəni, hər bir sifət, hər bir kamillik ki, biz Allahdan olduğunu hesab edirik, onun insanda üzə çıxmasının şahidi oluruq. Əgər bu başqa cür olsaydı, insan bu kamillikləri təsəvvür edə bilməz və onları anlamazdı. Beləliklə, biz deyirik ki Allah görəndir, onda göz Onun baxışının əlamətidir; Əgər insanda bu görmə olmasaydı, biz Allahın baxışını necə təsəvvür edərdik? Çünki kor (yəni kor doğulmuş) görməni təsəvvür edə bilməz və kar da (yəni anadangəlmə kar) eşitməni təsəvvür edə bilməz və ölü də həyatı anlaya bilməz; buradan da bütün kamilliklərin məcmusu olan Allahın İlahiliyi, özünü insanın mahiyyətində biruzə verir, yəni Vahidlik Cövhəri bütün kamilliklərin toplumudur və bu vahidlikdən də O, öz əksini insanın mahiyyətində əks etdirir. Onda insan, kamil bir güzgüdür ki, Həqiqət Günəşinə çevrilmişdir və şüaların fokuslandığı mərkəzdir: Həqiqət Günəşi bu güzgüdə əks olunur. İlahi Kamilliklər insanın mahiyyətində əks olunur və beləliklə də o, Allahın təmsilçisi, Allahın elçisidir. Əgər insan mövcud olmasaydı, kainat məqsədsiz olardı, çünki mövcudluğun məqsədi Allahın kamilliklərinin üzə çıxmasıdır.

Ona görə də, bunu demək olmaz ki, bir vaxt olub ki, insan mövcud olmayıb. Biz yalnız onu deyə bilərik ki, bu yer kürəsi nə vaxtsa mövcud deyildi və onun yarandığı vaxtın lap başlanğıcında insan orada yox idi. Lakin əvvəli olmayan əvvəldən sonu olmayan sona qədər Kamil Zühur həmişə var. Bizim haqqında danışdığımız bu İnsan hər insan deyil; Biz Kamil İnsanı nəzərdə tuturuq. Zira ağacın ən ali hissəsi onun meyvəsidir ki, ağacın da mövcud olmasından məqsəd budur. Əgər ağacın meyvəsi olmasaydı, onun mövcudluğunun mənası olmazdı. Ona görə də, mövcudluq dünyalarında, bunlar istər ulduzlar, istərsə də yer kürəsi olsun, nə vaxtsa uzunqulaq, inək, siçan və pişiyin sakin olduğunu, insanınsa mövcud olmadığını təsəvvür etmək mümkün deyil. Bu fərziyyə səhv və mənasızdır. Allahın sözü günəş kimi təmizdir. Bu ruhani dəlildir ki, biz onu lap əvvəldən materialistlərin qarşısında irəli sürə bilməzdik. Öncə biz məntiqi dəlilləri təqdim etməli, sonra isə ruhani dəlillərdən danışmalıyıq.

## 51

## İNSANIN RUHU VƏ ƏQLİ BAŞLANĞICDAN MÖVCUD OLMUŞDUR

*Sual.* – İnsan yaranışının lap əvvəlindən ağıl və ruha malik idi, yoxsa bu onun təkamülünün nəticəsidir?

*Cavab.* – Yer kürəsində insanın mövcudluğunun başlanğıcı onun ana bətnində formalaşmasını xatırladır. Rüşeym ana bətnində tədricən doğulana qədər böyüyür və inkişaf edir və bundan sonra da o, kamillik və yetişkənlik dövrünə çatandək böyüyür və inkişafını davam etdirir. Baxmayaraq ki, lap körpəlikdən insanda ağıl və ruh əlamətləri müşahidə olunur, lakin onlar

kamillik dərəcəsinə çatmırlar; onlar tam deyillər. İnsan yetkinliyə çatdıqda onun ağlı və ruhu da tam üzə çıxır və özünün bütün kamilliyi ilə aşkar olur.

Beləliklə, insanın da dünyanın bətnində formalaşması başlanğıcda rüşeymə bənzəyirdi; sonra o, tədricən mükəmməlləşdi, böyüdü və yetkinlik dərəcəsinə çatanadək inkişaf etdi ki, onda da ağlı və ruhu böyük əzəmətilə meydana çıxdı.

İnsanın formalaşmasının başlanğıcında da ağıl və ruh vardı, lakin onlar gizli idilər; onlar sonra aşkara çıxdılar. Dünyanın bətnində ağıl və ruh rüşeym kimi mövcud idi, amma onlar gizli idilər; sonra onlar üzə çıxdılar. Buna oxşar da toxumda ağac vardır, lakin o gizli və örtülüdür; toxum böyüyüb inkişaf edəndə bütöv ağac meydana çıxır. Eynilə də, bütün varlıqların böyüməsi və inkişafı tədricəndir; bu ümumi ilahi nəzm və təbii sistemdir. Toxum birdən-birə ağac olmur, rüşeym dərhal insana çevrilmir, mineral bir anda daş olmur. Xeyr, onlar böyüyür və tədricən inkişaf edirlər və kamillik həddinə çatırlar.

Bütün varlıqlar, istər böyük, istərsə də kiçik, kamil yaradılmışlar və lakin onların kamilliyi onlarda dərəcələrlə ortaya çıxır. Allahın nizamı vahiddir; mövcudluğun təkamülü də vahiddir; ilahi sistem də vahiddir. Kiçik və ya böyük olmasından asılı olmayaraq, onların hamısı bir qanuna və vahid bir sistemə tabedirlər. Hər bir toxumun özündə əvvəlcədən bitkinin bütün kamillikləri vardır. Məsələn, toxumda bütün bitki kamillikləri əvvəlcədən mövcud olur, lakin görünmür; sonra bu yavaş-yavaş üzə çıxır. Belə ki, toxumdan əvvəlcə cücərti çıxır, sonra budaqlar, yarpaqlar, çiçəklər və meyvə əmələ gəlir. Amma onun mövcudluğunun lap başlanğıcından bütün bu şeylər toxumda vardı, potensial olaraq, ancaq zahirən bilinmirdi.

Eynilə də rüşeym əvvəlcədən ruh, ağıl, görmə, iybilmə, dad kimi bütün kamilliklərə malik olur, bir sözlə, bütün qabiliyyətlərə, lakin onlar görünmür və yalnız tədricən üzə çıxıb görünməyə başlayır.

Buna oxşar olaraq, Yer kürəsi əvvəlcədən özünün bütün elementləri, materiyası, mineralları, atom və canlıları ilə yaradılmışdır, lakin bu ancaq dərəcə-dərəcə üzə çıxmışdır. Əvvəlcə minerallar, sonra bitki, daha sonra heyvan və sonda insan. Lakin başlanğıcdan bu növ və cinslər mövcud idi, lakin yer kürsəsində inkişaf etməmişdilər, sonra tədricən meydana çıxmışlar. Zira Allahın ali nəzmi və ümumi təbii sistemi bütün varlıqları əhatə edir və hər şey bu qaydaya tabedir. Siz bu kainat sisteminə baxsanız, görərsiniz ki, elə bir varlıq yoxdur ki, xəlq olunan kimi öz kamilliyinə çatsın. Xeyr, onlar tədricən böyüyür və inkişaf edir və sonra kamillik dərəcəsinə çatırlar.

## 52

## RUHUN BƏDƏNDƏ ZAHİR OLMASI

*Sual.* – Ruhun bədəndə zahir olmasının hikməti nədir?

*Cavab.* – Ruhun bədəndə zahir olmasının hikməti budur: insan ruhu Allahın Əmanətidir və bütün halətlərdən keçməlidir, çünki onun mövcudluq hallarından keçərək irəliləməsi onun kamilliklər əldə etməsi vasitəsi olacaqdır.

Belə də insan müəyyən məqsəd və plana malik olmaqla, səhayət edərək müxtəlif diyarlar və ölkələrdən keçməsi onun kamillik qazanması üçün vasitə olur, çünki o, yerlər, mənzərələr, ölkələr görür və buradan başqa millətlərin həyat şəraiti və vəziyyəti barədə məlumat əldə edir. Beləliklə o, ölkələrin coğrafiyası, qeyri-adi şeyləri və incəsənəti ilə tanış olur, o, xalqların vərdişləri, adət və ənənələri haqda məlumat əldə edir; o, zəmanənin mədəniyyət və tərəqqisini görür; o, hökumətin siyasətindən və ölkənin güc və qüdrətindən xəbərdar olur. Bu insan ruhu ilə də belədir ki, o, mövcudluq hallarından keçir: o, hər bir dərəcə və halətdən keçir. Hətta bədəndə olanda da o, mütləq kamilliklər əldə edəcəkdir.

Bundan əlavə, bu zəruridir ki, kamillik əlamətləri bu dünyada üzə çıxsın ki, xilqət dünyası sonsuz nəticələr versin və bu bədən həyat əldə etsin və ilahi kəramət təzahür etdirsin. Beləliklə, məsələn, günəşin şüası yer üzərini işıqlandırmalıdır və günəş istisi də yerdə olan varlıqları inkişaf etdirməlidir; əgər günəşin şüaları və istisi yerin üzərinə düşməsəydi, yer üzündə varlıqlar sakin ola bilməzdi, mənasız olardı və onun inkişafı ləngiyərdi. Eynilə bu cür də, əgər ruhun kamillikləri bu dünyada üzə çıxmasaydı, bu dünya tamamilə zülmət və vəhşilik dünyası olardı. Ruhun fiziki formada təzahür etməsi ilə bu dünya işıqlanmışdır. Necə ki, insan ruhu bədəndəki həyatın mənbəyidir, o cür də dünya bədən timsalında, insan isə ruh timsalındadır. Əgər insan olmasaydı, ruhun kamillikləri üzə çıxmaz, əqlin işığı bu dünyada şəfəq saçmazdı. Bu dünya ruhsuz bədənə bənzəyərdi.

Bu dünya habelə meyvə ağacı timsalındadır, insan isə meyvə kimidir; meyvəsiz ağac faydasız olardı.

Bundan da əlavə, insan orqanizmində olan bu üzvlər, bu elementlər, bu quruluş ruhun cəzbedicisi və maqnitidir; bu yəqindir ki, ruh onda zahir olacaq. Beləcə təmiz olan güzgü də günəş şüalarını mütləq cəzb edəcəkdir. O işıqlanmış olacaq və gözəl surətlər onda əks olunacaqdır, yəni bu mövcud elementlər təbii nizama uyğun olaraq, mükəmməl gücə malik olmaqla birləşəndə onlar ruhun maqnitinə çevrilir və ruh da onlarda özünün bütün kamillikləri ilə zahir olur.

Bu şərtlər altında "Günəş şüaları nə üçün mütləq güzgünün üzərinə düşməlidir" demək olmaz, çünki şeylərin mahiyyəti arasında mövcud olan bağlılıqlar onlar istər ruhani, ya maddi olsun, tələb edir ki, güzgü təmiz olanda və günəşə çevriləndə günəşin şüası mütləq onda əks olunmalıdır. Eynilə də, elementlər ən mükəmməl sistemdə, ən mükəmməl quruluş və şəkildə nizamlanıb birləşdikdə insan ruhu onda üzə çıxacaq və zahir olacaqdır. Bu Qüdrətli və Hikmətlinin hökmüdür.

## 53

## ALLAH VƏ MƏXLUQ ARASINDAKI ƏLAQƏ

*Sual.* – Allahla məxluq arasında, yəni İxtiyar Sahibi, Ən Uca ilə başqa varlıqlar arasında əlaqənin təbiəti nədir?

*Cavab.* – Allahla məxluq arasındakı əlaqə yaradanla yaradılan arasındakı əlaqədir; bu günəşlə onun işıqlandırdığı varlıqların qara cisimləri arasındakı əlaqəsinə bənzəyir; bu həm də düzəldənlə düzəldilən şeylər arasındakı əlaqəni xatırladır. Günəş öz-özlüyündə işıqlandırdığı cisimlərdən asılı deyil, çünki onun işığı onun özündədir və yer kürəsindən azaddır və ondan asılı deyildir. Belə ki, yer günəşin təsiri altındadır və onun işığını alır, baxmayaraq ki, günəş və onun şüaları yerdən tamamilə asılı deyillər. Amma əgər günəş olmasaydı, yer və ondakı bütün varlıqlar mövcud ola bilməzdi.

Yaradanların Allahdan asılılığı emanasiya, törəmə asılılığıdır, yəni məxluqlar Allahdan törəyir; onlar Onu təzahür etdirmirlər. Bu əlaqə emanasiya əlaqəsidir, təzahüretmə əlaqəsi deyildir. Günəşin işığı günəşdən qaynaqlanır, o günəşi təzahür etdirmir. Emanasiya ilə yaranma dünyanın üfüqlərindən işıq saçan cismin şüalarının zahir olmasıdır, yəni Həqiqət Günəşinin müqəddəs mahiyyəti bölünmür və məxluqat məqamına enmir. Eynilə də, günəşin kürəsi də bölünmür və yerə enmir. Xeyir, günəşin onun kəraməti olan şüaları ondan emanasiya edir və qara cisimləri işıqlandırır.

Lakin təzahür etmə ilə əmələ gəlmə toxumdan budaqların, yarpaqların, çiçəklərin və meyvənin zahir olmasıdır; çünki toxum öz mahiyyətində budaq və meyvələrə çevrilir və onun mahiyyəti budaqlara, yarpaq və meyvələrə keçir. Təzahüretmə ilə bu cür əmələ gəlmə Ən Uca olan Allah üçün sadəcə qeyri-kamillik olardı və bu əsla mümkün deyil, çünki bu o demək olardı ki, Mütləq Əzəliyyət fani sifətlərlə müəyyən olunur. Amma əgər bu belə olsaydı, tam müstəqillik sadəcə fəqirliyə, həqiqi mövcudluq isə qeyri-mövcudluğa çevrilərdi ki, bu da mümkün deyil.

Ona görə də bütün yaradılmışlar Allahdan törəyir, yəni məhz Allahdır ki, hər şeyi yaradır və bütün varlıqlar Allahdan mövcudat dünyasına qədəm qoyurlar. İlk şey ki, Allahdan törəmişdir, bu qədim filosofların "İlkin Ağıl" adlandırdıqları ümumkülli gerçəklikdir və Bəha əhli onu "İlkin İradə" adlandırırlar. Allahın aləmində Onun hərəkətinə aid olan bu emanasiya zaman və məkanla məhdudlaşmamışdır; Onun başlanğıcı və sonu yoxdur – Allaha münasibətdə başlanğıc və son eynidir. Allahın əzəliyyəti mahiyyətin əzəliyyətidir, həmçinin zamanın əzəliyyətidir və mümkünlüyün fenomenallığı məxsusi və ayrılmaz keyfiyyətdir, müvəqqəti deyil, necə ki, biz stol arxasındakı söhbətlərimizin birində izah etmişdik[1].

Baxmayaraq ki, "İlkin Ağıl"ın başlanğıcı yoxdur, o Allahla əzəliyyəti bölüşmür, çünki ümumkülli gerçəklik Allahın mövcudluğuna münasibətdə fanidir və o, Allahın səviyyəsinə çatma və əzəliyyət nöqteyi-nəzərindən Ona oxşamaq qüdrətinə malik deyil. Bu mövzu öncə izah edilmişdi.

Canlı varlıqların yaşaması elementlərin birləşməsi deməkdir, onların ölümü isə bu elementlərin parçalanmasıdır. Lakin külli materiya və elementlər mütləq şəkildə məhv olmur, dağılmır. Xeyr, onların mövcud olmaması sadəcə transformasiyadır. Məsələn, insan çürüyəndən sonra torpağa dönür, amma o, tamamilə qeyri-mövcudluğa çevrilmir. O, hələ də torpaq formasında

[1] Baxın: Gerçək əzəliyyət səh. 222

mövcuddur, burada transformasiya baş vermişdir və bu quruluş hansısa təsadüf nəticəsində dağılmışdır. Başqa varlıqların da məhv olması bu cürdür, çünki mövcudluq mütləq qeyri-mövcudluğa çevrilmir və mütləq qeyri-mövcudluq da mövcudluğa çevrilmir.

## 54

## İNSAN RUHUNUN ALLAHDAN TÖRƏMƏSİ HAQQINDA

*Sual.* – Bibliyada deyilir ki, Allah ruhu insanın bədəninə üfürdü. Bu ayənin hansı mənası vardır?

*Cavab.* – Bilin ki, törəmə iki cürdür: emanasiya vasitəsilə törəmə və əmələ gəlmə və bir də təzahür etmə vasitəsilə törəmə və əmələ gəlmə. Emanasiya ilə əmələgəlmə hərəkətedən kəsin etdiyi hərəkətə, yazı yazanın yazmasına bənzəyir. İndi yazı yazandan törəyir, söhbət danışandan meydana gəlir və eynilə də insan ruhu Allahdan törəyir. Bu o şey deyil ki, Allahı təzahür etdirir – yəni İlahi Mahiyyətdən heç bir hissə ayrılmamışdır ki, insan bədəninə daxil olsun. Xeyr, necə ki, danışıq danışandan emanasiya edir, ruh da insan bədənində peyda olur.

Lakin zühur etmə ilə törəmə şeyin mahiyyətinin başqa formalarda təzahür etməsidir, necə ki, bu ağac onun toxumundan meydana çıxmışdır, yaxud da çiçəyin həmin çiçəyin toxumlarından əmələ gəlməsi, çünki bu toxumun özüdür ki, budaqlar, yarpaqlar və çiçəklər şəklində meydana çıxır. Bu təzahür etmə ilə əmələgəlmə adlanır. İnsanların ruhları, Allaha münasibətdə, emanasiya ilə Ondan asılıdır, necə ki, danışıq danışandan, yazma isə yazandan törəyir, yəni danışanın özü danışığa çevrilmir, ya da ki, yazanın özü yazıya çevrilmir, xeyr, onlar emanasiya ilə baş verir. Danışan kamil bir qabiliyyətə və qüdrətə malikdir və danışıq ondan baş verir, necə ki, hərəkət o hərəkəti edən şəxsdən törəyir. Həqiqi Danışan, Birlik Cövhəri həmişə bir şəraitdə olmuşdur, o nə dəyişir, nə də çevrilməyə uğrayır, nə dəyişikliyə məruz qalır, nə də çevrilmələrə. O Əbədidir, Ölümsüzdür. Ona görə də insan ruhlarının Allahdan törəməsi emansiya ilə baş verir. Bibliyada deyiləndə ki, Allah Öz nəfəsini insana üfürdü, bu ruh o şeydir ki, danışıq kimi, insan mahiyyətində təcəssüm etməklə Həqiqi Danışandan emanasiya edir.

Lakin bizim dediyimiz təzahür etməklə törəmə (əgər bununla hissələrə bölünmə deyil, ilahi zühur nəzərdə tutulursa), Allahdan olan Müqəddəs Ruhun və Sözün törəməsi və meydana çıxmasıdır. Necə ki, Yəhyanın İncilində deyilmişdi: “Əvvəlcə Söz vardı və Söz Allahın yanında idi”;[1] deməli onda Müqəddəs Ruh və Söz Allahın təzahürüdür. Ruh və Söz ilahi kamilliklər deməkdir ki, Məsihin mahiyyətində zahir olmuşdu və bu kamilliklər Allahın yanında idi; belə də günəş bütün parıltısını güzgüdə əks etdirir. Çünki Söz Məsihin bədəni demək deyil, xeyr, bu ilahi keyfiyyətlərin Onda təzahür

[1] Yəhya 1:1

etməsidir. Çünki Məsih təmiz bir güzgü kimi idi ki, Həqiqət Günəşinə tərəf çevrilmişdi; və Həqiqət Günəşinin kamillikləri, yəni onun nuru və istisi bu günəşdə zahir olmuş və görünmüşdü. Biz güzgüyə baxdıqda, orada günəşi görür və deyirik: "Bu günəşdir." Ona görə də, Allahın kamillikləri mənasında olan Söz və Müqəddəs Ruh ilahi təzahürlərdir. Bu, İncildə deyilən "Söz Allahın yanında idi və Söz Allah idi."[1] ayəsinin mənasıdır. Zira ilahi kamilliklər Vahidlik Cövhərindən ayrı deyil. Məsihin kamillikləri Söz adlandırılmışdır, çünki bütün varlıqlar hərf halındadırlar və bir hərf tam mənaya malik deyil, o halda ki, Məsihin kamillikləri söz qüdrətinə malikdir, çünki tam məna sözdən çıxa bilər. Məsihin Mahiyyəti ilahi kamillikləri̇n təzahürü olduğundan, o söz kimi idi. Niyə? Çünki O, kamil mənaların məcmusudur. Məhz buna görə O, Söz adlandırılıb.

Və bilin ki, təzahür etmə ilə törəmə və əmələ gəlmə olan Sözün və Müqəddəs Ruhun Allahdan törəməsi, o cür başa düşülməməlidir ki, İlahi Mahiyyət hissələrə bölünmüş və ya çoxalmışdır, və yaxud O, müqəddəslik və paklıq ucalığından aşağı enmişdir. Allah eləməsin! Əgər təmiz və cilalanmış güzgü günəşə çevrilərsə, onun işığı və istisi, forma və surəti onda elə bir parlaqlıqla təzahür edəcək ki, güzgüdə parlayan və görünən bu günəşi görən "Bu Günəşdir" desə, bu doğru olar. Bununla belə, güzgü güzgüdür, günəşsə günəş. Tək Günəş, hətta o çoxlu güzgülərdə görünsə də, birdir. Bu hal nə dəyişməzlik, nə daxilolma, nə də qarışma və enmə məqamıdır; çünki daxilolma, daimilik, enmə, çıxma və qarışma ruha deyil, bədənə xas olan zərurət və cəhətlərdir; belə olan halda, onlar Allahın müqəddəs və pak Mahiyyətindən sonsuz dərəcədə uzaqdır. Allah Onun paklığına, Onun ucalığına və ali müqəddəsliyinə uyğun olmayan hər bir şeydən arınmışdır.

Həqiqət Günəşi, bizim əvvəlcə söylədiyimiz kimi, həmişə bir halda olmuşdur; O nə dəyişər, nə çevrilməyə uğrayar, nə haldan-hala düşər, nə də dönər. O əbədi və daimidir. Lakin Allahın Sözünün Müqəddəs Mahiyyəti pak, təmiz, parlaq güzgüsü halındadır; Həqiqət Günəşinin istisi, işığı, surəti və oxşarlığı, yəni Onun kamillikləri bu güzgüdə meydana çıxır. Məhz buna görə Məsih İncildə: "Ata Oğuldadır" – buyurur, yəni Həqiqət günəşi güzgüdə zahir olur.[2] Təriflər olsun Ona ki, bu varlıqlar arasında pak olan Müqəddəs Mahiyyətin üzərində parlayır.

## 55

## QƏLB, RUH VƏ ƏQL

*Sual.* – Əql, ruh və qəlb arasındakı fərq nədir?

*Cavab.* – Öncə də bu izah olunmuşdu ki, ruh, ümumiyyətlə, beş kateqoriyaya bölünür: bitki ruhu, heyvan ruhu, insan ruhu, iman ruhu və Müqəddəs Ruh.

Bitki ruhu böyümə qabiliyyyətidir ki, başqa mövcudluq formalarının təsiri ilə toxumda oyanır. Heyvan ruhu bütün hissiyat qabiliyyətlərdir ki,

[1] Yəhya 1:1
[2] Yəhya 14:11, 17:21

elementlərin müəyyən qaydada birləşməsindən və qarışmasından meydana çıxır; bu qaydalı struktur pozulanda həmin qabiliyyət də məhv olur və aradan çıxır. Bu məsələ lampaya bənzədilə bilər: neft, fitil və od birləşəndə o yanır; bu struktur dağılanda, yəni birləşmiş bu hissələr bir-birindən ayrılanda lampa da sönür.

İnsanı heyvandan ayıran insan ruhu rasional əqlə malik qəlbdir və bu iki ad – insan ruhu və rasional əqlə malik qəlb – eyni bir şeyi ifadə edir. Filosofların terminologiyasında rasional əqlə malik qəlb adlandırılan bu ruh, bütün varlıqları əhatə edir və insanın imkanlarının icazə verdiyi qədər şeylərin mahiyyətini kəşf edir, onların xüsusiyyətlərindən və qarşılıqlı təsirindən xəbərdar olur, varlıqların keyfiyyət və xassələrini dərk edir. Lakin insan ruhu, iman ruhundan yardım almayınca ilahi sirlərdən və səmavi gerçəkliklərdən qafil qalır. Bu o güzgüyə bənzəyir ki, baxmayaraq ki, təmizdir, cilalanmış və parlaqdır, lakin yenə də işığa ehtiyacı vardır. Günəşin şüaları onda əks olunmayınca, o, ilahi sirləri aşkarlaya bilməz.

Lakin ağıl insan ruhunun qabiliyyətidir. Ruh çıraqdır; ağıl isə bu çıraqdan şüalanan işıqdır. Ruh ağacdır, ağıl isə bu ağacın meyvəsidir. Ağıl ruhun kamilliyi və ona xas olan bir keyfiyyətdir, necə ki, günəşin şüaları onun günəşliyinə xas olan zərurətdir.

Bu izah qısa olsa da, tamdır; bunun üzərində düşünün, əgər Allah iradə etsə, siz bunun bütün incəliklərinə varacaqsınız.

## 56

## FİZİKİ VƏ ƏQLİ QABİLİYYƏTLƏR

İnsanda onun qavrama gücünu təşkil edən beş xarici qabiliyyət mövcuddur, yəni insan bu beş qabiliyyətlə maddi şeyləri qavrayır. Bunlar: görmə qabiliyyətidir ki, görünən formaları qavrayır; eşitmədir ki, eşidilən səsləri qavrayır; iybilmədir ki, iyləri qavrayır; dadbilmədir ki, qidanı qavrayır; və lamisədir ki, bədənin bütün səthində yerləşmişdir və hiss olunan şeyləri qavrayır. Bu beş qabiliyyət zahiri mövcudluq formalarını qavrayır.

İnsanın həmçinin ruhani qabiliyyətləri də vardır: təsəvvür - şeyləri təsəvvür edir; fikir – gercəkliklər üzərində düşünür; dərketmə - şeylərin mahiyyətini dərk edir; yaddaş – insanın təsəvvür etdiyi, düşündüyü və dərk etdiyi bütün şeyləri qoruyub saxlayır. Bu beş zahiri qabiliyyətlə daxili qabiliyyətlər arasında vasitəçi olan şüurdur ki, bu da, hər ikisinə məxsusdur, yəni zahiri qabiliyyətlərlə daxili qabiliyyətlər arasında vasitəçi kimi fəaliyyət göstərən şüur zahiri qabiliyyətlərin qavradıqlarını daxili qabiliyyətlərə ötürür. Bu ümumi qabiliyyətdir, çünki bu xarici və daxili qabiliyyətlər arasında əlaqə yaradır və beləliklə də, zahiri və daxili qabliyyətlər üçün ümumidir.

Məsələn, görmə zahiri qavrama qabiliyyətlərindən biridir; o, bu gülü görür, qavrayır və bu hissiyatı daxili qabiliyyətə - ümumi olan qabiliyyətə ötürür, o da bu qavramanı xəyal qabliyyətinə ötürür ki, o da öz növbəsində bu surəti qavrayır, onun surətini yaradır və onu fikir qabiliyyətinə ötürür; fikir isə

düşünüb onun gerçəkliyini tutduqdan sonra onu dərketmə qabiliyyətinə ötürür; idrak onu dərk etdikdən sonra qavranmış obyektin surətini yaddaşa ötürür və yaddaş da onu öz anbarında saxlayır.

Zahiri qabiliyyətlər beşdir: görmə, eşitmə, dadbilmə, iybilmə və lamisə.

Daxili qabiliyyətlər də həmçinin, beşdir: ümumi qabiliyyət, xəyal qabiliyyyəti, fikir, idrak və yaddaş.

## 57

## İNSANLARIN XARAKTERİNDƏKİ FƏRQLƏRİN SƏBƏBLƏRİ

*Sual.* – Neçə tip xarakterdə insanlar vardır və insanların fərqliliyinin və müxtəlifliyinin səbəbi nədir?

*Cavab.* – İnsanın anadangəlmə, irsən keçən və təlim-tərbiyə sayəsində qazanılmış xarakterləri vardır.

Anadangəlmə xarakterlərə gəldikdə, baxmayaraq ki, ilahi xilqət tamamilə kamil və xeyirdir, ancaq insanın təbii keyfiyyətlərinin cürbəcür olması dərəcələrin müxtəlifliyindən irəli gəlir; hamısı mükəmməldir, lakin dərəcəsindən asılı olaraq, bu az və ya çox dərəcədə belədir. Beləliklə, bütün bəşər intellekt və qabiliyyətə malikdir, lakin insanların intellektual səviyyəsi, qabiliyyətləri və dəyərliliyi fərqlənir. Bu aşkardır.

Misal üçün, bir ailədən, bir yerdən, bir məktəbdən olan, bir müəllimdən tərbiyə alan, eyni qida ilə bəslənən, eyni iqlimdə yaşayan, bir geyimdə olan və eyni dərsləri alan uşaqları götürək – bu şübhəsizdir ki, bu uşaqların arasından bəziləri elmdə qabliyyətli olacaq, bəziləri orta səviyyədə qabiliyyətə malik olacaq, bəziləri isə geridə qalacaq. Buradan aydın olur ki, təbiətin özündə keyfiyyət səviyyələri, qabiliyyət və bacarıq müxtəlifliyi vardır. Bu müxtəliflik xeyir və ya şər kimi başa düşülməməlidir, sadəcə olaraq, dərəcə fəqrliliyidir. Birisi daha yüksək dərəcədə keyfiyyətlər göstərmək qabiliyyətinə malikdir, digəri orta, o birisi isə aşağı dərəcədə bu qabiliyyətə malikdir. İnsan dünyada beləcə mövcuddur; heyvan, bitki və mineral da mövcuddur, lakin bu dörd mövcudluq formasının səviyyələri fərqlənir. İnsanla heyvanın mövcudluqları arasında nə qədər fərq vardır! Ancaq hər ikisi mövcudluq formasıdır. Aydındır ki, mövcudatda dərəcə fərqləri vardır.

İrsən keçmiş keyfiyyətlərin fərqli olması konstitusiyadan irəli gəlir, yəni valideynlərin hər ikisi zəif olanda, uşaqlar da zəif olacaq; əgər onlar qüvvətlidirlərsə, uşaqlar möhkəm olacaq. Eynilə də, qanın təmizliyinin böyük təsiri vardır; çünki təmiz mənşə bitki və heyvanlarda olan növ və ya cins təmizliyinə bənzəyir. Məsələn, zəif və cansız valideynlərdən törəmiş uşaqlar da təbii olaraq zəif konstitusiyaya və zəif əsəbə malik olacaq; onlar xəstəhal olacaq, nə səbrləri, nə dözümlülükləri, nə qətiyyətləri, nə də təmkinləri olacaq və onlar tez qızışan olacaqlar; çünki uşaqlar valideynlərinin zəifliklərini və gücsüzlüklərini irsən götürürlər.

Bunlardan əlavə, xüsusi xeyir-dua bəzi ailə və nəsillərə əta edilmişdir. Belə ki, xüsusi xeyir-dualardan biri budur ki, İsrail övladlarının Peyğəmbərlərinin hamısı Həzrət İbrahimin törəmələri arasından çıxmışdır. Bu o xeyir-duadır ki, Allah bu nəslə bəxş etmişdir: Həzrət Musaya Onun ata və anasından, Məsihə Onun ana tərəfindən və İsrailin bütün Peyğəmbərləri və Müqəddəs Zühurları kimi həmçinin Həzrət Məhəmməd və Həzrət Baba da bu nəsil vasitəsilə həmin xeyir-dua yetmişdir. Camali-Mübarək[1] də Həzrət İbrahimin birbaşa nəslindəndir, çünki Həzrət İbrahimin İsmayıl və İsakdan da başqa oğulları vardı və onlar o zaman Fars və Əfqanıstan torpağına köçmüşdülər və Camali-Mübarək də onların törəmələrindən biridir.

Buradan görünür ki, irsən qəbul olunmuş xasiyyət də vardır və hətta o dərəcədə ki, əgər insanların xarakteri onların mənşəyinə uyğun gəlmirsə, onun fiziki cəhətdən eyni bir nəslə mənsub olmasına baxmayaraq, ruhani cəhətdən onlar ailənin üzvü kimi sayılmırlar, Nuhun törəməsi sayılmayan Xanaan kimi[2].

Lakin mədəniyyətə aid keyfiyyət fərqləri çox böyük olur, çünki təhsilin çox böyük təsiri vardır. Təhsillə cahil alim olur; qorxaq cəsarətli olur. Becərilməklə, əyri budaq düzəlir; dağların və meşələrin turş və acı meyvələri şirin və dadlı olur; beş ləçəkli gül yüz ləçəkli olur. Təlimlə vəhşi millətlər mədəniləşir və hətta heyvanlar əhilləşir. Təlimə ən çox əhəmiyyət verilməlidir, çünki necə ki, bədənin xəstəlikləri həddən artıq yoluxucudur, o cür də, ruhun və qəlbin keyfiyyətləri də həddən artıq keçiricidir. Təlim hərtərəfli təsirə malikdir və onun səbəb olduğu fərqlər də çox böyükdür.

Ola bilər kimsə desin ki, bir halda ki, insanların qabiliyyət və şəxsi xüsusiyyətləri fərqlidir, onda qabiliyyətin müxtəlifliyi də elə xarakterlərin müxtəlifliyinə səbəb olur[3].

Ancaq bu belə deyil, çünki qabiliyyət iki cürdür: təbii qabiliyyət və qazanılmış qabiliyyət. Allahın yaratmış olduğu birinci qabiliyyət tamamilə xeyirdir – Allahın xilqətində şər deyə bir şey yoxdur, lakin qazanılmış qabiliyyət şərin meydana çıxmasına səbəb olmuşdur. Məsələn, Allah insanları elə bir surətdə yaratmışdır və onlara elə bir quruluş və qabiliyyətlər vermişdir ki, onlar şəkər və baldan faydalana bilir, zəhərdən isə zəhərlənə və məhv ola bilərlər. Bu təbiət və konstitusiya onlara anadangəlmə verilmişdir və Allah bunu bütün insanlara eyni vermişdir. Lakin insan hər gün kiçik miqdarda zəhər qəbul etməklə yavaş-yavaş özünü ona alışdırır və tədricən dozanı artırır, ta o vaxtadək ki, o, hər gün bir qram opium qəbul etmədən yaşaya bilmir. Təbii qabiliyyətlər beləcə təhrif olunmuşdur. Baxın, nə qədər təbii qabiliyyət və quruluş müxtəlif vərdişlər və məşqlərin təsirindən o qədər dəyişə bilər ki, sonda tamamilə təhrif olunar. Qüsurlu adamları onların anadangəlmə qabiliyyət və təbiətinə görə tənqid etmirlər, əksinə, onların qazanılmış qabiliyyət və təbiətlərinə görə tənqid edirlər.

Yaradılışda şər deyə bir şey yoxdur; hər şey xeyirdir. Bəzi insanlarda müəyyən keyfiyyət və təbiətlər anadangəlmədir və zahirən töhmətəlayiq

[1] Həzrət Bəhaullah.
[2] Yaradılış-9:25.
[3] Yəni insanlar onların hər hansı xarakterlərinə görə töhmətləndirilə bilməzlər.

olsalar da, həqiqətdə belə deyildir. Məsələn, həyatının ilk çağlarından siz balaca uşaqda acgözlük, qəzəb və hirs əlamətləri müşahidə edə bilərsiniz. Ona görə də belə demək olar ki, xeyir və şər anadangəlmə insanın mahiyyətindədir və bu isə təbiətin və xilqətin tam nəcibliyinə ziddir. Bunun cavabı odur ki, acgözlük, yəni daha çox şey istəmək, təqdirəlayiq bir keyfiyyətdir, lakin bir şərtlə ki, o lazımi şəkildə istifadə olunsun. Belə ki, əgər insan elm və bilik əldə etməkdə acgözdürsə və ya şəfqətli, səxavətli, ədalətli olmaqda belədirsə, bu şox tərifəlayidir. Əgər o, hirs və qəzəbini vəhşi heyvanlar kimi olan qanasusamış zülmkarlara qarşı yönəltmişsə, bu çox tərifəlayiqdir, amma əgər o, bu keyfiyyətləri düzgün istifadə etmirsə, onda töhmətəlayiqdir.

Onda bu aydındır ki, xilqət və təbiətdə şər ümumiyyətlə mövcud deyildir; ancaq insanın təbii keyfiyyətləri qanun pozuntusuna istifadə olunursa, onlar töhmətəlayiqdir. Belə ki, zəngin və səxavətli bir insan fəqirə onun öz ehtiyaclarını ödəmək üçün müəyyən məbləğdə pul verirsə və həmin şəxs də onları qanunsuz şeylərə xərcləyirsə, onda o töhmətəlayiq olacaq. İnsan həyatının sərvəti olan bütün təbii keyfiyyətləri ilə də belədir; əgər onlar qanunsuz şəkildə istifadə olunsa və nümayiş etdirilsə, onda pislənir. Ona görə də aydındır ki, xilqət tamamilə yaxşıdır. Baxın ki, keyfiyyətlərin ən pisi və xasiyyətlərin ən murdarı bütün pisliklərin əsası olan yalandır. Bundan da pis və bundan da töhmətəlayiq bir xasiyyət təsəvvür olunmaz. Bu bütün insani kamilliklərin dağıdıcısı və saysız qüsurların səbəbidir. Bundan pis xasiyyət yoxdur; bütün pisliklərin bünövrəsi odur. Bütün bunlara baxmayaraq, əgər həkim xəstəyə "Allaha şükür, siz yaxşısınız və sağalmağınıza ümid vardır"- deyə təsəlli verirsə, baxmayaraq ki, bu sözlər həqiqətə uyğun deyil, amma onlar xəstəyə təsəlli ola bilər və xəstəlikdə dönüş nöqtəsi ola bilər. Bu töhmətə layiq deyil.

Bu sual indi kifayət qədər aydınlaşdırıldı. Salamlar olsun sizə!

## 58

## İNSANIN VƏ İLAHİ ZÜHURLARIN MALİK OLDUQLARI DƏRKETMƏNİN SƏVİYYƏSİ

*Sual.* – İnsanın qavrama dərəcəsi nə həddədir və o, nə dərəcədə məhduddur?

*Cavab.* – Məlumunuz olsun ki, qavrama qabiliyyəti müxtəlif cür olur. Ən aşağı dərəcə qavrama heyvanlardadır, yəni hissetmə qabiliyyətləri şəklində meydana çıxan və duyğu ilə qavrama adlanan təbii hissiyatlardır. Bunlar insan və heyvanlar üçün ümumidir; bundan əlavə, bəzi heyvanlar hissetmə qabiliyyətinə görə insandan daha qabiliyyətlidirlər. Lakin insanlarda dərketmə insanın müxtəlif səviyyələrinə uyğun olaraq müxtəlifdir və fərqlənir.

Təbiət aləmində dərketmənin ilkin səviyyəsi rasional düşüncə ilə dərk etməkdir. Bu dərketmə səviyyəsində bütün insanlar bərabərdirlər - onlar istər laqeyd olsunlar, istər çalışqan, istər inanan olsunlar, istərsə də etiraz edənlər. İnsanın bu rasional ruhu – qəlbi Allahın yaradılışıdır; bu başqa xəlq olunmuş-

ları da əhatə edir və onlardan üstündür; bu daha nəcib və ali olduğundan o, bütün şeyləri əhatə edir. Rasional ruhun gücü şeylərin mahiyyətini aşkar edir, varlıqların xüsusiyyətlərini dərk edir və mövcudatın sirlərinə vaqif olur. Bütün elmlər, bilik, incəsənət, heyrətamiz şeylər, təsisatlar, kəşflər və müəssisələr rasional ruhun əqli qabiliyyətinin nəticəsidir. Vaxt vardı ki, onlar məlum deyildi, örtülü idi, gizli sirr idi; rasional ruh onları tədricən kəşf etdi və görünməyən və gizli aləmdən görünən aləmə gətirdi. Bu, təbiət aləmində olan ən böyük dərketmə gücüdür ki, öz uçuşunun və pərvaz etməsinin zirvəsində şeylərin mahiyyətini, asılılıqlar dünyasındakı varlıqların xüsusiyyətlərini və qarşılıqlı təsirini dərk edir.

Lakin təbiətin fövqündə duran ümumkainat İlahi əql, Əzəli Gücün kəramətidir; bu ümumkainat əqli İlahidəndir; o, mövcud olan gerçəklikləri əhatə edir və Allahın sirlərinin işığını alır. Bu araşdırma və tədqiqetmə gücündən fərqli olaraq, dərk edən bir gücdür. Təbiət aləminin əqli gücü araşdırma gücüdür və öz araşdırmaları ilə, o, varlıqların mahiyyətini və mövcudluqların xüsusiyyətlərini kəşf edir. Lakin təbiətin hüdudlarını aşan İlahi əqli güc isə, hər şeyi əhatə edir, hər şeydən agahdır, hər şeyi bilir, onlara nüfuz edir, sirlərə, gerçəkliklərə və ilahi əlamətlərə vaqifdir və Məlәkutun gizli həqiqətlərini aşkar edir. Bu ilahi əqli güc Müqəddəs Zühurun və peyğəmbərliyin Məşriqlərinin məxsusi əlamətidir; bu işığın şüası mömin insanların ürəyinin güzgüsünə düşür və bu gücün müəyyən bir hissəsi və bir pay Müqəddəs Zühurlar vasitəsilə onlara yetir.

Müqəddəs Zühurların üç məqamı vardır: biri fiziki məqamdır; digəri rasional ruh məqamıdır; üçüncüsü isə kamilliyin və rəbbani cəlalın təzahürüdür. Bədən öz qabiliyyətinə uyğun olaraq fiziki dünyada olan şeyləri dərk edir; ona görə də müəyyən hallarda bu fiziki zəifliklər nümayiş etdirir. Məsələn, “Mən yatırdım və huşsuz idim; Allahın nəsimi mənim üzərimə əsdi və Məni oyatdı və Mənə əmr etdi ki, Sözü bəyan edim”; və yaxud Məsih, o zaman ki, otuz yaşında vəftiz olundu, Müqəddəs Ruh Onun üzərinə nazil oldu; bundan öncə Müqəddəs Ruh Özünü Onda zühur etdirməmişdi. Bütün bunlar Zühurların cismani məqamına aiddir; amma onların səmavi məqamı bütün şeyləri əhatə edir, bütün sirləri bilir, bütün əlamətləri aşkar edir, bütün şeylərə hakimdir; Onların missiyasından həm əvvəl və həm də sonra bu belədir. Məhz ona görə Məsih buyurmuşdu: “Mən alfa və omeqayam, ilk və sonam”[1]– yəni məndə heç zaman nə bir dəyişiklik, nə də bir çevriliş nə olmuş, nə də olacaqdır.

## 59

## İNSANIN ALLAHI DƏRK ETMƏSİ

*Sual.* – İnsan Allahı nə dərəcədə dərk edə bilər?

[1] Vəhy 22:13.

*Cavab.* – Bu məsələ vaxt tələb edir və bunu belə stol arxasında izah etmək asan deyil, lakin yenə də biz bu barədə qısaca danışacağıq.

Məlumunuz olsun ki, iki cür bilik vardır: şeylərin mahiyyəti barədə bilik və bir də onların keyfiyyətləri barədə. Şeyin mahiyyəti onun keyfiyyətləri ilə bilinir; əks halda o, tanınmaz və sirli qalar.

Bir halda ki, bizim şeylər haqqında - hətta onlar yaranmış və məhdud şeylər olsun - biliyimiz, onların keyfiyyətləri haqda bilikdirsə, onların mahiyyəti haqqında deyilsə, onda necə ola bilər ki, qeyri-məhdud olan biz İlahi Mahiyyəti dərk edə bilək? Zira hər hansı bir şeyin daxili mahiyyəti dərk olunmur, onun ancaq keyfiyyətləri dərk edilir. Məsələn, günəşin daxili mahiyyəti məlum deyil, lakin o, istilik və işıq kimi keyfiyyətləri ilə başa düşülür. İnsanın daxili mahiyyəti məlum və aşkar deyil, lakin onun xüsusiyyətlərinə görə səciyyələnir və tanınır. Beləliklə, hər şey onun keyfiyyətlərinə görə tanınır, mahiyyəti əsasında deyil. Baxmayaraq ki, ağıl hər şeyi əhatə edir və zahiri şeylər onun tərəfindən dərk olunur, lakin yenə də bu şeylər, öz mahiyyətlərinə görə məchuldurlar; onlar ancaq öz keyfiyyətləri baxımından məlumdurlar.

Onda əbədi və daimi olan Rəbb, hansı ki, dərk və anlayışdan üstündür, Öz mahiyyəti etibarilə necə tanına bilər? Yəni, bir halda ki, şeylər ancaq onların keyfiyyyətləri ilə dərk edilir, mahiyyətlərinə görə deyil, onda bu yəqindir ki, İlahi Gerçəklik öz mahiyyəti baxımından tanınmazdır və ancaq öz keyfiyyətləri baxımından tanına bilər. Bundan başqa, fani gerçəklik Əzəli Gerçəkliyi necə qavraya bilər? Zira dərketmə əhatəetmənin nəticəsidir, əhatəetmə olmalıdır ki, dərketmə olsun, axı Birliyin Mahiyyəti hər şeyi ehtiva edir və özü əhatə edilən deyil.

Varlıqlar aləmindəki səviyyələrin müxtəlif olması da dərketmə üçün maneə yaradır. Məsələn, bu mineral minerallar aləminə mənsubdur; o nə qədər inkişaf etsə də, böyümə gücü onun üçün dərk edilməz qalacaq. Bitkilər, ağaclar, onlar nə qədər tərəqqi etsələr də, görmə qabiliyyətini və ya digər duyğu qabiliyyətlərini anlaya bilməzlər və heyvan da insanın məqamını anlaya bilməz, yəni onun ruhani gücünü dərk edə bilməz. Bu məqamlar müxtəlifliyi anlamaqda maenələr yaradır; aşağı səviyyə yuxarı səviyyəni dərk edə bilməz; Onda fani gerçəklik Əzəli gerçəkliyi necə dərk edə bilər? Ona görə də, Allahı tanımaq, onun sifətlərinin tanınılması və dərk edilməsidir, Onun Mahiyyətini dərk olunması yox. Sifətlər haqqında bu anlayış da insanların qabiliyyətinə və gücünə uyğun olaraq qavranır; bu mütləq deyildir. Fəlsəfə bundadır ki, şeylərin mövcudluğu halında, onlarıın mahiyyəti, insanın qabiliyyətinə və gücünün imkan verdiyi qədər dərk olunsun. Zira fani gerçəklik Əzəli sifətləri ancaq insanın qabiliyyəti çərçivəsində dərk edə bilər. Allahlığın sirri varlıqların dərkindən müqəddəs və ucadır, zira insanın xəyalına gələn o şeylərdir ki, insan onu başa düşür, insanın anlama gücü isə İlahi Mahiyyətin Gerçəkliyini əhatə edə bilmir. İnsanın dərk edə bildiyi ancaq İlahiliyin sifətləridir və bu sifətlərin şüası dünyada və insanların qəlbində zahir olur və görünür.

Biz dünyaya və insanların qəlbinə nəzər salanda, İlahi kamilliklərin aydın və aşkar şəkildə ecazkar əlamətlərini görürük; çünki şeylərin gerçəkliyi Ümumkainat Gerçəkliyini sübut edir. İlahi Mahiyyət özünün cəlal yüksəkliyindən bütün üfüqlərə nur saçan günəşə bənzədilə bilər. Hər bir üfüq, hər bir qəlb isə onun parıltısından öz payını alır. Əgər bu işıq və bu şüalar mövcud olmasaydı, varlıqlar da mövcud ola bilməzdi; bütün şeylər bu nurdan bir şeyi ifadə edir, bir şüanı və bir hissəni ondan alır. Allahın kamilliklərinin, kəramət və sifətlərinin parıltısı Kamil İnsandan, yəni Misilsiz Kəsdən, Allahın Ali Zühurundan parlayır və şəfəq saçır. Başqa varlıqlar ancaq bir şüa alır, Ali Zühur isə bu Günəş üçün güzgüdür ki, O, həmin bu güzgüdə Özünün bütün kamillikləri, sifətləri, əlamətləri və ecazkar qüvvəsi ilə zahir olur və meydana çıxır.

Allahın Mahiyyətinin dərk edilməsi mümkün deyil və əlçatmazdır, Allahın Zühurlarının tanınması isə Allahın tanınmasıdır, zira kəramət, əzəmət və ilahi sifətlər Onlarda zahir olur. Ona görə də, əgər insan Allahın Zühurunu tanımağa nail olursa, O, Allahı da tanımağa nail olur; əgər insan Müqəddəs Zühurları tanımaqda laqeyd olursa, O, Allahı tanımaqdan məhrum qalacaq. Onda bu təsdiq və sübut olundu ki, Müqəddəs Zühurlar Allahın kəramətinin, əlamətlərinin və kamilliklərinin mərkəzidir. Xoş o kəslərin halına ki, ilahi kəramət nurunu bu işıqlı Məşriqlərdən alırlar!

Biz ümid edirik ki, Allahın dostları cazibə qüvvəsi ilə dolaraq bu kəramətləri onun öz mənbəyindən alacaq və elə bir parlaqlıq və əlamətlərlə ayağa qalxacaqlar ki, Həqiqət Günəşinin aşkar sübutları olacaqlar.

## 60

## RUHUN ÖLÜMSÜZLÜYÜ (1)

Bir halda insan ruhunun mövcudluğu[1] göstərildi, onda onun ölümsüzlüyünü də sübut etməliyik.

Ruhun ölməzliyi Müqəddəs Kitablarda buyurulmuşdur. Bu, ilahi dinlərin əsas bünövrəsidir. Deyilmişdir ki, cəza və mükafat iki cürdür: birincisi bu həyatın mükafat və cəzaları; ikincisi isə o biri dünyanın. Cənnət və Cəhənnəm Allahın bütün aləmlərində vardır, istər bu dünyada, istərsə də ruhani səmavi dünyalarda. Bu mükafatları qazanmaq əbədi həyat qazanmaq deməkdir. Məhz buna görə Məsih deyirdi: "Elə hərəkət edin ki, əbədi həyat əldə edəsiniz, ta ki, su və ruhda doğulasınız, ta ki, Mələkuta daxil ola biləsiniz".[2]

Bu dünyanın mükafatı insanın mahiyyətini bəzəyən məziyyətlər və kamilliklərdir. Məsələn, o cahil idi, ziyalandı; o nadan idi, müdrik oldu; o laqeyd idi, çalışqan oldu; o cahil idi, oyandı; o ölü idi, canlandı; kor idi, görməyə başladı; o kar idi, eşidən oldu; o yerə bağlı idi, indi səmavi oldu; o maddi idi, ruhani oldu. Bu mükafatlar vasitəsilə o, ruhən yenidən doğulur və yeni bir varlıq olur. O, İncilin ayəsinin bir təzahürü olur, harada həv-varilər

[1] İnsan və heyvan arasındakı fərq sualı.
[2] Yəhya 3:5.

haqqında deyilir ki, onlar “qandan, bədənin istəyindən, ərin arzusundan deyil, Allahdan doğulublar”[1], yəni onlar insan təbiətinin səciyyəsi olan heyvani cəhətlərdən və keyfiyyətlərdən qurtulublar və Allahın kəraməti olan ilahi səciyyələrlə bəzəniblər. İkinci doğuluşun mənası budur. Belə insanlar üçün Allahdan pərdələnmək qədər böyük əzab ola bilməz, şəhvani qüsur, qaranlıq keyfiyyətlər, alçaq təbiət və cismani arzularda batmaq qədər şiddətli cəza ola bilməz. Onlar iman ruhu ilə bu pisliklərin qaranlığından qurtulanda və həqiqət Günəşinin şəfəqləri ilə nurlananda və bütün məziyyətlərlə nəcibləşəndə, onlar bu böyük mükafatı qiymətləndirir və anlayırlar ki, həqiqi cənnət elə belə olmalıdır. Eynilə də onlar ruhani cəzanı, yəni mövcudat üçün olan əzab və cəzanı, təbiət dünyasına tabe olmaqda, Allahdan pərdələnməkdə, qəddar və cahil olmaqda, cismani şəhvətə düşməkdə, insanı heyvan səviyyəsinə salan zəifliklərdə, yalançılıq, zülmkarlıq, qəddarlıq kimi keyfiyyətlərlə səciyyələnməkdə, dünya işlərinə bağlılıqda və şeytani fikirlərə batmaqda görürlər. Onlar üçün bunlar ən böyük cəza və əzabdır.

Bu cür də, o biri dünya üçün mükafat bütün Müqəddəs kitablarda xatırlanan əbədi həyatdır, ilahi keyfiyyətlər, əbədi kəramətlər və daimi xoşhallıqdır. O biri dünyanın mükafatı bu dünyanı tərk etdikdən sonra ruhani aləmlərdə əldə olunan kamilliklər və sakitlikdir, o zaman ki, bu həyatın mükafatı bu dünyada real parlaq kamilliklərdir ki, əbədi həyat əldə olunmasına səbəb olur, çünki məhz onlar mövcudatın yüksəlişini təşkil edirlər. Bu, rüşeym dünyasından yetkinlik dünyasına keçən və “Mübarəkdir, ona görə də, Allah, Yaradanların ən alisi”[2] sözlərinin təzahürünə çevrilən insana bənzəyir. O biri dünyanın mükafatı sakitlik, ruhani fəzilət, Allahın Mələkutunun müxtəlif ruhani bəxşişləri, ürək və qəlbin arzularına yetişmək, və əbədiyyət dünyasında Allahla görüşməkdir. Eynilə də o biri dünyanın cəzası, yəni o biri dünyanın əzabını, xüsusi ilahi xeyir-dualardan və mütləq kəramətlərdən məhrum olmaq, mövcudluğun ən aşağı dərəcəsinə düşmək təşkil edir. Bu ilahi lütflərdən məhrum olmuş kəs, baxmayaraq ki, öldükdən sonra o da yaşayır, həqiqət adamları üçün ölü kimi hesab edilir.

Ruhun ölümsüzlüyünün məntiqi dəlili budur ki, qeyri-mövcud olan şeydən heç bir əlamət ortaya çıxa bilməz, yəni bu mümkün deyil ki, mütləq yoxluqdan hər hansı bir əlamət ortaya çıxsın, çünki əlamət mövcudluğun nəticəsidir və bu nəticə prinsiplərin mövcudluğundan asılıdır. Belə ki, mövcud olmayan günəşdən heç bir işıq şüalana bilməz. Mövcud olmayan dənizdən heç bir dalğa qalxa bilməz; mövcud olmayan buluddan heç bir yağış yağa bilməz; mövcud olmayan ağac heç bir meyvə verə bilməz; mövcud olmayan insan nə bir şey zahir edə, nə də yarada bilər; Ona görə də, neçə ki, mövcudluq əlamətləri üzə çıxır, onlar onu sübut edir ki, bu əlamətin sahibi mövcuddur.

Baxın ki, bu gün Məsihin hökmranlığı mövcuddur. Mövcud olmayan bir sultandan belə bir əzəmətli hökmranlıq necə zahir ola bilərdi? Mövcud olmayan dənizdən belə hündür dalğalar necə qalxa bilər? Mövcud olmayan bağdan necə belə rayihələr yayıla bilər? Fikirləşin, hər hansı bir varlıqdan

[1] Yəhya 1:13.
[2] Quran 23:14.

onun əzaları dağıldıqdan və onun elementləri parçalandıqdan sonra, bu istər mineral, istər bitki və ya heyvan olsun, nə bir əlamət, nə bir iz, nə də bir təsir qalır. Ancaq insanın gerçəkliyi və insan ruhudur ki, üzvləri parçalandıqdan, hissəcikləri dağıldıqdan və quruluşu pozulduqdan sonra qalır, fəaliyyətdə davam edir və gücünü saxlayır.

Bu sual həddən artıq incədir: buna diqqətlə fikir verin. Bu bir məntiqi sübutdur və biz bu sübutu gətiririk ki, müdrik insan onu ağıl və ədalət tərəzisində çəksin. Ancaq əgər insanın ruhu şadlanacaq və Allahın Mələkutuna cəzb olunacaqsa, əgər batini gözlər açılacaqsa və ruhani eşitmə güclənəcəksə və ruhani hissiyat üstün olacaqsa, o, ruhun ölümsüzlüyünü günəşi gördüyü kimi aydınca görəcək və Allahın xoş müjdələri və əlamətləri onu saracaq.

Sabah biz başqa sübutlar gətirəcəyik.

## <u>61</u>

## RUHUN ÖLÜMSÜZLÜYÜ (2)

Dünən biz ruhun ölümsüzlüyü məsələsi ilə məşğul idik. Bilin ki, insan ruhunun dərk etmə qabiliyyəti və imkanları iki cürdür, yəni o iki müxtəlif formada qavrayır və fəaliyyət göstərir. Bir yolu aparatlardan istifadə etməklə və orqanlar vasitəsilədir: belə ki, gözlərlə insan görür, qulaqlarla o eşidir, dillə o danışır. Ruhun fəaliyyəti və insanın orqanlar vasitəsilə gerçəkliyi qavraması belə baş verir, yəni ruh gözlərlə görəndir; ruh qulaqlarla eşidəndir; ruh dillə danışandır.

Ruhun gücünün və fəaliyyətinin təzahür etməsinin başqa yolu aparat və orqanlarsız baş verir. Məsələn, yuxu halında o, gözlərsiz görür; qulaqsız eşidir; dilsiz danışır; ayaqsız qaçır. Qısası, bu hərəkətlər alət və orqanların vasitəçiliyindən kənar baş verir. Nə qədər belə şeylər baş verir ki, insan yatdığı zaman yuxu görür və onun mənası müvafiq şəraitdə iki ildən sonra aydın olur. Eynilə də, nə qədər belə işlər baş verir ki, insan ayıq olduğu vaxt bir məsələnin həllini tapa bilmir, lakin yuxuda onu tapır. Ayıq olanda göz ancaq qısa bir məsafəni görür, lakin yuxuda isə, Şərqdə olan insan Qərbi görə bilir. Oyaq vaxtı o, indini görür; yuxuda isə o, gələcəyi görür. Oyaq vaxtı insan, sürətli nəqliyyat vasitəsilə, ən çoxu saatda iyirmi fərsəng[1] yol gedə bilər; yuxuda isə bir göz qırpımında, O Şərqi və Qərbi dolaşır. Çünki ruh iki müxtəlif yolla hərəkət edir: vasitəsiz, yəni ruhani səyahət və hər hansı bir vasitə ilə, yəni maddi səyahət: yəni uçan quşlar kimi və uça bilməyən quşlar kimi.

Yatan vaxtı bədən sanki bir ölü kimidir; o nə görür, nə də eşidir; o hiss etmir; onun nə şüuru var, nə də ki, qavrayır, yəni insanın qabiliyyətləri fəaliyyətsizləşib, lakin ruh yaşayır və mövcudluğunu davam etdirir, xeyr, bəlkə onun nüfuzetmə qabiliyyəti daha da yüksəlmişdir, onun uçuşu daha yüksəklərə yönəlib, onun şüurluluğu daha dərindir. Bədən öldükdən sonra ruhun məhv olmasını düşünmək ona bənzəyir ki, təsəvvür edəsən ki, əgər

[1] Bir fərsəng təxminən dörd milə bərabərdir.

qəfəs sındırılsa, onun içindəki quş da məhv olacaq, əslində isə quş üçün qəfəsin sınmasının heç bir qorxusu yoxdur. Bizim bədənimiz bir qəfəs kimidir, ruh isə quşa bənzəyir. Biz görürük ki, bu quş yuxu aləmində qəfəssiz uçur; ona görə də əgər qəfəs sınsa, quş mövcud olmaqda davam edəcək. Onun hissiyatları hətta daha da güclənəcək, onun qavraması daha böyük olacaq, şadlığı daha da yüksələcək. Həqiqətdə, o, cəhənnəmdən xoşhallıq cənnətinə yüksəlir, çünki şükr edən quş üçün qəfəsdən azad olmaq qədər böyük cənnət ola bilməz. Məhz buna görə şəhidlər ən yüksək sevinc və şadlıqla fədakarlıq meydanına tələsirlər.

Oyaq vaxtı insan gözü ancaq bir saatlıq məsafəni[1] görə bilir, çünki bədən vasitəsilə ruhun gücü belə müəyyən edilib, lakin batini görmə və ruhi gözlə o, Amerikanı görür, orada olanları qavraya bilir, şeylərin vəziyyətini anlayır və işləri idarə edir. Əgər, onda ruh da bədənlə eyni cür olsaydı, batini görmə də həmin zahiri görmə ilə eyni bir gücə malik olardı. Ona görə də bu aşkardır ki, ruh bədəndən fərqlidir, quş qəfəsdən ayrıdır, və ruhun gücü və nüfuzetməsi bədənin vasitəçiliyi olmadan daha güclüdür. İndi, əgər alət tərk edilmişsə, həmin alətin sahibi fəaliyyət göstərməkdə davam edir. Məsələn, əgər qələm atılıbsa və ya sınıbsa, yazan yaşayır və vardır; əgər ev dağılıbsa, onun sahibi yaşayır və mövcuddur. Bu ruhun ölümsüzlüyünün məntiqi dəlillərindən biridir.

Başqa bir dəlil də var: Bədən zəifləyir, ya ağırlaşır və ya xəstələnir və ya sağlamlıq əldə edir; o yorulur və dincəlir; bəzən əl və ya ayaq amputasiya olunur və ya o, fiziki cəhətdən şikəst olur; o kor, kar və ya lal olur; onun əzaları iflic ola bilər; qısası, bədən bütün qüsurlara malik ola bilər. Bununla belə, ruh özünün ilkin təbii halında, özünün əvvəlki ruhani dərketmə vəziyyətində olmaqla əbədi və daimi olacaq; o, nə bir qüsur tapacaq, nə də şikəst olacaq. Amma əgər bədən bütövlükdə xəstəliyə və fəlakətə məruz qalıbsa, onda o, ruhun kəramətindən məhrum qalır, sanki bir güzgü kimi, o sınanda, çirkli və ya tozlu olanda günəş şüalarını əks etdirmir və daha onun kəramətini nümayiş etdirmir.

Biz artıq izah etmişdik ki, insanın ruhu bədəndə olmur, çünki o, bədənə xas hal olan daxilolma və çıxmadan azaddır və arınmışdır. Ruhun bədənlə əlaqəsi günəşin güzgü ilə əlaqəsinə bənzəyir. Qısaca söyləsək, insan ruhu bir vəziyyətdədir. O, bədənin xəstəliklərindən nə xəstələnir, nə də onun sağlamlığından şəfa tapır; o nə xəstə olur, nə də zəif, nə miskin, nə yoxsul, nə də görkəmsiz və balaca olur, yəni bədənin zəifliklərindən o, heç bir ziyan çəkməyəcək, hətta bədən zəif olsa belə və ya əgər əllər, ayaq və ya dil kəsilibsə və ya eşitmə və ya görmə qabiliyyətini itiribsə, ona heç bir təsir göstərməyəcək. Ona görə də bu aydındır ki, ruh bədəndən fərqlidir və onun mövcudluğu bədənin ömründən asılı deyil; əksinə, ruh ən böyük bir əzəmətlə bədən dünyasını idarə edir və onun gücü və təsiri, günəşin güzgüdəki kəraməti kimi, aşkar və görünəndir. Amma güzgünu toz tutanda və ya sınanda o, günəşin şüalarını əks etdirə bilməyəcək.

[1] Məsafəni vaxtla ölçmək bir Fars adətidir.

## 62

## KAMİLLİKLƏRİN HƏDDİ YOXDUR

Məlumunuz olsun ki, mövcudluq halları bəndəlikdən, peyğəmbərlikdən və Allahlıqdan ibarətdir, lakin ilahi kamilliklər və onlardan asılı olah kamilliklər isə qeyri-məhduddur. Dərindən düşünəndə, məlum olur ki, zahirən də mövcudluq kamillikləri qeyri-məhduddur, çünki elə bir kamil varlıq tapmaq mümkün deyil ki, ondan da üstününü təsəvvür edə bilməyəsən. Məsələn, mineral aləmində elə bir yaqut, bitki aləmində elə bir qızılgül, heyvan aləmində elə bir bülbül tapmaq mümkün deyil ki, ondan da yaxşı bir nümunə təsəvvür etmək mümkün olmasın. İlahi kəramətlər sonsuz olduğu kimi, insan kamillikləri də sonsuzdur. Əgər kamilliyin son həddinə çatmaq mümkün olsaydı, onda varlıqlardan biri Allahdan asılı olmamaq vəziyyətinə çatar və asılı olan bir şey mütləqlik məqamına çatardı. Lakin hər bir varlıq üçün bir nöqtə vardır ki, onu aşa bilməz, yəni bəndəlik məqamında olan, qeyri-məhdud kamilliklər qazanmaqda o, nə qədər tərəqqi etsə də, heç vaxt Allahlıq məqamına çata bilməz. Başqa varlıqlara münasibətdə də bu belədir. Bir mineral aləmində nə qədər tərəqqi etsə də, bitki gücü əldə edə bilməz. Beləcə çiçək də, bitkilər aləmində o, nə qədər inkişaf etsə belə, heç bir duyğu qabiliyyəti meydana çıxmayacaq. Belə ki, bu gümüş eşitmə və ya görmə qabiliyyətinə malik ola bilməz; O, ancaq öz səviyyəsində mükəmməlləşə bilər və yaxşı mineral ola bilər, lakin o, nə böyümə, nə duyğu, və nə də həyat gücü əldə edə bilər; o, ancaq öz səviyyəsində tərəqqi edə bilər. Məsələn, Pyotr heç vaxt Məsih ola bilməz. Onun edə biləcəyi şey yalnız və yalnız bəndəlik məqamında sonsuz kamilliklər əldə etməkdir; çünki mövcud olan hər bir varlıq tərəqqi etməyə qabildir. Necə ki, insan ruhu bu maddi formanı soyunduqdan sonra əbədi həyata malik olur, mövcud olan hər hansı varlıq da tərəqqi etməyə əlbəttə, qadirdir; ona görə də buna izn vardır ki, insan öldükdən sonra onun kamilləşməsi, bağışlanması, ona mərhəmət və şəfqət və xeyir-dua verilməsi üçün rica edilsin, çünki mövcudluq tərəqqi etməyə qadirdir. Məhz buna görə Həzrət Bəhaullahın dualarında ölənlərin bağışlanması və əfv edilməsi üçün dualar vardır. Bundan əlavə, necə ki, insanların bu dünyada Allaha ehtiyacları vardır, onların o biri dünyada da Ona ehtiyacları olacaqdır. Yaradılanlar həmişə möhtacdırlar, Allah isə mütləq mənada nə bu dünyada, nə də o birisində heç nədən asılı deyil.

O biri dünyanın var-dövləti Allaha yaxınlıqdır. Ona görə də bu yəqindir ki, Allahın Dərgahına yaxın olanlara himayədarlıq üçün izn verilmişdir və bu himayəni Allah bəyənir. Amma o biri dünyada himayədarlıq bu dünyadakından fərqlənir. Bu başqa bir şey, başqa bir gerçəklikdir ki, sözlərlə ifadə oluna bilməz.

Əgər zəngin bir insan ölərkən, kasıb və fəqirlərə bəxşiş vəsiyyət edirsə və öz var-dövlətinin bir hissəsini onların ehtiyaclarına xərclənməsi üçün verirsə, mümkündür ki, bu hərəkət onun bağışlanması və əfv olunmasına, Mələkutda onun tərəqqisinə səbəb olsun.

Həmçinin ata və ana da öz uşaqları üçün böyük əziyyətlərə və çətinliklərə dözür; və çox vaxt uşaq yetkinlik yaşına çatdıqda, valideynlər o biri dünyaya köçürlər. Bu nadir hallarda baş verir ki, ata və ana bu dünyada öz uşaqları xatirinə məruz qaldıqları əziyyətlərin və çəkdikləri qayğının mükafatını görsünlər. Ona görə də, uşaqlar bu əziyyət və qayğının müqabilində, xeyriyyəçilik etməli, şəfqət göstərməli, öz valideynlərinin bağışlanması və əfv olunması üçün dua etməlidirlər. Belə ki, siz də öz növbə-nizdə, atanızın sizə göstərdiyi məhəbbət və mehribanlıq üçün minnətdarlıq əlaməti olaraq onun xatiri üçün kasıba ehsan verməli, böyük təslimiyyət və itaətlə günahlarının bağışlanması və əfv edilməsi üçün yalvarmalı və ali mərhəmət rica etməlisiniz.

Bu da hətta mümkündür ki, günah və imansızlıq içində ölmüş bir insanın da vəziyyəti dəyişsin, yəni onlar Allahın əda-ləti ilə deyil, mərhəməti ilə əfv oluna bilərlər, çünki mərhəmət haqq etmədən verilir, ədalət isə haqq etdiyini almaqdır. Bir halda ki, biz bu ruhlar üçün burada dua etmək gücünə malikiksə, demək, həmin gücə Allahın Mələkutu olan o biri dünyada da eynilə malik olmalıyıq. Bütün insanlar o dünyada Allahın yaratdıqları deyilmi? Ona görə də, o biri dünyada da onlar tərəqqi edə bilərlər. Necə ki, onlar burada öz yalvarışları ilə nur alırlar, orada da həmçinin, bağışlanma üçün rica edə bilər, yalvarış və dualarla işıq ala bilərlər. Beləliklə, necə ki, ruhlar bu dünyada müqəddəslərin yalvarışı və minnəti, duaları ilə inkişaf əldə edə bilər, bu öldükdən sonra da belədir. Öz dua və yalvarışları ilə onlar tərəqqi edir, xüsusən də daha çox o zaman tərəqqi edərlər ki, onlar Müqəddəs Zühurların himayəsi altındadırlar.

## 63

## İNSANIN O BİRİ DÜNYADA TƏRƏQQİSİ

Bilin ki, mövcud olan elə bir şey yoxdur ki, sakitlik halında qalsın, yəni hər şey hərəkətdədir. Hər bir şey ya böyüyür, ya da solur; bütün şeylər ya yoxluqdan var olur, ya da varlıqdan yoxluğa keçir; Belə ki, bu gül, bu giasint müəyyən bir vaxt ərzində qeyri-mövcudluq dünyasından varlıq aləminə gəlmişdir, indi isə o, yoxluq dünyasına getməkdədir. Belə bir hərəkət halı xarakterik bir cəhətdir, yəni təbiidir; bu xüsusiyyət varlıqlardan qoparıla bilməz, çünki bu onların zəruri tələbatıdır, necə ki, alovun xüsusiyyəti yanmaqdır.

Beləliklə, bu müəyyən olundu ki, hərəkət mövcudat üçün zəruridir, o hərəkət ki, ya böyümə istiqamətində gedir, ya da məhv olma. İndi, bir halda ki, ruh da ölümdən sonra mövcudluğunu davam etdirir, onda o, zəruri olaraq ya tərəqqi edir, ya da tənəzzülə uğrayır. O biri dünyada tərəqqi etməmək elə tənəzzül etmək deməkdir; lakin ruh heç vaxt öz məqamını dəyişmir, o məqamda da inkişafını davam etdirir. Məsələn, Pyotrun ruhunun mahiyyəti, o nə qədər inkişaf etsə də, Məsihin Mahiyyəti məqamına çata bilməyəcək; o, ancaq özünün mühitində tərəqqisini davam etdirir.

Bu minerala nəzər salın. O, nə qədər də təkamül etsə, ancaq öz halında təkamül edəcək; siz kristalı onun görə biləcəyi bir məqama gətirə bilməzsiniz; bu mümkün deyil. Beləcə, göydəki ay da, o, nə dərəcədə təkamül etsə də, işıqsaçan günəş ola bilməyəcək, amma öz halında apogeyə və perigeyə çata bilər. Həvvarilər nə dərəcədə tərəqqi etsələr də, onlar heç vaxt Məsih ola bilməzdilər. Bu doğrudur ki, kömür almaz olsun. Amma onların hər ikisi mineral dünyasındadır və onların tərkibi eynidir.

## 64

## İNSANIN MƏQAMI VƏ ONUN ÖLÜMDƏN SONRAKI TƏRƏQQİSİ

Biz varlıqlara görən gözlə baxanda onların üç növ olduğunu görürük, yəni, bütövlükdə onlar ya minerallara mənsubdur, ya bitkilər aləminə, ya da heyvanlara və bu üç sinfin hər birinin də bölündüyü növlər vardır. İnsan ən ali növdür, çünki o, hər üç sinfin kamilliklərinə malikdir, yəni onun böyüyən və hiss edən bədəni vardır. Habelə, mineralların, bitkilərin və heyvanların kamilliklərinə malik olmaqla, o, həm də digər varlıqların məhrum olduğu xüsusi bir aliliyə malikdir, o da əqli kamilliklərdir. Ona görə də insan varlıqların ən nəcibidir.

İnsan maddiyatın ən ali dərəcəsində, ruhaniyyətin isə başlanğıcındadır, yəni, o, qeyri-kamilliyin sonu və kamilliyin başlanğıcıdır; o, qaranlığın son həddində, nurun isə əvvəlindədir. Məhz buna görə deyilib ki, insanın halı gecənin sonu, gündüzün başlanğıcıdır, o mənada ki, o, qeyri-kamilliyin bütün dərəcələrinin məcmusudur və kamillik dərəcələrinə də malikdir. Onun heyvan tərəfi, həmçinin mələk tərəfi də vardır və tərbiyəçinin də məqsədi ondan ibarətdir ki, onu elə tərbiyə eləsin ki, onların mələk tərəfi heyvan tərəfinə üstün gəlsin. Onda insandakı əsas kamillik olan ilahi qüvvə şeytani qüvvəni üstələyirsə, hansı ki, mütləq qeyri-kamillikdir, onda o, xilqət arasında ən ali varlıq olur; lakin əgər şeytani qüvvə ilahi qüvvədən üstün olursa, o, yaradılış arasında ən aşağı bir varlığa çevrilir. Məhz buna görə o, qeyri-kamilliyin sonu və kamilliyin başlanğıcıdır. Mövcudat dünyasında elə bir başqa növ yoxdur ki, insandakı qədər fərq, təzad, ziddiyyət və müxalifliyə malik olsun. İnsan İlahi Nurun beləcə əksi ola bilər, Məsih kimi və baxın, O, necə də sevimli və şərəflidir! Eyni zamanda biz onu da görürük ki, insan daşa, torpaq parçasına və ya ağaca sitayiş edir. O, nə qədər alçaq olmalıdır ki, onun sitayiş obyekti ən aşağı mövcudluq forması olsun, yəni ruhsuz olan daş, gil, dağ, meşə və ya ağac. İnsan üçün bundan da utandırıcı bir şey ola bilərmi ki, o, ən aşağı varlığa sitayiş etsin? Eynilə də, bilik insana məxsus keyfiyyətdir, eləcə cahillik də; doğruluq insanın keyfiyyətidir; beləcə yalançılıq da onun keyfiyyətidir; etibar və xəyanət, ədalət və ədalətsizlik və s. də insana məxsus keyfiyyətlərdir. Qısası, bütün kamilliklər və məziyyətlər və bütün qüsurlar da insanın keyfiyyətləridir.

Fərdi insanlar arasındakı fərqlərə də baxın. Məsih də insan formasında idi, Kaifa da, Həzrət Musa və Firon, Avel və Kain Həzrət Bəhaullah vəYəhya[1] da insan formasında idilər.

Deyilir ki, insan Allahın ən böyük təmsilçisidir və o, Yaradılışın Kitabıdır, çünki, varlıqların bütün sirləri onda mövcuddur. Əgər o, Həqiqi Mürəbbinin tərbiyəsi altına düşərsə və düzgün tərbiyə alarsa, o, cövhərlərin cövhəri, nurların nuru, ruhların ruhu olur; o, İlahi təzahürlərin mərkəzi, ruhani keyfiy-yətlərin qaynağı, səmavi işıqların doğduğu yer və ilahi ilhamın xəzinəsi olur. Əgər o, bu tərbiyədən məhrum olarsa, o, şeytani xasiyyətlərin mücəssəməsi, heyvani qüsurların məcmusu və bütün qaranlıqların mənbəyi olur.

Peyğəmbərlərin missiyasının mənası insanları elə tərbiyə etməkdir ki, bu kömür parçası almaza çevrilsin və bu meyvəsiz ağac peyvənd olunsun və şirin, dadlı meyvələr yetişdirsin. İnsan bəşər dünyasında ən nəcib məqama çatanda o, kamillik pillələrində tərəqqisini davam etdirə bilər, lakin məqamını dəyişə bilməz, çünki bu məqamlar məhduddur, ilahi kamilliklər isə sonsuzdur.

Bu cismani örtükdən azad olmazdan əvvəl və eləcə də sonra kamillik pillələri üzrə tərəqqi vardır, lakin məqam həmin məqam olaraq qalır. Beləliklə varlıqlar kamil insanda zirvəyə çatıblar. Kamil insandan daha yüksək bir məxluq yoxdur. Lakin insan bu məqama çatanda, kamilliklər üzrə hələ də tərəqqi edə bilər, lakin başqa məqama keçə bilməz, çünki kamil insandan daha yüksək bir məqam yoxdur ki, insan özünü o səviyyəyə çatdırsın. O, ancaq insanlıq məqamında tərəqqi edir, zira insani kamilliklər sonsuzdur. Beləliklə, insan nə qədər alim olsa da, ondan daha alim olanı təsəvvür etmək mümkündür.

Buradan da, insanlığın kamilliyinin sonu yoxdursa, demək o, bu dünyanı tərk etdikdən sonra da o, kamilliklər üzrə inkişaf edə bilər.

## 65

## KİTAB-İ-ƏQDƏSİN AYƏSİNİN İZAHI

*Sual.* – Kitabi Əqdəsdə buyurulur "... kim ki, ondan məhrum olub, yolunu azıb, hətta o, hər bir xeyir əməlin sahibi olsun." Bu ayənin mənası nədir?

*Cavab.* – Bu mübarək ayənin mənası budur ki, müvəffə-qiyyətin və qurtuluşun əsası Allahı tanımaqdır və Allahı tanı-mağın da nəticəsi imanın bəhrəsi olan xeyir əməllərdir.

Əgər insan Allahı tanımayıbsa, o, Allahdan ayrılacaq və belə bir ayrılıq mövcud olanda da, yaxşı əməllərin bəhrəsi heç də həmişə tam yaxşı olmur. Bu ayənin mənası o deyil ki, Allahdan uzaq düşən ruhlar, onların yaxşı və ya bəd əməl törətmələrindən asılı olmayaraq bərabərdirlər. Bu ancaq o deməkdir ki, bünövrə Allahı tanımaqdır, yaxşı əməllər isə bu tanımanın nəticəsidir. Bununla belə bu yəqindir ki, Allahdan uzaqlaşmış yaxşı, günahkar və şər

[1] Mirzə Yəhya Sübh-i Əzəl, Həzrət Bəhaullahın ögey qardaşı, Onun barışmaz düşməni.

adamların arasında fərq vardır. Çünki Allahdan pərdələnmiş şəxs yaxşı prinsiplərə əməl edən və yaxşı xasiyyətə malik olan biridirsə, o, Allahın əfvini qazanır, lakin günahkar olub pis keyfiyyətlərə və xaraktera malik olan isə Allahın mərhəmət və xeyir-duasından məhrum qalır. Fərq məhz bundadır.

Ona görə də bu mübarək ayənin mənası odur ki, təkcə yaxşı əməl, Allahı tanımadan, əbədi nicat, daimi müvəffəqiyyət, çiçəklənmə və Allahın Mələkutuna daxil olmaq üçün səbəb ola bilməz.

## 66

## BƏDƏN ÖLDÜKDƏN SONRA RASİONAL DÜŞÜNCƏYƏ MALİK QƏLBİN YAŞAMASI

*Sual.* – Cismani örtük atılandan və ruh azadlıq əldə edəndən sonra rasional düşüncəyə malik qəlb necə mövcud olur?

Fərz edək ki, Müqəddəs Ruhun kəraməti ilə yardım almış ruhlar həqiqi mövcudluğa və əbədi həyata çatırlar. Bəs pərdələnmiş[1] başqa ruhlara nə olur, yəni o ruhlar ki, Allahdan pərdələnmişlər?

*Cavab.* – Bəzi insanlar düşünürlər ki, bədən öz-özünə yaşayır və mövcud olur və ruh da mühüm deyil və bədənin yaşamasından asılıdır, halbuki, əksinə, ruh əsas mahiyyətdir, bədənsə ondan asılıdır. Əgər asılı olan, yəni bədən məhv olursa, əsas mahiyyət, yəni ruh qalır.

İkincisi, rasional qəlb, yəni insan ruhu, insan bədəninə enmir, yəni onun daxilinə girmir, çünki enmə və daxilolma bədənə xas olan xüsusiyyətlərdir, rasional düşüncə bundan azaddır. Ruh heç vaxt bu bədənə daxil olmayıb, ona görə də ondan ayrılanda da onun sakin olması üçün yerə ehtiyacı yoxdur: xeyr, ruh bədənlə əlaqədədir, necə ki, bu işıq bu güzgü ilə əlaqədədir. Güzgü təmiz və mükəmməl olanda, lampanın işığı onda meydana çıxacaq, güzgü tozla örtüləndə və ya sınanda, işıq da yox olur.

Rasional düşüncəyə malik qəlb, yəni insan ruhu, nə bu bədənə daxil olub, nə də ondan asılı olaraq mövcud olub; Beləliklə bədənin quruluşu dağıldıqdan sonra onun yaşaması üçün substansiyaya necə ehtiyacı ola bilər? Əksinə, rasional qəlb bir substansiyadır ki, bədən ondan asılı olaraq mövcud olur. Qəlbin fərdiliyi hələ lap başlanğıcdan ona məxsusdur; onun yaşaması bədənin vasitəçiliyi ilə deyil. Lakin bununla belə, ruhun məqamı və fərdiliyi bu dünyada güclənə bilər; o, tərəqqi edə və kamillik dərəcələrinə çata bilər. Ya da Allahın əlamətlərini görməkdən pərdələnərək və ondan məhrum olaraq cahilliyin ən aşağı girdabında qalar.

*Sual.* – İnsanın ruhu, yəni rasional düşüncəli qəlbi, bu fani dünyanı tərk etdikdən sonra hansı vasitələrlə tərəqqi edəcək?

*Cavab.* – İlahi dünyada insan ruhunun tərəqqisi, müvəqqəti bədənlə əlaqəsini kəsdikdən sonra ancaq Rəbbin mərhəmət və səxavəti ilə, ya da başqa

[1] "pərdələnmiş ruhlar" burada rasional qəlbləri, o qəlblər ki, onlarda iman ruhu yoxdur – nəzərdə tutulur. "Qəlb, ruh və əql".

ruhların himayəsi və səmimi duaları və yaxud onun adına edilmiş xeyriyyəçilik və mühüm savab işlər vasitəsilə ola bilər.

## UŞAQLARIN RUHUNUN ÖLÜMSÜZLÜYÜ

*Sual.* – Məsuliyyət daşıya biləcək bir yaşa çatmamış və ya doğulmadan öncə ölən uşaqların vəziyyəti necə olacaq?

*Cavab.*– Bu körpələr Allahın lütfü altındadırlar, çünki onlar elə bir günah işlətməmişlər və təbiət dünyasının çirkləri ilə ləkələnməmişlər, onlar mərhəmət təzahürünün mərkəzidirlər və Şəfqət Gözü onlara tərəf yönəlib.

**67**

## ƏBƏDİ HƏYAT VƏ ALLAHIN MƏLƏKUTUNA DAXİL OLMA

Siz əbədi həyat və Mələkuta daxil olmaq barədə soruşursunuz. Mələkut üçün işlədilən zahiri ifadə cənnətdir; ancaq bu, ya müqayisə, ya da oxşarlıqdır, həqiqət və ya fakt deyil, çünki Mələkut material bir yer deyil. Bu ruhani bir aləmdir, ilahi dünyadır və Allahın Hökmranlığının mərkəzidir; o, bədəndən və cismani olan hər şeydən azaddır və bəşər aləminin təsəvvürlərindən pak və müqəddəsdir. Yerlə məhdudlaşmaq bədənə aid xüsusiyyətdir, ruha deyil. Məkan və zaman bədəni əhatə edir, ağıl və ruhu deyil. Fikir verin ki, insan bədəni kiçicik bir məkana sığmışdır; o, ancaq yerin ikicə qarışını əhatə edir. Amma insanın ağlı və ruhu bütün ölkə və diyarlara səyahət edir, hətta göylərin sonsuz ənginlikləri boyunca, mövcud olan hər şeyi əhatə edir, yüksək sferalarda və sonsuz məsafələrdə kəşflər edir. Bu ona görə mümkün olur ki, ruh məkana tabe deyil; o məkansızdır, ruh üçün yer də, göy də birdir, çünki o, hər ikisində kəşflər edir. Bədən isə məkanla məhdudlaşıb və ondan kənarda nə olduğunu bilmir.

Zira həyat iki cürdür: bədənin həyatı və ruhun həyatı. Bədənin həyatı maddi həyatdır, ruhun həyatı isə Mələkutun mövcudluğunun ifadəsidir və o da Allahın Ruhu ilə qovuşmaqdan və Müqəddəs Ruhun nəfəsi ilə canlanmaqdan ibarətdir. Baxmayaraq ki, maddi həyat mövcuddur, lakin müqəddəs övliyalar üçün o, tam bir yoxluq və mütləq bir ölümdür. Beləliklə, insan da mövcuddur və daş da, ancaq insanın mövcudluğu ilə daşın mövcudluğu arsında nə qədər fərq vardır! Daş mövcud olsa da, insanın mövcudluğu ilə müqayisədə onun mövcudluğu heçdir.

Əbədi həyatın mənası Müqəddəs Ruhun bəxşişidir, necə ki, gül, bahar fəslinin, bu fəslin isti havasının və nəsimlərinin bəxşişini alır. Baxın, bu gül əvvəlcə mineralın həyatına bənzər bir həyata malik idi, lakin bahar fəslinin gəlişi, yaz vaxtının buludlarının neməti, qızmar günəşin istisi ilə o, təravətli, incə və ətirli bir həyata yetişdi. Gülün birinci həyatı onun sonrakı həyatı ilə müqayisədə ölüm kimi idi.

Mәna bundadır ki, Mәlәkut hәyatı ruh hәyatıdır, әbәdi hәyatdır vә o, insan ruhunun mәkanı olmadığı kimi, mәkandan arınmışdır. Çünki siz insan bәdәnini tәdqiq etsәniz, ruh üçün xüsusi bir yer vә ya mәkan tapa bilmәyәcәksiniz, çünki onun heç vaxt mәkanı olmayıb; o qeyri-maddidir. O, bәdәnlә, günәşin bu güzgü ilә olan әlaqәsinә bәnzәr әlaqәyә malikdir. Günәş güzgünün içindә deyil, amma onun güzgü ilә әlaqәsi vardır.

Eynilә dә, Mәlәkut alәmi gözlә vә ya başqa hissiyatlarla: eşitmә, iybilmә, dad vә lamisә ilә qavranan hәr bir şeydәn müqәddәsdir. Mövcudluğu hamı tәrәfindәn etiraf olunan insanın ağlı insan bәdәnindә harada yerlәşmişdir? Әgәr siz bәdәni gözlә, qulaq vә ya başqa bir duyğu orqanı ilә tәdqiq etmiş olsanız, onu tapa bilmәyәcәksiniz; ancaq bununla belә, o vardır; Ona görә dә ağılın yerlәşdiyi yer yoxdur, lakin o, beyinlә bağlıdır. Mәlәkut da buna bәnzәyir. Eynilә dә, mәhәbbәtin dә yeri yoxdur, lakin o, ürәklә bağlıdır; Belәliklә Mәlәkutun da yerlәşdiyi yer yoxdur, lakin o, insanla bağlıdır.

Mәlәkuta daxil olma Allahın mәhәbbәti vasitәsilә olur, inqita, müqәddәslik vә tәmizlik, doğruluq, paklıq, dәyanәt, vәfa vә hәyatı fәda etmәklә olur.

Bu izahatlar göstәrir ki, insan ölümsüzdür vә әbәdi yaşayır. O kәslәr ki, Allaha inanırlar, Allaha mәhәbbәtlәri vә imanları var – hәyat onlar üçün uca bir şeydir, yәni o әbәdidir; Lakin o ruhlar ki, Allahdan uzaq düşmüşlәr, baxmayaraq ki, onların da hәyatı var, amma o zülmәtdir vә möminlәrin hәyatı ilә müqayisәdә bu qeyri-mövcudluqdur.

Mәsәlәn, göz dә yaşayır, dırnaq da, amma dırnağın hәyatı gözün hәyatı ilә müqayisәdә heçlikdir. Daş da, insan da mövcuddur, ancaq daş, insanın mövcudluğu qarşısında qeyri-mövcudluqdur, onun varlığı yoxdur, çünki insan ölәndә onun bәdәni dağılır vә mәhv olur, vә daş vә torpaq olur. Ona görә dә aydındır ki, baxmayaraq ki, mineral mövcuddur, ancaq insanla müqayisәdә o qeyri-mövcudluqdur.

Eynilә dә, Allahdan uzaq düşәn ruhlar, baxmayaraq ki, bu dünyada vә ölümdәn sonrakı dünyada mövcuddurlar, ancaq Allahın Mәlәkutunun müqәddәs varlıqları ilә müqayisәdә onların mövcudluğu heçdir vә onlar Allahdan ayrılmışlar.

## 68

## TALE

*Sual.* – Müqәddәs Kitablarda xatırladılan tale hökmәn әvvәlcәdәn müәyyәn olunmuşdurmu? Әgәr belәdirsә, onda taledәn qaçmaq cәhdlәri mәnasız deyilmi?

*Cavab.* – Tale iki cürdür: biri müәyyәn olunmuşdur, digәri isә şәraitdәn asılı olan vә ya qarşıda durandır. Müәyyәn olunmuş tale odur ki, dәyişilә bilmәz vә ya ondan qaçmaq olmaz, şәraitdәn asılı olan tale isә odur ki, o, baş verә bilәr. Belә ki, bu lampa üçün müәyyәn olunmuş tale odur ki, onun yağı yanır vә sonda yanıb qurtaracaq; belәliklә, onun qaçılmaz olaraq sonda

sönməsi müəyyən olunmuşdur və dəyişilməsi və ya ondan qaçmaq mümkün deyil, çünki, bu, onun müəyyən olunmuş taleyidir. Eynilə də, insan bədənində həyat qüvvəsi yaradılmışdır və bu qüvvə tükənəndən və sona yetəndən sonra bədən mütləq dağılacaqdır, belə də bu lampadakı yağ yanıb qurtardıqdan sonra o şübhəsiz sönəcəkdir.

Amma şəraitdən asılı olan taleni bu misala bənzətmək olar: hələ ki, yağ vardır, lampanın üstünə güclü külək əsir və onu söndürür. Bu şəraitdən asılı olan taledir. Bu hikmətli olardı ki, ondan qaçasan, özünü ondan qoruyasan, ehtiyatlı və ayıq olasan. Lakin lampadakı yağın tükənməsinə bənzəyən müəyyən olunmuş tale isə, dəyişdirilə bilməz, ondan qaçılmaz və vaxtı dəyişməz. O baş verməlidir; bu qaçılmazdır ki, lampa sonda sönəcək.

**69**

## ULDUZLARIN TƏSİRİ

*Sual.* – Göydəki ulduzların insan ruhuna təsiri var, yoxsa yox?

*Cavab.* – Səmadakı bəzi ulduzlar yer kürəsinə və yer üzü varlıqlarına aydın və açıq fiziki təsir göstərirlər ki, bunun da izahata ehtiyacı yoxdur. Günəşi götürün, Allahın inayəti və köməyi ilə o, yeri və ondakı varlıqları inkişaf etdirir. Günəşin işığı və istisi olmadan bütün yer üzü məxluqatı tamamilə heç olardı.

Ulduzların ruhani təsirinə gəldikdə, ulduzların insan aləminə bu təsiri qəribə görünə bilər, amma siz bu məsələnin üzərində dərindən düşünsəniz, siz o qədər də təəccüb etməyəcəksiniz. Bununla belə, mən keçmiş zamanların münəccimlərinin hadisələrin, ulduzların hərəkətinə uyğunluğundan çıxardıqları öngörmələri nəzərdə tutmuram; çünki o, keçmiş münəccimlərin yozumları idi və bu ənənələr Misir, Assuriya və Xaldey kahinlərindən gəlirdi; xeyr, bəlkə də bunlar Hindusların xəyali təsəvvürlərinin, Yunanların miflərinin, Romalıların və digər ulduza sitayiş edənlərin təsəvvürlərinin məhsulu idi. Amma mənim demək istədiyim budur ki, bu sonsuz kainat insan bədəninə bənzəyir ki, bunun da bütün orqanları bir-birilə çox güclü bir surətdə birləşmiş və bağlıdır. İnsan bədəninin orqanları, üzvləri və hissələri bir-birinə kömək edərək və bir-birindən asılı olaraq qarşılıqlı surətdə necə də birləşmiş və uzlaşmışlar və bir-birinə nə qədər də təsir edirlər! Eynilə də, bu hüdudsuz kainatın hissələrinin özlərinin də üzvləri və orqanları bir-birilə birləşmişlər və bir-birinə ruhani və fiziki cəhətdən təsir edirlər.

Məsələn, yalnız göz görür, reaksiya verən isə bütün bədəndir; qulaqlar eşidir, bədənin bütün üzvləri isə hərəkətə gəlir. Bunda heç şübhə yoxdur; və kainat da canlı orqanizm kimidir. Bundan əlavə, varlıqların üzvləri arasında olan əlaqə və təsir istər maddi, istərsə də ruhani formada olsun, mütləq üzə çıxmalıdır.

Maddi şeylərə ruhani təsiri dananlar üçün biz qısa bir misal veririk: gözəl səslər və tonlar, tərənə və məlahətli səslər titrəmələrdir ki, havaya təsir edir, çünki səs havanın vibrasiyasını ifadə edən termindir və bu tərəddüdlərdən qulağın təbil pərdəsinin sinirləri qıcıqlanır və eşitmə alınır. İndi düşünün ki,

havanın tərəddüd etməsi, çox da əhəmiyyətə malik olmayan bir təsadüfi təzahür forması – insan ruhunu cəzb edir və həyəcana gətirir və ona böyük təsir göstərir: Bu onu ya ağladır, ya da güldürür. Ola da bilər bu ona elə təsir etsin ki, o, özünü təhlükəyə atsın. Ona görə də insan ruhu ilə atmosfer tərəddüdü arasındakı əlaqəyə baxın ki, havanın hərəkəti onu bir haldan başqa hala salır və onu tamamilə tabe edir; bu onu səbr və sakitlikdən məhrum edə bilər. Baxın ki, bu necə də qəribədir, çünki oxuyandan çıxan bir şey yoxdur ki, dinləyiciyə daxil olsun; bununla belə, böyük bir ruhani təsir meydana çıxmışdır. Ona görə də, varlıqlar arasında böyük əlaqənin mütləq ruhani təsiri və təzahürü olmalıdır.

Artıq qeyd olunmuşdur ki, insanın bədəninin əzaları və hissələri bir-birinə reaksiya göstərir və təsir edir. Məsələn, göz görür, ürək reaksiya göstərir, qulaq eşidi, ruh təsirlənir. Ürək rahatlıqla döyünür, fikirlər sakitdir, insan bədəninin bütün üzvlərini isə rahatlıq bürüyür. Bu necə bir əlaqədir, necə bir ahəngdarlıqdır! Belə bir əlaqə, belə bir ruhani qarşılıqlı təsir və effekt insanın bədən üzvləri arasında varkən, halbuki o da çoxlu fani varlıqlardan biridir, onda bu kainat və sonsuzluqda olan varlıqlar arasında da, əlbəttə, ruhani və fiziki əlaqə olmalıdır. Baxmayaraq ki, məlum olan üsullarla və elmin indiki səviyyəsində bu əlaqələr aşkar edilə bilməz, ancaq bununla belə, bu əlaqələrin bütün varlıqlar arasında mövcudluğu şübhəsiz və əbədidir.

Yekunlaşdıraq: varlıqlar, onlar istər böyük olsun, istərsə də kiçik, Allahın kamil hikməti ilə bir-birilə bağlıdır və bir–birinə təsir və reaksiya göstərir. Əgər bu belə olmasaydı, bu kainat sistemində və mövcudatın ümumi nizamında nizamsızlıq və qeyri-kamillik olardı. Amma varlıqlar bir-birilə böyük bir güclə bağlı olduğundan onlar öz yerləşməsi ilə nizam və kamillikdədirlər.

Bu məsələni öyrənməyə dəyər.

# 70

## AZAD İRADƏ

*Sual.* – İnsan bütün hərəkətlərində azaddırmı, yoxsa o məcburən hərəkət edir və ya seçimində məhdudlaşdırılır?

*Cavab.* - Bu sual ən vacib suallardan və dərki çətin olan İlahiyyat problemlərindən biridir. İnşallah, başqa bir gün, nahardan əvvəl, bu məsələnin müfəssəl izahatını verərik, indi biz bunu qısaca, bir neçə sözlə izah edək. Bəzi məsələlər, məsələn, ədalət, insaf, zülm etmək və ya ədalətsizlik, başqa sözlə, xeyir və şər əməllər insanın azad iradəsinə tabedir; bu aydın və aşkardır ki, bu əməllər, əksər hallarda, insanın iradəsinə buraxılır. Amma yuxu, ölüm, xəstəlik, gücdən düşmə, zərər və bədbəxtliklər kimi bəzi məsələlər də vardır ki, onlar insanın iradəsinə tabe deyil və insan onlar üçün məsuliyyət daşımır, çünki o, onlarla barışmağa məcburdur. Lakin xeyir və şər əməlləri seçməkdə o azaddır və onları öz iradəsinə uyğun şəkildə törədir.

Məsələn, əgər o istəsə, öz vaxtını Allahı tərif etməklə keçirər və ya başqa fikirlərlə məşğul olar. O, Allaha məhəbbət atəşindən alovlanmış ola bilər və ya dünyanı sevən filantrop olar, ya da insanlığa nifrət edən və ya maddi şeylərin içində batan birisi ola bilər. O, ədalətli və ya qəddar ola bilər. Bu əməllər və hərəkətlər insanın öz azad iradəsinə tabedir; nəticə etibarilə, o, bu əməllər üçün cavabdehdir.

İndi başqa bir sual baş qaldırır. İnsan tamamilə köməksiz və asılıdır, çünki qüdrət mahiyyətcə Allaha məxsusdur. Yüksəlmə və alçalma Ucalar Ucasının razılığından və iradəsindən asılıdır.

Əhdi-Cədiddə deyilmişdir ki, Allah o dulusçuya bənzəyir ki, “bir piyaləni şərəf üçün, digərini isə aşağı səviyyə üçün hazırlayır”.[1] İndi aşağı səviyyəli istifadə üçün hazırlanmış piyalənin haqqı yoxdur ki, dulusçuya nöqsan tutub desin ki, “məni niyə qiymətli bir piyalə düzəltməmisən ki, məni əldən-ələ ötürsünlər?” Bu ayənin mənası odur ki, varlıqların məqamları fərqlidir. Mövcudluğun aşağı səviyyəsində olanın, məsələn mineralın, şikayət edib deməyə haqqı yoxdur ki: “Ey Allah, mənə niyə bitki kamillikləri əta etməmisən?” Eynilə də, bitkinin də haqqı yoxdur ki, o, heyvan aləminə məxsus kamilliklərin ona verilməməsindən şikayət etsin. Heyvan aləminə də bu yaraşmaz ki, onda insan kamilliklərinin olmamasından şikayətlənsin. Xeyr, bütün bu şeylər öz səviyyələrində kamildirlər və onlar öz dərəcələrində kamillik üçün mübarizə aparmalıdırlar. Aşağı varlıqların, öncə dediyimiz kimi, nə haqqları, nə də imkanları var ki, yüksək kamilliklər əldə etsinlər. Xeyr, onların tərəqqisi onların öz məqamlarında olmalıdır.

Habelə insanın fəaliyyətsizliyi də, hərəkətliliyi də Allahın köməyindən asılıdır. Əgər ona kömək olunmasa, o, nə xeyir, nə də şər əməl etməyə qadir deyil. Ancaq mövcudluq üçün kömək Səxavətli Rəbbdən gələndə, o, həm xeyir, həm də şər əməl törətməyə qadirdir; amma əgər kömək kəsilsə, onda o, tamamilə

---

[1] Romalılara 9:21.

köməksiz qalır. Məhz buna görə Müqəddəs Kitablarda onlar Allahın kömək və yardımından danışırlar. Belə ki, bu vəziyyət küləyin və ya buxarın köməyilə hərəkət edən gəminin vəziyyətinə bənzəyir; əgər bu qüvvə kəsilsə, gəmi heç hərəkət edə bilməz. Bununla belə, gəminin sürücüsü onu başqa tərəfə döndərir və buxarın gücü onu istədiyi istiqamətdə hərəkət etdirir. Əgər bu şərqə tərəf yol almışsa, o, şərqə gedir və ya o, qərbə tərəf istiqamətlənmişsə, onda qərbə doğru irəliləyir. Bu hərəkət gəminin özündən gəlmir, xeyr, bu ya küləkdən, ya da buxardan qaynaqlanır.

Eynilə də, insan özünün bütün fəaliyyətsizliyində və ya hərəkətində Allahın köməyindən güc alır, lakin xeyir və ya şəri seçmək insanın özünə məxsusdur. Belə ki, əgər sultan bir nəfəri şəhərə hakim təyin edirsə və ona səlahiyyət də verirsə, qanunlara uyğun olaraq ədalət və ədalətsizliyin yollarını göstərirsə, əgər onda bu hakim ədalətsizlik törədirsə, baxmayaraq ki, o, sultanın ona verdiyi hakimiyyət və səlahiyyətdən istifadə edərək çıxış edir, ədalətsizlik burada sultanın ayağına yazılmır. Amma əgər o, ədalətli iş görsə, o, bunu da sultanın ona verdiyi hakimiyyət və səlahiyyətdən istifadə etməklə yerinə yetirəcək və sultan da bu halda razı və məmnun qalacaq.

Yəni baxmayaraq ki, xeyiri və şəri seçmək insanın öz əlindədir, bütün hallarda o, Qüdrətlidən gələn yaşadıcı həyat gücündən asılıdır. Allahın Mələkutu çöx böyükdür və hamı Onun qüdrət ovcunun əsiridir. Qul öz iradəsilə heç nə edə bilməz. Allah qüvvətli, qüdrətli, bütün varlıqlara Kömək Edəndir.

Bu sual kifayət qədər aydınlaşdırıldı. Salam olsun sizlərə!

## 71

## RUHLARI GÖRMƏ VƏ ONLARLA ÜNSİYYƏT

*Sual.* – Bəzi insanlar inanırlar ki, ruh dünyasının sirləri onlara açılıb, yəni onlar ruhlarla danışırlar. Bu necə bir ünsiyyətdir?

*Cavab.* – Ruhani açılmalar iki cürdür: biri xəyalın məhsuludur və bunu ancaq bir neçə adam iddia edir, digəri isə ilham kimidir və bu realdır – İsayanın, İeremiyanın və Müqəddəs Yəhyanın vəhyləri bu növə aiddir.

Bilin ki, insanın fikirləşmə qabiliyyəti iki cür ortaya çıxır. Biri doğru olandır ki, müəyyən olunmuş həqiqətə uyğundur. Bu cür təsəvvürlər zahiri aləmdə öz təzahürünü tapır; bunlara dəqiq fikirlər, düzgün nəzəriyyələr, elmi kəşflər və ixtiralar aiddir.

Digər təsəvvürlər isə bihudə xəyal və faydasız ideyalardan uydurulan təsəvvürlərdir ki, nə bəhrə, nə də nəticə verir və reallığa heç bir uyğunluğu da yoxdur. Xeyr, onlar xəyal dənizinin qabaran dalğaları kimidir və əbəs xəyallar kimi də yox olub gedir.

Eynilə də, iki növ ruhani açılma vardır. Biri Peyğəmbərlərin vəhyləridir, digəri isə seçilmişlərə aid olan ruhani açılışdır. Peyğəmbərlərin baxışı xəyal aləmindən deyil; xeyr, onlar ruh açıqlamalarıdır və realdırlar. Onlar, məsələn, deyirlər: - “Mən müəyyən bir surətdə adam gördüm, Mən ona belə dedim və o

da belə cavab verdi.” Bu baxış oyaq halında baş verən görünüşdür, yuxu zamanı görünən deyil. Xeyr. Bu ruhi bir açılışdır ki, görüntü formasında öz ifadəsini tapır.

Digər ruhi açılışlar təmiz xəyali uydurmalardır, lakin bu təsəvvürlər elə bir şəkildə təsvir olunur ki, sadəlövh insanlar inanırlar ki, onlar reallığa uyğundur. Bunun əsassızlığının aydın sübutu budur ki, ruhlarla bu cür ünsiyyətdən heç bir nəticə və ya bəhrə meydana çıxmayıb. Xeyr, onlar nağıl və uydurmadır.

Bilin ki, insanın daxili mahiyyəti şeylərin mahiyyətini ehtiva edir, şeylərin həqiqətlərini, xassələrini və sirlərini açır. Belə ki, bütün bu incəsənət, heyrətamiz nailiyyətlər, elmlər və biliklər insanın mahiyyəti vasitəsilə açılmışdır. Bir vaxtlar bu elmlər, biliklər, heyrətləndirici şeylər və incəsənət örtülü və gizli sirlər idi; sonra insanın mahiyyəti vasitəsilə onlar kəşf olundu və görünməyən aləmdən görünən müstəviyə çıxarıldı. Ona görə də bu aydındır ki, insanın mahiyyəti şeyləri ehtiva edir. Belə ki, o, Avropada oturub Amerikanı kəşf edir; o, yerdə sakindir, amma göylərdə kəşflər edir. O, şeylərin sirlərini açandır və o, mövcud olanın mahiyyətini biləndir. Həqiqətə uyğun olan bu açılışlar özündə ruhani dərki, ilahi ilhamı və insan ruhlarının ünsiyyətini əhatə edən vəhyə bənzəyir. Məsələn, peyğəmbər deyir: “Mən belə bir şey gördüm, dedim və eşitdim.” Ona görə də bu aydındır ki, ruh, göz və ya qulaq kimi beş duyğu üzvlərinin vasitəçiliyi olmadan böyük qavrama qabiliyyətinə malikdir. Yüksək ruhani qəlblər arasında ruhani anlama, açılışlar, belə bir ünsiyyət vardır ki, xəyal və təsəvvürlərdən arınmışdır, elə bir ünsiyyət ki, zaman və məkanın fövqündədir. Belə ki, İncildə yazılmışdır ki, Həzrət Musa ilə İlyas Tabor Dağında Məsihin yanına gəldilər, amma bu aydındır ki, bu fiziki bir görüş deyildi. Bu ruhani bir vəziyyət olub ki, fiziki görüş kimi ifadə olunub.

Ruhlarla danışmağın, onlarla birləşməyin və ünsiyyətin digər növü xəyal və təsəvvürdən başqa bir şey deyil və guya reallığa oxşayır.

İnsan ağlı və idrakı bəzən həqiqəti açır və bu fikir və kəşfdən əlamətlər və nəticələr meydana çıxır. Belə fikrin əsası var. Ancaq insanın ağlına çox şey gəlir ki, xəyal dalğalarına bənzəyir; onların heç bir bəhrəsi yoxdur, onlardan bir nəticə çıxmır. Eynilə də, insan yuxu aləmində elə şey görür ki, sonra dəqiq yerinə yetir; bəzən də elə yuxu görür ki, ümumiyyətlə, heç bir nəticəsi olmur.

Bizim demək istədiyimiz budur ki, bu halət, yəni ruhlarla danışmaq və ünsiyyət iki cürdür: biri sadəcə xəyaldır, digəri isə Müqəddəs Kitabda qeyd olunan Yəhyanın və İsayanın vəhyləri, Məsihin Həzrət Musa və İlyasla görüşləri kimi görmələrdir. Bunlar realdır və insanın ağlına və fikrinə gözəl təsir edir və ürəkləri cəzb edir.

## 72

## RUHANİ VASİTƏLƏRLƏ ŞƏFA TAPMA

*Sual*. – Bəzi insanlar ruhani vasitələrlə müalicə edirlər, yəni dərmansız. Bu necə olur?

*Cavab*. – Bilin ki, dərmansız müalicə və sağaltmanın dörd növü vardır: ikisi maddi vasitədir, ikisi isə ruhani.

Maddi vasitələrlə iki cür müalicə ona görə mümkündür ki, insanda sağlamlıq da, xəstəlik də keçiricidir. Xəstəliyin keçiriciliyi şiddətli və tezdir, sağlamlıq isə həddən artıq zəif və yavaş keçir. Əgər iki bədən bir-birilə kontakta gətirilsə, şübhəsiz ki, mikroorqanizmlər birindən digərinə keçəcək. Eynilə də, xəstəlik bir bədəndən digərinə sürətli və güclü bir keçirciliklə ötürülür, ola bilər ki, sağlam bir insanın möhkəm sağlığı, xəstə insandakı cüzi bir xəstəliyi yüngülləşdirsin. Bu o deməkdir ki, xəstəliklərin keçiriciliyi şiddətli və tez effektə malikdir, amma sağlamlığın keçiriciliyi isə çox yavaşdır və az təsirə malikdir. Sağlam bədənin möhkəmliyi xəstə orqanizmin cüzi zəifliyini aradan götürə bilər və nəticədə sağalar. Sağaltmanın növlərindən biri budur.

Dərmansız müalicənin başqa növü bir bədəndən qaynaqlanan və digərinə təsir edən maqnetik gücdür ki, sağalmaya səbəb olur. Bu qüvvə də zəif təsirə malikdir. Bəzən bir kəs, öz əlini xəstə insanın başına və ya ürəyinin üstünə qoymaqla ona kömək edə bilər. Niyə? Ona görə ki, maqnetik güvvə və xəstə insana edilən psixoloji təsir xəstəliyi geri çəkilməyə məcbur edir. Ancaq bu təsir də çox cüzi və zəifdir.

Ruhani olan iki digər müalicə növlərindən, yəni burada müalicə vasitəsi ruhani qüvvədir – biri sağlam insanın bütün fikrini xəstə insan üzərində toplaması ilə həyata keçirilir və bu zaman xəstə insan bütün inamı ilə gözləyir ki, sağlam insanın ruhani qüvvəsinin təsirindən şəfa əldə olunacaqdır və bu inam o qədər güclüdür ki, sağlam insanla xəstə arasında güclü ruhani əlaqə yaranır. Sağlam insan hər şey edir ki, xəstəni sağaltsın, xəstə isə əmindir ki, mütləq şəfa tapacaq. Bu psixoloji təəssüratdan sinirlərin oyanması baş verir və bu təəssürat və sinirlərin oyanması xəstə insanın sağalma səbəbinə çevrilir. Beləliklə, xəstə insan bir şeyi güclü istəyəndə və ona möhkəm ümid edəndə və birdən onun baş verməsi haqda xəbəri eşidəndə sinir oyanıqlığı meydana çıxır və xəstəliyin tamamilə yox olmasına səbəb olur. Eyni cür də, qəflətən insan qorxanda, sinir sistemində əmələ gələn oyanma tam sağlam insanda dərhal xəstəliyin yaranmasına səbəb ola bilər. Bu xəstəliyin səbəbi maddi bir şey deyildir, çünki həmin şəxs bir şey yeməmiş, nə də ki, ziyanverən bir şey ona toxunmuşdur; sinirlərin oyanması bu halda xəstəliyin əmələ gəlməsinin yeganə səbəbidir. Belə də, ən şiddətli arzunun da birdən reallaşması elə sevincə səbəb olar ki, bunun təsirindən sinirlər oyanar və oyanma sağalmaya səbəb ola bilər.

Yekunlaşdırsaq, ruhani həkimlə xəstə şəxs arasında tam və mükəmməl əlaqə - yəni, elə bir əlaqə növü ki, ruhani həkim tamamilə özünün fikrini xəstənin üzərində toplayır və xəsətə insan da bütün diqqətini sağalma gözlədiyi ruhani həkimə verir – sinirlərin oyanmasına səbəb olur və sağalma baş verir. Amma bütün bunlar ancaq müəyyən hallarda təsir göstərir, heç də həmişə belə olmur. Çünki kimsə çox şiddətli bir xəstəliklə xəstələnibsə və ya yaralanıbsa, bu vasitələr xəstəliyi aradan götürməyəcək, nə də yaranı bağlayacaq və ya sağaldacaq, yəni bu vasitələr, sağlam konstitusiya kömək

etməyincə kəskin xəstəliklərdə heç bir təsirə malik deyil, çünki güclü konstitusiya çox vaxt xəstəliklərə qalib gəlir. Bu isə üçüncü növ müalicədir.

Dördüncü tip müalicə Müqəddəs Ruhun gücü ilə baş verən müalicədir. Bu nə kontaktdan, nə görmədən, nə də bir yerdə olmaqdan asılı deyil. Bu heç bir şəraitdən asılı deyil. Xəstəlik istər yüngül olsun, istər şiddətli, istər bədənlər arasında kontakt olsun ya, olmasın, təbiblə xəstə arasında şəxsi əlaqə qurulsun ya yox - bunlardan asılı olmayaraq, Müqəddəs Ruhun gücü ilə sağalma baş verir.

## 73

## MADDİ VASİTƏLƏRLƏ ŞƏFA TAPMA

Dünən süfrə arxasında biz ruhani qüvvələrlə xəstəliklərin müalicəsi yolları və ruhani sağaltma haqqında danışdıq.

İndi gəlin maddi vasitələrlə müalicə haqqında danışaq. Tibb elmi indi hələlik uşaqlıq dövründədir; o, hələ yetkinliyə çatmayıb. O, yetkinlik nöqtəsinə çatanda, müalicə insanın iy və dadbilmə hissiyatları üçün pis olmayan vasitələrlə həyata keçiriləcək, yəni dad nöqteyi-nəzərindən xoş və iyinə görə də xoş olan yeməklə, meyvələrlə və otlarla aparılacaq. Çünki xəstəliyi yaradan səbəb, yəni xəstəliyin insan bədəninə daxil olma səbəbi ya fiziki səbəbdir, ya da əsəblərin oyanmasının təsirindəndir.

Ancaq xəstəliyin baş verməsinin əsas səbəbi fiziki səbəbdir, çünki insan orqanizmi çoxlu elementlərdən təşkil olunub və bu elementlər xüsusi tarazlıqdadır. Bu tarazlıq saxlandığı müddətdə, insan xəstəlikdən qorunur. Lakin əgər bu mühüm tarazlıq, hansı ki, konstitusiyanın özəyidir, pozularsa, konstitusiya da nizamdan çıxır və bundan da xəstəlik əmələ gəlir.

Məsələn, insan orqanizmində tərkib elementlərdən birinin miqdarında enmə, digərində isə yüksəlmə vardır; beləliklə də, tarazlıq pozulmuşdur və bunun nəticəsində xəstəlik baş qaldırır. Məsələn, bir inqridient çəki üzrə min qram, digəri isə beş qram olmalıdır ki, tarazlıq saxlansın. Min qram olan hissə azalıb yeddi yüz qrama düşür, beş qram olmalı olan hissə isə artır  və tarazlığın ölçüsü pozulur; beləliklə, xəstəlik əmələ gəlir. Dərman və müalicə ilə bu tarazlıq bərpa olunanda xəstəlik də aradan götürülür. Belə ki, əgər şəkərin miqdarı artırsa, sağlamlıq zəifləyir və həkim şirin və nişastalı yeməkləri qadağan etdikdə, şəkərin miqdarı azalır, tarazlıq bərpa olunur və xəstəlik də aradan qaldırılır. İnsan bədəninin ingridientlərinin tənzimlənməsi iki yolla – ya dərmanla, ya da qida ilə əldə olunur və beləcə bədənin konstitusiyası öz tarazlığını bərpa edir, xəstəlik aradan qalxır. İnsan bədənində olan bütün elementlər bitkilərdə də vardır; əgər insan orqanizmində tərkib elementlərdən biri azalarsa  və insan da həmin elementin çox olduğu gidanı yeyərsə, onda tarazlıq bərpa olunacaq və sağlamlıq əldə olunacaq. Bir halda ki, məqsəd orqanizmin tərkib elementlərinin tənzimlənməsidir, bu ya dərmanla, ya da qida ilə əldə oluna bilər.

İnsanın düçar olduğu xəstəliklərin çoxuna heyvanlar da mübtəla olur, lakin heyvanlar dərmanla sağalmırlar. Dağlarda, düzlərdə də, heyvanların həkimi dad və

iybilmə qabiliyyətləridir; xəstə heyvan çöldə bitən otları iyləyir; o, onun dadına və iyinə görə şirin və xoş olan otları yeyir və sağalır. Onun sağalmasının səbəbi budur. Onun konstitusiyasında şəkərin miqdarı azalanda, o, şirin şeylərə can atır; ona görə də o, şirin dada malik otları yeyir, çünki onun təbiəti bunu tələb edir və onu yönəldir;  onun iyi və dadı ona xoş gəlir və o da həmin otu yeyir. Şəkər maddəsi onun orqanizmində çoxalacaq və beləliklə də, o sağalacaq.

Ona görə də bu aydındır ki, yeməklə, qida ilə və meyvələrlə müalicə etmək mümkündür; amma bu günkü tibb elmi kamil olmadığından, bu məsələ bütün tamlığı ilə başa düşülməmişdir. Tibb elmi kamilliyə yetişəndə, müalicə yeməklə, qida ilə, ətirli meyvələr və bitkilərlə, isti və soyuq temperatura malik müxtəlif cür sularla  aparılacaq. Bu söhbət qısadır; ancaq əgər Allah istəsə, başqa bir vaxt, müvafiq bir şəraitdə bu məsələ tamlıqla aydınlaşdırılacaq.

## BEŞİNCİ HİSSƏ

# MÜXTƏLİF MÖVZULAR

## 74

## ŞƏRİN QEYRİ-MÖVCUDLUĞU

Bu sualın düzgün izahı çox çətindir. Bilin ki, varlıqlar iki cürdür: maddi və ruhani, duyğu orqanları ilə qavranan və şüurla qavranan.

Hiss olunan o şeylərdir ki, beş xarici hissiyatla qəbul olunur; o zahiri şeylər ki, gözlə görünür, hiss olunan adlanırlar. Şüurla qavranan şeylər isə zahiri varlığa malik deyillər, lakin ağılın məhsuludur. Məsələn, ağıl özü şüuri bir şeydir ki, zahiri mövcudluğu yoxdur. İnsanın bütün xasiyyətləri və keyfiyyətləri onun əqli varlığını əmələ gətirir ki, bu da hiss orqanları ilə qavranmır.

Qısası, insanın bütün keyfiyyətləri və heyranedici kamillikləri kimi əqli gerçəkliklər tamamilə xeyirdir və mövcudluğa da malikdirlər. Şər isə sadəcə onların olmamasıdır. Belə ki, cəhalət biliyin çatışmazlığıdır; səhv rəhbərliyin çatışmazlığıdır; huşsuzluq yaddaşın çatışmazlığıdır; kütlük sağlam düşüncənin azlığıdır. Bütün bu şeylər həqiqi reallığa malik deyillər.

Eynilə də, hissiyatla qavranan gerçəkliklər mütləq xeyirdir, şər isə onların olmamasıdır, yəni korluq görmənin olmaması, karlıq eşitmənin olmaması, yoxsulluq zənginliyin olmaması, xəstəlik sağlamlığın olmaması, ölüm həyatın olmaması, zəifliksə gücün olmamasıdır.

Ancaq burada ağılda bir şübhə baş qaldırır, yəni bəs zəhərli əqrəblər və ilanlar necə? Onlar xeyirdir, yoxsa şər, çünki onlar mövcud olan varlıqlardır? Bəli, əqrəb insana münasibətdə şərdir; ilan insana münasibətdə şərdir; lakin özlərinə münasibətdə onlar şər deyil, çünki onların zəhəri onların silahıdır və onlar sancmaqla özlərini müdafiə edirlər. Lakin onların zəhərində olan elementlər bizim bədənimizin elementləri ilə uyğun gəlmir, yəni bu iki elementlər qrupu arasında antoqanizm olduğundan, bu antoqanizmdən şər törəyir; lakin əslində öz-özlüyündə onlar xeyirdirlər.

Bu söhbətin xülasəsi budur ki, bir şey başqasına münasibətdə şər ola bilər, eyni zamanda da onun öz mövcudluğu hüdudlarında o şər olmaya bilər. Onda bu sübut olunur ki, mövcudatda şər yoxdur; Allah nə yaratmışsa xeyir yaratmışdır. Şər ki, bir heçlikdir; belə də ölüm həyatın yoxluğudur. İnsan daha həyat almayanda o ölür; Qaranlıq işığın olmamasıdır; nə zaman ki, işıq yoxdur, onda qaranlıq var. İşıq var olan bir şeydir, qaranlıq isə var olmayan bir şeydir. Zənginlik mövcud olan bir şeydir, yoxsulluq isə varlığa malik deyil.

Onda bu açıq-aşkardır ki, bütün şər bir heçlikdir. Allah mövcuddur; şər var olmayandır.

## 75

## ƏZABIN İKİ NÖVÜ

Bilin ki, iki cür əzab var; sezilməyən və kobud. Məsələn, cəhalətin özü əzabdır, lakin bu sezilməyən əzabdır; Allaha biga-nəlik özlüyündə əzabdır; yalançılıq, qəddarlıq və xəyanət də belədir. Bütün qüsurlar əzabdır, lakin onlar

sezilməyən əzablardır. Şübhəsiz, anlayışı olan insan üçün ölüm günahdan yaxşıdır və kəsilmiş dil, yalan deyən və ya böhtan atan dildən yaxşıdır.

Əzabın digər növü kobuddur, belə ki, cərimə, həbs, döymə, qovma və sürgün bu növdəndir. Lakin Allah adamı üçün bütün əzablardan ən böyüyü Allahdan ayrılmaqdır.

## 76

## ALLAHIN ƏDALƏTİ VƏ MƏRHƏMƏTİ

Məlumunuz olsun ki, ədalətli olmaq hər kəsə onun haqq etdiyini verməkdir. Məsələn, bir işçi səhərdən axşama kimi çalışırsa, ədalət tələb edir ki, onun əmək haqqı ödənsin; amma o, heç bir iş görməyibsə və heç bir əziyyət çəkməyibsə, onda ona verilən hədiyyədir, bu, səxavət nişanəsidir. Əgər siz yoxsul bir kəsə, baxmayaraq ki, o, sizin üçün heç bir əziyyət çəkməyib və ya onu haqq etmək üçün heç bir iş görməyib, sədəqə və ya bəxşiş verirsinizsə, bu səxavət göstərməkdir.

İndi xeyir və şər məsələsi ya ağılla və ya qanunla müəyyən olunub. Bəziləri hesab edirlər ki, bu qanunla müəyyən olunub; yəhudilər belədirlər, onlar Beş Kitabın hökmlərinin hamısını mütləq vacib olduğuna inanırlar, onlara ağılın məntiqi məsələsi kimi deyil, qanun məsələsi kimi baxırlar. Beləliklə onların fikrincə, Beş Kitabın hökmlərindən biri budur ki, ətlə yağı bir yerdə işlətmək olmaz. Çünki bu trefdir, tref isə yəhudi dilində natəmiz deməkdir, koşer isə təmiz. onlar deyirlər ki bu, qanun məsələsidir, ağıl yox.

Lakin ilahiyyatçılar hesab edirlər ki, şeylərin xeyir və ya şər olması həm ağıla, həm də qanuna bağlıdır. Qətlin, oğurluğun, xəyanətin, yalanın, riyakarlığın və qəddarlığın qadağan olmasının əsas kökü ağıldadır. Hər bir şüurlu insan başa düşür ki, qətl, oğurluq, xəyanət, yalan, riyakarlıq və qəddarlıq şərdir və töhmətə layiqdir; çünki əgər siz insanı tikanla sancsanız, o qışqıracaq, şikayət edəcək və nalə çəkəcək; şübhəsiz, o başa düşəcək ki, adam öldürmək ağıla görə şərdir və pislənilir. Əgər o, qətl törədərsə, buna görə cavab verəcək, fərqi yoxdur ki, o, Peyğəmbərin qanunlarını bilirdi, ya yox; çünki hərəkətin töhmətəlayiq olmasını müəyyənləşdirən ağıldır. İnsan belə bir pis əməl törədəndə, o, mütləq cavab verəcəkdir.

Lakin Peyğəmbərin qanunları məlum olmayan yerlərdə, harada ki, insanlar ilahi göstərişlərə, Məsihin şərə xeyirlə cavab vermək nəsihəti kimi, uyğun şəkildə hərəkət etmirlər, lakin təbiətin qanunlarına əsasən hərəkət edirlər, yəni onları incidənləri onlar da incidirlər, din nöqteyi-nəzərindən onlar bağışlanır, çünki ilahi hökm onlara çatdırılmamışdır. Baxmayaraq ki, onlar mərhəmət və rəhm haqq etmirlər, bununla belə, Allah onlarla mərhəmətli davranır və bağışlayır.

İndi qisas da, ağıla görə, töhmətəlayiqidr, çünki qisasla qisasçı heç bir yaxşı nəticə əldə etmir. Belə ki, əgər bir şəxs başqasını vurursa, və vurulan da cavab zərbəsi ilə qisas alırsa, bunun nə faydası var? Bu onun yarasına məlhəm və ya ağrısına əlac olacaqmı? Xeyr, Allah eləməsin! Əslində hər iki hərəkət

eynidir: hər ikisi ziyan vurur; bir fərqi var ki, biri əvvəlcə baş verib, digəri isə sonra. Ona görə də, əgər vurulan bağışlayarsa, xeyr, əgər ona qarşı edilən hərəkətin tam tərsini edərsə, bu təqdirəlayiqdir. Cəmiyyətin qanunu cinayətkarı cəzalandırır, ondan qisas almır. Bu cəza xəbərdarlıqdır, qəddarlığın, qanun pozuntusunun qarşısını almaq, insanları qorumaq məqsədi daşıyır ki, başqa insanlar pis niyyətə düşməsinlər.

Lakin əgər vurulan insan bağışlayır və əfv edirsə, o, böyük mərhəmət göstərir. Bu çox bəyənilləndir.

## 77

## CINAYƏTKARLARLA DAVRANMAĞIN DÜZGÜN METODU

*Sual.* – Cinayət cəzalandırılmalıdırmı, yoxsa bağışlanmalıdır və onun cinayətinə göz yumulmalıdır?

*Cavab.* – İki cür cəza tədbiri vardır. Biri qisasdır, digəri isə tənbehdir. İnsanın haqqı yoxdur ki, qisas alsın, lakin cəmiyyətin haqqı vardır ki, cinayətkarı cəzalandırsın və bu cəzanın məqsədi xəbərdarlıq etmək və başqa bir insanın da eyni cinayəti törət-məsinə cürət etməsinin qarşısını almaqdır. Bu cəza isanların haqlarının müdafiə olunması üçündür, qisas deyil; qisas bir şəri digər şərə qarşı qoymaqla ürəyin qəzəbini soyudur. Bu yolverilməzdir, çünki insanın qisas alma haqqı yoxdur. Lakin əgər cinayətkarlar ümumiyyətlə bağışlansa, onda dünyanın nizamı pozular. Beləliklə, cəzalandırma cəmiyyətlərin asayişinin ən mühüm zərurətlərindən biridir, amma cinayətkar tərəfindən şərə məruz qalanın qisas almağa haqqı yoxdur. Əksinə, o bağışlamalı və əfv etməlidir, çünki insanlığa layiq olan budur.

Cəmiyyət zülmkarı, qatili, qanunu pozanı cəzalandırmalıdır ki, başqalarını da oxşar cinayətləri törətməkdən çəkindirsin və qarşısını alsın; lakin ən mühüm olan şey budur ki, insanlar elə tərbiyə almalıdırlar ki, ümumiyyətlə, cinayət törətməsinlər; çünki kütlələri elə səmərəli tərbiyə etmək mümkündür ki, onlar cinayət törətməkdən çəkinər və qaçarlar və cinayət özü onlara ən böyük cəza, ən böyük töhmət və əzab olar. Onda da elə bir cinayət olmaz ki, cəzalandırmaq lazım gəlsin.

Biz o şeylərdən danışmalıyıq ki, onların bu dünyada həyata keçməsi mümkündür. Bu məsələ barəsində çoxlu nəzəriyyələr və yüksək ideyalar vardır, lakin onların praktiki tətbiqi yoxdur. Buna görə də o şeylərdən danışmalıyıq ki, onları yerinə yetrimək mümkün olsun.

Məsələn, əgər bir kimsə başqasına zülm edirsə, onu incidir və ziyan vurursa  və zərərçəkən də ona cavab veririsə, bu qisasdır və bu da töhmətə layiqdir. Əgər Əmirin oğlu Zeydin oğlunu öldürürsə, Zeydin haqqı yoxdur ki, Əmirin oğlunu öldürsün; Əgər o, belə edərsə, bu qisasdır. Əgər Əmir Zeydin şərəfinə toxunursa, sonrakının haqqı yoxdur ki, o da Əmirin şərəfinə toxunsun; Əgər o, belə edərsə, bu qisasdır və bu da çox məzəmmətə layiqdir. Xeyr, bəlkə o, şərə xeyirlə cavab verməlidir və nəinki ancaq  bağışlamalı, həmçinin, əgər mümkünsə, önu sıxışdırana xidmət göstərməlidir. İnsana bu davranış yaraşır:

zira qisasla o, hansı xeyri əldə edir? Hər iki hərəkət bərabərdir; əgər bir əməl töhmətə layiqdirsə, onda ikinci də eyni dərəcədə töhmətə layiqdir. Yeganə fərq ondadır ki, biri öncə, digər isə sonra törədilmişdir.

Lakin cəmiyyətin özünümüdafiə və özünüqoruma haqqı vardır; bundan əlavə, cəmiyyətin qatilə nə nifrəti, nə də onunla düşmənçiliyi vardır: o, cinayətkarı sadəcə başqalarını qorumaq və onların təhlükəsizliyi üçün həbs edir və cəzalandırır. Bu qatildən qisas almaq məqsədi daşımır, o belə bir tənbeh edir və bu da cəmiyyətin təhlükəsizliyinə xidmət edir. Əgər cəmiyyət və öldürülənin varisləri onu bağışlasaydılar və şərə xeyirlə cavab versəydilər, onda qəddar insanlar davamlı olaraq başqalarına ziyan vurardı və qətllər də bitməzdi. Pis insanlar, canavar kimi, Allahın qoyunlarını məhv edərdi. Cəmiyyətin cəza verməkdə heç bir pis niyyəti və ədavəti yoxdur və o, ürəyinin qəzəbini də soyutmaq fikrində deyil; cəzalandırmaqdan onun məqsədi başqalarını qorumaqdır ki, daha bundan sonra heç bir dəhşətli hərəkətlər törədilməsin.

Belə ki, Məsih deyəndə: "Kimsə Sənin sağ üzünə sillə vurarsa, sol üzünü də çevir,"[1] - bu, insanlara şəxsi qisas almamağı öyrətmək məqsədi daşıyırdı. O, bunu nəzərdə tutmurdu ki, əgər canavar qoyun sürüsünün üstünə düşərsə və onu məhv etmək istəyirsə, canavar bunu etməyə həvəsləndirilməlidir. Xeyr, əgər Məsih bilsəydi ki, canavar tövləyə girib və qoyunları məhv etmək istəyir, O mütləq, bunun qarşısını alardı.

Bağışlamaq Mərhəmətlinin sifətlərindən biri olduğu üçün, ədalət də Rəbbin sifətlərindən biridir. Mövcudat çadırı ədalət sütununun üzərində dayanır, bağışlama sütununun deyil. Bəşəriyyətin həyatının davam etməsi ədalətdən asılıdır, bağışlamaqdan deyil. Belə ki, əgər əfv qanunu bütün ölkələrdə tətbiq olunsaydı, qısa bir zamanda dünya dağılardı. Məsələn, əgər Avropa hökumətləri mənfi yöndən məşhur olan Atillanın qarşısında durmasaydılar, o, bircə nəfəri də həyatda qoymazdı.

Bəzi insanlar qana susamış canavar kimidirlər: əgər onlar görsələr ki, onları cəza gözləmir, onlar sadəcə insanı öz keyfləri və əyləncələri üçün öldürərlər. İranın zülmkarlarından biri öz müəllimini sadəcə öz keyfi, əyləncəsi və  məzəsi üçün öldürmüşdü. Abbasilərdən olan məşhur Mütəvəkkil, öz vəzirlərini, müşavirlərini və əyanlarını öz hüzuruna toplamış və o toplantıda əqrəblərlə dolu qutunun ağzını açıb əqrəbləri buraxmış və əmr etmişdi ki, kimsə yerindən tərpənməsin. Orada olanları əqrəb sancdıqda o gülməkdən uğunmuşdu.

Yekunlaşdırmalı olsaq, deyək ki, cəmiyyətin qurulması ədalət üstündə bərqərar olur, əfv üstündə deyil. Belə olduqda, Məsih bağışlama və əfv deyəndə onu nəzərdə tutmurdu ki, başqa millətlər sizin üzərinizə hücum çəkəndə, evlərinizi yandıranda, mallarınızı talan edəndə, arvadlarınızın, uşaqlarınızın və qohumlarınızın üzərinə təcavüz edəndə siz bu zülmkar düşmənlərin qarşısında təslim olmalı və onların bütün o qəddarlıq və vəhşiliyinə izn verməlisiniz. Xeyr, Məsihin sözləri iki fərdin bir-birinə qarşı

[1] Baxın: Matta 5:39.

davranışına aiddir: əgər bir insan başqasını təhqir edirsə, zərərçəkən onu bağışlamalıdır. Lakin cəmiyyət insanın hüququnu qorumalıdır. Belə ki, əgər kimsə məni təhqir edirsə, mənə zərər vurur, zülm edir və ya yaralayırsa, mən müqavimət göstərməyəcəyəm və onu bağışlayacağam. Amma əgər kimsə Seyid Mənşədini[1] təhqir edərsə, mən mütləq onun qarşısını alacağam. Baxmayaraq ki, cani üçün bu bir xidmət kimi olardı, Mənşədiyə qarşı isə bu ədalətsizlik olardı. Əgər indi bu anda vəhşi bir ərəb sizə təcavüz etmək, sizi yaralamaq və öldürmək fikrilə sıyrılmış qılıncla buraya daxil olsa, Mən mütləq onun qarşısını alardım. Əgər mən sizi ərəbin ixtiyarına buraxsaydım, bu ədalət yox, ədalətsizlik olardı. Lakin əgər o fərdi olaraq mənə ziyan vursa, mən onu bağışlayardım.

Deyilməmiş daha bir şey qalıb: bu da odur ki, cəmiyyətlər gecə-gündüz cəza qanunları yaratmaqla, tənbeh vasitələri və alətləri hazırlamaq və təşkil etməklə məşğuldurlar. Onlar həbsxanalar tikir, zəncir və qandallar düzəldir, qovmaq və sürgün üçün yerlər müəyyən edirlər, müxtəlif növ əziyyət və işgəncələr fikirləşirlər və bu vastələrlə caniləri islah etməyi düşünürlər, halbuki, əslində, onlar mənəviyyatın dağılmasına və xasiyyətin pozğunluğuna səbəb olurlar. Cəmiyyət, əksinə, gecə və gündüz, bütün səyi və qeyrəti ilə çalışmalı və mübarizə aparmalıdır ki, insanların tərbiyə almasına nail olsun, onların günbəgün tərəqqi etməsinə, elm və biliklərinin artmasına, məziyyətlər əldə etməsinə, yaxşı əxlaq əldə etməsinə və pislikdən qaçmasına səbəb olsun ki, daha cinayətlər baş verməsin. İndiki zamanda bunun əksi üstünlük təşkil edir; cəmiyyət həmişə cinayət qanunlarını kəskinləşdirmək, cəza tədbirləri, ölüm və işgəncə alətləri yaratmaq, sürgün və qovma yerləri tapmaq barədə düşünür; cəmiyyət cinayətlərin törədilməsini gözləməklə yaşayır. Bu da insanların ruhuna və mənəviyyatına pis təsir göstərir.

Lakin əgər cəmiyyət kütlələrin tərbiyəsi üçün çalışsaydı, biliklər və elm günbəgün artar, anlayış genişlənər, həssasiyyət yüksələr, adətlər yaxşılaşar, mənəviyyat da sağlam olardı; bir sözlə, bütün bu kamilliklər inkişaf edər və cinayətlər də azalardı.

Bu müəyyən olunmuşdur ki, mədəni insanlar arsında cinayətlər daha azdır, nəinki qeyri-mədəni insanlar arasında, yəni o adamlar arasında ki, onlar ilahi mədəniyyət olan həqiqi mədəniyyətə çatıblar, o mədəniyyət ki, bütün maddi və ruhani kamillikləri birləşdirir. Cahillik cinayətlərin səbəbi olduğu üçün, elm və bilik nə qədər artarsa, cinayət də o qədər azalar. Baxın, Afrika barbarları arasında nə qədər qətllər baş verir; Onlar bir-birini hətta ona görə öldürürlər ki, sonra bir-birinin ətini və qanını yesinlər! Belə vəhşilik İsveçrədə niyə baş vermir? Səbəb göz qabağındadır: çünki tərbiyə və məziyyətlər onun qarşısını alır.

Ona görə də cəmiyyət cinayətlərin qarşısını almağı düşünməlidir, nəinki onları şiddətli cəzalandırmağı.

**78**

[1] Bizimlə birlikdə masa arxasında oturan Bəhai.

## TƏTİLLƏR

Siz tətillər barədə sual vermişdiniz. Bu sual indi də və gələcəkdə də böyük çətinliklər yaradacaq. Tətillər iki səbəbə görə olur. Biri fabrik sahiblərinin və sənayeçilərin ifrat xəsisliyi və acgözlüyüdür; digəri isə, sənətkarların və fəhlələrin ifratçılığı, tamahkarlığı və barışmazlığıdır. Ona görə də, hər iki səbəbi aradan götürmək lazımdır.

Lakin bu çətinliklərin başlıca səbəbi indiki sivilizasiyanın qanunlarıdır; çünki onlar az sayda insanların onların ehtiyacından əlavə müqayisə olunmaz dərəcədə sərvət toplamasına, böyük əksəriyyətin isə məhrumiyyət, çılpaq və ehtiyac içərisində yaşamasına gətirib çıxarır. Bu ədalətə, insanlığa və haqqa-insafa ziddir; bu haqsızlığın zirvəsi, Allah rizasına uyğun olan şeyin əksinədir.

Bu ziddiyyət ancaq insan aləminə məxsusdur: başqa yaradılışlar arasında, yəni, demək olar, bütün heyvanlar arasında özünəməxsus bir ədalət və bərabərlik vardır. Bu bərabərlik çobanın otardığı sürüdə, azad çöllərdə yaşayan maral sürüləri arasında mövcuddur. Buna oxşar olaraq, çöllərin, düzlərin, təpələrin və ya bostanın quşları arasında, hər bir heyvan növü arasında müəyyən bir bərabərlik hökm sürür. Onlar arasında yaşayış vasitələrinin belə bir fərqi müşahidə olunmur; belə ki, onlar tam sülh və ahəngdarlıq içərisində yaşayırlar.

Çox böyük bir səhv və mütləq insafsızlıq yolunu inadkarlıqla tutmuş insan nəslinə gəldikdə isə bu tamamilə başqa cürdür. Koloniyaları istismar edib öz xeyrinə qalaq-qalaq sərvət toplayan bir insana baxın: o, müqayisəyəgəlməz var-dövlət toplamış, mənfəət və faydanın ona çay kimi axmasını təmin etmişdir, o zaman ki, yüz minlərlə bədbəxt insanlar zəif və gücsüz halda, bir tikə çörəyə möhtacdırlar. Nə bərabərlik var, nə də xoş məram. Beləliklə, siz görürsünüz ki, barış və ahəngdarlıq dağılmışdır və insanlığın rifahı o qədər tapdanır ki, çoxlarının həyatını bəhrəsiz edib. Çünki, sərvət, şərəf, ticarət, sənaye bir sıra sənayeçilərin əlində toplandığı halda, digər insanlar isə ciddi çətinliklərə və sonsuz müşküllərə məruz qalıblar: onların nə imtiyazı, nə mənfəəti, nə rahatlıqları, nə də dinclikləri vardır.

Belə olan tərzdə, elə qayda və qanunlar müəyyən olunmalıdır ki, müəyyən fərdlərin ifrat varlanmasını nizama salsın və milyonlarla kasıb kütlələrin ehtiyacını ödəsin; beləliklə müəyyən bir mötədillik əldə oluna bilər. Bununla belə, mütləq bərabərlik sadəcə mümkün deyil, zira sərvətdə, məqamda, ticarətdə, kənd təsərrüfatında, sənayedə mütləq bərabərlik yaşam vasitələrində nizamsızlığa, qarışıqlığa, qeyri-mütəşəkkilliyə və ümumi peşimançılığa gətirib çıxarardı: insan həyatının nizamı tamamilə pozulardı. Belə ki, ədalətsiz bərabərlik tətbiq olunanda da çətinliklər baş qaldıracaqdı. Ona görə də daha yaxşıdır ki, tarazlıq qayda və qanunlar vasitəsilə yaradılsın ki, ayrı-ayrı fərdlərin əlində ifrat sərvətin toplanmasına mane olsun və kütlələrin isə əsas ehtiyaclarını müdafiə etsin. Məsələn, əgər fabrik sahibləri və sənayeçilər, günbəgün qalaq-qalaq xəzinə toplayırlarsa, kasıb sənətkarlar isə hətta öz gündəlik yaşam ruzisini əldə edə bilmirlərsə, bu haqsızlığın son həddidir və heç bir ədalətli insan bunu qəbul etməz. Ona görə də elə qayda və

qanunlar qoyulmalıdır ki, fəhləyə, fabrik sahibindən öz əmək haqqını və ümumi gəlirdən də fabrikin gücündən asılı olaraq dörddə bir və beşdə bir pay ala bilsin; ya da ki, başqa bir yolla fəhlə və sahibkarlar öz aralarında gəlir və imtiyazları bölüşdürməlidirlər. Həqiqətən də, kapital və idarəçilik sahibkara məxsusdur, əmək və istehsalat fəaliyyəti isə işçilərdən gəlir. İşçilər ya elə bir əmək haqqı almalıdırlar ki, onların ehtiyaclarını tam ödəsin və sonralar işləməyəndə, zəif və köməksiz olanda isə onlara sənayenin ümumi gəlirindən kifayət qədər mənfəət ayrılsın; ya da, əmək haqqı o qədər yüksək olmalıdır ki, o, işçini təmin etsin və eyni zamanda da az-az qara gün üçün bir qədər vəsait toplaya bilsin.

Məsələlər belə müəyyənləşəndə, fabrik sahibi daha gündəlik onun qətiyyən ehtiyacı olmayan sərvəti yığıb bir tərəfə qoymayacaq (hətta onu qeyd etmirik ki, əgər sərvət aşıb-daşırsa, kapitalist bu ağır yükün altında əzilir və böyük çətinliklərə və müşküllərə düşür; həddən artıq sərvəti idarə etmək çox çətindir və insanın təbii gücünü tükəndirir). Və işçilər və sənətkarlar daha böyük ehtiyac və yoxsulluq içində olmayacaqlar; onlar daha həyatlarının sonunda kəskin məhrumiyyətlərə düçar olmayacaqlar.

Onda bu aydın və aşkardır ki, böyük kütlələr ehtiyac içində ikən, ifrat var-dövlərin kiçik sayda insanlar arsında bölüşdürülməsi haqsızlıq və ədalətsizlikdir. Eynilə də, mütləq bərabərlik bəşərin həyatına, rifahına, nizamına və dincliyinə mane ola bilərdi. Belə məsələdə mötədilliyə üstünlük verilməlidir. Mötədillik ondadır ki, kapitalist ancaq öz mənfəəti dalınca qaçmasın, həm də kasıb və ehtiyac içində olanların rifahı barədə düşünsün, yəni işçilər və sənətkarlar özlərinin müəyyən olunmuş sabit gündəlik əmək haqları ilə yanaşı, fabrikin ümumi gəlirindən də pay alsınlar.

Fabrik sahibləri, fəhlə və sənətkarların ümumi sosial haqları baxımından bu yaxşı olardı ki, sahibkarlara mötədil bir mənfəəti saxlayan, işçilərə isə zəruri yaşam vasitəsi və gələcəyin təminatını verən qanunlar müəyyən edilsin. Beləliklə, onlar zəif olanda və daha işləməyəndə, qocalanda və köməksiz qalanda, ya da onlardan sonra yetkinlik yaşına çatmamış uşaqlar qalanda onların özləri və uşaqları hədsiz yoxsulluq üzündən həlak olmayacaqlar. Və gələcəyə bu təminatı onlar fabrikin onların az da olsa payı olan gəlirindən almış olarlar.

Eynilə də işçi daha ifrat iddialar və qiyam etməməli, nə də haqlarında artıq olanı tələb etməlidirlər; onlar daha tətilə çıxmamalıdırlar; onlar itaətkar və intizamlı olmalı, həddən artıq əmək haqqı istəməməlidirlər. Lakin hər iki tərəfin qarşılıqlı və mötədil haqları hüquqi tərəfdən ədalətli və qərəzsiz qanunlarla dəqiqləşdirilməli və müəyyən olunmalıdır. Tərəflərdən biri qanunu pozduqda, ədalət məhkəməsi günahkarı mühakimə etməli və icraedici qanad qərarı yerinə yetirməlidir; beləliklə, nizam bərqərar olar, çətinliklər də həllini tapar. Ədalət məhkəmələrinin və hökumətin sahibkarlarla işçilər arasında yaranan çətinliklərə qarışması qanunidir, o səbəbdən ki, sahibkarla işçi arasında olan mövcud münasibət ictimaiyyətə aid olmayan və hökumətin qarışmalı olmadığı mülki adamlar arasındakı münasibətlərlə müqayisə oluna bilməz. Əslində onlar zahirən şəxsi məsələlər kimi görünür, ancaq iki tərəf

arasında olan bu çətinliklər ictimaiyyətə ziyan vurur; çünki ticarət, sənaye, kənd təsərrüfatı və ölkənin bütün ümumi işləri bir-biri ilə bağlıdır. Əgər onlardan birində sui-istifadə baş verirsə, ziyan bütün kütləyə dəyir. Beləliklə sahibkarla işçi arasındakı münaqişələr ümumi ziyana səbəb olur.

Ona görə də ədalət məhkəməsi və hökumətin bu işlərə qarışma hüququ vardır. İki fərd arasında şəxsi hüquqlarla bağlı münaqişə baş qaldıranda, üçüncü şəxs mütləq bu məsələni həll etmək üçün qarışmalıdır. Bu şəxsin timsalında hökumət çıxış edir. Onda ölkədə narahatlıq yaradan və çox vaxt işçilərin narazılığı və habelə sahibkarların tamahkarlığı ilə bağlı olan tətil müşküllərinə necə etinasızlıq göstərilə bilər?

Rəhman Allah! Bu mümkündürmü ki, sənin yoldaşından biri aclıq çəksin, hər şeydən məhrum olsun, sən isə öz cah-cəlallı mənzilində rahat dincələsən və yaşayasan? Başqasını böyük bir ehtiyac içində görən kəs, özünün sərvətindən ləzzət ala bilərmi? Məhz buna görə Allahın Dinində müəyyən və hökm olunub ki, zəngin insan hər il öz sərvətindən müəyyən bir hissəni yoxsul və talesizlərin saxlanması üçün versin. Bu, Allahın Dininin təməlidir və hamı üçün hökmdür.

İnsan belə hərəkəti zorla və ya hökümətin məcburiyyəti qarşısında deyil, lakin öz ürəyinin çağırışına uyğun olaraq könüllü surətdə və sevinclə kasıblara qarşı xeyirxahlıq göstərməklə edəndə, belə bir əməl daha tərifəlayiq, daha bəyənilən və daha məmnunedicidir.

Müqəddəs Kitablarda və Lövhlərdə deyilən xeyirxah əməllərin mənası budur.

## 79

## XARİCİ ALƏMİN GERÇƏKLİYİ

Bəzi sofistlər belə hesab edirlər ki, mövcudat illüziyadır, yəni hər bir varlıq mütləq illüziyadır və mövcudluğa malik deyil, başqa sözlə, varlıqların mövcudluğu ilğımdır və ya surətin suda və ya güzgüdə əks olunması kimi bir şeydir ki, sadəcə görüntüdür və özlüyündə nə mahiyyəti, nə əsası, nə də gerçəkliyi var.

Bu nəzəriyyə səhvdir; baxmayaraq ki, varlıqların mövcudluğu Allahın mövcudluği ilə müqayisədə illüziyadır, lakin bununla belə, hər varlıq öz vəziyyətində gerçəkdir və müəyyən mövcudluğa malikdir. Bunu inkar etmək əbəsdir. Məsələn, mineralın mövcudluğu insanın mövcudluğu ilə müqayisədə qeyri-mövcudluğdur, zira insan zahirən məhv olanda onun bədəni mineral olur. Amma mineral mineral aləmində mövcudluğa malikdir. Ona görə də, bu aydındır ki, torpaq, insanın mövcudluğuna münasibətdə, qeyri-mövcudluqdur və bu mövcudluq illüziyadır, lakin minerala münasibətdə isə o mövcuddur.

Eynilə də, varlıqların mövcudluğu Allahın mövcudluğu ilə müqayisədə illüziya və heçlikdir; bu bir görüntüdür, surətin güzgüdə əks olunduğu kimi. Lakin güzgüdə əks olunan surət illüziya olsa da, o illüzion surətin mənbəyi və gerçəkliyi orada əks olunan insandır ki, onun surəti güzgüdə görünür. Xülasə, əks olunan surət orada əks olunan insanın özünə münasibətdə illüziyadır.

Onda bu aşkardır ki, varlıqlar Allahın mövcudluğuna münasibətdə mövcudluğa malik deyillər, lakin ilğıma və ya güzgüdəki əksə bənzəyirlər, halbuki öz səviyyələrində onlar mövcuddurlar.

Məhz buna görə Allahdan qafil olan və Onu inkar edənləri Məsih ölü adlandırmışdı, baxmayaraq ki, onlar zahirən yaşayırdılar. İman əhlinə münasibətdə onlar ölü idilər, kor, kar və lal idilər. "Qoy ölülər öz ölülərini dəfn etsin."[1] deyərkən Məsih məhz bunu nəzərdə tutmuşdu.

**80**

## GERÇƏK ƏZƏLİYYƏT

*Sual.* – Neçə cür əzəliyyət və təzahür vardır?

*Cavab.* – Bəzi müdriklər və filosoflar inanırlar ki, iki cür əzəliyyət vardır: mahiyyətcə əzəliyyət və zamanın əzəliyyəti. Təzahür də iki cürdür: mahiyyətcə təzahür və zamanın təzahürü.

Mahiyyətcə əzəliyyət elə bir əzəliyyətdir ki, o səbəbdən törəməmişdir, lakin mahiyyətcə təzahürdən əvvəl isə səbəb vardır. Zamanın əzəliyyətinin başlanğıcı yoxdur, lakin zamanın təzahürünün isə başlanğıcı və sonu vardır, zira hər bir şeyin mövcudluğu dörd amildən asılıdır – bunlar: səbəb, materiya, forma və məqsəddir. Məsələn, bu oturacağı düzəldən var ki, o dülgərdir, materiyası ağacdır, forması formasıdır, məqsədi isə oturmaq üçün istifadə olunmasıdır. Ona görə də bu oturacaq mahiyyəcə təzahürdür, çünki ondan əvvəl səbəb vardır və onun mövcudluğu müəyyən amillərdən asılıdır. Bu mahiyyətcə və gerçək təzahür adlanır.

İndi bu dünyanın mövcudluğu onun Yaradıcısına münasibətdə gerçək təzahürdür. Ona görə ki, bədən ruh vasitəsilə yaşayır, bu səbəbdən də bədən ruha münasibətdə mahiyyətcə təzahürdür. Ruh bədəndən asılı deyil və bədənə münasibətdə ruh mahiyyətcə əzəliyyətdir. Baxmayaraq ki, şüalar həmişə günəşdən ayrılmazdır, bununla belə, günəş əzəli olan, şüalar isə təzahürdür, zira şüaların mövcudluğu günəşdən asılıdır. Lakin günəşin mövcudluğu şüalardan asılı deyil, çünki günəş verici, şüalar isə bəxşişdir.

İkinci mühakimə budur ki, mövcudluq da, yoxluq da nisbidir. Əgər deyilirsə ki, hansısa bir şey yoxluqdan var oldu, bu mütləq yoxluğu nəzərdə tutmur, bunun mənası odur ki, onun əvvəlki vəziyyəti indiki vəziyyəti ilə müqayisədə yoxluq idi. Zira mütləq yoxluq ola bilməz, çünki onun mövcudluğa qabilliyi yoxdur. İnsan da, mineral kimi, mövcuddur, lakin mineralın mövcudluğu insanın mövcudluğuna münasibətdə yoxluqdur, çünki insan bədəni çürüyəndə o, torpaq və mineral olur. Lakin bu torpaq insan aləminə yüksələndə əvvəlcə mövcudluğu olmayan bu bədən canlanır və insan mövcud olur. Baxmayaraq ki, torpaq, yəni mineral öz vəziyyətində mövcuddur, lakin insanla müqayisədə o yoxluqdur. Hər ikisi mövcuddur, lakin torpaq və mineralın mövcudluğu insanın mövcudluğu ilə müqayisədə qeyri-mövcudluq və heçlikdir, zira insan yox olanda o, torpağa və minerala dönür.

---

[1] Matta 8:12.

Ona görə də, baxmayaraq ki, asılılıqlar dünyası mövcuddur, Allahın mövcudluğuna münasibətdə bu qeyri-mövcudluq və heçlikdir. İnsan və torpaq – hər ikisi mövcuddur, lakin insanla mineralın mövcudluqları arasında nə qədər böyük fərq vardır! Biri digəri ilə müqayisədə yoxluqdur. Eynilə də, xilqətin mövcudluğu Allahın mövcudluğu ilə müqayisədə heçlikdir. Beləliklə bu aydın və aşkardır ki, varlıqlar mövcud olmalarına baxmayaraq, onlar Allaha və Allahın Sözünə münasibətdə mövcud deyillər. Bu Allahın Sözünün həm əvvəli, həm də axırı Olandır ki, deyir: "Alfa da Mənəm, Omeqa da", zira O, Kəramətin həm əvvəli, həm də sonudur. Xaliqin xilqəti həmişə olmuşdur; şüalar hər zaman günəşin gerçəkliyindən şüalanmış və şəfəq saçmışdır, zira günəşin şüaları olmasa, qatı zülmət olardı. Allahın adları və sifətləri varlıqların olmasını tələb edir, və Əbədi Kəramətin yağışı heç vaxt dayanmır. Əgər belə olsaydı, bu Allahin kamilliklərinə zidd olardı.

## 81

## REİNKARNASİYA (TƏNASÜX)

*Sual.* – Bəzi insanların inandığı reinkarnasiya məsələsində həqiqət varmı?

*Cavab.* – Bizim deyəcəyimiz şeyin məqsədi gerçəkliyi izah etməkdir, başqa insanların inanclarına istehza etmək deyil, biz ancaq faktları izah edəcəyik, vəssalam, biz nə kimsənin fikrinə qarşı çıxırıq, nə də tənqidi bəyənirik.

Məlumunuz olsun ki, reinkarnasiyaya inananlar iki qrupa bölünürlər: bir qrup o biri dünyanın ruhani cəzasına və mükafatına inanmır və hesab edirlər ki, insan reinkarnasiya etməklə və bu dünyaya qayıtmaqla mükafat və cəza alır. Onlar cənnət və cəhənnəmi bu dünya ilə məhdudlaşdırır və o biri dünyanın var olmasını etiraf etmirlər. Bunlar da öz aralarında iki dəstəyə bölünürlər: bir dəstə hesab edir ki, insan bəzən heyvan formasında bu dünyaya qayıdır ki, şiddətli cəzaya məruz qalsın və o, bu ağrılı işgəncələrə dözdükdən sonra heyvan aləmindən azad olacaq və yenidən insan aləminə qayıdacaq, bu ruhun köçməsi adlanır. İkinci dəstə isə fikirləşir ki, birisi insan aləmindən yenə insan aləminə qayıdır və bu qayıdışla əvvəlki həyat üçün mükafat və tənbehə nail olur, bu reinkarnasiya adlanır. Bu dəstələrdən heç biri bu dünyadan başqa dünyanın olmasını tanımırlar.

Reinkarnasiyaya inananların ikinci qrupu o biri dünyanın mövcudluğunu təsdiq edirlər və reinkarnasiyanın kamil olmaq üçün bir vasitə olduğunu düşünürlər, yəni onlar hesab edirlər ki, insan bu dünyadan getmək və ona qayıtmaqla, tədricən kamilliklər əldə edəcəkdir, ta o vaxtadək ki, o, ən yüksək kamilliyə çatsın. Başqa sözlə, onların fikrincə insan materiyadan və gücdən ibarətdir: materiya əvvəlcə, yəni birinci dövriyyədə, qeyri-kamildir, lakin o, təkrar-təkrar bu dünyaya qayıtmaqla tərəqqi edir və o vaxtadək incələşib təmizlənir ki, cilalanmış güzgü tək olur və ruhdan başqa bir şey olmayan güc də o zaman onda bütün kamillikləri ilə təzahür edir.

Ruhların reinkarnasiyasına və köçməsinə inananlar bu məsələni belə təqdim edirlər. Biz bu mövzunu yığcam şəkildə açıqladıq. Əgər biz təfsilatına varsaydıq, bu çox zaman tutardı. Bu xülasə kifayətdir. Bu məsələnin xeyrinə heç bir məntiqi dəlil və sübut irəli sürülməyib, onlar ancaq fərziyyə və gümanlardan çıxan nəticələrdir, həlledici dəlillər deyil. Reinkarnasiyaya inananlardan fərziyyə, güman və təsəvvürlərin yerinə sübut soruşmaq lazımdır.

Lakin siz reinkarnasiyanın mümkünsüzlüyü barədə dəlil istəmişdiniz. İndi biz bunu izah etməliyik. Bunun mümkünsüzlüyünün ilk sübutu budur ki, zahir batinin ifadəsidir; yer Mələkutun güzgüsüdür; maddi dünya ruhani dünyanı inikas etdirir. İndi siz müşahidə edin ki, maddi dünyada təzahürlər təkrarlanmır, çünki heç bir varlıq başqa bir varlıqla qətiyyən eyni deyil. Yeganəlik əlaməti hər şeydə görünür və hər şeydə meydana çıxır. Əgər dünyanın bütün anbarlarını toxumla doldursaq, siz tamamilə bir-birinə oxşar, heç bir fərqi olmayan, bənzər iki toxum tapa bilməzsiniz. Bu şübhəsizdir ki, onların arasında ayrılıq və fərq olacaqdır. Çünki bütün şeylər özlərində yeganəliklərini təzahür etdirirlər və Allahın Təkliyi və Vahidliyi bütün şeylərin mahiyyətində təzahür edir, eyni zahiri təzahürün təkrarlanması qeyri-mümkündür. Ona görə də, reinkarnasiya, yəni eyni bir ruhun özünün əvvəlki mahiyyətində və vəziyyətində təkrarən həmin təzahür dünyasında zahir olması mümkün və gerçək deyil. Maddi varlıqların hər birinin eyni təzahür formasında təkrarlanması mümkünsüz və istisna olduğundan, ruhani varlıqlar üçün də bu, yəni eyni vəziyyətə qayıtma, bu istər enən, istərsə də qalxan qövs üzrə olsun, istisna olunur və mümkün deyil, çünki maddi ruhaninin inikasıdır.

Bununla belə, bir növ kimi, maddi varlıqların təkrarlanması baş verir; belə ki, keçmiş illərdə yarpaqlayan, çiçəkləyən və meyvə verən ağac sonrakı illərdə də dəqiq eyni yarpaqları, çiçək və meyvələri gətirəcək. Bu, növ təkrarlanması adlanır. Əgər kimsə etiraz edib deyirsə ki, yarpaqlar, çiçəklər və meyvələr parçalanmış və bitki aləmindən mineral aləminə enmişdir və yenə də mineral aləmindən bitki aləminə qayıtmışdır, buna görə də belə təkrarlanma baş vermişdir – bunun cavabı odur ki, keçən ilki yarpaq, çiçək və meyvə parçalanmış, bu birləşmiş elementlər dağılmış və kainatda yayılmışdır və keçən ilin yarpaq və meyvələrinin hissəcikləri dağıldıqdan sonra yenidən birləşməmiş və qayıtmamışdır. Əksinə, növ yeni elementlərin birləşməsilə qayıtmışdır. İnsan bədəni ilə də bu belədir, o da çürüdükdən sonra parçalanır və onu təşkil edən elementlər yayılır. Əgər, eyni bir şəkildə, bu bədən mineral və ya bitki aləmindən qayıtsa, o, əvvəlki insanın elementlərinin dəqiq birləşməsi olmayacaq. O elementlər parçalanmış və yayılmışdır; onlar bu geniş kainatda yayılmışlar. Sonra başqa element hissəciklər birləşmiş və ikinci bədən formalaşmışdır; bu ola bilər ki, əvvəlki fərdin hissəciklərindən biri sonrakı fərdin bədəninin element tərkibinə daxil olmuşdur, lakin bu hissəciklər dəqiq və tam şəkildə, azalmadan və çoxalmadan qorunmamış və saxlanmamışdır ki, onlar yenidən birləşsinlər və onların birləşməsindən və qarışmasından, başqa bir fərd meydana gəlsin. Beləliklə, bunu sübut etmək mümkün deyil ki, bu bədən özünün bütün hissəcikləri ilə qayıtmışdır; əvvəlki

insan sonrakı insana çevrilmişdir və nəticədə təkrarlanma baş vermişdir; ruh da beləcə, bədən kimi, qayıtmışdır və öldükdən sonra onun mahiyyəti bu dünyaya qayıtmışdır.

Əgər biz deyiriksə ki, bu reinkarnasiya elə kamilliklər əldə etməkdən ötrüdür ki, materiya təmizlənsin və incələşsin və ruhun nuru bunda böyük bir parlaqlıqla təzahür etsin – bu da sadəcə xəyaldır. Zira, hətta əgər tutaq ki, bu dəlillər bizi inandırır, amma təbiətin yeniləşmə və qayıtma ilə dəyişməsi mümkün deyil. Qeyri-kamilliyin mahiyyəti, dönüşlə kamilliyin mahiyyətinə çevrilmir, tam qaranlıq, qayıtmaqla, işıq mənbəyi olmur; zəifliyin mahiyyəti qayıtmaqla qüvvət və qüdrətə çevrilmir və maddi təbiət səmavi mahiyyətə çevrilmir. Zəqqum ağacı,[1] fərqi yoxdur ki, o, nə qədər geri gəlsin, şirin meyvələr gətirməyəcək və yaxşı ağac, o, nə qədər də tez-tez dönsə, acı meyvə gətirməyəcək. Ona görə də bu aydındır ki, bu maddi aləmə qayıtmaq və geri gəlmək kamilliyin səbəbinə çevrilmir. Bu nəzəriyənin nə dəlili, nə də sübutu vardır; bu sadəcə bir ideyadır. Xeyr, əslində, kamillik əldə etmək Allahın Səxavətindəndir.

Teosoflar belə hesab edirlər ki, insan yüksəliş qövsü[2] üzrə Ali Mərkəzə çatana qədər bir çox dəfə qayıdır; o vəziyyətdə materiya təmiz güzgü kimi olur və ruhun işığı onda bütün gücü ilə parlanır və mükəmməl kamillik əldə olunur. İndi bu qəbul olunmuş və dərin bir ilahiyyat fərziyyəsidir ki, maddi dünya enən qövsün sonunda bitir və insanın tutduğu vəziyyət bu enən qövsün sonunda və yüksələn qövsün əvvəlindədir ki, bu da Ali Mərkəzin qarşısındadır. Yüksələn gövsün əvvəlindən sonunadək, həmçinin, çoxlu sayda ruhani dərəcələr vardır. Enən qövsə əvvəl,[3] qalxan qövsə isə tərəqqi[4] deyilir. Enən qövs maddiyatda bitir, qalxan qövs isə ruhani olanda bitir. Dairəni təsvir edən əqrəb geriyə hərəkət etmir, çünki bu təbiətin ümumi hərəkətinə və ilahi nizama zidd olardı və dairənin simmetriyası pozula bilərdi.

Bundan əlavə, axı bu maddi dünya elə bir qiymətə və ya üstünlüyə malik deyil ki, insan, bu qəfəsdən qurtardıqdan sonra ikinci dəfə bu tələyə düşmək istəsin. Xeyr, Əbədi Kəramət vasitəsilə insanın dəyəri və qabiliyyəti mövcudluq dərəcələrindən keçərək görünür və aşkar olur, daha onun qayıtması ilə deyil. Qılaf bir dəfə açıldıqdan sonra bu aydın və aşkar olacaq ki, onun içində mirvari var, yoxsa qiymətsiz bir maddə. Bitki ki, böyüdü, o ya tikan gətirəcək, ya da çiçək; bunun üçün yenidən bitməyə ehtiyac yoxdur. Bundan başqa, müxtəlif aləmlər boyunca düz istiqamətdə təbiətin qanunlarına uyğun olaraq irəliləmək və hərəkət etmək mövcudluğun səbəbidir, təbiətin sisteminə və qanunlarına əks getmək isə qeyri-mövcudluğun səbəbidir. Öldükdən sonra ruhun qayıtması təbii hərəkətə və ilahi sistemə ziddir.

Ona görə də qayıtmaqla, mövcudluq əldə etmək qətiyyən mümkün deyildir; bu ona bənzəyir ki, sanki insan ana bətnindən azad olduqdan sonra oraya ikinci dəfə qayıtmalıdır. İndi baxın, reinkarnasiyaya və ruhun köçməsinə

[1] Quranda adı çəkilən və Cəhənnəmdə bitən ağac.
[2] Yəni, Mövcudat Tsikli.
[3] Doğulma (hərfi).
[4] Nəsə yeni bir şey doğuran, ortaya çıxaran (hərfi).

inamdan doğan təsəvvürlər necə də sadəlövhdür. Buna inananlar bədənə içində ruh olan bir qab kimi baxırlar, necə ki, su bir fincanın içində olar; bu su da bir qabdan götürülür və başa bir qaba doldurulur. Bu uşaq oyunudur. Onlar başa düşmürlər ki, ruh cismani varlıq deyil və bədənə nə daxil olur, nə də ondan çıxır, amma bədənlə günəşin güzgü ilə əlaqəsinə bənzər əlaqəsi vardır. Əgər bu belə olsaydı ki, ruh bu maddi dünyaya qayıdaraq dərəcələrdən keçər və tam kamilliyə çatardı, onda Allah ruhun bu maddi dünyada ömrünü o, kamillik və fəzilətlər əldə edənə qədər uzadardı və onda da ölüm qədəhindən dadmağa ehtiyac olmazdı və ya ikinci həyat əldə etmək zərurəti qalmazdı.

Mövcudluğun yalnız bu dünya ilə məhdud olması ideyası və Allahın digər aləmlərinin olmasının inkarı lap əvvəldən reinkarnasiyaya inanan bəzi insanların təsəvvüründən qaynaqlanmışdır. Axı Allahın aləmləri sonsuzdur. Əgər Allahın aləmləri tək bu dünya ilə zirvəyə çatmış olsaydı, xilqətin yaranması mənasız olardı: xeyr, bəlkə mövcudat bir uşaq oyunu olardı. Bütün bu saysız varlıqların tacı olan insan, bu fani dünyaya bir neçə günlüyə gələr və onu tərk edər və mükafat və cəza aldıqdan sonra nəhayət kamil olardı. İlahi xilqət və sonsuz mövcudluq formaları kamilləşər və tamamlanar və onda Allahın İlahiliyi və Onun adları və sifətləri bu ruhani varlıqlara öz təsirləri etibarilə tənbəllik və fəaliyyətsizliklə nəticələnərdi! “Sənin Rəbbin – yenilməz qüvvət Sahibi və hər şeyə qalib olan Rəbbin onların təsvirlərindən tamamilə uzaqdır.”[1]

Bu dünyanın, həyatın və mövcudluğun bu yer kürəsi ilə məhdudlaşmasına və bu sonsuz fəzanın göyün yeddi sferasından və onların da hamısının boş və heç nəsiz olduğuna inanan Ptolomey və digər filosoflar kimi keçmiş filosoflar belə məhdud düşüncələrə mailk idilər. Baxın ki, onların düşüncələri nə dərəcədə məhdud, ağılları nə qədər zəif idi. Reinkarnasiyaya inananlar düşünürlər ki, ruhani dünyalar insan təsəvvürünün dünyaları ilə məhdudlaşmışdır. Bundan əlavə, onların bəziləri, Druzlar və Nusayrislər kimi, düşünürlər ki, mövcudat bu fiziki dünya ilə məhdudlaşır. Nə cahil bir fərziyyə! Zira Allahın tam kamilliklə, gözəllik və əzəmətlə ortaya çıxan bu kainatında maddi aləmin saysız-hesabsız parlaq ulduzları vardır! Onda biz düşünməliyik ki, əsas bünövrə olan ruhani aləmlər nə qədər də qeyri-məhdud və sonsuzdur. “İbrət alın, ey bəsirət sahibləri!”[2]

Ancaq gəlin söhbətimizə qayıdaq. İlahi Lövhlərdə və Müqəddəs Kitablarda “qayıdış” barədə danışılıb, amma cahillər bunun mənasını başa düşməyiblər və reinkarnasiyaya inananlar da bu məsələ üzərində öz fərziyyələrini qurublar. Zira Allahın Peyğəmbərinin “qayıdış” deməsindən məqsədi mahiyyətin qayıdışı deyil, keyfiyyətlərin qayıdışıdır. Bu Zühurun qayıdışı deyil, kamilliklərin qayıdışıdır. İncildə buyurulur ki, Zəkəriyyənin oğlu Yəhya İlyasdır. Bu sözlərin mənası o deyil ki, İlyasın şəxsiyyəti və ruhu Yəhyanın bədənində qayıtmışdır, bəlkə kamilliklər və keyfiyyətlər Yəhyada təzahür etmiş və meydana çıxmışdır.

---

[1] Quran 37:180.
[2] Quran 59:2.

Keçən gecə bu otaqda lampa yanırdı və bu gün də başqa bir lampa yanır və biz deyirik ki, keçən gecənin işığı yenə yanır; fəvvarə su vurur; sonra o dayanır; və sonra o yenə su vuranda biz deyirik ki, həmin su yenə də vurmağa başladı və ya biz deyirik ki, bu işıq əvvəlki işıqla eynidir. Keçən ilin yazı ilə də bu belədir, o zaman ki, çiçəklər, güllər və xoş rayihəli otlar çiçəkləyir və dadlı meyvələr yetişir; növbəti il biz deyirik ki, həmin meyvələr yenidən qayıdıb və o çiçəklər, güllər və otlar yenə qayıdıb. Bu o demək deyil ki, keçən ilin güllərini təşkil edən hissəciklər dağıldıqdan sonra yenidən birləşdi və sonra da qayıtdı. Əksinə, bunun mənası odur ki, keçən ilin çiçəklərinin incəliyi, təravəti, xoş ətri və gözəl rəngləri bu ilin çiçəklərində də eyni şəkildə görünmüş və meydana çıxmışıdır. Xülasə, bu ifadə ancaq əvvəlki və sonrakı çiçəklər arasında olan bənzərliyə və oxşarlığa aiddir. İlahi Lövhlərdə deyilən "qayıdış" budur: bu məsələ Ali Qələmlə[1] Kitabi-İqanda müfəssəl izah edilmişdir. Ona istinad edin və ilahi sirlərin həqiqətindən agah olun.

Sağ-salamat olun!

## 82

## PANTEİZM

*Sual.* – Teosoflar və Sufilər panteizm[2] məsələsini necə başa düşürlər? Bunun mənası nədir və həqiqətə nə qədər uyğundur?

*Cavab.* – Bilin ki, panteizm məsələsinin qədim kökü var. Bu təkcə teosoflara və sufilərə aid olan bir inanc deyil, əksinə, Aristotel kimi bəzi Yunan müdrikləri də buna inanırdılar. Aristotel deyirdi: "Sadə həqiqət hər şeydir, lakin onlardan heç biri sadə həqiqət deyil". Bu halda, "sadə" anlayışı "mürəkkəb"in tərsidir; bu, tərkib hissələrə malik olmaq və bölünməkdən arınmış və müqəddəs olan ayrıca Mahiyyətdir ki, saysız-hesabsız formalarda Özünü büruzə verir. Ona görə də Həqiqi Mahiyyət hər şeydir, amma O, bu şeylərdən heç biri deyil.

Xülasə, panteizmə inananlar düşünürlər ki, Həqiqi Gerçəklik dənizlə müqayisə oluna bilər, varlıqlar isə bu dənizin dalğaları kimidir. Varlıqları ifadə edən bu dalğalar, o Həqiqi Gerçəkliyin sayzıs-hesabsız formalarıdır; ona görə də, Müqəddəs Mahiyyət Əzəliyyət Dənizidir[3] və saysız-hesabsız varlıq formaları isə meydana çıxan dalğalardır. Buna oxşar olaraq, bu nəzəriyyəni onlar həqiqi vahidlik və ədədlərin sonsuzluğu ilə müqayisə edirlər; həqiqi vahid özünü sonsuz ədədlər dərəcəsində ifadə edir, çünki ədədlər həqiqi vahidin təkrarlanmasıdır. Belə ki, iki ədədi bir ədədinin təkrarlanmasıdır və başqa ədədlərlə də bu belədir.

Onların gətirdiyi dəlillərdən biri budur: bütün varlıqlar Allahın onlar haqqında biliyi olan şeylərdir; bilik isə onun aid olduğu şeylər olmadan mövcud deyil, çünki bilik yoxluğa deyil, mövcud olan şeyə aid olar. Tam

[1] Həzrət Bəhaullah.
[2] Mövcudluğun birliyi (hərfi).
[3] Allah.

yoxluq bilik dərəcələrində heç bir təsvirə və fərdiyyətə malik ola bilməz. Ona görə də, Ən Uca Allahın agah olduğu şeylər olan varlıqların mahiyyəti mövcudluğa malikdirlər,[1] və bu mövcudluq onlara aid biliyin mövcudluğu ilə eynidir, çünki onlar İlahi Bilik formasına bürün-müşlər və İlahi bilik əzəli olduğu kimi onlar da, əzəliyyətə malikdirlər. Bilik əzəli olduğundan, haqqında bilik olan şeylər də eyni şəkildə əzəlidir və Birlik Cövhərinin əzəli biliyi olan varlıqların fərdiyyəti və xüsusiliyi İlahi Biliyin özüdür. Zira Birlik Cövhərinin həqiqi gerçəklikləri, bilik və biliyin aid olduğu şeylər mütləq bir birlik içərisindədirlər və bu birlik gerçəkdir və müəyyəndir. Əks halda, Birlik Cövhəri çoxlu təzahürlərin toplam yeri olardı və onda əzəliyyətə malik olanların çoxluğu[2] zəruri olardı ki, bu da mənasızdır.

Beləliklə də sübut olundu ki, haqqında bilik olan şeylər elə biliyin özünü təşkil edirlər və bilik də Mahiyyətin özüdür.  Yəni Bilən, bilik və haqqında bilik olan şeylər tək bir gerçəklikdir. Əgər bundan xaric bir şey təsəvvür etməyə cəhd olunsa, bu geriyə, əzəliyyətə malik olan şeylərin çoxluğuna  və hadisələrin zəncirvariliyinə[3] gətirib çıxaracaq; əzəli mövcudluqlar saysız-hesabsız olmaqla  sona yetir. Şeylərin fərdiyyəti və xüsusiyyyəti Allahın biliyində Birlik Cövhərinin özü olduğu üçün və onların arasında heç bir fərq olmadığı üçün, ancaq tək bircə həqiqi Birlik vardı və haqqında bilik olan bütün şeylər bir Mahiyyətin gerçəkliyinə daxil olmuş və onda qovuşmuşdur, yəni sadəlik və birlik halına görə onlar Ən Uca Allahın və Həqiqət Cövhərinin biliyini təşkil edirlər. Allah öz cəlalını zahir edəndə bu varlıqların gerçək olan fərdiyyətləri və xüsusiyyətləri, yəni İlahi Biliyin bir forması olan bu fərdiyyət və xüsusiyyətlər, zahiri aləmdə mövcudluq əldə edirlər; və bu Həqiqi Gerçəklik sonsuz formalarda Özünü təzahür etdirmişdir. Onların dəlillərinin əsası belədir.

Teosoflar və Sufilər iki qanada bölünmüşlər: biri daha çox kütlələri özündə birləşdirən bir qrupdur ki, sadəcə təqlidçiliklə özlərinin məşhur mücərrədlik alimlərinin dediklərini başa düşmədən panteizmə inanırlar; zira sufilərin çoxu inanırlar ki, ağıl və şüurla dərk olunan Varlığın mənası öz mahiyyətinə görə götürdükdə ümumi mövcudluqdur, yəni insan onu dərk edə bilir. Əslində isə, bu ümumi mövcudluq, varlıqların mahiyyətinə nüfuz edən təsadüflərdən biridir və varlıqların keyfiyyətləri isə mahiyyətin özüdür. Varlıqlardan asılı olan bu təsadüfi mövcudluq şeylərin onlardan asılı olan başqa xassələri kimidir. Bu təsadüfi təzahürlər arasında təsadüfdür və bu da müəyyəndir ki, mahiyyət təsadüfdən üstündür. Çünki mahiyyət ilkin olandır, təsadüf isə nəticədir; mahiyyət özündən asılıdır, təsadüf isə başqa bir şeydən də asılıdır, yəni onun mahiyyətə ehtiyacı var ki, ondan asılı olsun. Belə olan halda Allah məxluqdan asılı olardı. Allahın məxluqa ehtiyacı olardı və o da Allahdan asılı olmazdı.

Məsələn, hər dəfə ayrı-ayrı elementlər ilahi universal sistem üzrə birləşəndə başqa varlıqlar arasında yeni bir varlıq meydana çıxır. Yəni,

---

[1] Yəni, intellektual mövcudluq.
[2] Allahlar.
[3] Yəni, səbəb və nəticənin sonsuzluğa qədər bir-birini əvəz etməsinə.

müəyyən elementlər birləşəndə bitki yaranır; başqa cür elementlər birləşənda isə heyvan əmələ gəlir; və yenə də, başqa elementlər birləşəndə daha başqa bir varlıq meydana çıxır. Belə olan halda şeylərin mövcudluğu onların mahiyyətinin nəticəsidir: bu necə ola bilər ki, təsadüflər arasında təsadüf olan və onun mövcud olması və ondan asılı ola bilməsi üçün başqa bir mahiyyətin mövcud olmasını zərurən tələb edən bu varlıq, Əzəldən Mövcud Olan Mahiyyət və bütün şeylərin Xaliqi olsun?

Lakin bu məsələni tədqiq edən Teosof və sufilərin dərin üləmaları hesab edirlər ki, iki kateqoriya mövcudluq vardır. Bunlardan biri ümumi mövcudluqdur ki, insan şüuru ilə dərk edilə bilir; bu təzahürdür, təsadüflər arasında təsadüfdür və şeylərin gerçəkliyi elə mahiyyətin özüdür. Lakin panteizm bu ümumi və gerçək olmayan mövcudluğa tətbiq olunmur, o, ancaq bütün başqa şərhlərdən üstün və arınmış olan Həqiqi Mövcudluğa aiddir; bütün şeylər Onun vasitəsilə mövcud olur və O, elə bir Birlikdir ki, Onun vasitəsilə insan zəkası ilə dərk olunan materiya, enerji kimi bütün şeylər və bu ümumi mövcudat xilqət dünyasında meydana çıxır. Teosoflara və Sufilərə görə bu suala aid olan həqiqət bundan ibarətdir.

Xülasə, bütün şeylərin Birlik vasitəsilə mövcud olması nəzəriyyəsində hamı razılaşır – filosoflar da, Peyğəmbərlər də. Lakin onların arasında fikir ayrılığı vardır. Peyğəmbərlər deyirlər ki, Allahın Biliyi varlıqların mövcud olmasından asılı deyildir, məxluqatın biliyinin isə həmin biliyin aid olduğu şeyin mövcud olmasına ehtiyacı vardır; əgər Allahın Biliyi hər hansı başqa bir şeyin mövcudluğundan asılı olsaydı, onda bu məxluqat biliyi olardı, Allah biliyi deyil. Zira Əzəli Mövcud Olan fani olandan fərqlənir və fani olan Əzəli Mövcud Olana ziddir; o şey ki, biz xilqətə aid edirik, yəni fani varlıqlar üçün zəruri olan şeylər – biz bunları Allaha aid etmirik; çünki qeyri-kamilliklərdən azad və arınmış olmaq Onun malik olduğu zəruri keyfiyyətlərdən biridir. Belə ki, fani olan şeydə biz cahillik görürük; Əzəli Mövcud Olanda isə biz biliyi etiriaf edirik. Fani olan şeydə biz zəiflik müşahidə edirik; Əzəli Mövcud Olanda isə biz qüvvəti etiraf edirik. Fani olan şeydə biz yoxsuluq görürük; Əzəli Mövcud Olanda isə zənginlik görürük. Beləliklə, fani olan qeyri-kamillik mənbəyidir, Əzəli Mövcud Olan isə kamilliklər məcmusudur. Fani bilik şeylərin mövcudluğunu zəruri edir; Əzəli Mövcud Olanın biliyi isə bu şeylərin mövcud olmasından asılı deyildir. Belə ki, Ən Uca Allaha məlum olan varlıqların səciyyə və xüsusiyyətlərinin əzəli mövcudluğu yoxdur; və bu ilahi və kamil keyfiyyətlər insan şüuru ilə o qədər də dərk olunmur ki, biz Allahın Biliyinin predmetlərdən asılı olub-olmadığı barədə qərar verə bilək.

Qısaca söyləmiş olsaq, burada biz Sufilərin başlıca dəlillərini nəzərdən keçirdik; əgər biz onların bütün sübutlarını sadalasaq və onların cavablarını izah etməli olsaq, bu xeyli vaxt aparar. Bu onların əsas sübutları və aydın dəlilləridir, ən azı Sufilərin və Teosofların üləmalarının təsdiq etdikləri bunlardır.

Lakin hər şeyin Onun vasitəsilə var olduğu Həqiqi Mövcudluq məsələsi, yəni, Birlik Cövhərinin gerçəkliyi, o gerçəklik ki, bütün varlıqlar Onun vasitəsilə xilqət aləminə gəlmişlər – hamı tərəfindən qəbul olunur. Fərq

Sufilərin dediyi bu məsələdədir ki, “Şeylərin mahiyyəti Həqiqi Birliyin təzahürüdür”. Lakin Peyğəmbərlər buyururlar ki, “Bu Həqiqi Birlikdən törəyir”. Və təzahürlə törəmə (emanasiya) arasında böyük fərq vardır. Təzahürlə peyda olma o deməkdir ki, yeganə bir şey sonsuz formalarda meydana çıxır. Məsələn. toxumu götürək, o, tək bir şeydir və bitki kamilliklərinə malikdir ki, özünü budaqlara, yarpaqlara, çiçəklərə və meyvələrə çevirməklə bir çox formalarda təzahür edir: bu, təzahür etməklə əmələ gəlmə adlanır; ancaq emanasiya ilə əmələ gəlmədə isə bu Həqiqi Birlik Özünün müqəddəslik zirvəsində qalır və davam edir, məxluqatın mövcudluğu isə Ondan emanasiya edir, Ondan təzahür etmir. Bu günəşlə müqayisə edilə bilər ki, onun emanasiya etdirdiyi şüalar bütün məxluqatın üzərinə düşür; lakin günəş yenə Özünün ucalıq zirvəsində qalır. O, nə enir, nə də ki, özünü parlayan cisimlərə çevirir; o, şeylərin xüsusiyyətləri və fərdiyyəti vasitəsilə onların materiyasında təzahür etmir; Əzəli Mövcudluq fani təzahürə çevrilmir; müstəqil zənginlik zəncirlənmiş yoxsulluğa çevrilmir; tam kamillik mütləq qeyri-kamillik olmur.

Yekunlaşdıraq: Sufilər Allahı və məxluqatı etiraf edirlər və deyirlər ki, Allah Özünü sonsuz məxluqat formalarına çevirir və dəniz kimi təzahür edir və dəniz də sonsuz dalğalar formasında təzahür edir. Bu fani və qeyri-kamil dalğalar bütün ilahi kamilliklərin məcmusu olan Əzəli Dənizlə eyni bir şeydir. Peyğəmbərlər isə əksinə, inanırlar ki, Allahın aləmi, Mələkut aləmi və Xilqət aləmi vardır: üç şey. Allahdan ilk emanasiya edən şey Mələkutun kəramətidir ki, o da emanasiya edir və məxluqatın mahiyyətində əks olunur. Necə ki, işıq günəşdən emanasiya edir və məxluqatda parlayır;  və bir kəramət olan bu işıq bütün şeylərin mahiyyətində sonsuz formalarda əks olunur və şeylərin qabiliyyətinə, ləyaqətinə və batini dəyərinə uyğun olaraq özünün fərdiyyətini və xüsusiliyini əldə edir. Lakin Sufilərin təsdiqi tələb edir ki, asılı olan varlıqların məhdudiyyətinə uyğun olaraq, Asılı Olmayan Zənginlik yoxsulluq dərəcəsinə ensin, Əzəli Mövcud Olan Özünü fani formalara məhdudlaşdırsın, Mütləq Qüdrət zəiflik halında sıxışdırılsın. Bu isə açıqca səhvdir. Fikir verin ki, bütün yaradılmışlardan ən alisi olan insanın mahiyyəti heyvanın mahiyyətinin tutduğu vəziyyətə tənəzzül etmir, duyğu qabiliyyətinə malik olan heyvanın isə mahiyyəti bitkinin tutduğu vəziyyətə enmir, və öz növbəsində, özündə böyümə qabiliyyətini ehtiva edən bitkinin mahiyyəti isə mineral səviyyəsinə düşmür.

Qısası, ali mahiyyət nə tənəzzül edir, nə də özünü aşağı məqamlara salır; belə olan halda bu necə ola bilər ki, Allahın bütün təsvir və qiymətləndirmələrdən üstün olan Ümümkainat Mahiyyəti Onun mütləq müqəddəsliyinə və paklığına baxmayaraq, Özünü qeyri-kamillik mənbəyi olan məxluqatın mahiyyətini ifadə edən formalara qədər aşağı salsın? Bu iti bir təsəvvürün məhsulundan başqa bir şey deyil.

Əksinə, bu Müqəddəs Zat ilahi kamilliklərin məcmusudur; bütün məxluqata isə emanasiya ilə Onun cəlalının kəramətindən lütf edilmişdir, onlar Onun Mələkutunun nurunu, kamilliklərini və gözəlliyini əldə edirlər, eynilə bu

cür də bütün yer məxluqatı günəş şüalarının nurundan bəxşiş alırlar, lakin bu zaman günəş enmir və yer məxluqlarının mahiyyətinə qədər aşağı düşmür.

Şam yeməyindən sonra və artıq gec olduğunu da nəzərə alaraq sonrakı izahata vaxtımız qalmayıb.

Salamlar olsun sizə.

## 83

## BİLİK ƏLDƏ ETMƏYİN DÖRD YOLU

Dərk etmənin ancaq dörd qəbul olunmuş üsulu vardır, yəni şeylərin mahiyyəti bu dörd metodla başa düşülür.

Birinci üsul duyğu orqanları ilə olan üsuldur, yəni, gözlə, qulaqla, dadbilmə, iybilmə və lamisə ilə qavranılan şeylərin başa düşülməsi üsuludur. Bu gün bu üsul bütün Avropa filosofları tərəfindən ən kamil üsul kimi qəbul edilir: onlar deyirlər ki, bilik əldə etməyin başlıca üsulu duyğu orqanları vasitəsilə olandır; onlar bu üsulu ən üstün üsul hesab edirlər, halbuki o, kamil deyil, çünki səhvlərə yol verir. Məsələn, ən böyük duyğu görmə qabiliyyətidir. Görmə ilğımı su kimi görür, güzgüdə əks olunan təsvirləri gerçək və mövcud olan bir şey kimi görür; böyük cisimlər məsafədən kiçik görünür, müstəvidə fırlanan nöqtə isə dairə kimi görünür. Görmə qabiliyyətinə görə yer hərəkətsizdir, günəş isə hərəkətdədir və bir çox başqa hallarda da o səhv edir. Ona görə də biz ona etibar edə bilmərik.

İkinci üsul əqlə əsaslanan üsuldur ki, qədim filosoflar, müdriklik sütunları bundan istifadə edirdilər; bu anlama üsuludur. Onlar şeyləri ağılla sübut edir və məntiqi dəlillərdən bərk yapışırdılar; onların bütün dəlilləri əqli dəlillərdir. Buna baxmayaraq, onların fikirləri çox güclü surətdə fərqlənirdi və baxışları ziddiyyətli idi. Onlar hətta baxışlarını dəyişirdilər – yəni iyirmi il ərzində onlar hər hansı bir şeyin mövcudluğunu məntiqi dəlillərlə sübut edər, daha sonra da yenə onun mövcudluğunu məntiqi dəlillərlə inkar edərdilər. Belə ki, Platon əvvəlcə yerin hərəkətsizliyini məntiqlə sübut edirdi; sonra isə o, yenə məntiqi dəlillərlə sübut edirdi ki, günəş sistemin hərəkətsiz mərkəzidir və yer hərəkətdədir. Daha sonra Ptolomeyin nəzəriyəsi yayıldı, Platonun ideyası isə unuduldu, ta o vaxtadək ki, yeni tədqiqatçı bu baxışa həyat verdi. Bu cür də bütün riyaziyyatçıların fikirləri bir-birinə uyğun deyildi, baxmayaraq ki, onlar əqlin dəlilləriinə söykənirdilər. Eynilə də, məntiqi dəlillərlə, onlar məsələni müəyyən vaxtda təsdiq edər, sonra isə eyni təbiətli dəlillərlə təsdiqlədiklərini inkar edərdilər. Belə ki, filosoflardan biri müəyyən bir vaxt ərzində hər hansı nəzəriyyədən yapışar və güclü dəlillər və sübutlarla onu dəstəkləyər, sonra isə həmin filosof o nəzəriyyədən əl çəkər və əqli dəlillərlə onu inkar edərdi. Ona görə də bu aydındır ki, əqli üsul da kamil deyildir, çünki qədim filosofların baxışlarının fərqliliyi, onların fikirlərində stabilliyin olmaması və fikirlərinin dəyişkənliyi bunu sübut edir. Zira əgər bu üsul kamil olsaydı, onda hamı öz ideya və fikirlərində bir-birilə razılaşardılar.

Dərk etmənin üçüncü üsulu ənənələrə əsaslanır – yəni Müqəddəs Yazıların mətnlərinə istinad etməklə – çünki insanlar onlara yönələrək deyirlər: “Köhnə Əhddə və Yeni Əhddə Allah belə buyurmuşdur.” Bu üsul da əvvəlkilər kimi eyni dərəcədə kamil deyildir, çünki ənənələr ağılla başa düşülür. Bir halda ki, əql özü səhv etməyə meyllidir, onda necə demək olar ki, ənənələrin mənalarının şərhində o, səhv etməyəcək, mümkündür ki, əql səhv etsin və yəqinlik əldə edilməsin. Bu dini rəhbərlərin üsuludur; kitabların mətnindən onlar nə başa düşür və anlayırlarsa, bu onların əqlinin başa düşdüyüdür, heç də gerçək həqiqət deyil; çünki əql tərəzi kimidir, Müqəddəs Kitabların mətnlərindəki mənalar isə tərəzidə çəkilən şeylər kimidir. Əgər tərəzi dəqiq deyilsə, onda çəkini necə müəyyən etmək olar?

Bu halda bilin: o şey ki, insanların əlindədir, o şey ki, onlar inanırlar, bunlar səhv etməyə meyllidir. Çünki bir şeyi təsdiq və ya inkar etdikdə, əgər hər hansı dəlil bizim duyğu orqanlarımızın qavradığından götürülübsə, bu üsul, necə ki, aydın oldu, kamil deyildir; əgər dəlillər şüuri dəlillərdirsə, bu yenə də qeyri-kamildir; və ya əgər onlar ənənəvidirsə, belə dəlillər də kamil deyil. Ona görə də, insanların əlində elə bir ölçü yoxdur ki, ona etibar etsinlər.

Lakin Müqəddəs Ruhun kəraməti dərk üçün doğru üsul verir ki, bu da qüsursuz və səhvsizdir. Bu Müqəddəs Ruhun təyidi vasitəsilə insana çatır və ancaq bu halda yəqinlik əldə edilə bilər.

**84**

## İLAHİ ZÜHURLARIN TƏLİMLƏRİNİN ARDINCA GETMƏYİN ZƏRURİYYƏTİ

*Sual.* – O kəslər ki, yaxşı əməl sahibidirlər və xeyirxahdırlar, təqdirəlayiq xasiyyətə malikdirlər, bütün məxluqlara qarşı sevgi və mehribanlıqla yanaşırlar, fəqirlərin qayğısına qalır və ümumdünya sülhünün bərqərar olması üçün çalışır – bu insanlar özlərini bu təlimlərdən həqiqətən asılı hesab etmədikləri halda onların ilahi təlimlərə nə ehtiyacı vardır?

*Cavab.* – Bilin ki, belə əməllər, belə səylər və belə sözlər tərifəlayiq, bəyəniləndir və bəşərin şərəfidir. Lakin təkcə bu əməllər kifayət deyildir; onlar ruhları olmayan yaraşıqlı bir bədənə bənzəyirlər. Xeyr, əbədi həyat, ədədi şərəf, ümumi maariflənmə, həqiqi nicat və çiçəklənmənin mənbəyi hər şeydən əvvəl Allahın biliyidir. Bu məlumdur ki, Allahın biliyi bütün biliklərin fövqündədir və insan aləminin ən böyük şərəfidir. Zira şeylərin mahiyyəti haqda mövcud olan bilik maddi fürsətlər verir və bunun vasitəsilə maddi sivilizasiya tərəqqi edir; amma Allahın biliyi ruhani tərəqqi və cəzbolunma mənbəyidir, onun vasitəsilə həqiqətin qavranması, bəşəriyyətin yüksəlişi, ilahi sivilizasiya, mənəviyyatın düzgünlüyü və ziyalanma əldə edilir.

Bilikdən sonra Allaha olan məhəbbət gəlir, o məhəbbət ki, onun işığı Allahı tanıyanların ürəklərinin çırağında parlayır; onun şəfəq saçan şüaları üfüqləri işıqlandırır və insana Mələkut həyatı bəxş edir. Həqiqətdə, insanın mövcudluğunun meyvəsi Allaha olan məhəbbətdir, çünki bu məhəbbət həyat ruhudur və əbədi kəramətdir. Əgər Allaha məhəbbət mövcud olmasaydı, bu

fani dünya zülmətə bürünərdi; Əgər Allaha məhəbbət olmasaydı, insanların qəlbləri ölü olardı və onlar həyat hissindən məhrum olardılar; Əgər Allaha məhəbbət olmasaydı, ruhani birləşmə olmazdı; Əgər Allaha məhəbbət olmasaydı, birlik nuru bəşəriyyəti nurlandırmazdı; Əgər Allaha məhəbbət olmasaydı, Qərb və Şərq iki sevgili kimi bir-birini qucaqlamazdı; Əgər Allaha məhəbbət olmasaydı, parçalanma və ayrılıq qardaşlıq münasibətlərinə çevrilməzdi; Əgər Allaha məhəbbət olmasaydı, laqeydlik məhəbbətlə nəticələnməzdi; Əgər Allaha məhəbbət olmasaydı, yad dosta çevrilməzdi. Bəşər aləminə olan məhəbbət Allaha olan məhəbbətdən çıxaraq parlayır Allahın lütfü və kəramətindən meydana çıxmışdır.

Bu aydındır ki, bəşəriyyət rəngarəngdir, fikirlər fərqlidir, münasibətlər müxtəlifdir və insan irqləri arasındakı bu fikir, düşüncə, şüur və münasibətlər fərqi mühüm zərurətdən doğur; zira varlıqların mövcudluq səviyyələri arasındakı dərəcə fərqləri özünü sonsuz sayda formalarda büruzə verən mövcudatın zərurətidir. Ona görə də, bizim ümumi bir qüvvəyə ehtiyacımız vardır ki, hamının münasibətlərinin, fikirlərinin, düşüncələrinin üzərində hakim olsun və onun vasitəsilə bu fərqlər elə bir əhəmiyyətə malik olmasın və bütün insanlar bəşərin birliyi kölgəsi altına gətirilə bilsin. Bu aşkar və aydındır ki, insan aləmindəki bu əzəmətli qüvvə Allaha olan sevgidir. Müxtəlif xalqları yaxınlıq çadrının kölgəsi altına gətirən odur; bir-birilə vuruşan millətlərə və bir-birilə ədavət aparan xalqlara böyük sevgi və birlik bəxş edən odur.

Baxın, Məsihin dövründən sonra, Allaha məhəbbətin gücü ilə nə qədər millətlər, irqlər, xalqlar və tayfalar Allahın Sözünün kölgəsinə toplaşdılar. Min illərin ayrılıqları və fərqləri tamamilə yox oldu və aradan qaldırıldı. Hər hansı irqi düşüncə və vətənə mənsubluq düşüncəsi tamamilə aradan qalxdı. Ruhların birləşməsi və varlıqların qovuşması baş verdi; hamı həqiqi ruhani məsihi (xristian) oldu.

İnsanlığın üçüncü məziyyəti xeyir əməllərin bünövrəsi olan xoşniyyətlilikdir. Bəzi filosoflar niyyəti əməldən üstün tuturdular, çünki xoşniyyətlilik mütləq nurdur; bu eqoizmin, düşmənçiliyin, yalanın çirkablarından arınmışdır və təmizdir. İndi elə bir hal ola bilər ki, kimsə zahiri yöndən mömin bir əməl etmiş olsun, lakin bu əməl təmənna güdmüş olsun. Məsələn, qəssab qoyunu bəsləyir və onu qoruyur, lakin qəssabın bu xeyir əməli onun mənfəət əldə etmə arzusundan doğur və bu bəsləmənin nəticəsi sonda bədbəxt qoyunun başının kəsilməsidir. Nə qədər əməllər tamah diktəsi ilə edilir! Xoş niyyətlilik isə belə çirkinliklərdən xalidir.

Qısası, əgər Allahı tanımaq Ona olan məhəbbətlə, Ona cəzb olunmaqla, şövq və xoş niyyətlə birləşirsə, törədilmiş xeyir əməl o zaman kamil və tamdır. Əks halda, xeyir əməl tərifəlayiq olsa da, əgər o, Allahı tanımaqla, Ona olan sevgi ilə və səmimi niyyətlə dəstəklənmirsə, o kamil deyildir. Məsələn, insan varlığı bütün kamillikləri özündə birləşdirməlidir ki, kamil olsun. Görmə öz-özlüyündə son dərəcə vacib və qiymətli bir qabiliyyətdir, lakin o, eşitmə ilə tamamlanmalıdır; eşitmə də çox qiymətlidir, lakin o, nitq qabiliyyəti ilə dəstəklənməlidir; nitq qabiliyyəti çox bəyənilәndir, lakin o, əqli qabiliyyətlə dəstəklənməlidir və s. və i. İnsanın başqa

qabiliyyətləri, bədən orqanları və üzvləri ilə də bu belədir; bütün bu qabiliyyətlər, hisslər, üzvlər və əzalar birlikdə mövcud olub fəaliyyət göstərəndə, o kamildir.

Bu gün biz dünyada insanlara rast gəlirik ki, həqiqətən də, dünyanın xeyrini istəyirlər və öz gücləri müqabilində əzilənlərin müdafiəsi ilə məşğuldurlar və kasıblara kömək edirlər; onlar əmin-amanlıq və ümümdünyəvi rifah naminə çalışırlar. Onlar əməlləri nöqteyi-nəzərindən kamil görünsələr də, əgər onlar Allahı tanımaqdan və Onu sevməkdən məhrumdurlarsa, onlar qeyri-kamildirlər.

Qalen, təbib, öz kitabında Platonun idarəçilik sənəti haqqında traktatını[1] şərh edərkən deyir ki, dinin əsas prinsipləri kamil sivilizasiyaya böyük təsir göstərir, çünki "əksər kütlələr izahedici sözlərin mənasını başa düşmürlər; ona görə də onun o biri dünyanın mükafat və cəzasından xəbər verən rəmzi sözlərə ehtiyacı olmuşdur; və bu təsdiqin doğruluğunun sübutu", o deyir: - "odur ki, biz bu gün məsihi adlanan o xalqları görürük ki, onlar cəza və mükafata inanırlar; və bu təriqət gözəl əməl nümunələri nümayiş etdirirlər ki, belə əməlləri həqiqi filosoflar törədirlər. Beləliklə biz açıqca görürük ki, onlar ölümdən qorxmur, onlar insanlardan ədalət və bərabərlikdən başqa heç nə istəmir və gözləmirlər və onlar həqiqi filosof hesab olunurlar."

İndi fikir verin ki, Məsihə inananların səmimiliyi, cəhdləri, ruhani hissləri, dostluq öhdəçilikləri və xeyir əməlləri nə dərəcədə yüksək idi ki, Qalen, filosof təbib, baxmayaraq ki, Məsihi dininə mənsub deyildi, bu insanların yaxşı əxlaqını və kamilliklərini təsdiq edir və onları o dərəcədə qiymətləndirir ki, onları həqiqi filosoflar adlandırır. Bu məziyyətlər, bu əxlaq ancaq xeyir əməllərlə əldə olunmamışdır, çünki əgər məziyyət yalnız xeyirə qovuşmaq və xeyirxahlıq törətməkdən ibarət olsaydı, necə ki, bu lampa yanır və bu evi işıqlandırır və şübhəsiz ki, işıqlandırma da faydalı bir şeydir, onda biz bu lampanı niyə tərif etməyək? Günəş yer üzündəki bütün varlıqların həyata gəlib çoxalmasına və öz istisi və işığı ilə onların böyümə və inkişafına səbəb olur: bundan da böyük fayda ola bilərmi? Bununla belə, bu xeyir, yaxşı niyyətdən, Allaha sevgidən və Onu tanımaqdan irəli gəlmədiyi üçün kamil deyildir.

Lakin, əksinə, bir insan başqa birinə bir fincan su verirsə, ikinci şəxs ona minnətdar olur və ona təşəkkür edir. Həmin insan, düşünmədən deyəcək: "Dünyaya işıq verən günəşə, onda olan bu yüksək səxavətə heyran olmaq və onu tərif etmək lazımdır. Sadə bir lütfkar əməl törədən bir insanı tərif edərkən, biz bu günəşə onun bu kəraməti üçün niyə minnətdar olmamalı və ona təşəkkür etməməliyik? Lakin əgər biz həqiqəti axtarsaq, görərik ki, o, insanın çox da əhəmiyyət kəsb etməyən lütfkarlığı onda olan anlayışdandır; ona görə bu tərifəlayiqdir, günəşin işığı və istisi isə hiss və anlayışdan irəli gəlmir; ona görə də onlar öygü və tərifə layiq deyil, minnətdarlıq və təşəkkür haqq etmirlər.

[1] Baxın: İbn Əbu Üseybia, Uyün al-ənba fi tabaqat əl-ətibba (Qahirə:1882) 1-ci cild, səh. 76-77.

Eynilə də, insan yaxşı əməl edəndə, baxmayaraq ki, bu tərifəlayiqdir, əgər o, Allahı tanımaqdan irəli gəlmirsə və Ona məhəbbət xatirinə edilməyibsə, belə əməl kamil deyildir. Bundan əlavə, əgər siz insafla düşünsəniz, görərsiniz ki, Allahı tanımayan başqa insanların da əməlləri əslində Allahın təlimlərindən qaynaqlanır, yəni keçmiş Peyğəmbərlər insanları belə əməl etməyə ruhlandırmışlar, belə əməllərin gözəlliyini onlara izah etmişlər və bu əməllərin gözəl bəhrələri barədə onlara danışmışlar; sonra bu təlimlər insanlar arasında yayılmış və bir-birinin ardınca, nəsilbənəsil ötürülmüş və onların qəlbini bu kamilliklərə tərəf döndərmişdir. İnsanlar belə əmməllərə yaxşı qiymət verildiyini, onların bəşərin sevinci və xoşbəxtliyinə səbəb olduğunu görəndə onlara uyğunlaşırdılar.

Bu əməllər habelə Allahın təlimlərindən qaynaqlanır. Lakin bunu görə bilmək üçün insaf gərəkdir, mübahisə və mükalimə yox. Həmd olsun Allaha, siz İranda olmusunuz və görmüsünüz ki, İranlılar Həzrət Bəhaullahın müqəddəs nəsimləri ilə bəşərə qarşı münasibətdə necə xoş məramlı olublar. Keçmişdə, əgər onlar başqa bir irqdən kiminləsə rastlaşsaydılar, ona pis münasibət göstərər, ona qarşı düşmənçilik, nifrət və kinlə dolu olardılar; hətta o qədər uzağa gedərdilər ki, onun üzərinə çirkab atardılar. Onlar İncili və Əhdi-Ətiqi yandırmışdılar və əgər onların əlləri bu kitablara toxunmaqla murdarlanmış olsaydı, onları yuyardılar. İndi isə onların çoxu bu iki Kitabın mətnlərini, əgər yerinə düşürsə, öz toplantı və yığıncaqlarında oxuyur və onların gizli təlimlərini izah edirlər. Onlar düşmənlərinə qonaqpərvərlik göstərirlər. Qana susamış canavarla Allahın düzlərində olan ceyranlara olan münasibət kimi lütflə davranırlar. Siz onların adət və ənənələrini görmüsünüz, həm də keçmiş İranlıların əxlaqı haqda da eşitmisiniz. Əxlaqın bu dəyişməsi, davranış və sözlərin belə yaxşılaşması Allaha olan məhəbbətdən savayı başqa bir şeylə mümkündürmü? Xeyr, Allahın adına and olsun! Əgər biz elm və biliyin köməyilə bu əxlaq və adətləri tərbiyə etmək istyəsəydik, bu doğrudan da min illər çəkərdi və o zaman da bunlar kütlələr arasında yayıla bilməzdi.

Bu gün, Allah sevgisi hesabına, buna çox asanlıqla nail olunur.

İbrət alın, ey anlayış sahibləri!

## MÜNDƏRİCAT

Naşirin 1981-ci il nəşrinə ön sözü ........................................ 3
Naşirin 1964-cü il nəşrinə ön sözü ....................................... 8
İlk nəşrə ön söz ..................................................................... 9

I hissə
**BƏŞƏRİYYƏTİN TƏKAMÜLÜNƏ PEYĞƏMBƏRLƏRİN TƏSİRİ**

1. Təbiət ümumi qanunla idarə olunur ....................................... 12
2. Allahın mövcudluğunun dəlil və sübutları .............................. 13
3. Mürəbbiyə ehtiyac ................................................................ 15
4. Həzrət İbrahim ...................................................................... 19
5. Həzrət Musa ......................................................................... 21
6. Həzrət İsa Məsih .................................................................. 22
7. Həzrət Məhəmməd ................................................................ 24
8. Həzrət Bab ........................................................................... 30
9. Həzrət Bəhaullah .................................................................. 31
10. Daniyel Peyğəmbərin kitrabından götürülmüş ənənəvi sübutlar ................................................................... 39
11. Müqəddəs Yəhyanın Vəhyinin on birinci fəslinin izahı ......... 47
12. İsaya Peyğəmbərdən on birinci fəslin şərhi ............................ 60
13. Müqəddəs Yəhyanın kitabının on ikinci fəslinin şərhi ........... 64
14. Ruhani dəlillər ........................................................................ 68
15. Həqiqi zənginlik ..................................................................... 72

II hissə
**XRİSTİANLIĞIN BƏZİ MƏSƏLƏLƏRİ**

16. Zahiri forma və rəmzlər əqli təsəvvürləri çatdırmaq üçün istifadə olunmalıdır .................................... 76
17. Məsihin doğulması ............................................................... 78
18. Məsihin böyüklüyü Onun kamilliklərindəndir ...................... 80
19. Məsihin vəftiz edilməsi ........................................................ 81
20. Vəftiz olunmağın vacibliyi ................................................... 83
21. Çörək və şərab rəmzləri ........................................................ 86
22. Möcüzələr ............................................................................. 88
23. Məsihin dirilməsi .................................................................. 91
24. Müqəddəs Ruhun həvvarilərin üzərinə enməsi ..................... 92
25. Müqəddəs Ruh ...................................................................... 93
26. Məsihin ikinci gəlişi və Qiyamət Günü ................................. 95
27. Üçlük .................................................................................... 96
28. Yəhyanın İncilinin on yeddinci fəsil beşinci ayəsinin izahı ....................................................................... 98
29. Müqəddəs Pavelin korinflilərə birinci məktubunun on beşinci fəslinin iyirmi ikinci ayəsinin izahı ..................... 100
30. Adəm və Həvva ................................................................... 103
31. Müqəddəs ruha qarşı küfrün izahı ........................................ 107
32. “Zira dəvət olunanlar çoxdur, amma seçilmişlər azdır”

ayəsinin izahı ........................................................................ 108
33. Peyğəmbərlərin dediyi "Qayıdış" ......................................... 110
34. Pyotrun imanının rəmzi ........................................................ 112
35. Qədər ..................................................................................... 115

III hissə

**ALLAHIN ZÜHURLARININ QÜDRƏT VƏ MƏQAMLARI**

36. Ruhun beş növü .................................................................... 118
37. İlahilik ancaq İlahi Zühurlar vasitəsilə
dərk oluna bilər .................................................................... 120
38. İlahi Zühurların üç məqamı .................................................. 124
39. İlahi Zühurların insani və ruhani halları ............................... 127
40. İlahi Zühurların biliyi ........................................................... 129
41. Kainatda olan tsikllər ........................................................... 130
42. İlahi Zühurların qüdrəti və təsiri .......................................... 132
43. Peyğəmbərlərin iki tipi ......................................................... 133
44. Allahın Peyğəmbərlərə ünvanladığı
məzəmmətlərin izahı ............................................................ 136
45. Kitab-i Əqdəsdən "Vəhyin Məşriqi Olanın Onun ən
yüksək qüsursuzluğunda şəriki yoxdur" ayəsinin izahı ........ 139

IV hissə

## İNSANIN MƏNŞƏYİ, İMKANI VƏ MƏQAMI BARƏDƏ

46. Növlərin dəyişməsi ............................................................ 144
47. Kainatın əvvəli yoxdur ........................................................ 146
İnsanın mənşəyi ................................................................. 146
48. İnsan və heyvan arasında olan fərq ...................................... 150
49. İnsan nəslinin böyüməsi və inkişafı ..................................... 155
50. İnsanın mənşəyinin ruhani dəlilləri ...................................... 158
51. İnsanın ruhu və əqli başlanğıcdan mövcud olmuşdur ........... 160
52. Ruhun bədəndə zahir olması ............................................... 162
53. Allah və məxluq arasındakı əlaqə......................................... 163
54. İnsan ruhunun Allahdan törəməsi haqqında ........................ 165
55. Qəlb, ruh və əql ................................................................. 168
56. Fiziki və əqli qabiliyyətlər.................................................... 169
57. İnsanların xarakterindəki fərqlərin səbəbləri........................ 170
58. İnsanın və İlahi Zühurların malik olduqları
dərketmənin səviyyəsi.......................................................... 174
59. İnsanın Allahı dərk etməsi.................................................... 176
60. Ruhun ölümsüzlüyü (1)....................................................... 178
61. Ruhun ölümsüzlüyü (2)....................................................... 181
62. Kamilliklərin həddi yoxdur ................................................. 184
63. İnsanın o biri dünyada tərəqqisi ........................................... 186
64. İnsanın məqamı və onun ölümdən sonrakı tərəqqisi ............ 187
65. Kitab-i-Əqdəsin ayəsinin izahı............................................. 189
66. Bədən öldükdən sonra rasional düşüncəyə malik
qəlbin yaşaması..................................................................... 190
Uşaqların ruhunun ölümsüzlüyü ........................................... 191
67. Əbədi həyat və Allahın Məlәkutuna daxil olma................... 191
68. Tale.................................................................................... 194
69. Ulduzların təsiri................................................................... 194
70. Azad iradə .......................................................................... 197
71. Ruhları görmə və onlarla ünsiyyət ....................................... 199
72. Ruhani vasitələrlə şəfa tapma.............................................. 201
73. Maddi vasitələrlə şəfa tapma............................................... 203

V hissə

## MÜXTƏLİF MÖVZULAR

74. Şərin qeyri-mövcudluğu ...................................................... 206
75. Əzabın iki növü .................................................................. 207
76. Allahın ədaləti və mərhəməti .............................................. 207
77. Cinayətkarlarla davranmağın düzgün metodu...................... 209
78. Tətillər................................................................................ 213
79. Xarici aləmin gerçəkliyi ...................................................... 217
80. Gerçək əzəliyyət.................................................................. 218

81. Reinkarnasiya (Tənasüx) ........................................................ 220
82. Panteizm .............................................................................. 226
83. Bilik əldə etməyin dörd yolu ................................................. 232
84. İlahi Zühurların təlimlərinin ardınca getməyin zəruriyyəti............234

*Yığılmağa verilmiş 28.11.2004.*
*Çapa imzalanmış 12.01.2005.*
*Şərti çap vərəqi 15,2. Sifariş № 15.*
*Kağız formatı 60x84 1/16. Tirac 500.*

*Kitab* ***«Nurlan»*** *nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap olunmuşdur.*